

Tbilisi - 2023

Hazırlayanlar:
f.f.d. Anar QURBANOV
f.f.d. Ələddin SULTANOV
f.f.d. Səfa MURADOV
Ramiz MƏMMƏDOV
Mayis ABBASOV

Elmi redaktorlar:
f.f.d. Ələddin SULTANOV
f.f.d. Anar QURBANOV

Nəşrə hazırlayanlar:
Fuad QULİYEV
Dr. Abbas QURBANOV
Hacı BƏKİROĞLU

Dizayn:
Əflatun MƏMMƏDOV

Qapaq:
Nicat QƏRİBOV
Elsevər ƏHMƏDOV

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით.

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin Elmi Şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

Tbilisi Georgia, Botanikuri, #32
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0105
E-mail: info.amag77@gmail.com

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის.

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

ჭეშმარიტებისკენ მოწოდება

HAQQA DƏVƏT

“Milli-mənəvi dəyərlərimizin yaşadılması üçün böyük xidmətləri olan elm və irfan əhli mərhum Əli Çınar müəllimi ehtiramla yad edirik.”

TƏQDİMAT

Əxlaqi dəyərlərin tənəzzülə uğradığı, bütün insani keyfiyyətlərin yox olduğu və mənəvi rəhbərə ehtiyac duyduğu bir dövrdə Uca Allahın bəşəriyyətə göndərdiyi sonuncu müqəddəs kitabı olan Qurani-Kərimi bir hidayət vəsiləsi olaraq Həzrət Muhəmmədə (s.ə.s) nazil etmişdir. Qurani-Kərim sayəsində insanlıq, qaranlıqda, zülmətdən aydınlığa çıxdı. Onun gətirdiyi əmrlərlə əzablar, iztirablar sona yetdi, pisliklərin kökü kəsildi və qəlblər aram tapdı. Qurani-Kərim insanların tənəzzülə uğramış mənəviyyatını, həyatlarını puç edən batil əqidələrini, mövhumat və xurafatları aradan qaldırdı. Beləliklə, o, bəşər övladı üçün gözəl əxlaq və fəzilət yollarını açaraq ən adil ictimai nizamı yaratdı. Qurani-Kərim tarixin bütün dövrlərinə xitab edən və bütün zamanlarda hökmü keçən ilahi kəlamlar toplusu, əvəzolunmaz mənəviyyat mənbəyidir.

İnsanların Qurandakı dərin mənalardan istifadə edə bilməsi üçün onun təfsirinə ehtiyac duyulmuşdur. Məhz bu ehtiyac səbəbilədir ki, Qurani-Kərim hər dövrdə təfsir edilmiş və bu məqsədlə yüzlərlə əsər qələmə alınmışdır.

Təqdim olunan bu kitabda Qurani-Kərimdəki çox əhəmiyyətli mövzuların yer aldığı yeddi surə "Yusif", "Kəhf", "Yasin", "Fəth", "Hücürat", "Rəhman" və "Mülk" surələrinin tərcümə və təfsiri yer alır. Surələrin təfsirində bir-birinə bənzər təkrarlanan rəvayətlər, eləcə də ərəb dilçiliyi ilə əlaqədar izahlar ixtisar edilmiş, etibarlı təfsir mənbələrinə isnad edilərək təfsirin həm rəvayət, həm dirayət yönündən istifadə edilmişdir. Həmçinin kitab Azərbaycan dilində, oxucunun asanlıqla qavraya biləcəyi bir üslubda yazılmışdır. İnanırıq ki, bu da Qurani-Kərimi oxuyub başa düşməyi arzu edənlər üçün böyük fayda və asanlıq təmin edəcəkdir.

Son olaraq, bu kitabın ərsəyə gəlməsində əməyi keçən hər kəsə dərin minnətdarlığımızı bildiririk. Ümid edirik ki, Qurani-Kərimin bir hissəsini təşkil edən bu yeddi surə və təfsirləri hər bir oxucunun qəlbini Allah və peyğəmbər sevgisi, vətənə bağlılıq, sədaqət və düzgünlük amalları ilə fəth edəcəkdir.

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftisi
Etibar Eminov.

ÖN SÖZ

Kainatın xaliqi olan Allah-Təalaya sonsuz həmd-səna, xatəmül-ənbiya Həzrət Mühəmməd Mustafaya (s.ə.s) salat və salam olsun! Uca Allah son peyğəmbəri ilə birlikdə haqq din İslamı və bu dinin dirəyi olan son ilahi kitab Qurani-Kərimi göndərmişdir. Qurani-Kərim Allah-Təalanın əzəmət və qüdrətinin dəlili, Mühəmməd peyğəmbərin (s.ə.s) ən böyük möcüzəsidir. Quran ayələrində insanlar üçün bir çox ibrətlər, hidayət yoluna aparan açıq-aydın dəlillər, ilahi lütf və mərhəmətin nişanələri vardır. O, insanlığın üfqündə bir işıq kimi yanan və hər dövrdə insanların yollarını və könüllərini aydınlatdan bir məşəldir. Buna görə də son ilahi kitab olan Qurani-Kərimin hökmləri qiyamətə qədər davam edəcəyi üçün hər zaman və hər yerdə tilavət edilib şərh edilməkdədir. Çünki Quran-Kərim oxunmaq, anlaşılmaq və gətirdiyi ümumbəşər prinsiplərin mənimsənməsi üçün göndərilmişdir. İlk enən ayəsində **"Yaradan Rəbbinin adı ilə oxu!"** (Ələq, 96/1) – buyurularaq onun oxunması əmr edilir, digər tərəfdən **"Onlar sözü** (Quranı) **heç düşünmürlərmi?"** (Muminun, 23/68) və bir çox digər ayələrdə də Quranın təfəkkür edilib anlaşılması üçün səy göstərilməsi tələb olunur. Bu baxımdan Qurani-Kərimi sadəcə oxumaqla yetinməyib, məzmununun bilinməsi, Quranın nə dediyinin qavranılması və onun həyatımıza əks edilməsi zəruridir.

Təfsir tarixinə nəzər yetirdikdə Həzrət Peyğəmbərin (s.ə.s) dövründən günümüzə qədər hər dövrdə Qurani-Kərimin daha yaxşı anlaşılması üçün səy göstərildiyi və bu məqsədlə İslam alimləri tərəfindən geniş həcmli təfsir əsərləri qələmə alındığı nəzərə çarpır. Başda Quranın dili olan ərəb dilində olmaqla, bir çox dildə Qurani-Kərimin daha yaxşı başa düşülməsi üçün təfsir əsərləri yazılmışdır. Bu

əsərlərdən bir qismini də heç şübhəsiz, Azərbaycan əsilli alimlər qələmə almışlar. Bunlara Nemətullah Naxçıvaninin (ö.1514) "əl-Fəvatihül-ilahiyyə vəl-məfatihül-qeybiyyə" əsərini, *Mövlazadə Şəkəvinin (ö.1909)* "Kitabül-bəyan fit-təfsiril-Quran" əsərini, Mir Məhəmməd Kərim *Bakuvinin (ö.1938)* "*Kəşfül*-həqayiq" əsərini və Əhməd Həşimzadənin 1962-ci ildə tamamladığı dörd cildlik "Təfsirül-Quranil-əzim" adlı əsərini misal göstərə bilərik.

Bu kitabda isə Qurani-Kərimin bütün surələrinin yox, məhz İslam aləminin tilavətinə daha çox rəğbət göstərdiyi və fəzilətlərinə dair bir çox hədisi-şərifin varid olduğu yeddi orta həcmli surənin tərcümə və təfsirinə yer verilmişdir. Bu surələrin təfsirində mötəbər klassik və müasir təfsir mənbələrindən geniş şəkildə istifadə edilmişdir. Onu da qeyd edək ki, bu surələrdən "Yusif" surəsinin təfsiri f.f.d. Anar Qurbanov, "Kəhf" və "Yasin" surələrinin təfsiri f.f.d. Əlәddin Sultanov, "Fəth" və "Rəhman" surələrinin təfsiri f.f.d. Səfa Muradov, "Hücürat" surəsinin təfsiri Ramiz Məmmədov, "Mülk" surəsinin təfsiri isə Mayis Abbasov tərəfindən hazırlanmışdır. Digər tərəfdən əsərin Gürcüstan nəşrinin ərsəyə gəlməsində bizə hər cür dəstəyi göstərən Bütün Gürcüstan Müsəlmanları İdarəsinə və ələlxüsus Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına və rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk.

Xülasə, Quran ayələrinin dilimizə tərcüməsi və təfsirində istəmədən olsa belə müəyyən əskiklik və nöqsanlar ola bilər. Bu kitabı hazırlayanlar tərəfindən ola biləcək bu kimi nöqsanlara görə əvvəla Uca Allahdan məğfirət diləyir və dəyərli oxucularımızın xoşgörüsünə sığınırıq. Əsəri diqqətinizə təqdim edərkən, İslam dininin irşad xidmətlərinə töhfə verməsini və oxucularımız üçün faydalı olmasını Uca Allahdan niyaz edirik.

Fuad QULİYEV

سُورَةُ يُوسُفَ

“YUSİF” SURƏSİ

Qurandakı sırası:	12
Nazil olduğu yer:	Məkkə
Ayələrin sayı:	111
Kəlmələrin sayı:	1795
Hərflərin sayı:	7125

سُورَةُ يُوسُفَ

“YUSİF” SURƏSİ

Adı:

Yusif: Surənin adı içində qissəsi təfərrüatı ilə izah edilən Həzrət Yusif (ə.s) peyğəmbərin adından götürülmüşdür.

Ehtiva etdiyi mövzular:

Bu surənin ilk üç ayəsində həqiqətləri bəyan edən və açıq-aydın bir kitab olan Qurani-Kərimin ayələrinə, mənalarını düşünüb dərk etməyimiz üçün Quranın Ərəb dilində nazil edildiyinə diqqət çəkilir. Bundan sonra qissələrin ən gözəli haqqında danışılacağı barədə məlumat verilir və 4-cü ayədən başlayaraq 101-ci ayəyə qədər Həzrət Yusif peyğəmbərin hekayətindən bəhs olunur. Bu surə qissədən alınmalı olan ibrət dərsi və öyüd-nəsihətlərlə sona çatır.

Nüzul səbəbi:

“Yusif” surəsi surələrin nazil olma sırasına görə 53-cü surədir. “Hud” surəsindən sonra, “Hicr” surəsindən əvvəl Məkkədə nazil olmuşdur. Səd ibn Əbu Vəqqas (r.ə) bildirir ki, Qurani-kərim Rəsulullaha (s.ə.s) nazil olmağa başladı və Peyğəmbərimiz (s.ə.s) səhabələrinə bir müddət nazil olan ayələri oxudu. Onlar: “Bizə bir az da qissə, hekayət danış!” – dedikdən sonra **“Biz bu Quranı sənə vəhy etməklə**

sənin üçün ən gözəl qissəni (hekayəti) **danışırıq”** kəlamı ilə başlayan Həzrət Yusifin (ə.s) həyatı haqqındakı ayələr nazil olmağa başladı.[1]

Məhəmməd ibn İshaqa görə, bu surənin nazil olma səbəbi müşriklər tərəfindən zülmə məruz qalan Rəsulullahı (s.ə.s) təsəlli etməkdir. Çünki müşriklərin təzyiqi, əziyyət və işgəncələri qarşısında Rəsulullah (s.ə.s) və səhabələri çox çətin vəziyyətdə qalmışdılar və onlar bu vəziyyətdən bir çıxış yolu axtarırdılar. Məhz belə çətinliklərin və məşəqqətlərin zirvədə olduğu bir vaxtda bu surənin nazil olması müsəlmanlar üçün mühüm bir təsəlli olmuşdur. Çünki bu surədə təfsilatlı olaraq qissəsindən bəhs edilən Həzrət Yusif (ə.s) də Fələstində qardaşları tərəfindən pis əməllərə məruz qalmış, lakin o, axırda Misirin dövlət idarəsində vəzifəyə təyin edilmiş və sonra isə ona düşmənçilik edən qardaşlarını əfv edərək onlara hər baxımdan köməklik göstərmişdir.[2]

1. Hakim, “Müstədrək”, III, 345.
2. Elmalılı, “Hak Dini Kuran Dili”, IV, 2841.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

الٓرۚ تِلْكَ اٰيَاتُ الْكِتَابِ الْمُبِيْنِۙ ﴿١﴾ اِنَّآ اَنْزَلْنَاهُ قُرْءٰنًا عَرَبِيًّا لَّعَلَّكُمْ تَعْقِلُوْنَ ﴿٢﴾ نَحْنُ نَقُصُّ عَلَيْكَ اَحْسَنَ الْقَصَصِ بِمَآ اَوْحَيْنَآ اِلَيْكَ هٰذَا الْقُرْاٰنَ ۖ وَاِنْ كُنْتَ مِنْ قَبْلِهٖ لَمِنَ الْغَافِلِيْنَ ﴿٣﴾

1. Əlif, Lam, Ra! Bunlar açıq-aydın Kitabın (Quranın) **ayələridir!**

2. Siz başa düşəsiniz deyə Biz onu ərəbcə bir Quran olaraq nazil etdik.

3. Biz bu Quranı sənə vəhy etməklə sənin üçün ən gözəl hekayəti (qissəni) **danışırıq. Hərçənd ki, sən bunda əvvəl xəbərsiz olanlardan idin.**

Təfsiri:

Bəzi surələrin başında olan **“Əlif, Lam, Ra!”** kimi hərflərə “hürufi-müqətəə” deyilir. Uca Allah nazil edilən bu ayələrin adi sözlər yox, həqiqətləri bəyan edən və əbədi möcüzə olan ilahi kitabın ayələri olduğunu bildirir. Belə

olan halda bu kitaba layiqi ilə hörmət göstərilməli, onun əmr və qadağalarına riayət edilməli olduğu vurğulanır.[3]

"Bunlar açıq-aydın Kitabın (Quranın) **ayələridir!"** Yəni açıq-aydın olan Qurani-Kərim mübhəm olanları izah edən, onları təfsir və bəyan edən bir kitabdır.

Qurani-Kərimin "mübin" olması üç mənaya gəlir:

- ✓ Öz-özlüyündə açıq-aydın olan, öz-özünü kifayət qədər izah edən bir kitabdır.
- ✓ Bəyan edən, izah edən, şərh edən və işıqlandıran mənasına gəlir. Belə ki, Qurani-Kərim halalları, haramları, cəzaları, hökmləri, hidayət və qurtuluş yollarını, mərhəmət və bərəkətə nail ola bilmə üsullarını izah edən bir kitabdır.
- ✓ Dili və üslubu olduqca gözəl, məqsəd və muradını lazımi şəkildə istədiyi kimi başa salan fəsahətli və bəlağətli bir kitabdır.[4]

"Siz başa düşəsiniz deyə Biz onu ərəbcə bir Quran olaraq nazil etdik". Çünki ərəb dili dillərin ən fəsahətli, ən aydın, ən geniş olanı və ağla gələn mənaları zehnə ən yaxşı çatdıran bir dildir. Bu səbəbdən kitabların ən şərəflisi elçilərin ən şərəflisi olan Həzrət Peyğəmbərə (s.ə.s) dillərin ən şərəflisi, eləcə də mələklərin ən şərəflisinin elçiliyi ilə yer üzünün ən şərəfli torpaqlarında nazil edilmiş və onun nazil edilməsinə ilin ən şərəfli ayı olan Ramazanda başlanılmış və

3. Heyet, "Kuran Yolu Türkçe Meal ve Tefsir", III, 1748.
4. Ömer Çelik, "Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri", II, 599.

beləliklə də, hər baxımdan mükəmməl bir kitab olmuşdur. Məhz bu səbəbdən Allah-Təala belə buyurur: **"Biz bu Quranı sənə vəhy etməklə** (vəhy etməyimiz səbəbilə) **sənin üçün ən gözəl hekayəti** (qissəni) **danışırıq"**.[5] Qurani-Kərimi mədh edən, ondan başqa heç bir kitaba ehtiyac olmadığını ifadə edən bu ayeyi-kərimə ilə yanaşı, Əhməd ibn Hənbəlin Cabir ibn Abdullahdan nəql etdiyi bu hədisi-şərifi qeyd etmək də məqsədəuyğundur: "Ömər ibn Xəttab əhli-kitabdan olan bəzi şəxslərdən əlinə keçən vərəqlər gətirib ona oxudu. Bunun nəticəsində Həzrət Peyğəmbər (s.ə.s) qəzəbləndi və: *"Dinim haqqında tərəddüdmü edirsən, ey Xəttabın oğlu? Həyatım əlində olana and olsun ki, sizə ağappaq və tərtəmiz bir həqiqət gətirdim. Onlardan heç bir şey soruşmayın. Əks təqdirdə, sizə haqqı deyərlər və siz onu təkzib edərsiniz, yaxud da batili deyərlər və siz onu təsdiq edərsiniz. Həyatım əlində olana and olsun ki, Həzrət Musa (ə.s) həyatda olsaydı, mənə tabe olmaqdan başqa bir şey edə bilməzdi"*, – buyurdu".[6]

Ayədəki "أَحْسَنَ الْقَصَصِ/əhsənəl-qəsəs" ifadəsi iki mənaya gəlir:

- ✓ Ən gözəl şəkildə danışma,
- ✓ Ən gözəl qissə.

Odur ki, burada ən gözəl şəkildə danışılan Həzrət Yusifin (ə.s) qissəsi eyni zamanda qissələrin ən gözəlidir. Bunun səbəb və hikmətləri aşağıdakılardır:

---

5. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir" II, 236.
6. İbn Hənbəl, "Müsnəd", XXXIII, 349.

- ✓ Bu surədə Həzrət Yusifin qardaşlarını əfv etməsi, onların əziyyətlərinə səbir edib sinə gərməsi, onlarla qarşılaşdıqdan sonra da etdiklərini üzə vurmadan onları bağışlaması və onlara hər cür köməklik göstərməsi barədə məlumat verilir.
- ✓ Bu surədə peyğəmbərlərin, salehlərin, mələklərin, şeytanların, cinlərin, insanların, heyvanların, quşların, hökmdarların və onların idarə etdikləri şəxslərin davranışlarından, tacirlərin, alimlərin, cahillərin, kişilərin və qadınların hiylələrindən bəhs olunur.
- ✓ Bu surədə sevən, sevilən və bunların getdikləri yollar haqqında danışılır.
- ✓ Bu surədə Həzrət Yusifin etdiyi ən gözəl duadan bəhs olunur: **“Allahım, Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!”**[7]

اِذْ قَالَ يُوسُفُ لِاَبِيهِ يَآ اَبَتِ اِنِّى رَاَيْتُ اَحَدَ عَشَرَ
كَوْكَبًا وَالشَّمْسَ وَالْقَمَرَ رَاَيْتُهُمْ لِى سَاجِدِينَ ﴿٤﴾

4. Bir zaman Yusif atasına dedi: “Atacan! Mən (yuxuda) **on bir ulduz, günəşi və ayı gördüm. Gördüm ki, onlar mənə səcdə edirlər.**

7. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 600-601.

Təfsiri:

Uca Allah belə buyurur: “Ey Mühəmməd! Qövmünə danışdığın qissələr arasında Yusifin (ə.s) hekayətini də danış. Bir zaman o, atasına demişdir…”. Onun atası İbrahimin oğlu İshaqın oğlu Yaqubdur. Bununla bağlı Rəsulullah (s.ə.s) bir hədisi-şərifində belə buyurmuşdur: *“Kərim (möhtərəm və comərd) oğlu Kərim oğlu Kərim oğlu Kərim, İbrahim oğlu İshaq oğlu Yaqub oğlu Yusifdir”*.[8] Əbu Hüreyrədən nəql edildiyinə görə, Rəsulullahdan (s.ə.s): “İnsanların ən möhtərəm olanı kimdir?” – deyə soruşuldu. Həzrət Peyğəmbər (s.ə.s): *“Allah dərgahında insanların ən möhtərəm olanı Ondan ən çox çəkinəndir (ən təqvalı olandır)”*, – deyə cavab verdi. Onlar: “Biz bunu soruşmaq istəməmişdik”, – dedilər. Rəsulullah (s.ə.s) da belə buyurdu: *“Elə isə insanların ən möhtərəmi Allahın Xəlilinin (dostunun) oğlu Allahın peyğəmbərinin oğlu Allahın peyğəmbərinin oğlu Allahın peyğəmbəri Yusifdir…”*[9]

İbn Abbas belə demişdir: “Peyğəmbərlərin röyaları vəhydir”. Təfsirçilər sözügedən yuxunun yozumu ilə bağlı bildirmişlər ki, on bir ulduz Həzrət Yusifin qardaşlarıdır. Həzrət Yusifdən savayı onlar on bir nəfər idilər. Günəş və ay isə onun anası və atasıdır. Həzrət Yusif yuxunu gördükdən sonra atası Yaquba danışmış, bunun müqabilində atası: “Bu, işlərin yolunda getməməsidir. Lakin Allah-Təala sonra hər şeyi yoluna qoyacaqdır!” – demişdi.[10]

---

8. İbn Hənbəl, “Müsnəd”, II, 96.
9. Buxari, “Əhadisi-ənbiya”, 10; Müslim, “Fəzail”, 44; İbn Hənbəl, “Müsnəd”, II, 257.
10. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 237.

قَالَ يَا بُنَيَّ لَا تَقْصُصْ رُءْيَاكَ عَلَىٰٓ اِخْوَتِكَ فَيَكِيدُوا لَكَ كَيْدًاۗ اِنَّ الشَّيْطَانَ لِلْاِنْسَانِ عَدُوٌّ مُبِينٌ ۝

5. O dedi: “Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki Şeytan insanların açıq-aşkar düşmənidir”.

Təfsiri:

Allah-Təala Həzrət Yaqubun oğlu Həzrət Yusifin qardaşlarının ona boyun əyəcəkləri, böyük bir təzim və hörmət göstərəcəkləri, hətta təzim, hörmət və ehtiram ifadəsi olaraq səcdə edəcəkləri mənasına gələn yuxusunu danışanda atasının ona dediklərini xəbər verir. Məhz bu səbəbdən Həzrət Yaqub (ə.s) oğlunun yuxusunu qardaşlarından birinə danışmasından və bunun nəticəsində onların həsəd aparmalarından, gözləri götürməyərək ona hiylələr qurmalarından qorxmuş və belə demişdi: **“Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar”**. Bu səbəbdən sünnədə Rəsulullahın (s.ə.s) belə buyurduğu sabit olmuşdur: *“Sizdən birisi xoşuna gələn bir yuxu görərsə, onu danışsın. Xoşuna gəlməyən bir yuxu gördüyü təqdirdə isə, o biri tərəfinə çevrilsin. Sol tərəfinə də üç dəfə tüpürüb onun şərindən Uca Allaha sığınsın və onu heç kəsə danışmasın. Belə olan təqdirdə, yuxusu əsla ona zərər verməyəcəkdir”*.[11]

[11] Oxşar hədis üçün bax. İbn Macə, “Təbiri-röya”, 4.

وَكَذٰلِكَ يَجْتَبِيكَ رَبُّكَ وَيُعَلِّمُكَ مِنْ تَأْوِيلِ
الْاَحَادِيثِ وَيُتِمُّ نِعْمَتَهُ عَلَيْكَ وَعَلٰٓى اٰلِ يَعْقُوبَ كَمَآ
اَتَمَّهَا عَلٰٓى اَبَوَيْكَ مِنْ قَبْلُ اِبْرٰهِيمَ وَاِسْحٰقَ ؕ اِنَّ رَبَّكَ
عَلِيمٌ حَكِيمٌ ۝٦

6. Beləcə, Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin hər şeyi biləndir, hikmət sahibidir.

Təfsiri:

Allah-Təala Həzrət Yaqubun oğlu Yusifə belə dediyini bildirir: “Rəbbinin səni seçib ulduzların, günəşin və ayın sənə səcdə etdiklərini göstərdiyi kimi Rəbbin səni peyğəmbər seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə – səni peyğəmbər göndərərək sənə vəhy etmək surətilə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin hər şeyi biləndir, hikmət sahibidir. O, peyğəmbərliyi kimə verəcəyini yaxşı bilir.[12]

Ayədəki “الْأَحَادِيث/əl-əhadis” kəlməsinin iki mənası var. Birinicisi, “hadisələr və xəbərlər”dir. Belə ki, Uca Allah ona

[12] İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 236.

meydana gələcək hadisələrdə səbəb-nəticə əlaqəsini və hadisələrin yozumunu öyrədəcək, eləcə də həyatın problemlərini başa düşmə və onları həll etmə qabiliyyətini verəcəkdir. İkinci mənası isə, “röyalar, yuxular” deməkdir. Belə ki, Uca Allah ona yuxuların yozumunu, yuxuda simvol kimi göstərilən işarələrin mənalarını təlim etmişdir. Ona həm dini, həm də dünyəvi nemətlər bəxş edəcək, onu hər iki cahanda şərəfləndirəcəkdir.[13]

Həzrət Yusifin (ə.s) qissəsi adi bir həyat hekayəsi və ya roman deyil, onun qissəsi həqiqətən, böyük dərslər və ibrətlərlə doludur:

لَقَدْ كَانَ فِى يُوسُفَ وَاِخْوَتِهٖٓ اٰيَاتٌ لِلسَّآئِلِينَ ﴿٧﴾
اِذْ قَالُوا لَيُوسُفُ وَاَخُوهُ اَحَبُّ اِلٰٓى اَبِينَا مِنَّا وَنَحْنُ
عُصْبَةٌ ۗ اِنَّ اَبَانَا لَفِى ضَلَالٍ مُبِينٍ ۚ ﴿٨﴾ اُقْتُلُوا يُوسُفَ
اَوِ اطْرَحُوهُ اَرْضًا يَخْلُ لَكُمْ وَجْهُ اَبِيكُمْ وَتَكُونُوا مِنْ
بَعْدِهٖ قَوْمًا صَالِحِينَ ﴿٩﴾ قَالَ قَآئِلٌ مِنْهُمْ لَا تَقْتُلُوا
يُوسُفَ وَاَلْقُوهُ فِى غَيَابَتِ الْجُبِّ يَلْتَقِطْهُ بَعْضُ
السَّيَّارَةِ اِنْ كُنْتُمْ فَاعِلِينَ ﴿١٠﴾

7. Yusifin və qardaşlarının əhvalatında (bu haqda) **soruşanlar üçün** (neçə-neçə) **ibrətlər vardır.**

13. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 602.

8. Bir vaxt (onun qardaşları) **dedilər: “Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusif və onun** (doğma) **qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir.**

9. (Aralarında biri dedi:) **“Yusifi öldürün və ya** (uzaq) **bir yerə atın ki, atanız mehrini yalnız sizə salsın. Ondan sonra isə** (tövbə edib) **əməlisaleh bir camaat olarsınız!”**

10. Onlardan biri dedi: “Yusifi öldürməyin! Əgər (ona qarşı hökmən) **nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardan biri onu götürsün!”**

Təfsiri:

Uca Allah buyurur ki, Yusifin hekayətində və qardaşları ilə yaşadığı əhvalatda onun haqqında soruşub öyrənmək istəyənlər üçün çoxlu ibrətlər var. Çünki bu, öyrənilməyə layiq olan ibrətamiz bir əhvalatdır. **“Bir vaxt** (onun qardaşları) **dedilər: “Biz bütöv bir dəstə olmağımıza baxmayaraqYusif və onun** (doğma) **qardaşı** (Bünyamin) **atamıza bizdən daha sevimlidir”**. Necə olur ki, bu iki nəfər bu boyda dəstədən daha sevimli olurlar. Onlar güman etdiklərini and içərək demişdilər. **“Aydın görünür ki, atamız**

aşkar bir yanlışlıq içindədir". Onları bizdən irəli tutması və daha çox sevməsində səhv edir. **"**(Aralarından biri dedi:) **"Yusifi öldürün və ya** (uzaq) **bir yerə atın ki, atanız mehrini yalnız sizə salsın"**. Onlar öz aralarında belə danışdılar: "Atamızın bizi sevməsində rəqibimiz olan bu uşağı aradan götürək ki, atamızın sevgisi yalnız bizə yönəlsin. Bunu da onu ya öldürərək, yaxud da bir yerə ataraq edək. Beləcə, ondan canımız qurtarar və atamızla yalnız biz qalmış olarıq". **"Ondan sonra isə** (tövbə edib) **əməlisaleh bir camaat olarsınız!"** Yəni beləliklə də, onlar günahdan əvvəl tövbə etməyə niyyət etdilər.

Həzrət Yaqub (ə.s) ulduzların, günəşin və ayın səcdə etməsi ilə əlaqədar olaraq gördüyü yuxu səbəbilə oğlu Yusifin böyük bir mənəvi istedada malik olduğunu başa düşmüşdü. Onun həm atasının, həm də babasının mirasının varisi olacağını dərk etdi və qəlbi ona meyil etdi. Bundan əlavə, Uca Allah Həzrət Yaqubu Yusifə qarşı hiss etdiyi məhəbbətlə sınaqdan keçirmək məqsədilə Yusifi ondan uzaqlaşdırdı. Çünki ilahi sevgi çox qısqancdır və sevgi sultanı Öz mülkündə şərik istəmir. Mütləq gözəllik və mükəmməllik yalnız Uca Allaha məxsus olduğu üçün mömin ən çox Allahı sevməli və masiva ilə qəlbinə əngəllər qoymamalıdır.[14]

"Onlardan biri..."; bu şəxs Qətadəyə görə, adı Rubil olan ən böyük qardaşları idi; Süddiyə görə, bunu deyən Yəhuda idi; Mücahidə görə isə, Şəmun adlı qardaşları idi.

14. Çelik, "Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri", II, 605.

“...dedi: “Yusifi öldürməyin!” Ona qarşı olan düşmənçiliyinizi və kininizi onu qətlə yetirməyə qədər aparıb çıxarmayın. Onsuz da onu öldürmələri qeyri-mümkün idi. Çünki Allah-Təala peyğəmbərliyin ona vəhy edilməsi, Misiri ələ keçirib orada hökmranlıq etməsi kimi etməli və tamamlamalı olduğu onunla bağlı olan məsələləri ondan istəyirdi. Məhz bu səbəbdən Allah-Təala Rubilin sözü və onu bir quyuya atmalarına işarəsi ilə onları Həzrət Yusifdən (ə.s) uzaqlaşdırdı. Qətadə həmin quyunun Qüds quyusu olduğunu bildirmişdir. **“Əgər** (ona qarşı hökmən) **nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardan biri onu götürsün!”** Yəni oradan keçən yolçulardan biri onu götürsün. Bununla da ondan qurtulub rahatlayar və onu öldürməyinizə ehtiyac qalmaz.

Məhəmməd ibn İshaq belə demişdir: “Həqiqətən də, onlar çoxlu sayda böyük günahlar işlədilər. Belə ki, qohumluq əlaqələrini kəsdilər, valideynlərinə qarşı asi oldular və heç bir günahı olmayan kiçiklərə mərhəmət etmədilər. Onlar uşağın yaşının kiçikliyinə, Uca Allah dərgahındakı ali mövqeyinə, atasının şəfqətinə və mərhəmətinə sığınma ehtiyacı duymasına baxmayaraq, onları bir-birindən ayırsalar da Allah-Təala onları bağışladı. O, mərhəmətlilərin ən mərhəmətlisidir. Doğrudan da, onlar böyük bir günahı yükləndilər”.[15]

15. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 238.

قَالُوا يَٰٓأَبَانَا مَا لَكَ لَا تَأۡمَنَّا عَلَىٰ يُوسُفَ وَإِنَّا لَهُۥ
(اشمام)
لَنَٰصِحُونَ ﴿١١﴾ أَرۡسِلۡهُ مَعَنَا غَدٗا يَرۡتَعۡ وَيَلۡعَبۡ وَإِنَّا لَهُۥ
لَحَٰفِظُونَ ﴿١٢﴾

11. Onlar dedilər: “Ey atamız! Sənə nə olub ki, Yusifi bizə etibar etmirsən? Həqiqətən də, biz ona xeyir arzulayırıq.

12. Sabah onu bizimlə birlikdə göndər, qoy oynayıb əylənsin. Biz onu mütləq qoruyarıq!”

Təfsiri:

Onların böyük qardaşları Rubilin işarə etdiyi kimi, qardaşları Həzrət Yusifi tutub quyuya atmaqla bağlı həmfikir olduqdan sonra Həzrət Yaqubun (ə.s) yanına gələrək dedilər: **“Ey atamız! Sənə nə olub ki, Yusifi bizə etibar etmirsən? Həqiqətən də, biz ona xeyir arzulayırıq”**. Halbuki onlar atasının ona olan məhəbbətinə görə ürəklərindəki həsəd ucbatından bunun əksini istəyirdilər. Onlar dedilər: “Sabah onu bizimlə birlikdə göndər, qoy oynayıb əylənsin, qaçsın və gözü-könlü açılsın. Biz onu mütləq sırf sənin üçün qoruyub himayə edərik”.

قَالَ اِنِّی لَیَحْزُنُنِّی اَنْ تَذْهَبُوا بِهٖ وَاَخَافُ اَنْ یَّاْكُلَهُ
الذِّئْبُ وَاَنْتُمْ عَنْهُ غَافِلُوْنَ ﴿۱۳﴾ قَالُوْا لَئِنْ اَكَلَهُ الذِّئْبُ
وَنَحْنُ عُصْبَةٌ اِنَّاۤ اِذًا لَّخٰسِرُوْنَ ﴿۱۴﴾

13. (Yaqub) **dedi: “Onu aparmağınız məni hüznləndirər və siz onu nəzarətsiz qoyarkən canavarın onu yeməsindən qorxuram”.**

14. Onlar: “Biz güclü bir dəstə ola-ola qurd onu yesə, onda biz aciz olarıq ki!” – deyə cavab verdilər.

Təfsiri:

Allah-Təala peyğəmbəri Həzrət Yaqubun (ə.s) oğullarının Həzrət Yusifi onlarla birlikdə heyvan otarmaq üçün göndərməsi ilə bağlı istəklərinə belə cavab verdiyini bildirir: **“Onu aparmağınız məni hüznləndirər”**. Yəni siz gedib qayıdana qədər ondan ayrı qalmağım mənə çətin gələr. Həzrət Yaqubun (ə.s) bu hərəkəti oğluna qarşı olan məhəbbəti, onda böyük xeyir, peyğəmbərlik xislətləri, surətində və əxlaqında mükəmməllik müşahidə etməsindən irəli gəlirdi. **“...və siz onu nəzarətsiz qoyarkən canavarın onu yeməsindən qorxuram”**. Siz atıcılıqla və heyvan otarmaqla məşğul olarkən, bir canavarın gəlib siz hiss etmədən onu yeməsindən qorxuram. Beləliklə, onlar atalarının ağzından bu sözü alaraq, bunu tutduqları işdə bir üzr kimi

istifadə etdilər. Atalarına cavab olaraq onlar belə dedilər: **“Biz güclü bir dəstə ola-ola qurd onu yesə, onda biz aciz olarıq ki!”** Yəni əgər biz bu qədər çox olduğumuz halda canavar ona hücum edib bizim aramızdan onu yeyərsə, onda biz aciz qalıb məhv olmuş kəslər olarıq.

Vurğulamaq lazımdır ki, bir insanın düşməninə özünün əleyhinə istifadə edə biləcəyi bir dəlil verməsi düzgün deyil. Məsələn, bəlkə də Yusifin qardaşları ataları deyənə qədər qurdun uşağı yeməsi bəhanəsini heç düşünməmişdilər. Bu sözü ilə Həzrət Yaqub onların əlinə hazır bir hiylə vermiş oldu. Həzrət Peyğəmbərimiz (s.ə.s) belə buyurur: *“Allaha and olsun ki, bu işi etməyəcəyəm! – deyən bir bəndə hər şeyi şeytana buraxmış olar. Beləcə, şeytan bütün məharətini onun etməməyə söz verdiyi işə yönləndirər və axırda istədiyini ona etdirər”*.[16]

فَلَمَّا ذَهَبُوا بِهٖ وَاَجْمَعُوْٓا اَنْ يَّجْعَلُوْهُ فِىْ غَيٰبَتِ الْجُبِّ ۚ وَاَوْحَيْنَآ اِلَيْهِ لَتُنَبِّئَنَّهُمْ بِاَمْرِهِمْ هٰذَا وَهُمْ لَا يَشْعُرُوْنَ ﴿١٥﴾

15. Onlar (qardaşları) **onu aparıb quyuya atmaq qərarına gəldikdə biz ona belə vəhy etdik: “Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən”.**

16. Əcluni, “Kəşfül-xəfa”, I, 343.

Təfsiri:

Uca Allahın “Qardaşları atalarına müraciət etdikdən sonra onu götürərkən **“aparıb quyuya atmaq qərarına gəldikdə”** ifadəsində onu hamılıqla quyuya atmaq qərarı verərkən nə qədər çirkin bir iş tutduqları vurğulanır. Halbuki onlar atalarına özlərini elə göstərdilər ki, guya ona yaxşılıq etmək, onu rahatlatmaq, gözü-könlünü açıb onu sevindirmək istəyirdilər. Deyilənə görə, Həzrət Yaqub (ə.s) oğlunu onlarla birlikdə göndərərkən qucaqlayıb öpdü və onun üçün dua etdi. Onlar isə Həzrət Yusif (ə.s) ilə yalnız atalarının gözündən itənə qədər yaxşı rəftar etdilər. Ondan sonra dərhal ona nalayiq sözlər sərf etməklə və onu vurmaqla əziyyət verməyə başladılar. Sonra onu atmağı qərarlaşdırdıqları quyunun yanına apardılar. Onu bir ipə bağlayıb quyunun içinə saldılar və Həzrət Yusif quyuda gözdən itdi. Sonra Həzrət Yusif (ə.s) quyunun tən ortasında olan bir qayanın üstünə çıxıb orada oturdu.

Allah-Təala ayənin davamında belə buyurur: **“...biz ona belə vəhy etdik: “Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən”**. Uca Allah lütfü, mərhəməti və çətinlikdən sonra asanlıq verməsindən bəhs edərək, bu dar vaxtında ürəyini rahatlatmaq və sabitqədəm olması üçün Həzrət Yusifə: “Düşdüyün bu vəziyyət ucbatından kədərlənmə. Çünki sən buradan xilas olub çıxacaqsan. Uca Allah onlara qarşı sənə kömək edəcək və səni ucaldıb dərəcəni ali edəcəkdir. Onların sənə qarşı etdiklərini də onlara bildirəcəkdir!” – deyə vəhy etdiyini xəbər verir. Bu ayədəki **“...gözləmədikləri bir halda...”** ifadə-

sini Mücahid və Qətadə “Uca Allahın vəhy etməsi ilə...”, İbn Abbas isə “Sənə qarşı etdikləri bu hərəkətlərini səni tanımadan və fərqinə varmadan onlara xəbər verəcəkdir” kimi təfsir etmişlər.[17]

وَجَآءُوٓ اَبَاهُمْ عِشَآءً يَبْكُونَ ﴿١٦﴾ قَالُوا يَآ اَبَانَآ اِنَّا ذَهَبْنَا
نَسْتَبِقُ وَتَرَكْنَا يُوسُفَ عِنْدَ مَتَاعِنَا فَاَكَلَهُ الذِّئْبُ وَمَآ
اَنْتَ بِمُؤْمِنٍ لَنَا وَلَوْ كُنَّا صَادِقِينَ ﴿١٧﴾ وَجَآءُو عَلٰى
قَمِيصِهِ بِدَمٍ كَذِبٍ قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ اَنْفُسُكُمْ اَمْرًا
فَصَبْرٌ جَمِيلٌ وَاللّٰهُ الْمُسْتَعَانُ عَلٰى مَا تَصِفُونَ ﴿١٨﴾

16-17. Onlar axşamüstü ağlaya-ağlaya atalarının yanına gəlib dedilər: “Ey atamız! Biz Yusifi əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən.

18. Onlar (Yusifin) **köynəyinin üstünə yalandan bir qan** (ləkəsi yaxıb) **gətirmişdilər.** (Yaqub) **dedi: “Xeyr, sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir** (çirkin əməlinizi sizə gözəl göstərmişdir)**.** (Mənə) **yalnız gözəl səbir gərəkdir. Dediklərinizdən ötrü ancaq Allahdan kömək diləmək lazımdır!”**

17. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 239-240.

Təfsiri:

Allah-Təala Həzrət Yusifin qardaşlarının onu quyunun dərinliyinə atdıqdan sonra nə etdiklərindən xəbər verir. Belə ki, onlar gecənin qaranlığında ağlayaraq, Həzrət Yusif üçün kədərlərini və əndişələrini göstərərək atalarının yanına qayıtdılar və iddia etdikləri hadisəyə görə ondan üzr istəyib dedilər: **“Biz Yusifi** (patlarlarımızın və digər) **əşyalarımızın yanında qoyub yarışmaq** (atmaq) **üçün getmişdik. Canavar da onu yedi**. **Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən”**. Bu, onların cəhd etdiklərini təsdiq etdirmələri məqsədilə nümayiş etdirdikləri böyük bir ustalıq idi. Onlar belə deyirdilər: “Sənin yanında düzgün adamlar olsaq da, bizə əsla inanmayacağını bilirik. Həm də sənin bizi ittiham etdiyin məsələdə bizə heç inanmazsan. Çünki sən onu canavarın yeməsindən qorxmuşdun və həqiqətən də, onu canavar yedi. Baş verən bu qəribəliyə və bizim bu işimizdəki üst-üstə düşməyə görə sən bizi yalançı hesab etməkdə haqlısan”.

“Onlar (Yusifin) **köynəyinin üstünə yalandan bir qan** (ləkəsi yaxıb) **gətirmişdilər”**. Bu, onların müştərək etdikləri hiyləni təkid edən hərəkətlərindən idi. Belə ki, onlar bir oğlaq tutub kəsdilər və qanını Həzrət Yusifin (ə.s) paltarına sürtdülər. Beləliklə də, canavar Həzrət Yusifi (ə.s) yeyərkən onun üstündə olan köynəyin guya həmin köynək olduğu hissini verməyə çalışdılar. Ancaq köynəkdə qan olmasına baxmayaraq, onlar köynəyi cırmağı unutdular. Məhz bu səbəbdən onların hazırladıqları Allahın peyğəmbəri Həzrət Yaqub (ə.s) tərəfindən qəbul edilmədi. Əksinə,

onlarla danışmaqdan imtina edib, ürəyində Həzrət Yusifə (s.ə) qarşı onların hiylə etdikləri fikrini ifadə edərək belə dedi: **"Xeyr, sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir** (çirkin əməlinizi sizə gözəl göstərmişdir)**.** (Mənə) **yalnız gözəl səbir gərəkdir"**. Uca Allahın köməyi və lütfü ilə bu sıxıntıdan məni çıxaranadək sizin əlbir olub etdiyiniz bu işə qarşı mətanətlə səbir edəcəyəm. **"Dediklərinizdən ötrü ancaq Allahdan kömək diləmək lazımdır!"** Sizin dediyiniz yalan və etdiyiniz hiylələrlə bağlı yalnız Allahdan kömək istəmək lazımdır.[18]

"Səbri-cəmil" gözəl bir səbir mənasına gəlir. Bu, heç bir fəryadın, şikayətin və dözümsüzlüyün olmadığı bir səbirdir. "Səbri-cəmil" Uca Allahın qədim və külli iradəsi ilə istədiklərinin meydana gəlməsinə səbir etmək, təslim olmaq və səmimi-qəlbdən razı olmaqdır.[19]

İbn Abbas **"Dediklərinizdən ötrü ancaq Allahdan kömək diləmək lazımdır!"** ayəsi haqqında belə demişdir: "Əgər vəhşi bir heyvan onu yeməydi, köynəyi mütləq yırtılardı". Mücahid isə belə demişdir: "Ayədə qeyd edilən gözəl səbir əndişəsiz və qəm-qüssəsiz olan səbirdir". Hibban ibn Əbu Həblədən nəql edildiyinə görə, Rəsulullahdan (s.ə) səbri-cəmil/gözəl səbir haqqında soruşulmuş, o da belə buyurmuşdur: *"Heç bir şikayət olmayan səbirdir"*. Sövri belə demişdir: "Üç şey səbirdəndir: çəkdiyin ağrıdan danışmamağın, başına gələn müsibəti heç kəsə bildirməməyin və özünə bəraət qazandırmamağın". Buxari burada Həzrət

18. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 240.
19. Çelik, "Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri", II, 609.

Aişənin (r.ə) ifk hadisəsində dediyi bu sözü qeyd etmişdir: “Allaha and olsun ki, sizinlə mənim vəziyyətim barədə yalnız bir nümunə var, o da Həzrət Yusifin (s.ə) atasının sözüdür: **“**(Mənə) **yalnız gözəl səbir gərəkdir. Dediklərinizdən ötrü ancaq Allahdan kömək diləmək lazımdır!”**[20]

وَجَآءَتْ سَيَّارَةٌ فَأَرْسَلُوا وَارِدَهُمْ فَأَدْلٰى دَلْوَهُۥ ۖ قَالَ يَا
بُشْرٰى هٰذَا غُلَامٌ ۚ وَأَسَرُّوهُ بِضَاعَةً ۚ وَاللَّهُ عَلِيمٌ بِمَا
يَعْمَلُونَ ﴿١٩﴾ وَشَرَوْهُ بِثَمَنٍ بَخْسٍ دَرَاهِمَ مَعْدُودَةٍ ۚ
وَكَانُوا فِيهِ مِنَ الزَّاهِدِينَ ﴿٢٠﴾

19. Bir karvan gəldi və suçularını (su dalınca) **göndərdilər. O, su qabını** (quyuya) **saldı və: “Şad xəbər! Burada bir oğlan uşağı vardır!” – dedi.** (Karvan əhli) **onu satılacaq bir əşya kimi gizlədib saxladılar. Allah isə onların nə etdiklərini çox yaxşı bilirdi.**

20. Onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar. Onlar onu çox qiymətləndirmədilər.

20. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 240.

Təfsiri:

Həzrət Yusif (ə.s) orada üç gün qaldı. Məhəmməd ibn İshaqın bildirdiyinə görə, qardaşları onu quyuya atdıqdan sonra, nə edəcəyini və ona nə edildiyini görmək üçün onlar gün boyu quyunun ətrafında oturub gözlədilər. Çox keçmədən Allah-Təala bir karvanı quyu tərəfə yönləndirdi. Onlar quyunun yaxınlığında dayandılar və karvanın su daşıyanı quyuya gəlib su qabını aşağı salanda Həzrət Yusif (ə.s) həmin qabdan tutdu. Su daşıyan onu çıxardı və sevincək: **“Şad xəbər! Burada bir oğlan uşağı vardır!”** – dedi. **“**(Karvan əhli) **onu satılacaq bir əşya kimi gizlədib saxladılar”**. Yəni quyudan su çıxartmağa gələnlər Həzrət Yusifi (ə.s) öyrəndikləri təqdirdə qazancında onlara şərik olarlar qorxusu ilə karvandakı digər insanlardan gizlətdilər və: “Biz onu suyun sahiblərindən satın aldıq!” – dedilər. Bu ayə ilə bağlı İbn Abbas isə belə demişdir: “Yəni Həzrət Yusifin qardaşları onun vəziyyətini və öz qardaşları olduğunu karvandakılardan gizlətdilər. Həzrət Yusif də həmçinin qardaşlarının onu öldürmələrindən qorxduğu üçün bunu su daşıyanlardan gizlətdi və satılmağı üstün tutdu. Qardaşları bunu su daşıyana söylədilər. O da: **“Şad xəbər! Burada** (satılası) **bir oğlan uşağı vardır!”** – dedi. Beləcə, qardaşları onu satdılar”. **“Allah isə onların nə etdiklərini çox yaxşı bilirdi”**. Yəni Uca Allah Yusifin (ə.s) qardaşları ilə onu satın alanların etdiklərindən xəbərdar idi. Şübhəsiz ki, O bunu dəyişdirməyə və buna mane olmağa da qadir idi. Ancaq bunun bir hikməti və müəyyən edilmiş bir qədər vardı. Odur ki, Uca Allah müəyyən etdiyi qəzavü-qədəri həyata keçsin deyə müdaxilə etmədi: **“Bilin ki, yaratmaq da, əmr et-**

mək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır”.[21]

Qardaşları **“onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar”**. Ayədəki “بَخْس/bəxs” sözü “əskiklik, naqisk lik” mənasına gəlir. Uca Allahın başqa bir ayədə buyurduğu kimi: **“Rəbbinə iman gətirən, nə** (savabının) **əskilməsindən, nə də haqsızlığa uğramaqdan qorxmaz”**.[22] Yəni qardaşları onu çox ucuz qiymətə satdılar. Bununla yanaşı, onlar da onu çox qiymətləndirmədilər və ona qarşı heç bir rəğbətləri yox idi. Hətta onlardan pulsuz istənilsə, yenə də qəbul edəcəkdilər. İbn Abbas, Mücahid və Dəhhaka görə, ayədə olan “وَشَرَوْهُ/və onu satdılar” sözündəki zəmir/şəxs əvəzliyi Həzrət Yusifin qardaşlarına aiddir. Qətadəyə görə isə, bununla karvandakılar nəzərdə tutulur. Ancaq birinci rəy daha güclüdür. Çünki **“Onlar onu çox qiymətləndirmədilər”** ifadəsində karvandakılar yox, Həzrət Yusifin qardaşları nəzərdə tutulmuşdur. Çünki karvandakılar onu tapdıqları üçün şad olub sevinmiş və bir ticarət malı kimi gizlətmişdilər. Əgər onlar Həzrət Yusif barəsində istəksiz olsaydılar, onu satın almazdılar. Beləliklə də, ayədə olan “وَشَرَوْهُ/və onu satdılar” sözündəki zəmirin onun qardaşlarına aid olması daha məqsədəuyğundur.[23]

وَقَالَ الَّذِى اشْتَرٰيهُ مِنْ مِصْرَ لِامْرَاَتِهٖٓ اَكْرِمِى مَثْوٰيهُ
عَسٰٓى اَنْ يَنْفَعَنَآ اَوْ نَتَّخِذَهُ وَلَدًا ۭ وَكَذٰلِكَ مَكَّنَّا

21. Əraf, 7/54.
22. Cin, 72/13.
23. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 241.

لِيُوسُفَ فِى الْاَرْضِ وَلِنُعَلِّمَهُ مِنْ تَأْوِيلِ الْاَحَادِيثِ ۚ وَاللّٰهُ غَالِبٌ عَلٰٓى اَمْرِهٖ وَلٰكِنَّ اَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ ﴿٢١﴾ وَلَمَّا بَلَغَ اَشُدَّهٗٓ اٰتَيْنَاهُ حُكْمًا وَعِلْمًا ۚ وَكَذٰلِكَ نَجْزِى الْمُحْسِنِينَ ﴿٢٢﴾

21. Onu satın alan misirli öz arvadına: "Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək!" – dedi. Beləliklə, Yusifi yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların çoxu (bunu) **bilmir.**

22. (Yusif) **yetkin çağına çatdıqda Biz ona mühakimə yürütmək** (bacarığı) **və elm verdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.**

Təfsiri:

Uca Allah Həzrət Yusifi (ə.s) satın alan Misirdən olan adamı sırf onun üçün göndərdiyini, misirlinin də ona əhəmiyyət verib yaxşı baxdığını, ailəsinə onunla yaxşı rəftar etməyi tapşırdığını, onda xeyirxahlıq və düzgünlük əlamətlərini hiss etdiyini bildirir. O, yoldaşına belə dedi: **"Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək!"** Misirdə onu satın alan Misir əzizi, yəni oranın

vəziri idi. İbn Abbasdan nəql olunduğuna görə, onun adı Qitfir idi və o, Misir xəzinələrinə başçılıq edirdi. O dövrün kralı da Əmaliqədən olan Rəyyan ibn Vəlid, onun arvadı isə Rail adlı bir qadın idi. Digərləri isə onun adının Züleyxa olduğunu bildirmişlər. Abdullah ibn Məsud belə demişdir: "İnsanların ən fərasətliləri üç nəfərdir: arvadına: **"Ona yaxşı bax!"** – deyən misirli əziz; atasına: "Atacan! Onu muzdla işə götür (çoban tut)!" – deyən qız və Həzrət Öməri xəlifə qoyub gedən Həzrət Əbu Bəkr".

Allah-Təala ayənin davamında buyurur: **"**(Biz Yusifi qardaşlarından xilas etdiyimiz kimi) **Beləliklə, Yusifi yer üzündə** (Misirdə) **yerləşdirdik və ona hadisələri** (yuxuları) **yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır"**. Allah-Təala bir şey istəyən zaman əsla ona mane oluna bilməz və qarşı çıxıla bilməz. Əksinə, hər şeyə qalib gələn və hakim olan məhz Odur. **"Lakin insanların çoxu** (bunu) **bilmir"**. Uca Allahın yaratdıqlarındakı hikmətlərini və istədiyinə lütf etməsini dərk etməzlər.

"(Yusif) **yetkin çağına** (əqli və fiziki baxımdan kamilliyə) **çatdıqda Biz ona mühakimə yürütmək** (bacarığı) **və elm verdik"**. Uca Allah o qövmlər arasında peyğəmbərliyi məhz ona bəxş etmişdi. **"Biz yaxşı iş görənləri belə mükafatlandırırıq"**. Çünki o, əməllərində yaxşı olan və Rəbbinə qarşı itaətkar bir bəndə idi.[24]

Beləliklə də, Uca Allah Həzrət Yusifi Misirdə imkanlı, yüksək intelektə malik, dövrət idarəçiliyində təcrübəsi olan bir ailənin yanına yerləşdirmiş və bunun nəticəsində də Həz-

[24] İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 242.

rət Yusif bu imkanlardan istifadə edərək özünü inkişaf etdirmişdir. Həzrət Yusif yetkinlik yaşına çatdıqdan sonra isə Uca Allah ona “hökm və elm” bəxş etmişdir. Belə ki, onu dövlət idarəsində maliyə naziri kimi çox mühüm bir vəzifəyə gətirmişdir. Həzrət Yusifə bəxş edilən “hökm” onun idarəçiliyi və mühakimə qabiliyyəti, “elm” isə onun peyğəmbərliyi və buna əlavə olaraq ona bəxş edilən hadisələri şərh etmə və röyaları yozma qabiliyyətidir.[25]

وَرَاوَدَتْهُ الَّتِی هُوَ فِی بَیْتِهَا عَنْ نَفْسِهٖ وَغَلَّقَتِ الْاَبْوَابَ وَقَالَتْ هَیْتَ لَكَ ؕ قَالَ مَعَاذَ اللّٰهِ اِنَّهٗ رَبِّیْۤ اَحْسَنَ مَثْوَایَ ؕ اِنَّهٗ لَا یُفْلِحُ الظّٰلِمُوْنَ ﴿۲۳﴾

23. Evində qaldığı qadın onu yoldan çıxartmaq istədi və qapıları bağlayıb: “Yanıma gəl!” – dedi. O isə: “Mən Allaha sığınıram! Axı (sənin ərin) **mənim ağamdır, mənə yaxşı baxmışdır. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!” – dedi.**

Təfsiri:

Allah-Təala Həzrət Yusifin evində qaldığı Misir əzizinin arvadından xəbər verir. Belə ki, əri ona Həzrət Yusifə yaxşı baxmasını əmr etmişdi. Ancaq qadın **“onu yoldan çıxartmaq istədi”**, onu özünə tərəf dəvət etdi. Çünki yaraşıqlı və

25. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 612.

sevimli olduğuna görə ona vurulmuşdu. Məhz bu, onu Həzrət Yusif üçün bəzənməyə, qapıları bağlamağa və özünə tərəf çağırmağa sövq etdi. **“Yanıma gəl!” – dedi”**. Həzrət Yusif bundan qətiyyətlə imtina edib: **“Mən Allaha sığınıram! Axı** (sənin ərin) **mənim ağamdır…”, – dedi”**. Onlar “rəbb” kəlməsini ağa və böyük mənasında istifadə edirdilər. Yəni sənin ərin mənim ağamdır, o mənə yaxşı baxdı, mənim yaşayışımı yaxşılaşdırdı. Ona görə də, mən bunun müqabilində onun ailəsinə qarşı pislik edə bilmərəm. **“Şübhəsiz ki, zalımlar nicat tapmazlar!”**

Ayədəki “هَيْتَ لَكَ/heytə lək” ifadəsində qarelər ixtilaf etmişlər. Belə ki, onların əksəriyyəti buradakı kimi “هَيْتَ لَكَ” deyə oxumuşlar. İbn Abbas və Mücahidə görə, qadın bu sözü ilə onu özünə tərəf çağırmışdır. Buxarinin bildirdiyinə görə, İkrimə belə demişdir: “Bu, Həvrani dilində “gəl” deməkdir”. Təbəri də şeirdən dəlil gətirərək “gəl, yaxınlaş” mənasında olduğunu bildirmişdir. Digər qarelər isə sözügedən ifadəni “sənin üçün hazırlandım” mənasına gələn “هِئْتُ لَكَ/hitü lək” kimi oxumuşlar.[26]

وَلَقَدْ هَمَّتْ بِهٖ ۚ وَهَمَّ بِهَا لَوْلَآ اَنْ رَّاٰ بُرْهَانَ رَبِّهٖ ۗ كَذٰلِكَ
لِنَصْرِفَ عَنْهُ السُّوْۤءَ وَالْفَحْشَآءَ ۗ اِنَّهٗ مِنْ عِبَادِنَا
الْمُخْلَصِيْنَ ﴿٢٤﴾

24. Doğrudan da (qadın) **ona meyil salmışdı. Əgər Rəbbinin bürhanını** (də-

[26] İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 242.

lilini, xəbərdarlığını) **görməsəydi,** (Yusif də) **ona meyil edərdi. Biz pisliyi və çirkinliyi** (zinanı) **ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim ixlaslı bəndələrimizdəndir.**

Təfsiri:

Bu ayənin təfsirində müxtəlif fikir və rəylər vardır. Belə ki, bir rəyə görə, Həzrət Yusifin meyil etməsi "öz-özünə düşünüb ürəyindən keçirməsi" mənasına gəlir. Bunu Bəğəvi bəzi təhqiqatçı alimlərdən nəql etmiş, sonra da Əbu Hüreyrədən nəql edilən bir hədisi-şərifi qeyd etmişdir. Belə ki, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Allah-Təala: "Bəndəm bir yaxşılığa niyyət edərsə, bunun müqabilində onun üçün bir savab yazın. Əgər həmin yaxşılığı edərsə, on qat savab yazın. Bir pislik etməyə niyyət edib onu həyata keçirməzsə, ona bir savab yazın. Çünki onu sırf Mənim üçün tərk etmişdir. Əgər onu edərsə, onu misli ilə yazın!" – buyurur".*[27]

Başqa bir rəyə görə, Həzrət Yusif onu vurmağı ürəyindən keçirdi. Digər bir fikrə görə isə, onunla evlənməyi düşündü.

Ayədə qeyd olunan Həzrət Yusifin (ə.s) gördüyü bürhan, yəni işarə və xəbərdarlığın nə olduğu ilə bağlı da müxtəlif fikirlər var. Belə ki, bir fikrə görə, Həzrət Yusif atası Yaqubu (ə.s) barmağını dişləyən halda gördü. Digər bir rəyə görə,

27. Müslim, "İman", 204; Buxari, "Təvhid", 35.

o, kralın, yəni xəyalında ağasının surətini canlandırdı. Təbəri Məhəmməd ibn Kəb əl-Qürəzidən belə nəql etmişdir: "Həzrət Yusif (ə.s) başını evin tavanına tərəf qaldırdı və orada **"Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!"**[28] ayəsini gördü". Başqa bir rəyə görə isə, orada **"Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır"**,[29]**"Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız** (onları etdiyiniz) **zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda** (lövhi-məhfuzda) **olmasın!"**[30] və **"Hər kəs öz əməlinin girovudur"**[31] ayələri olmaqla üç ayəni gördü. Təbəriyə görə, bu məsələdə ən doğrusu belə deməkdir: "Həzrət Yusif Uca Allah tərəfindən onun meyil etdiyi işə mane olan işarə və xəbərdarlıq görmüşdür. Belə ki, bu, Həzrət Yaqubun (ə.s) surəti, kralın surəti və ya ona əngəl olan bir yazının görülməsi ola bilər. Bunlardan müəyyən birinin olmasına dair hər hansı qəti bir dəlil yoxdur. Odur ki, düzgün olan bu məsələni Uca Allahın buyurduğu kimi ümumi qeyd etməkdir".

Allah-Təala ayənin davamında buyurur: **"Biz pisliyi və çirkinliyi** (zinanı) **ondan sovuşdurmaq üçün belə etdik"**. Yəni onu düşdüyü vəziyyətdən xilas etmək üçün

28. İsra, 17/32.
29. İnfitar, 82/10.
30. Yunis, 10/61.
31. Müddəssir, 74/38.

işarə göstərdiyimiz kimi, digər bütün hallarda da pislikdən və çirkinlikdən qoruyarıq. **“O, həqiqətən, Bizim ixlaslı bəndələrimizdəndir”**. O, seçilmiş və təmizlənmiş insanlardandır.[32]

Odur ki, ayədəki işarə, dəlil və xəbərdarlıq mənasına gələn “bürhan” kəlməsi Uca Allahdan gələn bir ilham mənasını daşıyır. Belə olan təqdirdə qadının təhrikləri qarşısında Həzrət Yusifdə ona yaxınlaşma istəyi və arzusu əmələ gəlmiş, lakin Uca Allahdan gələn bir ilham sayəsində bu çirkin işin haram olduğunu xatırlamış və qadına yaxınlaşmamışdır. Ayənin davamında da Həzrət Yusifin bu əməldən mühafizə olunduğu aydın olur. Bu hadisə peyğəmbərlərin peyğəmbərlikdən əvvəl də böyük günah işləməkdən qorunduqları fikrini dəstəkləyir.[33]

وَاسْتَبَقَا الْبَابَ وَقَدَّتْ قَمِيصَهُ مِنْ دُبُرٍ وَاَلْفَيَا سَيِّدَهَا
لَدَا الْبَابِ ۗ قَالَتْ مَا جَزَآءُ مَنْ اَرَادَ بِاَهْلِكَ سُوٓءًا اِلَّآ
اَنْ يُسْجَنَ اَوْ عَذَابٌ اَلِيمٌ ﴿٢٥﴾ قَالَ هِيَ رَاوَدَتْنِي
عَنْ نَفْسِي وَشَهِدَ شَاهِدٌ مِنْ اَهْلِهَآ ۚ اِنْ كَانَ قَمِيصُهُ
قُدَّ مِنْ قُبُلٍ فَصَدَقَتْ وَهُوَ مِنَ الْكَاذِبِينَ ﴿٢٦﴾ وَاِنْ
كَانَ قَمِيصُهُ قُدَّ مِنْ دُبُرٍ فَكَذَبَتْ وَهُوَ مِنَ الصَّادِقِينَ

32. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 243.
33. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 1763.

فَلَمَّا رَاٰ قَمِيصَهُ قُدَّ مِنْ دُبُرٍ قَالَ اِنَّهُ مِنْ كَيْدِكُنَّ ﴿٢٧﴾
اِنَّ كَيْدَكُنَّ عَظِيمٌ ﴿٢٨﴾ يُوسُفُ اَعْرِضْ عَنْ هٰذَا
وَاسْتَغْفِرِى لِذَنْبِكِ ۚ اِنَّكِ كُنْتِ مِنَ الْخَاطِئِينَ ﴿٢٩﴾

25. Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında qadının əri ilə rastlaşdı. (Qadın) **dedi: “Sənin ailənə pislik etmək istəyənin cəzası, zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!”**

26. (Yusif) **dedi: “O məni yoldan çıxartmaq istəyirdi”.** (Qadının) **ailəsindən olan bir şahid belə şahidlik etdi: “Əgər onun köynəyi öndən cırılıbsa,** (qadın) **doğru deyir, o isə yalançılardandır.**

27. Yox əgər onun köynəyi arxadan cırılıbsa, (qadın) **yalan deyir, o isə doğru danışanlardandır”.**

28. (Qadının əri) **onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: “Şübhəsiz ki, bu sizin** (qadın) **hiylələrinizdəndir. Həqiqətən də, sizin hiyləniz böyükdür.**

29. Yusif, sən bundan (bu işi açıb danışmaqdan) **vaz keç! Sən də** (ey arvad)**, günahına görə bağışlanma dilə. Çünki sən, həqiqətən, günah edənlərdənsən”.**

Təfsiri:

Allah-Təala Həzrət Yusif (ə.s) ilə qadının qapıya tərəf yüyürmə səhnəsindən xəbər verir. Belə ki, Həzrət Yusif qaçır, qadın da otağa qayıtması üçün onun arxasınca qaçırdı. Məhz həmin vaxt qadın Həzrət Yusifə çataraq arxadan köynəyindən tutub başdan ayağa cırdı. Beləliklə, Hərət Yusif qaçmağa davam edir, qadın da onun arxasınca gedirdi. Qapıda ikisi də birdən Həzrət Yusifin ağası və qadının da əri olan adamla qarşılaşdılar. Qadın dərhal hiyləgərlik edərək düşdüyü vəziyyətdən çıxmaq üçün Həzrət Yusifə böhtan ataraq belə dedi: **“Sənin ailənə pislik** (əxlaqsızlıq) **etmək istəyənin cəzası, zindana salınmaqdan** (həbs edilməkdən) **və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən** (yaxşıca əzişdirilməkdən) **başqa nə ola bilər?!”** Məhz bu vaxt Həzrət Yusif (ə.s) həqiqəti ortaya qoymağa müvəffəq oldu və qadının xəyanətlə bağlı böhtanından bəraət qazandı.

Həzrət Yusif (ə.s) yaxşılıqla və dürüst bir şəkildə: **“O məni yoldan çıxartmaq istəyirdi”**, – dedi. Beləliklə də, qadının onun arxasınca gələrək özünə tərəf çəkməyə cəhd etdiyini, hətta köynəyini cırdığını bildirdi. **“**(Qadının) **ailəsindən olan bir şahid belə şahidlik etdi: “Əgər onun köynəyi öndən cırılıbsa,** (qadın) **doğru deyir, o isə yalançılardandır”**. Yəni Həzrət Yusifin onu yoldan çıxartmaq istədiyi ilə bağlı sözündə qadın doğrudur. Çünki Həzrət Yusif onu dəvət etdikdə qəbul etməz və sinəsindən itələyərsə, köynəyini qabaq tərəfdən cırar və bunun nəticəsində də onun dediyi doğru olardı. **“Yox əgər onun köynəyi arxadan cırılıbsa,** (qadın) **yalan deyir, o isə doğru**

danışanlardandır”. Həqiqətən də, belə olmuşdu. Həzrət Yusif (ə.s) qaçıb qadın onun arxasınca gedərkən özünə tərəf çevrilməsi üçün köynəyini arxadan cırmışdı.

“(Qadının əri) **onun köynəyinin arxadan cırıldığını gördükdə…”**. Yəni qadının əri arvadının böhtan atdığı məsələdə Həzrət Yusifin haqlı olduğu, arvadının isə yalançı olduğundan əmin olduqda **“dedi: “Şübhəsiz ki, bu sizin** (qadın) **hiylələrinizdəndir”**. Yəni cavan oğlana atdığın böhtan və bulaşdırdığın ləkə sizin hiylələrinizdəndir. **“Həqiqətən də, sizin hiyləniz böyükdür”**. Sonra da Həzrət Yusifə baş verənləri gizli saxlamasını əmr edərək dedi: **“Yusif, sən bundan** (bu işi açıb danışmaqdan) **vaz keç!”** Heç kəsə baş verənlər haqqında bir şey demə.**“Sən də** (ey arvad)**, günahına görə bağışlanma dilə”**. O, ya çox yumşaqxasiyyətli idi və yaxud qadının görüb səbir edə bilməyəcəyi qədər çətin bir vəziyyət olduğunu başa düşüb onu üzrlü hesab etdi və ona dedi: “Bu cavana etdiyin pislikdən sonra üstəlik günahsız olduğu halda bir də böhtan atdığın üçün Allahdan bağışlanma istə!” **“Çünki sən, həqiqətən, günah edənlərdənsən”**.[34]

وَقَالَ نِسْوَةٌ فِى الْمَدِينَةِ امْرَاَتُ الْعَزِيزِ تُرَاوِدُ فَتٰيهَا
عَنْ نَفْسِهٖ ۚ قَدْ شَغَفَهَا حُبًّا ۭ اِنَّا لَنَرٰيهَا فِى ضَلَالٍ
مُّبِينٍ ﴿٣٠﴾ فَلَمَّا سَمِعَتْ بِمَكْرِهِنَّ اَرْسَلَتْ اِلَيْهِنَّ

34. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 243-244.

وَاَعْتَدَتْ لَهُنَّ مُتَّكَـًٔا وَّاٰتَتْ كُلَّ وَاحِدَةٍ مِّنْهُنَّ سِكِّيْنًا
وَّقَالَتِ اخْرُجْ عَلَيْهِنَّ ۚ فَلَمَّا رَاَيْنَهٗٓ اَكْبَرْنَهٗ وَقَطَّعْنَ
اَيْدِيَهُنَّ وَقُلْنَ حَاشَ لِلّٰهِ مَا هٰذَا بَشَرًا ؕ اِنْ هٰذَآ اِلَّا
مَلَكٌ كَرِيْمٌ ﴿٣١﴾ قَالَتْ فَذٰلِكُنَّ الَّذِىْ لُمْتُنَّنِىْ فِيْهِ ؕ
وَلَقَدْ رَاوَدْتُّهٗ عَنْ نَّفْسِهٖ فَاسْتَعْصَمَ ؕ وَلَئِنْ لَّمْ يَفْعَلْ مَآ
اٰمُرُهٗ لَيُسْجَنَنَّ وَلَيَكُوْنًا مِّنَ الصّٰغِرِيْنَ ﴿٣٢﴾ قَالَ رَبِّ
السِّجْنُ اَحَبُّ اِلَىَّ مِمَّا يَدْعُوْنَنِىْٓ اِلَيْهِ ۚ وَاِلَّا تَصْرِفْ
عَنِّىْ كَيْدَهُنَّ اَصْبُ اِلَيْهِنَّ وَاَكُنْ مِّنَ الْجٰهِلِيْنَ ﴿٣٣﴾
فَاسْتَجَابَ لَهٗ رَبُّهٗ فَصَرَفَ عَنْهُ كَيْدَهُنَّ ؕ اِنَّهٗ هُوَ السَّمِيْعُ
الْعَلِيْمُ ﴿٣٤﴾

30. Şəhərdəki qadınlar dedilər: “Zadəganın (arvadı) **cavanı** (cavan qulunu) **tovlayıb yoldan çıxartmaq** (onunla yaxınlıq etmək) **istəyir.** (Yusifin) **məhəbbəti onun bağrını qan etmişdir. Biz onun açıq-aşkar** (doğru) **yoldan çıxdığını görürük”.**

31. (Züleyxa qadınların) **gizli dedi-qodularını (məkrini) eşitdikdə onlara xəbər göndərib ziyafətə dəvət etdi, onlar üçün**

gözəl (mütəkkələrlə, xalılarla döşənmiş bir otaqda ləziz təamlardan ibarət) **bir məclis düzəltdi. Onların hər birinə** (meyvə kəsib soymaq üçün) **bir bıçaq verdi, sonra** (Yusifə)**: “Onların qarşısına çıx!” – deyə əmr etdi.** (Qadınlar Yusifi) **gördükdə** (gözəlliyinə heyran olub) **onu həddindən artıq tərifləmədilər və** (özlərini itirib əllərindəki turuncun qabığını soymaq əvəzinə) **əllərini kəsdilər. Onlar: “Aman Allah! Bu ki, bəşər deyildir. Bu ancaq** (Allah yanında) **möhtərəm (əziz) olan bir mələkdir!” – dedilər.**

32. (Qadın) **dedi: “Barəsində məni qınadığınız** (oğlan) **bax budur! Mən onu yoldan çıxartmağa çalışdım, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır”.**

33. (Yusif) **dedi: “Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdiklərindən xoşdur. Əgər** (bu qadınların) **hiyləsini məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram”.**

34. Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, hər şeyi eşidəndir, biləndir.

Təfsiri:

Allah-Təala Həzrət Yusif ilə zadəganın arvadının xəbərinin şəhərdə –Misirdə yayıldığını və insanlar öz aralarında bunun barəsində danışdıqlarını belə xəbər verir: **"Şəhərdəki qadınlar** (böyük dövlət adamlarının və əmirlərin arvadları ayıblayaraq, tənqid edərək) **dedilər: "Zadəganın** (vəzirin) **arvadı cavanı** (cavan qulunu) **tovlayıb yoldan çıxartmaq** (onunla yaxınlıq etmək) **istəyir** (onu özünə dəvət edir)**.** (Yusifin) **məhəbbəti onun bağrını qan etmişdir"**; yəni onun məhəbbəti qadının ürəyinin dərinliyinə qədər işləmişdir. Dəhhak İbn Abbasdan belə nəql etmişdir: "Sözügedən kəlmələrdən "şəğf" sözü "öldürücü məhəbbət", "şəğaf" isə "ürəyin pərdəsi" mənasına gəlir". **"Biz onun açıq-aşkar** (doğru) **yoldan çıxdığını görürük"**. Cavan quluna aşiq olmasında və onu yoldan çıxarmasında **"...onun açıq-aşkar** (doğru) **yoldan çıxdığını görürük"**.

"(Züleyxa qadınların) **gizli dedi-qodularını** (məkrini) **eşitdikdə"**; bəzilərinə görə, qadınların dedi-qoduları "eşq, məhəbbət onu məhv etmişdir" sözləri idi. Məhəmməd ibn İshaq belə demişdir: "Onlar da Həzrət Yusifin yaraşıqlığı haqqında eşitmişdilər və onu görmək istəyirdilər. Məhz bu sözlərini də onunla qarşılaşıb onu görə bilmək üçün demişdilər". Bunu eşidən Züleyxa **"onlara xəbər göndərib** (onları evinə) **ziyafətə dəvət etdi, onlar üçün gözəl** (mütəkkələrlə, xalılarla döşənmiş bir otaqda ləziz təamlardan ibarət) **bir məclis düzəltdi"**. İbn Abbas belə demişdir: "Məclisdə örtülər, yastıqlar və yeməklər hazırlanmışdı. Bıçaqla kəsilən portağal və buna oxşar meyvələr vardı". Məhz bu səbəbdən

Allah-Təala buyurur: **“Onların hər birinə** (meyvə kəsib soymaq üçün) **bir bıçaq verdi”**. Bu, onun qadınlara qurduğu bir tələ, Həzrət Yusifi görə bilmək üçün etdikləri hiylələrinə başqa bir hiylə ilə verilən bir cavab idi. **“...sonra** (Yusifə)**: “Onların qarşısına çıx!” – deyə əmr etdi”**. Ona görə ki, o, Həzrət Yusifi başqa bir yerdə gizlətmişdi. Həzrət Yusif çıxıb (qadınlar onu) **gördükdə** (gözəlliyinə heyran olub) **onu həddindən artıq tərifl ədilər və** (özlərini itirib əllərindəki turuncun qabığını soymaq əvəzinə) **əllərini kəsdilər”**. Yəni onu ucaltdılar və gördüklərinin dəhşətindən bıçaqlarla portağal əvəzinə əllərini kəsməyə başladılar. Halbuki onlar portağalları kəsdiklərini sanırdılar. Bir çoxları bildirmişlər ki, qadınlar əllərini yarmışdılar. Həmçinin bir çoxlarının qeyd etdiklərinə görə, qadınlar yemək yedikdən və kefləri yerinə gəldikdən sonra Züleyxa onların qabaqlarına portağal qoydu və onların hər birinə bıçaq verib: “Yusifi görmək istəyirsinizmi?” – deyə soruşdu. Onlar: “Bəli!” – deyə cavab verdilər. O da bir nəfəri göndərərək Yusifin qadınların qarşısına çıxmasını əmr etdi. Qadınlar onu görən kimi əllərini kəsməyə başladılar. Ağrını hiss edən kimi dərhal arxalarını döndülər. Qadın: “Siz bir baxışda belə edərkən, mən etdiyim davranışa görə nə üçün məzəmmət olunuram?!” – dedi.[35]

“Onlar: “Aman Allah! Bu ki, bəşər deyildir. Bu ancaq (Allah yanında) **möhtərəm** (əziz) **olan bir mələkdir!” - dedilər”**. Sonra qadınlar ona dedilər: “Bizim bu gördüyümüzdən sonra sənin hər hansı qınanmalı bir tərəfin olduğunu görmürük”. Çünki onlar insanlar arasında onun

35. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 245.

oxşarını və ya ona yaxın olan birisini görməmişdilər. Çünki ona gözəlliyin yarısı verilmişdi. O cümlədən İsra gecəsi ilə bağlı bir hədisi-şərifdə qeyd edildiyinə görə, Rəsulullah (s.ə.s) üçüncü səmada Həzrət Yusifi gördü. Rəsulullah (s.ə.s) buyurur ki: *"Bir də gördüm ki, ona gözəlliyin yarısı verilib!"*[36]

"(Qadın) **dedi: "Barəsində məni qınadığınız** (oğlan) **bax budur!"** Bunu dilə gətirərkən gözəlliyi və mükkəmməlliyi səbəbilə Həzrət Yusifin sevilməyə layiq olduğunu dərk etmələrini təmin edərək özünün bu məsələdə üzrlü olduğunu ortaya qoymaq istəyirdi. **"Mən onu yoldan çıxartmağa çalışdım, o isə imtina etdi"**. Bəziləri belə demişlər: "Qadınlar onun zahiri gözəlliyini görəndə onlar tərəfindən görünməyən gözəl xüsusiyyətləri haqqında da məlumat verdi. Məhz o xüsusiyyət onun gözəlliyi ilə birgə olan namusu idi". Sonra da Həzrət Yusifi təhdid edərək dedi**: "Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır"**. Məhz bu vaxt Həzrət Yusif onların şərlərindən və hiylələrindən Allaha sığınaraq dedi: **Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdiklərindən** (zinadan) **xoşdur. Əgər** (bu qadınların) **hiyləsini məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram"**. Yəni məni öz nəfsimə tərk etsən, mənim ona qarşı qüdrətim yoxdur. Verdiyin güc və qüvvət olmadan ona nə bir zərər, nə də bir xeyir verə bilərəm.

"Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, hər şeyi eşidəndir,

36. Müslim, "İman", 74.

biləndir”. Uca Allah Həzrət Yusifi möhkəm qoruyub Öz himayəsinə aldıqdan sonra o, bundan qəti şəkildə imtina etdi və bunun müqabilində zindanı seçdi. Məhz bu, kamillik dərəcəsinin zirvəsidir. Çünki cavanlığı, gözəlliyi və mükəmməl xüsusiyyətləri ilə Həzrət Yusifi Misir vəzirinin arvadı olan olduqca gözəl, varlı və yüksək möqeyə sahib olan bir qadın özünə dəvət edir, o isə Uca Allahdan qorxaraq və savabını sırf Ondan umaraq bundan imtina edib müqabilində zindanı seçir. Bu səbəbdən bir hədisi-şərifdə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *“Yeddi nəfər var ki, Uca Allah Öz kölgəsindən başqa heç bir kölgənin olmadığı bir gündə onları Öz kölgəsində kölgələndirəcəkdir”*. Məhz onlardan birinin də *“gözəl və yüksək mövqeyə sahib olan bir qadının zinaya dəvət etməsinə rəğmən ona: “Mən Allahdan qorxuram!” – deyə cavab verən bir adam”* olduğunu bildirmişdir.[37]

ثُمَّ بَدَا لَهُمْ مِنْ بَعْدِ مَا رَاَوُا الْاٰيَاتِ لَيَسْجُنُنَّهُ حَتّٰى حِيْنٍ ع ٣٥

35. (Bu qədər) **dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər.**

Təfsiri:

Allah-Təala buyurur: “Onlar Yusifin (ə.s) günahsız olduğunu bildikdən və onun təmiz olduğuna dair dəlillər ortaya

37. Buxari, “Azan”, 36; Müslim, “Zəkat”, 30.

çıxdıqdan sonra yenə də onu bir müddət zindana salmağın daha faydalı olduğu qənaətinə gəldilər”. Sözügedən dəlillər Həzrət Yusifin namus və paklığında doğruluğu təsdiq edirdi. Ancaq onlar xəbərin yayılması nəticəsində Həzrət Yusifi zindana ataraq, sanki qadını yoldan çıxarmaq istəyənin Yusif olduğuna və bunun nəticəsində zindana saldıqlarına eyham vurmaq istəyirdilər. Ona görə də, daha sonra kral yanına çağırdıqda Həzrət Yusif özünə nisbət edilən xəyanətdən uzaq olduğu ortaya çıxanadək zindandan çıxmadı. Günahsız olduğu dəqiqləşdikdən sonra təmiz və alnıaçıq çıxdı.[38]

وَدَخَلَ مَعَهُ السِّجْنَ فَتَيَانِ ۖ قَالَ اَحَدُهُمَآ اِنِّىٓ اَرٰىنِىٓ
اَعْصِرُ خَمْرًا ۚ وَقَالَ الْاٰخَرُ اِنِّىٓ اَرٰىنِىٓ اَحْمِلُ فَوْقَ
رَأْسِى خُبْزًا تَأْكُلُ الطَّيْرُ مِنْهُ ۖ نَبِّئْنَا بِتَأْوِيلِهٖ ۚ اِنَّا نَرٰىكَ
مِنَ الْمُحْسِنِينَ ﴿٣٦﴾

36. Onunla birlikdə iki cavan oğlan da zindana girdi. Onlardan biri dedi: “Mən (yuxuda) **gördüm ki, şərab sıxıram”. Digəri isə belə dedi: “Mən gördüm ki, başımın üstündə çörək aparıram, quşlar da ondan yeyir. Gəl bu yuxunu bizə yoz. Biz, həqiqətən, sənin yaxşı adamlardan olduğunu görürük!”**

38. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 246.

Təfsiri:

Rəvayətə görə, iki cavan oğlandan biri kralın saqisi (şərab paylayanı), digəri isə aşpazı idi. Kral onları yeməklərinə və içkilərinə zəhər qatmağı planlaşdırdıqlarından şübhələnərək zindana atmışdı.

Həzrət Yusif zindanda comərd, əmanətə sadiq, çox ibadət edən, yuxu yozmağı bilən, həbsdə olanlara yaxşılıq edən bir şəxs kimi məşhur olmuşdu. Belə ki, Həzrət Yusif həbsdə xəstələri ziyarət edər, onları müalicə etməyə çalışıb baxımlarını edərdi. Eləcə də kədərli olanlara təsəlli verər, fikir çəkənlərin sıxıntısını aradan qaldırmağa çalışar və möhtac vəziyyətdə olanlara köməklik göstərərdi.[39]

Bu iki cavan da zindana girən kimi onunla tanış olub qaynayıb qarışdılar və onu çox sevdilər. Ona: “Allaha and olsun ki, səni çox sevdik!” – dedilər. Həzrət Yusif də: “Allah hər bir şeydə sizə bərəkət versin! Ancaq məni sevən hər bir kəsin sevgisindən mənə bir zərər toxunmuşdur. Belə ki, bibim məni sevmiş, bunun nəticəsndə mənə zərər gəlmişdi. Atam məni sevdi, ondan ötrü mənə əzab-əziyyət verildi. Vəzirin arvadı məni sevdi və bunun ucbatından yenə zərər mənə dəydi”, – dedi. Onlar: “Allaha and olsun ki, bu bizdən asılı deyil!” – dedilər. Sonra onların hər biri bir yuxu gördü. Belə ki, saqi özünü şərab və ya üzüm sıxarkən gördü və yuxusunu belə danışdı: “Yuxumda üzüm əkdim, yetişdi və ondan üzüm salxımları çıxdı. Onları sıxdım, sonra krala təqdim etdim”. Bunun müqabilində Həzrət Yusif ona: “Sən zindanda üç gün qalıb çıxacaq və krala içki təqdim edəcəksən”, – dedi. Aşpaz olan digəri isə: **“Mən gördüm ki,**

[39] Qurtubi, “əl-Came li-əhkamil-Quran”, IX, 190.

başımın üstündə çörək aparıram, quşlar da ondan yeyir”, – dedi”.[40]

قَالَ لَا يَأْتِيكُمَا طَعَامٌ تُرْزَقَانِهٖٓ اِلَّا نَبَّأْتُكُمَا بِتَأْوِيلِهٖ قَبْلَ
اَنْ يَأْتِيَكُمَاۗ ذٰلِكُمَا مِمَّا عَلَّمَنِى رَبِّىۗ اِنِّى تَرَكْتُ مِلَّةَ
قَوْمٍ لَا يُؤْمِنُونَ بِاللّٰهِ وَهُمْ بِالْاٰخِرَةِ هُمْ كَافِرُونَ ﴿٣٧﴾
وَاتَّبَعْتُ مِلَّةَ اٰبَآءِىٓ اِبْرٰهِيمَ وَاِسْحٰقَ وَيَعْقُوبَۗ مَا كَانَ
لَنَآ اَنْ نُشْرِكَ بِاللّٰهِ مِنْ شَىْءٍۗ ذٰلِكَ مِنْ فَضْلِ اللّٰهِ عَلَيْنَا
وَعَلَى النَّاسِ وَلٰكِنَّ اَكْثَرَ النَّاسِ لَا يَشْكُرُونَ ﴿٣٨﴾

37. O dedi: “Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinini tərk etmişəm.

38. Mən ata-babalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Bizə heç bir şeyi Allaha şərik qoşmaq yaraşmaz. Bu (tövhid) **Allahın bizə və** (bütün) **insanlara bəxş etdiyi nemətdir, lakin insanların əksəriyyəti** (Ona) **şükür etməz!**

40. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 246.

Təfsiri:

Həzrət Yusif zindandakı yoldaşlarına yuxularında gördükləri hər bir röyanın yozumunu bildiyini və baş vermədən əvvəl onu xəbər verə bildiyini söyləmişdi. Bu səbəbdən onlara belə deyir: **“Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm”**. Sonra Həzrət Yusif (ə.s) belə deyir: “Şübhəsiz ki, bu, Uca Allahın mənə öyrətməsi ilədir. Çünki mən Allahı və axirət gününü inkar edən, yenidən yaradılma günündə hər hansı bir mükafat və ya cəzasına dair bir ümidi olmayan bir millətdən uzaq durdum və **“mən ata-babalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum”**. Küfr və şirk yolunu tərk edib peyğəmbərlərin yolundan getdim. Hidayət yoluna girən, peyğəmbərlərin yoluna tabe olan və zəlalətdə olanların yolundan üz döndərənin halı məhz belədir. Çünki Uca Allah onun qəlbini doğruya yönəldər, ona bilmədiklərini öyrədər və onu xeyirdə tabe olunan rəhbər və doğru yolun dəvətçisi edər”.[41]

“Bizə heç bir şeyi Allaha şərik qoşmaq yaraşmaz. Bu (tövhid) **Allahın bizə və** (bütün) **insanlara bəxş etdiyi nemətdir…”**. Tək və bir olan, heç bir şəriki olmayan Allahdan başqa heç bir məbud olmadığını iqrar edib qəbul etmək olan tövhid Allahın bizə və bütün insanlara bəxş etdiyi nemətdir. Uca Allah onu bizə əmr etmiş, bizi onları doğru yola çağıran dəvətçilər etmiş, **“…lakin insanların əksəriyyəti** (Ona) **şükür etməz!”** Uca Allahın onlara peyğəmbərlər göndərmə nemətinin qiymətini bilmirlər. **“Məgər sən**

41. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 246-247.

Allahın nemətlərini küfrə dəyişənləri və öz xalqını həlak yurduna sürükləyənləri görmürsənmi?”[42]

يَا صَاحِبَيِ السِّجْنِ ءَاَرْبَابٌ مُتَفَرِّقُونَ خَيْرٌ اَمِ اللّٰهُ
الْوَاحِدُ الْقَهَّارُ ﴿٣٩﴾ مَا تَعْبُدُونَ مِنْ دُونِهِۦٓ اِلَّآ اَسْمَآءً
سَمَّيْتُمُوهَآ اَنْتُمْ وَاٰبَآؤُكُمْ مَّآ اَنْزَلَ اللّٰهُ بِهَا مِنْ سُلْطَانٍ
اِنِ الْحُكْمُ اِلَّا لِلّٰهِ اَمَرَ اَلَّا تَعْبُدُٓوا اِلَّآ اِيَّاهُ ذٰلِكَ الدِّينُ
الْقَيِّمُ وَلٰكِنَّ اَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ ﴿٤٠﴾

39. Ey mənim iki zindan yoldaşım! Ayrı-ayrı tanrılar daha yaxşıdır, yoxsa bir olan, hər şeyə qadir (qalib) **olan Allah?!**

40. Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu (bunu) **bilmir.**

42. İbrahim, 14/28.

Təfsiri:

Sonra Həzrət Yusif (ə.s) gənclərə xitab edərək, onları tək və bir olan, heç bir şəriki olmayan Uca Allaha ibadət etməyə və qövmlərinin Ondan başqa ibadət etdikləri bütləri tərk etməyə dəvət edərək belə deyir: **"Ayrı-ayrı tanrılar daha yaxşıdır, yoxsa tək olan, hər şeyə qadir olan Allah?!"** Hansı ki, Onun qüdrəti və əzəməti qarşısında hər bir şey baş əymişdir. Sonra onlara ibadət etmələrinin və ilah adı ilə adlandırmalarının özlərinin nadanlıqları, sonrakıların əvvəlkilərdən götürdükləri və Allah tərəfindən heç bir isnad nöqtəsi olmayan bir adlandırma olduğunu izah edir. Bu səbəbdən belə buyurur: **"Allah onlara dair heç bir dəlil nazil etməmişdir"**. Bundan sonra hər bir şeyin Allaha aid olduğunu, bütün bəndələrinə yalnız Özünə ibadət etmələrini əmr etdiyini bildirir.

Allah-Təala sonra belə buyurur: **"Doğru din budur"**. Uca Allahın əmr etdiyi, haqqında dəlil və bürhan nazil etdiyi, sevdiyi və razı olduğu düzgün olan din sizi dəvət etdiyi Allahın təkliyini qəbul etmək (tövhid) və əməlləri sırf Onun üçün etməkdir,**"...lakin insanların çoxu** (bunu) **bilmir"**. Uca Allah buyurur: **"Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir"**.[43]

Həzrət Yusif (ə.s) onların hörmətlə soruşmalarını, onları tövhidə və İslama dəvət etmək üçün bir səbəb kimi qəbul etdi. Çünki onların təbiətində yaxşını qəbul etmə, ona yönəlmə və qulaq asma qabiliyyətinin olduğunu görmüşdü. Bu səbəbdən onları dəvət etdikdən sonra təkrarən soruşmalarına məhəl qoymadan yuxularının yozumu haqqında danışmağa başlayaraq belə dedi:

---

43. Yusif, 12/103.

يَا صَاحِبَيِ السِّجْنِ اَمَّا اَحَدُكُمَا فَيَسْقِى رَبَّهُ خَمْرًا ۚ
وَاَمَّا الْاٰخَرُ فَيُصْلَبُ فَتَأْكُلُ الطَّيْرُ مِنْ رَّأْسِهٖ ؕ قُضِىَ
الْاَمْرُ الَّذِىْ فِيْهِ تَسْتَفْتِيَانِ ؕ ﴿٤١﴾

41. Ey mənim zindan yoldaşlarım! Sizdən biriniz öz ağasına şərab süzəcək, digəriniz isə çarmıxa çəkiləcək və quşlar onun başını dimdikləyib yeyəcəklər. Haqqında soruşduğunuz işə qabaqcadan qərar verilmişdir”.

Təfsiri:

Həzrət Yusif (ə.s) o ikisinə dedi: **“Ey mənim zindan yoldaşlarım! Sizdən biriniz öz ağasına şərab süzəcək”**; bu yuxusunda özünü şərab sıxan görəndir. Ancaq Həzrət Yusif kədərlənməməsi üçün onlardan hansı olduğunu bildirməmiş digəri ilə birlikdə üstüörtülü qeyd etmişdi. **“...digəriniz isə çarmıxa çəkiləcək və quşlar onun başını dimdikləyib yeyəcəklər”**; bu da yuxusunda başında çörək daşıyan adamdır. Sonra da onlara bunların mütləq meydana gəlməli olan hökmü dəqiqləşmiş bir məsələ olduğunu bildirdi. Sövri belə demişdir: “Onlar yuxularını danışdıqdan və Həzrət Yusif (ə.s) yuxularını yozduqdan sonra: “Əslində, biz yuxu görməmişik”, – dedilər. Bunun müqabilində Həzrət Yusif (ə.s): **“Haqqında soruşduğunuz işə qabaqcadan qərar verilmişdir”**, – dedi”.[44]

44. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 247.

وَقَالَ لِلَّذِى ظَنَّ اَنَّهُ نَاجٍ مِنْهُمَا اذْكُرْنِى عِنْدَ رَبِّكَ
فَاَنْسٰىهُ الشَّيْطَانُ ذِكْرَ رَبِّهٖ فَلَبِثَ فِى السِّجْنِ بِضْعَ
سِنِيْنَ ﴿٤٢﴾

42. Yusif onlardan qurtulacağını yəqin etdiyi kimsəyə dedi: “Ağanın yanında məni yada sal!” Lakin şeytan ona Yusifi ağasının yadına salmağı unutdurdu və o, zindanda bir neçə il də qaldı”.

Təfsiri:

Həzrət Yusif (ə.s) saqinin qurtulacağını yəqinliklə bildikdən sonra gizlincə ona: **“Ağanın yanında məni yada sal!”** – dedi. Yəni mənim əhvalatımı kral olan ağana danış. Ancaq tənbeh etdiyi yoldaşı Həzrət Yusifi ağası olan krala danışmağı unutdu. Məhz bu, Həzrət Yusifin zindandan çıxmaması üçün şeytanın etdiyi hiylələrdən idi. **“Lakin şeytan ona Yusifi ağasının yadına salmağı unutdurdu”** ifadəsindəki zəmir/şəxs əvəzliyi Mücahid və digərlərinin dediyi kimi qurtulan şəxsə aiddir. Başqa bir rəyə görə isə, oradakı şəxs əvəzliyi Həzrət Yusifə işarə edir. Həmçinin bunu Təbəri İbn Abbas və Mücahiddən nəql etmişdir. Həbsdə qaldığı illərin sayı barəsində isə Mücahid və Qətadə üç ilə doqquz il arasında qaldığını bildirmişlər. Vəhb ibn Münəbbih isə Həzrət Əyyubun (ə.s) bəlaya yeddi il düçar olduğunu, Həzrət Yusifin (ə.s) də zindanda yeddi il qaldığını bildirmişdir.[45]

45. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 248.

وَقَالَ الْمَلِكُ اِنِّی اَرٰی سَبْعَ بَقَرَاتٍ سِمَانٍ يَأْكُلُهُنَّ
سَبْعٌ عِجَافٌ وَسَبْعَ سُنْبُلَاتٍ خُضْرٍ وَاُخَرَ يَابِسَاتٍ يٰٓا
اَيُّهَا الْمَلَاُ اَفْتُونِی فِی رُءْيَایَ اِنْ كُنْتُمْ لِلرُّءْيَا تَعْبُرُونَ
﴿٤٣﴾ قَالُوا اَضْغَاثُ اَحْلَامٍ ۚ وَمَا نَحْنُ بِتَأْوِيلِ الْاَحْلَامِ
بِعَالِمِينَ ﴿٤٤﴾ وَقَالَ الَّذِی نَجَا مِنْهُمَا وَادَّكَرَ بَعْدَ
اُمَّةٍ اَنَا اُنَبِّئُكُمْ بِتَأْوِيلِهِ فَاَرْسِلُونِ ﴿٤٥﴾ يُوسُفُ اَيُّهَا
الصِّدِّيقُ اَفْتِنَا فِی سَبْعِ بَقَرَاتٍ سِمَانٍ يَأْكُلُهُنَّ سَبْعٌ
عِجَافٌ وَسَبْعِ سُنْبُلَاتٍ خُضْرٍ وَاُخَرَ يَابِسَاتٍ ۙ لَعَلِّی
اَرْجِعُ اِلَی النَّاسِ لَعَلَّهُمْ يَعْلَمُونَ ﴿٤٦﴾ قَالَ تَزْرَعُونَ
سَبْعَ سِنِينَ دَاَبًا ۚ فَمَا حَصَدْتُمْ فَذَرُوهُ فِی سُنْبُلِهٖٓ اِلَّا
قَلِيلًا مِمَّا تَأْكُلُونَ ﴿٤٧﴾ ثُمَّ يَأْتِی مِنْ بَعْدِ ذٰلِكَ سَبْعٌ
شِدَادٌ يَأْكُلْنَ مَا قَدَّمْتُمْ لَهُنَّ اِلَّا قَلِيلًا مِمَّا تُحْصِنُونَ
﴿٤٨﴾ ثُمَّ يَأْتِی مِنْ بَعْدِ ذٰلِكَ عَامٌ فِيهِ يُغَاثُ النَّاسُ
وَفِيهِ يَعْصِرُونَ ﴿٤٩﴾

43. Kral dedi: “Mən yuxuda yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də qurusunu gördüm. Ey zadəganlar! Əgər

yuxu yoza bilirsinizsə, yuxumun yozumunu mənə bildirin”.

44. Onlar dedilər: “Bunlar qarmaqarışıq yuxulardır. Biz belə yuxuların yozumunu bilmirik”.

45. İki nəfərdən qurtulmuş olanı, uzun müddətdən sonra xatırlayaraq dedi: “Mən sizə onun yozumunu bildirərəm. Bircə məni Yusifin yanına göndərin!”

46. O, zindana gəlib dedi: “Ey Yusif! Ey düz danışan kişi! Yeddi arıq inəyin yeddi kök inəyi yediyi, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də quru sünbüllər barədə bizə xəbər ver. Ola bilsin ki, mən o adamların yanına qayıdım, bəlkə onlar da bilsinlər”.

47. Yusif dedi: “Yeddi il bacardığınız qədər əkin. Biçdiyinizi isə, yeyəcəyiniz az bir miqdar istisna olmaqla, sünbüldə saxlayın.

48. Sonra bunun ardınca, toxumluq saxlayacağınız az bir miqdar istisna olmaqla, əvvəlcədən həmin illər üçün tədarük gördüyünüzü yeyəcək yeddi ağır il (quraqlıq illəri) **gələcək.**

49. Bunun ardınca da elə bir il gələcək ki, onda insanlara bol yağış veriləcək və onlar çoxlu meyvə şirəsi sıxacaqlar”.

Təfsiri:

Misir kralının gördüyü bu yuxunu Uca Allah Həzrət Yusifin zindandan izzət və hörmət görərək çıxması üçün bir səbəb kimi təqdir etdi. Çünki kral bu yuxunu gördü və qorxuya düşdü. Yuxu və onun yozumu ilə bağlı təşvişə düşdü. Bunun nəticəsində kahinləri, münəccimləri, saray əyanlarını və əmirlərini toplayaraq onlara gördüyü yuxunu danışdı və yozumunu soruşdu. Onlar da bilmədilər və bunların qarmaqarışıq yuxular olduğunu bildirərək: “Bu, yuxunda röya şəklində gördüyün səndəki bir qarmaqarışıqlıq halıdır. **“Biz belə yuxuların yozumunu bilmirik”**, – deyib üzr istədilər. Məhz həmin vaxt zindanda Həzrət Yusiflə birlikdə olan iki gəncdən Həzrət Yusifin özü haqqında krala bəhs etməsini istədiyi və şeytanın unutdurduğu cavan Həzrət Yusifi xatırladı və krala belə dedi: **“Mən sizə onun** (yuxunun) **yozumunu bildirərəm. Bircə məni Yusifin yanına göndərin!”** Buna görə də onu zindana Həzrət Yusifin yanına göndərdilər. O da Həzrət Yusifin yanına gedib: **“Ey Yusif! Ey düz danışan kişi!”** – dedi və kralın gördüyü yuxunu danışdı. Həzrət Yusif də ondan istəyini yaddan çıxardığı üçün ona sərt davranmadan və bunun müqabilində zindandan çıxarılmağı şərt qoşmadan yuxunu yozdu. Belə ki, o bildirdi ki,**“yeddi il bacardığınız qədər əkin”**. Yeddi il boyu dayanmadan yağış yağıb bolluq olacaq. **“Biçdiyinizi isə, yeyəcəyiniz az bir miqdar istisna olmaqla, sünbüldə saxlayın”**. Bu yeddi bolluq ilində əldə etdiyiniz hər cür məhsulu yeyəcəyiniz az bir miqdar istisna olmaqla, sünbülündə saxlayın ki, uzun müddət qala bilsin və xarab olma ehtimalından uzaq olsun. Yeddi illik qıtlıq dövründə faydala-

naraq yeyəcəyiniz az bir miqdarı da israfçılıq etmədən az-az istifadə edin. O illər bu dalbadal davam edən yeddi bolluq ilini izləyən yeddi qıtlıq ili olacaqdır. Məhz bu da yuxudakı yeddi kök inəkləri yeyən arıq inəklərdir. Çünki qıtlıq illərində bolluq illərində yığdıqlarını yeyəcəklər ki, quru sünbüllər də məhz bunlardır.

Həzrət Yusif (ə.s) onlara bu illərdə heç bir şey bitməyəcəyini, əkdiklərindən hər hansı məhsul götürə bilməyəcəklərini xəbər verərək belə dedi: **"Sonra bunun ardınca, toxumluq saxlayacağınız az bir miqdar istisna olmaqla, əvvəlcədən həmin illər üçün tədarük gördüyünüzü yeyəcək yeddi ağır il** (quraqlıq illəri) **gələcək"**. Sonra uzun müddət davam edən qıtlığın ardınca insanlara bol yağış veriləcəyi və beləliklə də, insanların bol məhsul götürəcəkləri, adətləri üzrə zeytun, şəkər və oxşar şeyləri sıxacaqlarına dair onlara müjdə verdi.[46]

Odur ki, Həzrət Yusif yalnız karlın yuxusunu yozmaqla qalmayıb, eyni zamanda yeddi bolluq ilindən sonra gələcək yeddi qıtlıq ili üçün taxıl anbarlamağın zəruriliyini bildirərək onlara yol da göstərdi. Çünki Misir xalqı həmin dövrə qədər taxıl anbarlamaqdan bixəbər idi. Həmçinin yuxuda buna hər hansı bir işarə olmamaqla yanaşı, Həzrət Yusif yeddi qıtlıq ilinin ardından bolluq dövrünün başlayacağı müjdəsini verdi. Şübhəsiz ki, bu, Uca Allahın Həzrət Yusifə vəhylə bildirdiyi qeybə aid olan məlumatlardan idi.[47]

---

46. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 248-249.
47. Çelik, "Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri", II, 625.

وَقَالَ الْمَلِكُ ائْتُونِى بِهٖ ۚ فَلَمَّا جَآءَهُ الرَّسُولُ قَالَ ارْجِعْ
اِلٰى رَبِّكَ فَسْـَٔلْهُ مَا بَالُ النِّسْوَةِ الّٰتِى قَطَّعْنَ اَيْدِيَهُنَّ ۭ اِنَّ
رَبِّى بِكَيْدِهِنَّ عَلِيمٌ ﴿٥٠﴾ قَالَ مَا خَطْبُكُنَّ اِذْ رَاوَدْتُنَّ
يُوسُفَ عَنْ نَفْسِهٖ ۭ قُلْنَ حَاشَ لِلّٰهِ مَا عَلِمْنَا عَلَيْهِ مِنْ
سُّوْءٍ ۭ قَالَتِ امْرَاَتُ الْعَزِيزِ الْـٰٔنَ حَصْحَصَ الْحَقُّ ۡ
اَنَا رَاوَدْتُهٗ عَنْ نَفْسِهٖ وَاِنَّهٗ لَمِنَ الصّٰدِقِينَ ﴿٥١﴾ ذٰلِكَ
لِيَعْلَمَ اَنِّى لَمْ اَخُنْهُ بِالْغَيْبِ وَاَنَّ اللّٰهَ لَا يَهْدِى كَيْدَ
الْخَآئِنِينَ ﴿٥٢﴾ وَمَآ اُبَرِّئُ نَفْسِى ۚ اِنَّ النَّفْسَ لَاَمَّارَةٌ
بِالسُّوْٓءِ اِلَّا مَا رَحِمَ رَبِّى ۭ اِنَّ رَبِّى غَفُورٌ رَحِيمٌ ﴿٥٣﴾

50. Padşah dedi: “Onu yanıma gətirin!” Elçi onun yanına gəldikdə Yusif dedi: “Ağanın yanına qayıt və soruş gör ki, əllərini kəsən qadınların məqsədi nə idi? Şübhəsiz ki, Rəbbim onların hiyləsini bilir”.

51. Padşah qadınlara dedi: “Yusifi yoldan çıxartmaqla nə məqsəd güdürdünüz?” Onlar dedilər: “Allah uzaq eləsin! Biz onun haqqında pis bir şey bilmirik”. Zadəgan kişinin arvadı isə dedi: “İndi haqq bəlli oldu. Onu mən yoldan çıxart-

maq istəyirdim. Həqiqətən də, o, doğru danışanlardandır”.

52. Bu etiraf ona görədir ki, ərim yanımda olmadıqda ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin.

53. Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edir. Həqiqətən, Rəbbim bağışlayandır, rəhmlidir”.

Təfsiri:

Uca Allah xəbər verir ki, kral gördüyü yuxunun Həzrət Yusif tərəfindən edilən yozumunu bəyənib qane oldu və beləliklə də, Həzrət Yusifin fəzilətini, elmini və onun yuxusunu hər tərəfli yoza bildiyini öyrənib: **“Onu yanıma gətirin!”** – dedi. Yəni onun zindandan çıxarılıb yanına gətirilməsi üçün göstəriş verdi. Elçi Həzrət Yusifin yanına gəldikdə Həzrət Yusif kralın və xalqın onun günahsız və vəzirin arvadının üstünə qoyduğu böhtanlardan namusunun təmiz olduğunu, zindanda haqsız yerə zülmlə və düşmənçiliklə qərəzli olaraq tutulduğunu bilmələri üçün çıxmağı qəbul etməyib belə dedi: **“Ağanın yanına qayıt və soruş gör ki, əllərini kəsən qadınların məqsədi nə idi? Şübhəsiz ki, Rəbbim onların hiyləsini bilir”**.

Həzrət Peyğəmbərin (s.ə.s) sünnəsində Həzrət Yusifi (ə.s) bundan ötrü mədh edən, fəzilət və şərəfinə, yüksək mövqeyinə diqqət çəkən hədislər vardır. Belə ki, bir hədisi-şərifdə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Biz şübhə etməyə İbrahimdən (ə.s) daha çox layiqik. Belə ki, bir vaxtlar o demişdi: "Əgər mən Yusifin (ə.s) qaldığı qədər uzun müddət həbsdə qalsaydım, çağıranın (kralın) dəvətini dərhal qəbul edərdim"*.[48] Başqa bir hədisi-şərifdə isə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *"Allah-Təala Yusifi (ə.s) bağışlasın! Çünki ondan zəif və kök inəklər haqqında soruşulan zaman səbir və kərəminə heyrətlənirəm. Onun yerində mən olsaydım, məni zindandan çıxarmalarını şərt qoşmadan tələblərini qəbul etməzdim. Allah onu bağışlasın! Çünki elçi gələndə mən onun yerində olsaydım, dərhal qapıya tərəf qaçardım. Ancaq o, özündən üzr istənilməsini tələb etdi"*.[49]

"Padşah qadınlara dedi: "Yusifi yoldan çıxartmaqla nə məqsəd güdürdünüz?" Bu ayə kralın vəzirin arvadının yanında əllərini kəsən qadınları hüzuruna toplamasından xəbər verir. Kral əslində vəzirin arvadını qəsd edərək qadınların hamısına belə səsləndi: "Qonaqlıq günündə **"Yusifi yoldan çıxartmaqla nə məqsəd güdürdünüz? Onlar: "Allah uzaq eləsin! Biz onun haqqında pis bir şey bilmirik", – dedilər**". Qadınlar kralın sözünə cavab olaraq belə dedilər: "Allah uzaq eləsin! Yusifin (ə.s) heç bir günahı yoxdur. Allaha and olsun ki, biz onun haqqında pis bir şey bilmirik". Məhz bu vaxt **"Zadəgan kişinin**

48. İbn Hənbəl, "Müsnəd", II, 326.
49. Əbdürrəzzaqın İkrimədən nəql etdiyi mürsəl bir hədisdir. (Bax. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 249.)

(vəzirin) **arvadı dedi: “İndi haqq bəlli oldu. Onu mən yoldan çıxartmaq istəyirdim. Həqiqətən də, o, doğru danışanlardandır”**. Yəni Həzrət Yusif (s.ə) bu hadisə baş verən zaman: **“O məni yoldan çıxartmaq istəyirdi”**,[50] – deyərkən düz demişdi.

“Bu etiraf ona görədir ki, ərim yanımda olmadıqda ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin”. Qadın belə deyir: “Mənim əleyhimə olmasına baxmayaraq bunu etiraf etməyimin səbəbi, ərimin ona xəyanət etmədiyimi bilməsi üçündür. Mən, sadəcə, bu cavanı bir dəfə yoldan çıxarmaq istədim, o da qəbul etmədi. Bu səbəbdən mənim o işi görmədiyimi bilməsi üçün etiraf edirəm. Bununla belə, mən özümü tamamilə təmizə də çıxarmıram. Çünki nəfs pislikləri arzulayır. Onu yoldan çıxarmaq istəməyim də məhz bunun ucbatından olmuşdur”. **“Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi** (qoruyub mühafizə etdiyi) **kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edir. Həqiqətən, Rəbbim bağışlayandır, rəhmlidir”**. Bundan əlavə, **“Bu etiraf ona görədir ki, yanımda olmadıqda ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin”** ayəsindən etibarən iki ayədəki ifadələrin Həzrət Yusifin sözü olduğu da deyilmişdir. Yəni göndərilən elçini geri qaytarmağım kralın mənim günahsız olduğumu bilməsi və vəzirin yoxluğunda arvadı ilə bağlı ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilməsi üçündür.

---

50. Yusif, 12/26.

Ayədə qeyd edilən **“nəfs adama pis işləri əmr edir”** bəyanı tərbiyə və təzkiyə olmamış nəfsin pis işləri əmr edən bir xüsusiyyətə malik olduğuna diqqət çəkir. Həqiqətən də, nəfsin fitri olaraq daim şəhvani hislərə, günahlara və pis işlərə meyil etmək, var gücü ilə bunları təlqin etmək xüsusiyyəti vardır. Məhz bu səbəbdən Həzrət Peyğəmbərimiz (s.ə.s) ümmətini nəfsin şərinə qarşı ayıq-sayıq olmağa çağıraraq belə dua edirdi: *“Allahım! Sənin mərhəmətini umuram, məni göz açıb bağlayana qədər belə olsa nəfsimə buraxma! Halımı bütövlüklə düzəlt, Səndən başqa heç bir məbud yoxdur!”*[51]

وَقَالَ الْمَلِكُ ائْتُونِى بِهِۦٓ اَسْتَخْلِصْهُ لِنَفْسِىۚ فَلَمَّا كَلَّمَهُ
قَالَ اِنَّكَ الْيَوْمَ لَدَيْنَا مَكِينٌ اَمِينٌ ﴿٥٤﴾ قَالَ اجْعَلْنِى
عَلٰى خَزَآئِنِ الْاَرْضِۚ اِنِّى حَفِيظٌ عَلِيمٌ ﴿٥٥﴾

54. Padşah dedi: “Onu yanıma gətirin! Onu özümə yaxın (adam) **edəcəyəm”. Onunla söhbət etdikdə: “Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan”, – dedi.**

55. O dedi: “Bu yerin xəzinələrini (qorumağı) **mənə tapşır. Çünki mən qoruyanam,** (bu işi) **bilənəm”.**

51. Əbu Davud, “Ədəb”, 100-101.

Təfsiri:

Həzrət Yusifin günahsız və ona nisbət edilənlərdən təmiz olduğu ortaya çıxdıqdan sonra **“padşah dedi: “Onu yanıma gətirin! Onu özümə yaxın** (adam) **edəcəyəm”**. Yəni onu özümə çox yaxın olan xüsusi adamlarımdan və müşavirlərimdən edəcəyəm. **“Onunla söhbət etdikdə…”**; kral onunla danışıb onu tanıyandan sonra üstün xüsusiyyətlərini, eləcə də ondakı yaradılış və əxlaq mükəmməlliyini görəndə: **“Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan”, – dedi”**. Yəni sən bizim yanımızda daim ali və etibarlı bir mövqedə olacaqsan. Həzrət Yusif (ə.s) də dövlətin idarəsində özünə olan zəruri ehtiyacı nəzərə alaraq dedi: **“Bu yerin xəzinələrini** (qorumağı) **mənə tapşır. Çünki mən qoruyanam,** (bu işi) **bilənəm”**. O, bu sözü ilə özünü tərifləmişdir. Çünki tanınmayan hallarda ehtiyaca görə insanın özünü tərifləməsi caizdir. Beləliklə də, Həzrət Yusif (ə.s) özünün yaxşı mühafizəçi, yəni etibarlı bir xəzinədar və öhdəsinə götürəcəyi işdə bilikli və bəsirətli olduğunu bildirdi. Odur ki, Həzrət Yusifin (ə.s) torpaq xəzinələrinin başına qoyulmağı istəməsinin səbəbi onlar üçün məhsulları daha ehtiyatlı, daha səmərəli və daha düzgün idarə etməsi idi.[52]

وَكَذٰلِكَ مَكَّنَّا لِيُوسُفَ فِى الْاَرْضِ ۚ يَتَبَوَّاُ مِنْهَا حَيْثُ
يَشَآءُ ۗ نُصِيبُ بِرَحْمَتِنَا مَنْ نَشَآءُ وَلَا نُضِيعُ اَجْرَ
الْمُحْسِنِينَ ﴿٥٦﴾ وَلَاَجْرُ الْاٰخِرَةِ خَيْرٌ لِّلَّذِينَ اٰمَنُوا
وَكَانُوا يَتَّقُونَ ﴿٥٧﴾

52. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 250.

56. Beləliklə, Yusifi o yerdə (Misir torpağında) **mövqe** (ixtiyar) **sahibi etdik. O,** (Misirdə) **istədiyini edirdi** (istədiyi yerdə mənzil sala bilirdi)**. Biz istədiyimizə mərhəmətimizi nəsib edər, yaxşı işlər görənlərin mükafatını zay etmərik.**

57. İman gətirib pis əməllərdən çəkinənlər üçün axirət mükafatı, əlbəttə, daha xeyirlidir.

Təfsiri:

“Beləliklə, Yusifi o yerdə (Misir torpağında) **mövqe** (ixtiyar) **sahibi etdik. O,** (Misirdə) **istədiyini edirdi”**. Süddi belə demişdir: “Orada istədiyi kimi hərəkət edirdi”. Təbəri belə demişdir: “Sıxıntı və həbsdən sonra istədiyi yerdə mənzil sala bilirdi”. **“Biz istədiyimizə mərhəmətimizi nəsib edər, yaxşı işlər görənlərin mükafatını zay etmərik”**. Yəni Həzrət Yusifin (ə.s) qardaşlarının əziyyətlərinə və vəzirin arvadının ucbatından zindana salınmasına qarşı səbrinin mükafatını zay etmərik. Məhz bu səbəbdən Uca Alah bunların ardınca ona kömək və dəstək vermişdir. **“İman gətirib pis əməllərdən çəkinənlər üçün axirət mükafatı, əlbəttə, daha xeyirlidir”**. Burada Uca Allah bildirir ki, peyğəmbəri Həzrət Yusif üçün axirətdə hazırladığı mükafatı dünyada ona verilən hər cür səlahiyyət və nüfuzdan daha böyük və daha qiymətlidir. Nəticə etibarilə, Misir kralı Rəyyan ibn Vəlid Həzrət Yusifi Misirin vəziri vəzifəsinə təyin etdi və həmin kral Həzrət Yusif vasitəsilə müsəlman oldu.

Dövlətin idarəsini əlinə alan Həzrət Yusif kralın yuxusunu yozduğu istiqamətdə hərəkət etdi. Belə ki, o, lazımi tədbirləri görərək bolluq illərində əkinçiliyə əhəmiyyət verdi. İmkan daxilində istehsalatı artıraraq ehtiyac artığı olan məhsulları anbarladı. Nəhayət, yuxunun işarə etdiyi qıtlıq illəri gəlib çatdı. Beləliklə də, Misir əhalisi bir tərəfdən anbarlanmış məhsullarla ehtiyaclarını aradan qaldırmağa, digər tərəfdən də qonşu ölkələrə ixracat etməyə başladılar. Çünki qıtlıq yalnız Misirdə yox, digər yerlərdə də öz təsirini göstərmiş və hər tərəfdən insanlar ərzaq satın almaq üçün Misirə gedirdilər. O cümlədən Həzrət Yaqub da Həzrət Yusifin doğma qardaşı Bünyamindən başqa digər oğullarını Misirə ərzaq dalınca yolladı:[53]

وَجَآءَ اِخْوَةُ يُوسُفَ فَدَخَلُوا عَلَيْهِ فَعَرَفَهُمْ وَهُمْ لَهُ
مُنْكِرُونَ ﴿٥٨﴾ وَلَمَّا جَهَّزَهُمْ بِجَهَازِهِمْ قَالَ ائْتُونِى
بِاَخٍ لَكُمْ مِنْ اَبِيكُمْ ۚ اَلَا تَرَوْنَ اَنِّى اُوفِى الْكَيْلَ وَاَنَا۠
خَيْرُ الْمُنْزِلِينَ ﴿٥٩﴾ فَاِنْ لَمْ تَأْتُونِى بِهٖ فَلَا كَيْلَ لَكُمْ
عِنْدِى وَلَا تَقْرَبُونِ ﴿٦٠﴾ قَالُوا سَنُرَاوِدُ عَنْهُ اَبَاهُ وَاِنَّا
لَفَاعِلُونَ ﴿٦١﴾ وَقَالَ لِفِتْيَانِهِ اجْعَلُوا بِضَاعَتَهُمْ فِى
رِحَالِهِمْ لَعَلَّهُمْ يَعْرِفُونَهَآ اِذَا انْقَلَبُوٓا اِلٰٓى اَهْلِهِمْ لَعَلَّهُمْ
يَرْجِعُونَ ﴿٦٢﴾

53. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 632.

58. (Misirə) **Yusifin qardaşları gəlib onun hüzuruna daxil oldular. Onlar** (Yusifi) **tanımadıqları halda,** (Yusif) **onları dərhal tanıdı.**

59. (Yusif) **onların ərzaq yüklərini hazırlayarkən dedi: “Atabir qardaşınızı yanıma gətirin! Məgər görmürsünüzmü ki, mən ölçüyə tam riayət edirəm və mən qonaqpərvərlərin ən yaxşısıyam?”**

60. Əgər onu yanıma gətirməsəniz, məndən bir qab belə ərzaq gözləməyin və mənə də yaxınlaşmayın!

61. Onlar dedilər: “Ona görə atasını razı salmağa çalışarıq. Biz əlbəttə, (bunu) **edərik”.**

62. O, öz xidmətçilərinə dedi: “Onların (taxıl əvəzinə) **ödədikləri mallarını da yüklərinin içinə qoyun ki, ailələrinin yanına döndükdə onu başa düşsünlər və ola bilsin ki, qayıtsınlar”.**

Təfsiri:

Süddi, Məhəmməd ibn İshaq və digər təfsirçilərin qeyd etdiklərinə görə, Həzrət Yusifin qardaşlarının Misirə getmələrinin səbəbi ondan ibarət idi ki, Həzrət Yusif Misirdə nazir vəzifəsinə təyin edildikdən sonra yeddi bolluq ili keçmiş, ardınca quraqlıq illəri başlamış və quraqlıq Misirin hər tərəfini bürüyərək, Həzrət Yaqub (ə.s) ilə oğullarının olduq-

ları Kənan bölgəsinə qədər gedib çıxmışdı. Həmin dövrdə Həzrət Yusif (ə.s) insanların məhsullarında ehtiyatlı davranmış, ən məqsədəuyğun şəkildə toplamışdı. Beləcə, bundan çoxlu miqdarda ərzaqlar və çoxlu sayda nəhəng anbarlar meydana gəlmişdi. Nəhayət, onun yanına müxtəlif bölgələrdən və ölkələrdən insanlar gəlməyə başladı. İnsanlar özləri və ailələri üçün bir qədər ərzaq almaq məqsədilə gəlirdilər. Həzrət Yusif (ə.s) hər bir şəxsə ildə bir dəvə yükündən çox ərzaq vermirdi. Mövcud olan ərzaqlar insanlara yeddi il müddətində çatsın deyə, Həzrət Yusif (ə.s) heç öz qarnını doyuzdurmur, o və kral ilə əsgərlər hər gün yalnız günorta bir dəfə yemək yeyirdilər. Həqiqətən də, o, Uca Allahın Misir xalqı üçün bir rəhməti idi.

Əlqərəz, ərzaq üçün gələnlər arasında atalarının göstərişi ilə gələn Həzrət Yusifin qardaşları da vardı. Onlar Misir vəzirinin insanlara pul müqabilində ərzaq verdiyini eşitmişdilər. Yanlarına əvəzində ərzaq almaq üçün müəyyən qədər mal da götürüb on nəfər minikləri ilə yola çıxdılar. Həzrət Yaqub (ə.s) Həzrət Yusifin doğma qardaşı Bünyamini yanında saxladı. O, Yusifdən (ə.s) sonra ən çox istədiyi övladı idi. Əzəmət və heybəti ilə oturan Həzrət Yusifin hüzuruna çıxdıqlarında Həzrət Yusif onları dərhal tanıdı, lakin onlar Həzrət Yusifi tanımadılar. Çünki ondan ayrıldıqlarında Həzrət Yusif kiçik bir uşaq idi və onu karvana satarkən də aparacaqları yerlə maraqlanmamışdılar. Onun belə bir mövqeyə gələ biləcəyi heç ağıllarına da gəlməzdi. Bütün bu səbəblərə görə onu tanıya bilmədilər. Lakin Həzrət Yusif onları tanıdı və onlarla danışmağa başladı. Onları tanımırmış kimi: “Sizi ölkəmə gətirən səbəb nədir?” – deyə soruşdu.

Onlar: “Ey vəzir! Biz ərzaq üçün gəldik”, – dedilər. Həzrət Yusif (ə.s): “Sanki siz casuslarsınız!” – dedi. Onlar: “Allah uzaq eləsin!” – dedilər. Həzrət Yusif (ə.s): “Haradansınız?” – deyə soruşdu. Onlar: “Biz Kənan bölgəsindənik. Atamız da Allahın peyğəmbəri Yaqubdur”, – dedilər. Həzrət Yusif: “Onun sizdən başqa övladları varmı?” – deyə soruşdu. Onlar: “Bəli! Biz on iki qardaş idik. Ən kiçik qardaşımız səhralıqda öldü. O, atamızın ən sevimli övladı idi. Bir də onun doğma qardaşı var və atamız təsəlli üçün onu öz yanında saxladı”, – dedilər. Bundan sonra Həzrət Yusif (ə.s) onların qonaq qəbul edilərək ehtiyaclarının qarşılanmasını istədi.

“(Yusif) **onların ərzaq yüklərini hazırlayarkən dedi: “Atabir qardaşınızı yanıma gətirin!”** Yəni onların ərzaqlarını nöqsansız verib yüklərini yükləyərkən onlara: “Mənə dediklərinizin düzgün olub-olmadığını bilməyim üçün bəhs etdiyiniz qardaşınızı gətirin!” – dedi. Onları geri gəlməyə təşviq edərək**: “Məgər görmürsünüzmü ki, mən ölçüyə tam riayət edirəm və mən qonaqpərvərlərin ən yaxşısıyam?”** – dedi. Sonra da onları təhdid edərək: **“Əgər onu yanıma gətirməsəniz, məndən bir qab belə ərzaq gözləməyin”**. İkinci dəfə gələrkən onu özünüzlə gətirməsəniz, bilin ki, məndə sizə veriləcək ərzaq yoxdur **“və mənə də yaxınlaşmayın!”** – dedi. **“Onlar dedilər: “Ona görə atasını razı salmağa çalışarıq. Biz əlbəttə,** (bunu) **edərik”**. Yəni doğru olduğumuzu biləsən deyə onu gətirmək üçün imkan daxilində hər cür vasitəyə müraciət edib, hər cür səyi göstərərək əlimizdən gələni edəcəyik.

“O, öz xidmətçilərinə dedi: “(Onlara hiss etdirmədən) **Onların ödədikləri mallarını** (aldıqları ərzaq əvə-

zinə gətirdikləri əşyalarını) **da yüklərinin içinə qoyun ki, ailələrinin yanına döndükdə onu başa düşsünlər və ola bilsin ki, qayıtsınlar”**. Bəzilərinə görə, Həzrət Yusif ikinci dəfə ərzaq almaq üçün gəldiklərində satın almaq üçün gətirəcək əşyalarının olmamasından qorxduğu üçün belə etmişdir. Bəzilərinə görə isə, onların ərzaqlarının əvəzini yüklərində görəndə geri qayıtmalarını təmin etmək məqsədilə etmişdir. Çünki belə edəcəklərini bilirdi.[54]

فَلَمَّا رَجَعُوٓا اِلٰٓى اَبِيهِمْ قَالُوا يٰٓا اَبَانَا مُنِعَ مِنَّا الْكَيْلُ
فَاَرْسِلْ مَعَنَٓا اَخَانَا نَكْتَلْ وَاِنَّا لَهُ لَحَافِظُونَ ﴿٦٣﴾ قَالَ
هَلْ اٰمَنُكُمْ عَلَيْهِ اِلَّا كَمَٓا اَمِنْتُكُمْ عَلٰٓى اَخِيهِ مِنْ قَبْلُ
فَاللّٰهُ خَيْرٌ حَافِظًا وَهُوَ اَرْحَمُ الرَّاحِمِينَ ﴿٦٤﴾

63. Onlar atalarının yanına qayıtdıqda dedilər: “Ey atamız! Daha bizə ərzaq verilməyəcək. Ölçüb (ərzaq) **almaq üçün qardaşımızı bizimlə birlikdə göndər. Şübhəsiz ki, biz onu qoruyacağıq”.**

64. O (Yaqub) **dedi: “Bundan əvvəl qardaşını** (Yusifi) **sizə etibar etdiyim kimi, heç onu sizə etibar edə bilərəmmi? Allah Özü** (onu) **ən yaxşı qoruyandır və rəhmlilərin ən rəhmlisidir!”**

54. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 251-252.

Təfsiri:

Uca Allah Həzrət Yusifin qardaşlarının atalarının yanına qayıtdıqlarında aralarında keçən danışıq haqqında xəbər verərək bildirir: **“Onlar atalarının yanına qayıtdıqda dedilər: “Ey atamız! Daha bizə ərzaq verilməyəcək”**. Yəni əgər bizimlə birlikdə qardaşımız Bünyamini göndərməsən, bundan sonrakı gedişimizdə bizə ərzaq verilməyəcək. Ona görə də **“ölçüb** (ərzaq) **almaq üçün qardaşımızı bizimlə birlikdə göndər”**. Onunla bağlı hər hansı qorxun olmasın. Çünki o, mütləq sənin yanına qayıdacaq. Onlar atalarına Həzrət Yusif haqqında da belə demişdilər: **“Sabah onu bizimlə birlikdə göndər, qoy oynayıb əylənsin. Biz onu mütləq qoruyarıq!”**[55] Məhz bu səbəbdən onlara belə dedi: **“Bundan əvvəl qardaşını** (Yusifi) **sizə etibar etdiyim kimi, heç onu sizə etibar edə bilərəmmi?”** Ona da əvvəl qardaşınıza etdiyiniz kimi edəcəksiniz? Məndən alıb aparacaq və onunla mənim arama girib bizi bir-birimizdən ayıracaqsınız? **“Allah Özü** (onu) **ən yaxşı qoruyandır və rəhmlilərin ən rəhmlisidir!”** O, mənə qarşı mərhəmətlilərin ən mərhəmətlisidir. Yaşlılığıma, gücsüzlüyümə və övlad acısına yanmama mərhəmət edəcəkdir. Uca Allahdan onu mənə gətirməsini, pərişanlığımı aradan qaldırıb məni sağaltmasını ümid edirəm. Şübhəsiz ki, O, mərhəmətlilərin ən mərhəmətlisidir!”

وَلَمَّا فَتَحُوا مَتَاعَهُمْ وَجَدُوا بِضَاعَتَهُمْ رُدَّتْ اِلَيْهِمْ ؕ
قَالُوا يٰۤاَبَانَا مَا نَبْغِىْ ؕ هٰذِهٖ بِضَاعَتُنَا رُدَّتْ اِلَيْنَا ۚ وَنَمِيْرُ

55. Yusif, 12/12.

اَهْلَنَا وَنَحْفَظُ اَخَانَا وَنَزْدَادُ كَيْلَ بَعِيرٍ ؕ ذٰلِكَ كَيْلٌ
يَسِيرٌ ﴿٦٥﴾ قَالَ لَنْ اُرْسِلَهُ مَعَكُمْ حَتّٰى تُؤْتُونِ مَوْثِقًا
مِنَ اللّٰهِ لَتَأْتُنَّنِى بِهٖٓ اِلَّآ اَنْ يُحَاطَ بِكُمْ ۚ فَلَمَّآ اٰتَوْهُ مَوْثِقَهُمْ
قَالَ اللّٰهُ عَلٰى مَا نَقُولُ وَكِيلٌ ﴿٦٦﴾

65. Onlar yüklərini açdıqda mallarının özlərinə qaytarıldığını görüb dedilər: “Ata! Daha nə istəyirik? Bu bizim özümüzə qaytarılmış mallarımızdır. Biz (onun vasitəsilə) **ailəmizə bir daha ərzaq alıb gətirər, qardaşımızı qoruyar və** (ərzağımızın üstünə) **bir dəvə yükü də ərzaq artırarıq. Bu** (əvvəlcə gətirdiyimiz) **isə az bir ərzaqdır!”**

66. O (Yaqub) **dedi: “Əhatə olunub çarəsiz qalmanız istisna olmaqla, onu yanıma gətirəcəyinizə dair Allah adına söz verib and içməyincə onu sizinlə göndərməyəcəyəm”. Onlar and içdikdə** (Yaqub) **dedi: “Allah söylədiklərimizə vəkildir”.**

Təfsiri:

Uca Allah buyurur ki, Həzrət Yusifin qardaşları əşyalarını açanda ərzaqların əvəzi kimi apardıqları malların onlara

geri qaytarıldığını gördülər. Bunlar Həzrət Yusifin (ə.s) əmri ilə xidmətçilərin onların yüklərinə qoyduqları mallar idi. Onlar dedilər: **“Ata! Daha nə istəyirik? Bu bizim özümüzə qaytarılmış mallarımızdır”**. Həm ərzaqların əvəzi olaraq verdiklərimiz geri qaytarılmış, həm də ərzaqlar əskiksiz verilmişdir”. **“...Biz** (onun vasitəsilə) **ailəmizə ərzaq artırarıq”**; qardaşımızı bizimlə birlikdə göndərsən, ailəmizə ərzaq gətirər, **“...qardaşımızı qoruyar və** (ərzağımızın üstünə) **bir dəvə yükü də ərzaq artırarıq”**. Çünki Həzrət Yusif (ə.s) hər bir şəxsə bir dəvə yükü qədər ərzaq verirdi. **“Bu** (əvvəlcə gətirdiyimiz) **isə az bir ərzaqdır!O** (Yaqub) **dedi: “Əhatə olunub çarəsiz qalmanız** (hamınız məğlub olub onu xilas etməyə gücünüzün çatmaması) **istisna olmaqla, onu yanıma gətirəcəyinizə dair Allah adına söz verib and içməyincə onu sizinlə göndərməyəcəyəm. Onlar and içdikdə** (verdikləri sözü onlara təkid etdirərək Yaqub) **dedi: “Allah söylədiklərimizə vəkildir”**. İbn İshaq belə demişdir: “Həzrət Yaqub (ə.s) bunu etdi. Çünki zəruri ehtiyacları olan ərzaq üçün onları göndərmək məcburiyyətində idi və buna görə də Bünyamini onlarla göndərdi”.[56]

وَقَالَ يَا بَنِيَّ لَا تَدْخُلُوا مِنْ بَابٍ وَاحِدٍ وَادْخُلُوا مِنْ أَبْوَابٍ
مُتَفَرِّقَةٍ ۖ وَمَا أُغْنِي عَنْكُمْ مِنَ اللَّهِ مِنْ شَيْءٍ ۖ إِنِ الْحُكْمُ
إِلَّا لِلَّهِ ۖ عَلَيْهِ تَوَكَّلْتُ ۖ وَعَلَيْهِ فَلْيَتَوَكَّلِ الْمُتَوَكِّلُونَ ﴿٦٧﴾

56. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 252.

وَلَمَّا دَخَلُوا مِنْ حَيْثُ اَمَرَهُمْ اَبُوهُمْۗ مَا كَانَ يُغْنِى
عَنْهُمْ مِنَ اللّٰهِ مِنْ شَىْءٍ اِلَّا حَاجَةً فِى نَفْسِ يَعْقُوبَ
قَضٰيهَاۗ وَاِنَّهُ لَذُو عِلْمٍ لِمَا عَلَّمْنَاهُ وَلٰكِنَّ اَكْثَرَ النَّاسِ لَا
يَعْلَمُونَ ﴿٦٨﴾

67. (Yaqub) **dedi: “Oğullarım!** (Misirə) **eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun. Bununla belə, mən Allahın qəza-qədərini sizdən heç bir şeylə dəf edə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül etdim. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər!”**

68. Onlar ataları (Yaqubun) **əmr etdiyi kimi daxil olduqda** (bu) **Allahın qəza-qədərini əsla onlardan dəf edə bilmədi, ancaq Yaqubun ürəyində bir diləyi yerinə yetirmiş oldu. Şübhəsiz ki, Yaqub onu öyrətdiyimiz üçün bir elm sahibi idi. Lakin insanların əksəriyyəti bilməz!**

Təfsiri:

Uca Allah Həzrət Yaqubdan (ə.s) bəhs edərək oğullarını qardaşları Bünyaminlə birlikdə Misirə getmək üzrə hazırladıqda şəhərə hamılıqla bir qapıdan girməmələrini, müxtəlif yerlərdən girmələrini əmr etdiyini xəbər verir. Həzrət

Yaqub (ə.s) onlara göz dəyməsindən qorxurdu. Çünki onlar gözəl, yaraşıqlı və boylu-buxunlu idilər. Bu səbəbdən də onlara insanların nəzər etməsindən qorxurdu. Bundan əlavə, onun bu tövsiyəsi oğullarının başına bir iş gəlmə ehtimalı ilə əlaqədar əndişəsindən irəli gəlirdi.

“Bununla belə, mən Allahın qəza-qədərini sizdən heç bir şeylə dəf edə bilmərəm”. Yəni bu qorunma Uca Allahın qəzavü-qədərinə heç bir vəchlə mane ola bilməz. Çünki Allah-Təala hər hansı bir şey istəsə, ona qarşı əngəl oluna bilməz. **“Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül etdim. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər!”**

“Onlar ataları (Yaqubun) **əmr etdiyi kimi daxil olduqda** (bu) **Allahın qəza-qədərini əsla onlardan dəf edə bilmədi, ancaq Yaqubun ürəyində bir diləyi yerinə yetirmiş oldu”**. Məhz sözügedən dilək onlara göz dəyməsinin dəf edilməsidir. **“Şübhəsiz ki, Yaqub onu öyrətdiyimiz üçün bir elm sahibi idi”**. Qətadə bu ifadəni: “O, sahib olduğu elminə əməl edirdi”; Təbəri isə: “Ona öyrətdiyimiz üçün elmli idi”, – deyə təfsir etmişlər. **“Lakin insanların əksəriyyəti bilməz!”**

وَلَمَّا دَخَلُوا عَلٰى يُوسُفَ اٰوٰٓى اِلَيْهِ اَخَاهُ قَالَ اِنِّىٓ اَنَا اَخُوكَ فَلَا تَبْتَئِسْ بِمَا كَانُوا يَعْمَلُونَ ﴿٦٩﴾

69. Onlar Yusifin hüzuruna daxil olduqda o, qardaşını bərk-bərk qucaqlayıb dedi: “Mən sənin qardaşınam. Onların tutduqları işlərə görə kədərlənmə”.

Təfsiri:

Allah-Təala Həzrət Yusifin (ə.s) qardaşlarından xəbər verərək, onun hüzuruna doğma qardaşı Bünyaminlə birlikdə girdiklərində onları xüsusi yerə və ziyafət mənzilinə qəbul edərək, onlarla yaxından maraqlanaraq qonaqlıq verdi. Bir ara qardaşı Bünyaminlə təkbaşına qalaraq öz vəziyyətindən, başına gələnlərdən danışıb onu agah etdi və onun qardaşı olduğunu bildirdi. Sonra da: **“Onların tutduqları işlərə görə kədərlənmə!”** – dedi. Həzrət Yusif (ə.s) ondan bu məsələni gizli saxlamasını, ona bəhs etdiklərindən və onun qardaşı olduğu həqiqətindən onları xəbərdar etməməsini tələb etdi və izzət, ikram və təzimlə yanında qalması üçün bir hiylə edəcəyi ilə bağlı onunla sözləşdi.[57]

فَلَمَّا جَهَّزَهُمْ بِجَهَازِهِمْ جَعَلَ السِّقَايَةَ فِى رَحْلِ اَخِيهِ
ثُمَّ اَذَّنَ مُؤَذِّنٌ اَيَّتُهَا الْعِيرُ اِنَّكُمْ لَسَارِقُونَ ﴿٧٠﴾ قَالُوا
وَاَقْبَلُوا عَلَيْهِمْ مَاذَا تَفْقِدُونَ ﴿٧١﴾ قَالُوا نَفْقِدُ صُوَاعَ
الْمَلِكِ وَلِمَنْ جَآءَ بِهِ حِمْلُ بَعِيرٍ وَاَنَا بِهِ زَعِيمٌ ﴿٧٢﴾

70. (Yusif) **onları azuqə ilə təmin edərkən qardaşının yükünün içinə bir piyalə qoydu. Sonra bir carçı qışqırıb dedi: “Ey karvan əhli! Siz oğrusunuz!”**

57. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 253.

71. (Qardaşlar) **onlara tərəf dönüb: “Nə itirmisiniz?” – deyə soruşdular.**

72. Onlar dedilər: “Padşahın piyaləsini itirmişik. Onu gətirənə bir dəvə yükü (ərzaq) **veriləcək”.** (Carçı)**: “Mən buna zaminəm!” –** (dedi)**.**

Təfsiri:

Həzrət Yusif (ə.s) onların ərzaqlarını dəvələrinə yüklətdikdən sonra, xidmətçilərindən birinə piyaləni onların yüklərinə qoymasını əmr etdi. Həmin qab gümüşdən və yaxud qızıldan idi. Beləliklə, xidmətçi piyaləni heç kəs hiss etmədən Bünyaminin əşyalarının arasına qoydu. Sonra onların arasından bir carçı: **“Ey karvan əhli! Siz oğrusunuz!” – deyə qışqırdı.**(Qardaşlar) **onlara tərəf dönüb: “Nə itirmisiniz?” – deyə soruşdular. Onlar dedilər: “Padşahın piyaləsini** (ölçmək üçün istifadə olunan qabını) **itirmişik. Onu gətirənə** (mükafat olaraq) **bir dəvə yükü** (ərzaq) **veriləcək”.** (Carçı)**: “Mən buna zaminəm!” –** (dedi)**”**.[58]

قَالُوا تَاللَّهِ لَقَدْ عَلِمْتُمْ مَا جِئْنَا لِنُفْسِدَ فِي الْأَرْضِ وَمَا كُنَّا
سَارِقِينَ ﴿٧٣﴾ قَالُوا فَمَا جَزَاؤُهُ إِنْ كُنْتُمْ كَاذِبِينَ ﴿٧٤﴾
قَالُوا جَزَاؤُهُ مَنْ وُجِدَ فِي رَحْلِهِ فَهُوَ جَزَاؤُهُ كَذَٰلِكَ

58. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 253.

نَجْزِى الظَّٰلِمِينَ ﴿٧٥﴾ فَبَدَاَ بِاَوْعِيَتِهِمْ قَبْلَ وِعَآءِ اَخِيهِ
ثُمَّ اسْتَخْرَجَهَا مِنْ وِعَآءِ اَخِيهِۚ كَذَٰلِكَ كِدْنَا لِيُوسُفَۖ مَا
كَانَ لِيَأْخُذَ اَخَاهُ فِى دِينِ الْمَلِكِ اِلَّآ اَنْ يَشَآءَ اللّٰهُۜ نَرْفَعُ
دَرَجَاتٍ مَنْ نَشَآءُۜ وَفَوْقَ كُلِّ ذِى عِلْمٍ عَلِيمٌ ﴿٧٦﴾

73. Onlar dedilər: “Allaha and olsun! Siz bilirsiniz ki, biz (bu) **yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru da deyilik”.**

74. Onlar dedilər: “Əgər yalançısınızsa, onda onun cəzası nədir?”

75. (Qardaşlar) **dedilər: “Onun cəzası –** (itmiş piyalə,) **yükündə tapılan kimsənin özünün** (kölə edilərək) **cəzalandırılmasıdır. Biz zalımları belə cəzalandırırıq”.**

76. O, qardaşının yükündən əvvəl onların yüklərini (axtarmağa) **başladı, sonra da piyaləni qardaşının yükündən çıxartdı. Biz Yusufa belə bir tədbir öyrətdik. Yoxsa padşahın qanunlarına görə, o, qardaşını tutub** (öz yanında) **saxlaya bilməzdi. Allahın istəyi isə istisnadır. Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik. Hər bilik sahibindən də üstün bir bilən vardır.**

Təfsiri:

Həzrət Yusifin (ə.s) xidmətçiləri onun qardaşlarını oğurluqda günahlandıran zaman onlar: **“Allaha and olsun! Siz bilirsiniz ki, biz** (bu) **yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru da deyilik”**, – deyə cavab verdilər. Yəni bizi tanıdığınızdan bəri burada fitnə-fəsad törətməyə gəlmədiyimizi dəqiq bilirsiniz. Çünki onların yaxşı əxlaqa sahib olduqlarına şahid olmuşdular. **“... biz** (bu) **yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru da deyilik”**; bizim təbiətimiz və xüsusiyyətimiz bu sifətlərlə tövsif edilə bilməz. Bunun müqabilində xidmətçilər onlara: **“Əgər yalançısınızsa, onda onun cəzası nədir?”** – deyə soruşdular. Yəni oğru sizdən biri çıxarsa, onun cəzası nə olacaq? Onlar: **“Onun cəzası –** (itmiş piyalə) **yükündə tapılan kimsənin özünün** (kölə edilərək) **cəzalandırılmasıdır. Biz zalımları belə cəzalandırırıq”**, – deyə cavab verdilər. Həqiqətən də, Həzrət İbrahimin (ə.s) şəriətində hökm məhz belə idi ki, oğru kimin malını oğurlayıbsa, həmin adama təhvil verilərdi. Həzrət Yusifin (ə.s) istədiyi də məhz bu idi. Bu səbəbdən **“O, qardaşının yükündən əvvəl onların yüklərini** (axtarmağa) **başladı”**; yəni iz azdırmaq üçün əvvəlcə onların yüklərini axtardı, **“sonra da piyaləni qardaşının yükündən çıxartdı”**. Beləcə, Bünyamini öz etirafları və inandıqları hökmün bir nəticəsi olaraq onlardan aldı. Bu səbəbdən Allah-Təala buyurur: **“Biz Yusifə belə bir tədbir öyrətdik”**; bu, Uca Allahın xoşladığı və razı olduğu bir məqsədlə edilən gözəl bir hiylədir. Çünki onda hikmət və nail olunmaq istənən mənfəət vardı.

Allah-Təala ayənin davamında buyurur: **“Yoxsa padşahın qanunlarına görə, o, qardaşını tutub** (öz yanında) **saxlaya bilməzdi”**. Yəni Misir hökmdarının qanunlarına görə, onu ala bilməzdi. Həzrət Yusif (ə.s) onların qanunlarında belə olduğunu çox yaxşı bilirdi. Məhz bu səbəbdən Uca Allah onu mədh edərək buyurur: **“Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik”**. Allah-Təala bununla bağlı başqa bir ayədə belə buyurur: **“Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın”**.[59] Ayənin axırında Uca Allah buyurur: **“Hər bilik sahibindən də üstün bir bilən vardır”**. Həsən Bəsri belə demişdir: “Hər bilənin üstündə mütləq başqa bir bilən var və bu, Uca Allaha çatana qədər davam edər”.[60]

قَالُوٓا إِنْ يَسْرِقْ فَقَدْ سَرَقَ أَخٌ لَّهُۥ مِن قَبْلُ ۚ فَأَسَرَّهَا يُوسُفُ فِى نَفْسِهِۦ وَلَمْ يُبْدِهَا لَهُمْ ۚ قَالَ أَنتُمْ شَرٌّ مَّكَانًا ۚ وَٱللَّهُ أَعْلَمُ بِمَا تَصِفُونَ ﴿٧٧﴾

77. Onlar dedilər: “Əgər o oğurlayıbsa, daha öncə onun qardaşı da oğurluq etmişdi”. Yusif bunu öz içində gizlədib onlara açıb söyləmədi və öz-özünə: “Siz daha pis mövqedəsiniz. Allah sizin nə dediyinizi çox yaxşı bilir”, – dedi.

59. Mücadilə, 58/11.
60. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 254.

Təfsiri:

Həzrət Yusifin qardaşları piyalənin Bünyaminin əşyaları arasından çıxarıldığını görən zaman: **“Əgər o oğurlayıbsa, daha öncə onun qardaşı da oğurluq etmişdi”**, – dedilər. Vəzirə özlərinin onun kimi olmadıqlarını göstərmək istəyir, bunun daha əvvəl bir qardaşının, yəni Həzrət Yusifin etdiyi kimi bir iş tutduğunu bildirirdilər. Qətadə belə demişdir: “Həzrət Yusif babasının bütünü oğurlayıb qırmışdı”. **“Yusif bunu”**; yəni **“Siz daha pis mövqedəsiniz. Allah sizin nə dediyinizi çox yaxşı bilir”** sözünü ürəyində deyib izhar etmədi.

قَالُوا يَٰٓأَيُّهَا الْعَزِيزُ إِنَّ لَهُۥٓ أَبًا شَيْخًا كَبِيرًا فَخُذْ
أَحَدَنَا مَكَانَهُۥٓ ۖ إِنَّا نَرَىٰكَ مِنَ الْمُحْسِنِينَ ﴿٧٨﴾ قَالَ
مَعَاذَ اللَّهِ أَنْ نَأْخُذَ إِلَّا مَنْ وَجَدْنَا مَتَٰعَنَا عِندَهُۥٓ ۙ إِنَّآ
إِذًا لَّظَٰلِمُونَ ﴿٧٩﴾

78. Onlar dedilər: “Ey vəzir! Onun çox qoca atası var. Onun yerinə bizim birimizi götür. Həqiqətən, Biz səni yaxşı adam hesab edirik”.

79. O dedi: “Allah eləməsin ki, yanında malımızı tapdığımız kəsdən başqasını tutub saxlayaq. Onda biz zalımlardan olarıq”.

Təfsiri:

Onların etirafları nəticəsində Bünyaminin saxlanılması və Həzrət Yusifin yanında qalması dəqiqləşdikdən sonra qardaşları Həzrət Yusifi gözəl sözlərlə razı salmağa və ürəyini yumşaltmağa cəhd edərək: **“Ey vəzir! Onun çox qoca atası var”**, – dedilər. Yəni onu çox istəyir və itirdiyi oğlunun əvəzinə onunla təsəlli tapır. **“Onun yerinə** (onun əvəzinə yanında saxlamaq üçün) **bizim birimizi götür. Həqiqətən, Biz səni yaxşı** (ədalətli, insaflı və xeyirxah) **adam hesab edirik”**.

“O dedi: “Allah eləməsin ki, (sizin sözünüzə və etirafınıza görə) **yanında malımızı tapdığımız kəsdən başqasını tutub saxlayaq. Onda** (günahkar əvəzinə günahsızı götürsək) **biz zalımlardan olarıq”**.[61]

فَلَمَّا اسْتَيْـَٔسُوا مِنْهُ خَلَصُوا نَجِيًّا ۬ قَالَ كَبِيرُهُمْ اَلَمْ
تَعْلَمُٓوا اَنَّ اَبَاكُمْ قَدْ اَخَذَ عَلَيْكُمْ مَوْثِقًا مِنَ اللّٰهِ وَمِنْ
قَبْلُ مَا فَرَّطْتُمْ فِى يُوسُفَ ۚ فَلَنْ اَبْرَحَ الْاَرْضَ حَتّٰى يَأْذَنَ
لِىٓ اَبِىٓ اَوْ يَحْكُمَ اللّٰهُ لِىۚ وَهُوَ خَيْرُ الْحَاكِمِينَ ﴿٨٠﴾
اِرْجِعُٓوا اِلٰٓى اَبِيكُمْ فَقُولُوا يَٰٓا اَبَانَٓا اِنَّ ابْنَكَ سَرَقَ ۚ وَمَا
شَهِدْنَٓا اِلَّا بِمَا عَلِمْنَا وَمَا كُنَّا لِلْغَيْبِ حَافِظِينَ ﴿٨١﴾

61. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 255.

وَسْـَٔلِ الْقَرْيَةَ الَّتِى كُنَّا فِيهَا وَالْعِيرَ الَّتِى اَقْبَلْنَا فِيهَاۖ وَاِنَّا لَصَادِقُونَ ﴿٨٢﴾

80. Ondan ümidlərini kəsdikdə məsləhətləşmək üçün bir kənara çəkildilər. Onların böyüyü dedi: “Atanızın sizdən Allah adına söz alıb and içdirməsi, bundan əvvəl də Yusifə qarşı haqsızlıq etdiyiniz yadınızdadırmı? Atam mənə izin verməyincə və ya mənə aid Allah hökm verməyincə mən bu yerdən ayrılmayacağam. O, hökm verənlərin ən yaxşısıdır”.

81. Atanızın yanına qayıdın və deyin: “Ey atamız! Oğlun oğurluq etdi. Biz ancaq bildiyimiz şeyə şahidlik etdik. Biz qeybi bilənlər deyilik.

82. Olduğumuz kənddən və birlikdə gəldiyimiz karvandan soruş. Biz, həqiqətən də, doğru danışırıq”.

Təfsiri:

Uca Allah atalarına geri gətirəcəklərini bildirən və buna dair söz verən qardaşların Bünyamini xilas etməkdən ümidlərini kəsdikdən sonra, öz aralarında məsləhətləşmək üçün kənara çəkildiklərini bildirir. **“Onların böyüyü dedi”**; onların böyüyü digər qardaşlar Həzrət Yusifi öldürmək istədik-

lərində quyuya atmalarını təklif edəndir. Onlara belə dedilər: **“Atanızın** (Bünyamini geri gətirməyinizlə bağlı) **sizdən Allah adına söz alıb and içdirdiyini bilmirsinizmi?”** Üstəlik, keçmişdə onun Yusifi itirməsinin də səbəbkarı siz olduğunuz halda, verilən sözün yerinə yetirilməsinin nə qədər imkansız olduğunu siz yaxşı bilirsiniz. **“Atam mənə izin verməyincə** (məndən razı halda qayıtmağım üçün mənə icazə verənə qədər) **və ya mənə aid Allah hökm verməyincə** (qardaşımı almağa imkan verməyincə) **mən bu yerdən ayrılmayacağam. O, hökm verənlərin ən yaxşısıdır”**.

Allah-Təala daha sonra böyük qardaşlarının onlara özləri üçün bir dəlil və üzr olsun deyə və özlərinin heç bir əlaqələrinin olmadığını sübuta yetirmək üçün atalarına hadisəni olduğu kimi danışmalarını əmr etdiyini bildirir. **“Biz qeybi bilənlər deyilik”**. Bu ifadə ilə bağlı Qətadə belə demişdir: “Oğlunun oğurluq etdiyini bilməmişik”. **“Olduğumuz kənddən** (Misir xalqından və ya başqalarından) **və birlikdə gəldiyimiz karvandan soruş”**; yəni bizimlə birlikdə səfərdə olan yol yoldaşlarımızdan da doğruluğumuz, mötəbərliyimiz, mühafizə və qorumadakı dəqiqliyimiz haqqında soruşa bilərsən. **“Biz, həqiqətən də, doğru danışırıq”**. Yəni onun oğurluq etməsi və sırf bunun ucbatından onu buraxmamaları ilə bağlı dediklərimiz tamamilə həqiqəti əks etdirir və qətiyyətlə yalan demirik.[62]

62. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 255.

قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ اَنْفُسُكُمْ اَمْرًا ؕ فَصَبْرٌ جَمِيلٌ ؕ عَسَى
اللّٰهُ اَنْ يَّاْتِيَنِىْ بِهِمْ جَمِيعًا ؕ اِنَّهٗ هُوَ الْعَلِيْمُ الْحَكِيْمُ ﴿٨٣﴾
وَتَوَلّٰى عَنْهُمْ وَقَالَ يٰۤاَسَفٰى عَلٰى يُوْسُفَ وَابْيَضَّتْ
عَيْنٰهُ مِنَ الْحُزْنِ فَهُوَ كَظِيْمٌ ﴿٨٤﴾ قَالُوْا تَاللّٰهِ تَفْتَؤُا تَذْكُرُ
يُوْسُفَ حَتّٰى تَكُوْنَ حَرَضًا اَوْ تَكُوْنَ مِنَ الْهٰلِكِيْنَ ﴿٨٥﴾
قَالَ اِنَّمَاۤ اَشْكُوْا بَثِّىْ وَحُزْنِىْۤ اِلَى اللّٰهِ وَاَعْلَمُ مِنَ اللّٰهِ مَا
لَا تَعْلَمُوْنَ ﴿٨٦﴾

83. (Yaqub) **dedi: “Xeyr, sizin nəfsiniz sizi** (bu) **işə sövq etdi.** (Mənə isə) **yaxşı səbir** (gərəkdir). **Ola bilsin ki, Allah onların hamısını mənə qaytarsın. Həqiqətən də, O, biləndir, müdrikdir”.**

84. (Yaqub) **onlardan üz döndərdi və: “Heyf, yazıq Yusif!” – dedi. Kədərdən onun gözlərinə ağ gəldi. O,** (dərdini öz içində) **saxlayırdı”.**

85. Onlar dedi: “Allaha and olsun ki, Yusifi sən tez-tez yada salmaqla axırda əldən düşəcək, ya da öləcəksən”.

86. O dedi: “Mən dərd-qəmimi yalnız Allaha açıb söyləyirəm və Allahdan nazil olan vəhy sayəsində sizin bilmədiklərinizdən agah oluram.

Təfsiri:

Həzrət Yaqub (ə.s) oğullarına Həzrət Yusifin saxta qana bulanmış köynəyini gətirdiklərində dediyinin eynisini dedi: **“Xeyr, sizin nəfsiniz sizi** (bu) **işə sövq etdi.** (Mənə isə) **yaxşı səbir** (gərəkdir)**”**. İbn İshaq belə demişdir: “Oğulları Həzrət Yaqubun yanına gəlib baş verənləri xəbər verdiklərində onlara inanmadı və Bünyaminə də Yusifə etdiklərinin eynisini etdiklərini sanaraq: **“Xeyr, sizin nəfsiniz sizi** (bu) **işə sövq etdi.** (Mənə isə) **yaxşı səbir** (gərəkdir)**”**, – dedi. Sonra da Həzrət Yaqub (ə.s) ürəyində Yusifi və qardaşı Bünyamin ilə Misirdə qalıb ya atasının razı olaraq qayıtmasını əmr etməsini və ya qardaşını gizlincə ələ keçirməyi gözləyən Rubili ona gətirəcəyinə dair Allaha bir ümid bəslədi. Bu səbəbdən ayədə belə buyurulur: **“**(Yaqub) **onlardan üz döndərdi və: “Heyf, yazıq Yusif!”** – dedi. Yəni oğullarından üz döndərdi və Yusif ilə bağlı məsələdə olan kədərini xatırlayaraq dedi: **“Heyf, yazıq Yusif!”** İki oğlunun hüznü onun keçmiş kədərini təzələdi. Səid ibn Cübeyr belə demişdir: “Başa bir müsibət gələn zaman istirca etmək[63] yalnız bu ümmətə bəxş edilmişdir. Həzrət Yaqubun dediyini eşitmirsinizmi?! **“Heyf, yazıq Yusif!” – dedi. Kədərdən onun gözlərinə ağ gəldi. O,** (dərdini öz içində) **saxlayırdı”**.

Oğullar atalarını bu halda görəndə qəlbləri riqqətə gəlib şəfqət və mərhəmətlə: **“Allaha and olsun ki, Yusifi sən tez-tez yada salmaqla axırda əldən düşəcək, ya da**

63. “İnnə lilləhi və innə ileyhi raciun/Biz Allaha aidik və Ona da qayıdacağıq!” demək.

öləcəksən”. Bu halın belə davam edərsə, sənin məhv olub getməyindən qorxuruq!” – dedilər. O da onların dediklərinə belə cavab verdi: **“Mən dərd-qəmimi yalnız Allaha açıb söyləyirəm və Allahdan nazil olan vəhy sayəsində sizin bilmədiklərinizdən agah oluram”**. Yəni hər bir yaxşılığı mən sırf Ondan umuram. İbn Abbas ayədəki **“Allahdan nazil olan vəhy sayəsində sizin bilmədiklərinizdən agah oluram”** ifadəsini “Mən Yusifin yuxusunun haqq olduğunu və Uca Allahın onu izhar edəcəyini bilirəm”, şəklində təfsir etmişdir. Övfi isə belə təfsir etmişdir: “Mən Yusifin yuxusunun doğru olduğunu və ona səcdə edəcəyimi bilirəm”.[64]

يَا بَنِيَّ اذْهَبُوا فَتَحَسَّسُوا مِنْ يُوسُفَ وَاَخِيهِ وَلَا
تَايْـَٔسُوا مِنْ رَوْحِ اللّٰهِ ۖ اِنَّهُ لَا يَايْـَٔسُ مِنْ رَوْحِ اللّٰهِ اِلَّا
الْقَوْمُ الْكَافِرُونَ ﴿٨٧﴾ فَلَمَّا دَخَلُوا عَلَيْهِ قَالُوا يَآ اَيُّهَا
الْعَزِيزُ مَسَّنَا وَاَهْلَنَا الضُّرُّ وَجِئْنَا بِبِضَاعَةٍ مُزْجٰيةٍ
فَاَوْفِ لَنَا الْكَيْلَ وَتَصَدَّقْ عَلَيْنَا ۖ اِنَّ اللّٰهَ يَجْزِى
الْمُتَصَدِّقِينَ ﴿٨٨﴾

87. Ey oğullarım! Yusif və qardaşından xəbər tutmaq üçün yola düşün,

64. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 256.

Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər”.

88. Onlar (Yusifin) **yanına girdikdə dedilər: “Ey vəzir! Biz və ailəmiz fəlakətə uğramışıq. Bir az mal gətirmişik. Bizə bunların əvəzində ölçünü tam elə və bizə sədəqə ver. Şübhəsiz ki, Allah sədəqə verənləri mükafatlandırar”.**

Təfsiri:

Uca Allah Həzrət Yaqubun oğullarını Həzrət Yusif və qardaşı Bünyamindən xəbər almaq üçün Misirə göndərdiyini bildirir. Allah-Təala Həzrət Yaqubun (ə.s) onları buna təşviq etdiyini, müjdə verdiyini və Allah-Təalanın mərhəmətindən ümid kəsməmələrini əmr etdiyini bildirir. Yəni niyyət etdikləri və yönəldikləri bu işdə Uca Allahdan ümidlərini kəsməmələrini, çünki Allahdan ümidlərini yalnız kafir olan kəslərin kəsdiklərini söyləyir.

“Onlar (Yusifin) **yanına girdikdə”**; yəni “Onlar yola düşdülər, sonra Misirə daxil oldular və Həzrət Yusifin hüzuruna çıxdılar və dedilər: **“Ey vəzir! Biz və ailəmiz fəlakətə uğramışıq** (onlar bununla qıtlıq, quraqlıq və ərzaq azlığını nəzərdə tuturdular)**. Bir az mal gətirmişik”**. Yəni əvəzində ərzaq alacağımız malımız çox azdır. Mücahid və Həsən Bəsridən nəql edildiyinə görə, İbn Abbas belə demişdir: “Əlimizdə qiymətsiz əşyalar”, yaxud “Olduqca az qiymətə malik olan bəsit dirhəmlər vardır”. Dəhhak isə belə demişdir: “İstifadəyə yararsız olan pullar vardır”. Ayədə

qeyd edilən "مُزْجَاة/müzcat" kəlməsinin məsdəri olan "izca" kəlməsi "bir şeyin zəifliyi səbəbilə rədd edilməsi" mənasına gəlir.

Uca Allah ayənin davamında buyurur ki, qardaşlar sonra belə dedilər: **"Bizə bunların əvəzində ölçünü tam elə"**. Yəni bu azacıq pul müqabilində bizə daha əvvəl verdiyin qədər ərzaq ver. İbn Cüreyc **"və bizə sədəqə ver"** ifadəsini: "Qardaşımızı qaytarmaq surətilə bizə sədəqə ver", – deyə təfsir etmişdir. Səid ibn Cübeyr və Süddi isə belə demişlər: "Əlimizdəki çox az miqdarda olan malı alıb, bunun müqabilində bizə güzəşdə gedərək ehsan et".[65]

قَالَ هَلْ عَلِمْتُمْ مَا فَعَلْتُمْ بِيُوسُفَ وَاَخِيهِ اِذْ اَنْتُمْ
جَاهِلُونَ ﴿٨٩﴾ قَالُٓوا ءَاِنَّكَ لَاَنْتَ يُوسُفُ ۖ قَالَ اَنَا۠ يُوسُفُ
وَهٰذَٓا اَخِى ۖ قَدْ مَنَّ اللّٰهُ عَلَيْنَا ۖ اِنَّهُ مَنْ يَتَّقِ وَيَصْبِرْ فَاِنَّ اللّٰهَ
لَا يُضِيعُ اَجْرَ الْمُحْسِنِينَ ﴿٩٠﴾ قَالُوا تَاللّٰهِ لَقَدْ اٰثَرَكَ اللّٰهُ
عَلَيْنَا وَاِنْ كُنَّا لَخَاطِـِٔينَ ﴿٩١﴾ قَالَ لَا تَثْرِيبَ عَلَيْكُمُ
الْيَوْمَ ۖ يَغْفِرُ اللّٰهُ لَكُمْ ۖ وَهُوَ اَرْحَمُ الرَّاحِمِينَ ﴿٩٢﴾

89. O dedi: "Sizin nadanlığınız dövründə Yusifə və qardaşına nələr etdiyiniz yadınızdadırmı?"

65. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 256.

90. Onlar dedilər: “Yoxsa sən özün Yusifsən?” O dedi: “Mən Yusufam, bu da qardaşımdır. Allah bizə mərhəmət etmişdir. Kim (Allahdan) **qorxsa və səbr etsə,** (bilsin ki,) **Allah yaxşı iş görənlərin mükafatını puç etməz”.**

91. Onlar dedilər: “Allaha and olsun ki, Allah səni bizdən üstün tutmuşdur. Biz isə günahkar olmuşuq”.

92. (Yusif) **dedi: “Bu gün sizə** (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir.**

Təfsiri:

Allah-Təala bildirir ki, qardaşları Həzrət Yusifə başlarına gələn sıxıntı, darlıq, qıtlıq və hər tərəfi bürüyən quraqlıq barədə danışdıqdan sonra, Həzrət Yusif (ə.s) özünün sahib olduğu səltənət və bolluq içində ikən atasının vəziyyətini və iki övladını itirməsi səbəbilə qərq olduğu qəm-qüssəni xatırlayıb atasına və qardaşlarına qarşı mərhəmət və şəfqət hisləri qabardı və dözə bilməyib ağladı. Beləliklə, onlar dedilər: **“Yoxsa sən özün Yusifsən?”** Bu ayədəki sual cümləsi dəhşətə düşməyə və heyrətamizliyə dəlalət edir. Yəni onlar iki il və ya daha uzun bir müddət bilmədən onun yanına gəlib-getdiklərinə və onun da bildiyi halda özünü gizlətməsinə heyrət etdilər. Məhz bu səbəbdən sual verərək: **“Yoxsa**

sən özün Yusifsən?” – deyə soruşdular. **“O dedi: “Mən Yusifəm, bu da qardaşımdır. Allah** (ayrılıqdan və uzun müddətdən sonra bizi bir-birimizə qovuşdurmaqla) **bizə mərhəmət etmişdir. Kim** (Allahdan) **qorxsa və səbr etsə,** (bilsin ki,) **Allah yaxşı iş görənlərin mükafatını puç etməz. Onlar dedilər: “Allaha and olsun ki, Allah səni bizdən üstün tutmuşdur. Biz isə günahkar olmuşuq”**. Qardaşları onun fiziki və mənəvi, səltənət və var-dövlət cəhətdən üstünlüyünü etiraf edib ona qarşı pislik və haqızlıq etdiklərini qəbul etdilər. Bunun müqabilində Həzrət Yusif onların qınanılmayacağını deyib, üstəlik, onlar üçün bağışlanma dilədi: **“**(Yusif) **dedi: “Bu gün sizə** (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir”**. Süddi belə demişdir: “Qardaşları Həzrət Yusifdən üzr istəyən zaman, onlara: **“Bu gün sizə** (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur”**,– deyə cavab verdi.”. Yəni “Bir daha sizin günahınızdan bəhs etməyəcəyəm!” – dedi. İbn İshaq və Sövri belə demişlər: “Yəni etdiklərinizə görə mənim tərəfimdən sizə qarşı hər hansı məzəmmət yoxdur”. **“Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir”**[66]

اِذْهَبُوا بِقَمِيصِى هٰذَا فَاَلْقُوهُ عَلٰى وَجْهِ اَبِى يَأْتِ بَصِيرًا ۚ
وَأْتُونِى بِاَهْلِكُمْ اَجْمَعِينَ ۝٩٣ وَلَمَّا فَصَلَتِ الْعِيرُ قَالَ

66. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 257.

اَبُوهُمْ اِنِّى لَاَجِدُ رِيحَ يُوسُفَ لَوْلَٓا اَنْ تُفَنِّدُونِ ﴿٩٤﴾

قَالُوا تَاللّٰهِ اِنَّكَ لَفِى ضَلَالِكَ الْقَدِيمِ ﴿٩٥﴾

93. Bu köynəyimi götürüb aparın, atamın üzünə sürtün, o (yenidən) **görməyə başlayar. Bütün ailənizi də yığıb yanıma gəlin!”**

94. Karvan (vətənə qayıtmaq üçün Misirdən) **ayrılanda ataları dedi: “Əgər məni səfeh hesab etməsəydiniz, deyərdim ki, Yusifin qoxusunu hiss edirəm!”**

95. Onlar: “Allaha and olsun ki, sən yenə öz köhnə yanlışlığında (çaşqınlığında) **qalmaqdasan!” – dedilər.**

Təfsiri:

Həzrət Yusif (ə.s) qardaşlarına belə dedi: **“Bu köynəyimi götürüb aparın, atamın üzünə sürtün, o** (yenidən) **görməyə başlayar”**. Çünki o, görmə qabiliyyətini çox ağlamaq ucbatından itirmişdi. **“Bütün ailənizi də** (Yaqub nəslindən olan hər kəsi) **yığıb yanıma gəlin!”**

“Karvan (vətənə qayıtmaq üçün Misirdən) **ayrılanda ataları** (Həzrət Yaqub yanındakı övladlarına) **dedi: “Əgər məni səfeh hesab etməsəydiniz** (qocalıb ağlını itirdi deməsəydiniz)**, deyərdim ki, Yusifin qoxusunu hiss edirəm! Onlar: “Allaha and olsun ki, sən yenə öz köhnə çaşqınlığında qalmaqdasan!” – dedilər”**.

فَلَمَّآ اَنْ جَآءَ الْبَشِيْرُ اَلْقٰىهُ عَلٰى وَجْهِهٖ فَارْتَدَّ
بَصِيْرًاۚ قَالَ اَلَمْ اَقُلْ لَّكُمْ اِنِّيْٓ اَعْلَمُ مِنَ اللّٰهِ مَا لَا
تَعْلَمُوْنَ ﴿٩٦﴾ قَالُوْا يٰٓاَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوْبَنَآ اِنَّا كُنَّا
خٰطِـِٕيْنَ ﴿٩٧﴾ قَالَ سَوْفَ اَسْتَغْفِرُ لَكُمْ رَبِّيْۗ اِنَّهٗ هُوَ
الْغَفُوْرُ الرَّحِيْمُ ﴿٩٨﴾

96. Müjdəçi gəlib köynəyi onun üzünə sürtən kimi gözləri açıldı və o dedi: “Məgər sizə deməmişdimmi ki, mən Allahdan (gələn vəhy sayəsində) **sizin bilmədiklərinizi bilirəm?”**

97. Onlar dedilər: “Ey atamız! (Allahdan) **bizim günahlarımızın bağışlanmasını dilə. Doğrudan da, biz, günahkar olmuşuq”.**

98. (Yaqub) **dedi: “Mən Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəyəm. O, həqiqətən, bağışlayandır, rəhm edəndir!”**

Təfsiri:

İbn Abbas ayədə qeyd edilən “müjdəçinin” xəbər verməyə gələn “elçi” olduğunu bildirmişdir. Süddi belə demişdir. “Həmin şəxs Yaqubun oğlu Yəhuza idi. Köynəyi o gə-

tirdi, çünki qana bulanmış köynəyi də məhz o gətirmişdi. Bu səbəbdən onu bununla yumaq istədi. Köynəyi gətirib atasının üzünə sürtən kimi onun gözləri açıldı və həmin vaxt oğullarına: **“Məgər sizə deməmişdimmi ki, mən Allahdan** (gələn vəhy sayəsində) **sizin bilmədiklərinizi bilirəm?”** – dedi. Məhz bu vaxt onlar atalarının yanına yavaşca yaxınlaşaraq dedilər: **“Ey atamız!** (Allahdan) **bizim günahlarımızın bağışlanmasını dilə. Doğrudan da, biz, günahkar olmuşuq.** (Yaqub) **dedi: “Mən Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəyəm. O, həqiqətən, bağışlayandır, rəhm edəndir!”** Yəni kim Allaha tövbə edərsə, Allah-Təala onun tövbəsini qəbul edər. İbn Məsud belə demişdir: “Onu təhəccüd vaxtına təxirə saldı”. Təbərinin nəql etdiyinə görə, Həzrət Ömər məscidə gedəndə bir nəfərin: “Allahım, məni çağırdın, mən də gəldim! Dəvət etdin, mən də icabət etdim! Əmr etdin, mən də itaət etdim! Budur, təhəccüd vaxtı. Məni bağışla!” – deyə dua edərkən eşidirdi. Bir dəfə səsə yaxşıca qulaq asanda səsin İbn Məsudun evindən gəldiyini gördü. Bu barədə İbn Məsudan soruşdu. İbn Məsud da: “Həzrət Yaqub (ə.s): **“Mən Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəyəm”**, – deyərək oğulları üçün dua etməyi təhəccüd vaxtına təxirə salmışdı”, – deyə cavab verdi.[67]

Həzrət Yusifin dəvəti ilə bütün ailə üzvləri yığışıb Misirə yola çıxdılar. Karvanın yaxınlaşdığını xəbər alan Həzrət Yusif onları qarşılamaq üçün şəhərin kənarında bir qərargah qurdu.[68]

---

67. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 257-258.
68. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 650.

فَلَمَّا دَخَلُوا عَلٰى يُوسُفَ اٰوٰٓى اِلَيْهِ اَبَوَيْهِ وَقَالَ ادْخُلُوا
مِصْرَ اِنْ شَآءَ اللّٰهُ اٰمِنِينَ ﴿٩٩﴾ وَرَفَعَ اَبَوَيْهِ عَلَى
الْعَرْشِ وَخَرُّوا لَهُ سُجَّدًا وَقَالَ يٰٓاَبَتِ هٰذَا تَأْوِيلُ
رُءْيَايَ مِنْ قَبْلُ قَدْ جَعَلَهَا رَبِّى حَقًّا وَقَدْ اَحْسَنَ بِّى
اِذْ اَخْرَجَنِى مِنَ السِّجْنِ وَجَآءَ بِكُمْ مِنَ الْبَدْوِ مِنْ
بَعْدِ اَنْ نَزَغَ الشَّيْطَانُ بَيْنِى وَبَيْنَ اِخْوَتِى اِنَّ رَبِّى
لَطِيفٌ لِمَا يَشَآءُ اِنَّهُ هُوَ الْعَلِيمُ الْحَكِيمُ ﴿١٠٠﴾

99. Onlar Yusifin yanına gəldikdə o, ata-anasını bağrına basıb dedi: “Allahın istəyi ilə əmin-amanlıq içərisində Misirə daxil olun!”

100. O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar (hamısı) **onun qarşısında səcdə etdilər. O dedi: “Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O mənə lütf etdi. O məni zindandan çıxartdı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan** (yanıma) **gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır. Həqiqətən, O, hər şeyi biləndir, hikmət sahibidir.**

Təfsiri:

Burada Allah-Təala Yaqub (ə.s) peyğəmbərin Həzrət Yusifin yanına və Misirə gəlişindən bəhs edir. Həzrət Yusif qardaşlarının ailə üzvlərinin hamısını gətirmələrini tələb etdikdən sonra, onlar bütün ailə fərdlərini götürüb Kənandan Misirə köçmək məqsədilə yola çıxdılar. Onların yaxınlaşdıqları xəbəri gəldikdə, Həzrət Yusif onları qarşılamaq üçün çıxdı. Hökmdar da əmirlərinə və əyan-əşrafına Uca Allahın peyğəmbəri Həzrət Yaqubu (ə.s) qarşılamaq üçün çıxmalarını əmr etdi. Hətta onu qarşılamaq üçün hökmdarın özünün də çıxdığı ehtimal olunur.

“Onlar Yusifin yanına gəldikdə o, ata-anasını bağrına basıb dedi: “Allahın istəyi ilə əmin-amanlıq içərisində Misirə daxil olun!” Süddi belə demişdir: “Onlar atası ilə bibisi idi. Anası isə çoxdan vəfat etmişdi”. Təbəri isə belə demişdir: “Onun anasının öldüyünə dair heç bir dəlil yoxdur. Quranın zahiri ifadəsi də anasının həyatda olduğuna dəlalət edir”.

“O, ata-anasını taxtın üstündə əyləşdirdi”. İbn Abbas bu ayədəki “ərş” sözünün “taxt” mənasına gəldiyini bildirmişdir. **“Onlar** (hamısı) **onun qarşısında səcdə etdilər. O dedi: “Atacan! Bu, çoxdankı yuxumun yozumudur”**. Həzrət Yusif (ə.s) bununla uzun müddət əvvəl atasına danışdığı yuxusunu nəzərdə tuturdu. Səcdə onların şəriətində caiz idi. Çünki böyüyə salam verərkən ona səcdə edirdilər. Bu, Həzrət Adəmin şəriətindən Həzrət İsanın şəriətinə qədər bütün şəriətlərdə belə davam etmiş, lakin bu ümmətdə haram buyurulmuş və səcdə, sadəcə, Uca Rəbbə

məxsus edilmişdir. Belə ki, bir hədisi-şərifdə qeyd olunduğuna görə, Salman Mədinə küçələrindən birində Həzrət Peyğəmbər (s.ə.s) ilə qarşılaşdı. İslamı hələ təzə qəbul edən vaxtları idi. Həzrət Peyğəmbərə (s.ə.s) səcdə etdi. Bunun müqabilində Həzrət Peyğəmbər (s.ə.s): *"Mənə səcdə etmə, ey Salman. Heç ölməyən və diri olana səcdə et!"* – deyə buyurdu. Yəni bu anlayış, həqiqətən də, onların şəriətində var idi. Bu səbəbdən də qardaşları Həzrət Yusifin qarşısında səcdə etdilər və həmin vaxt Həzrət Yusif (ə.s) belə dedi: **"Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi"**.[69]

Həzrət Yusif (ə.s) bundan sonra Uca Allahın ona bəxş etdiyi nemətləri qeyd edərək dedi: **"O mənə lütf etdi. O məni zindandan çıxartdı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan** (yanıma) **gətirdi"**. İbn Cüreycin bildirdiyinə görə, onlar mal-qara ilə dolanan və səhralıqda yaşayan kəslərdi. **"Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır"**. Yəni Uca Allah bir şey istəyəndə onun üçün səbəblər yaradar, onu təqdir edər və onu asanlaşdırar. **"Həqiqətən, O,** (bəndələrin mənafeyini) **biləndir,** (sözlərində, işlərində, qəzavü-qədərində və seçib istədiyində) **hikmət sahibidir"**.

Məhəmməd ibn İshaq belə demişdir: "Doğrusunu Uca Allah bilir, ancaq mənə bildirildiyinə görə, Həzrət Yusifin (ə.s) Həzrət Yaqubdan (ə.s) ayrılığı on səkkiz il sürmüşdür. Əhli-kitab bunun qırx il olduğunu və Həzrət Yaqubun (ə.s) Misirə gəldikdən on yeddi il sonra Uca Allahın onu Öz dər-

69. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 259.

gahına aldığını iddia edirlər”. Abdullah ibn Şəddad belə demişdir: “Həzrət Yaqubun (ə.s) ailə üzvləri Misirdə olan Həzrət Yusifin (ə.s) yanına getdiklərində kiçiyi-böyüyü, kişisi-qadını ilə səksən dörd nəfər idilər və oradan altı yüz mindən çox insan olaraq çıxdılar”.[70]

رَبِّ قَدْ اٰتَيْتَنِى مِنَ الْمُلْكِ وَعَلَّمْتَنِى مِنْ تَأْوِيلِ الْاَحَادِيثِۚ
فَاطِرَ السَّمٰوَاتِ وَالْاَرْضِ اَنْتَ وَلِيِّ فِى الدُّنْيَا وَالْاٰخِرَةِۚ
تَوَفَّنِى مُسْلِمًا وَاَلْحِقْنِى بِالصَّالِحِينَ ﴿١٠١﴾

101. Ey Rəbbim! Sən mənə səltənətdən bir pay verdin. Mənə yuxu yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!”

Təfsiri:

Bu, Həzrət Yusif (ə.s) peyğəmbərin duasıdır. Belə ki, ana-atası və qardaşları bir yerə toplandıqdan, ona bəxş edilən peyğəmbərlik və səltənət nemətləri ilə Uca Allahın ona olan neməti tamamlandıqdan sonra, dua edib Rəbbindən müsəlman olaraq ölməyi və əməlisaleh olanlara qovuşmağı dilədi. Əməlisaleh olanlar da peyğəmbərlərdən və elçilərindən olan onun qardaşlarıdır. Bu duanı Həzrət

70. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 258-259.

Yusif (ə.s) peyğəmbərin tam ölüm vaxtı gələndə dediyi də ehtimal olunur. Bir hədisi-şərifdə bildirilir ki, Rəsulullah (s.ə.s) vəfat edən zaman barmağını yuxarı qaldırıb üç dəfə: *“Allahım, ən uca dosta!”* – buyurdu.[71] Bundan əlavə, Həzrət Yusifin (ə.s) bu duasını Uca Allaha ömrünün axırlarına çatıb ölüm yaxınlaşanda müsəlman olaraq vəfat etdirilib salehlərə qovuşması üçün etdiyi də ehtimal olunur. Bu, bir nəfərin başqasına: “Allah səni müsəlman olaraq öldürsün!” – deməsi və dua edən şəxsin öz duasında: “Allahım! Bizi müsəlman olaraq yaşat, müslman olaraq öldür və bizi salehlər zümrəsinə qovuşdur!” – deyə dua etməsi kimidir. Başqa bir ehtimal da ondan ibarətdir ki, Həzrət Yusif (ə.s) bununla Uca Allahdan ölümü istəmişdir və bu, onların dinində caiz idi. Qətadənin dediyi kimi: “Uca Allah onun pərişan halını düzəldib gözünə tam rahatlıq verdikdən sonra, o gün dünya nemətləri, onun cazibədarlığı və sahib olduğu səltənət əhvali-ruhiyyəsində ikən özündən əvvəlki salehlərdən ötrü darıxdı”. İbn Abbas isə belə deyir: “Həzrət Yusifdən əvvəl heç bir peyğəmbər ölümü arzulamamışdı”. Lakin bu, *“Sizdən heç kəs başına gələn bir sıxıntı ucbatından əsla ölümü arzulamasın. Çünki, əgər o yaxşı insandırsa, yaxşılıqları artar, əgər pis insandırsa, bəlkə tövbə edər. Lakin: “Allahım, yaşamaq mənim üçün xeyirli olduğu müddətdə məni yaşat. Ölmək mənim üçün xeyirlidirsə, məni öldür!” – desin!”* hədisi-şərifinə görə bizim şəriətimizdə caiz deyil.[72]

Başqa bir hədisi-şərifdə Həzrət Peyğəmbər (s.ə.s) belə buyurur: *“Əməlinə etibar etməsi halı istisna olmaqla, sizdən*

71. Buxari, “Məğazi”, 85.
72. Oxşar hədislər üçün bax. Buxari, “Mərda”, 19; Müslim, “Zikr”, 4.

heç kəs əsla ölümü arzulamasın. Heç vaxt ölüm özü gəlmədən onun gəlməsi üçün dua etməyin! Çünki sizdən biriniz öldükdə onun əməli tamamilə qurtarmış olur. Çünki etdiyi əməllər möminə faydadan başqa bir şey qazandırmaz".[73] Bu, sıxıntı və zərərin fiziki baxımdan meydana gəlməsi ilə bağlıdır. Ancaq, əgər dini baxımdan fitnəyə düşmək qorxusu olarsa, ölümü arzulamaq caizdir. Allah-Təalanın Firon sehirbazları dinlərindən döndərmək istədikdə və ölümlə təhdid etdikdə onların belə dediklərini bildirməsi kimi: **"Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür"**.[74] Həzrət Məryəm anamız da belə demişdir: **"Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!"**[75] Çünki əri olmadığı halda hamilə qalıb uşaq dünyaya gətirmişdi və bilirdi ki, insanlar onu əxlaqsızlıqla günahlandıraraq ona böhtan atacaqlar.

Bir hədisi-şərifdə Rəsulullah (s.ə.s) belə buyurur: *"Allahım, bir qövm üçün fitnə-fəsad istədiyində məni fitnəyə düşmədən dərhal yanına apar!"*[76] Odur ki, dində fitnədən qorxduqda ölüm istəmək və bunun üçün dua etmək caizdir. Bu səbəbdən Həzrət Əli (r.ə) xəlifəliyinin sonlarında işlərin düzəlməyib, əksinə daha da pisləşdiyini gördükdə: "Allahım, məni yanına apar! Çünki mən onlardan, onlar da məndən bezdilər", – dedi. Buxari belə demişdir: "Həzrət Əlinin (r.ə) başına bu fitnələr gəldikdə və Xorasan valisi ilə arasında xoş olmayan hadisələr baş verdikdə: "Allahım,

73. İbn Hənbəl, "Müsnəd", II, 350.
74. Əraf, 7/126.
75. Məryəm, 19/23.
76. İbn Hənbəl, "Müsnəd", V, 243.

məni öldürüb yanına apar!" – deyə dua etdi". Başqa bir hədisi-şərifdə də belə buyurulur: *"Dəccal dövründə bir şəxs qəbrin yanından keçərkən: "Kaş sənin yerində olaydım!" – deyəcək"*.[77] Çünki o, fitnəyə düşməyə meyilli olan hər kəsin yolunu azmasına səbəb olan fitnələri, iğtişaşları və qorxunc şeyləri görəcəkdir.[78]

ذٰلِكَ مِنْ اَنْۢبَآءِ الْغَيْبِ نُوحِيهِ اِلَيْكَ ۚ وَمَا كُنْتَ لَدَيْهِمْ اِذْ
اَجْمَعُٓوا اَمْرَهُمْ وَهُمْ يَمْكُرُونَ ﴿١٠٢﴾ وَمَٓا اَكْثَرُ النَّاسِ
وَلَوْ حَرَصْتَ بِمُؤْمِنِينَ ﴿١٠٣﴾ وَمَا تَسْـَٔلُهُمْ عَلَيْهِ مِنْ اَجْرٍ ۚ
اِنْ هُوَ اِلَّا ذِكْرٌ لِلْعَالَمِينَ ﴿١٠٤﴾

102. Bunlar sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Onlar hiylə quraraq işlərinə qərar verdikləri zaman sən onların yanında deyildin.

103. Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir.

104. Halbuki sən bundan ötrü onlardan heç bir mükafat istəmirsən. Bu (Quran) **isə aləmlərə yalnız bir öyüd-nəsihətdir!**

77. Oxşar hədislər üçün bax. Buxari, "Fitən", 21.
78. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 259-260.

Təfsiri:

Allah-Təala Həzrət Mühəmmədə (s.ə.s) Həzrət Yusif peyğəmbərin qardaşlarının hekayətini, onu qardaşlarından necə üstün etdiyini, ona pislik edərək onu ortadan qaldırıb məhv etmək istədikləri halda, onu necə müzəffər edib zənginlik və səltənət sahibi etdiyini danışdıqdan sonra ona belə səslənir: "Ey Mühəmməd! Bu və buna oxşar keçmişdəki qeyb xəbərlərini **"...sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir"**. Bütün bunlarda sənin üçün ibrət və səndən sonrakılar üçün öyüd-nəsihət olduğuna görə sənə öyrədirik. **"Onlar hiylə quraraq işlərinə** (səni quyuya atmaqla bağlı) **qərar verdikləri zaman sən onların yanında deyildin"**. Ancaq biz bunları sənə vəhy edərək bildirdik. Allah-Təala bununla bağlı müxtəlif ayələrdə belə buyurur: **"Hansının Məryəmi himayə edəcəyi barədə qələmlərini** (püşk) **atdıqları zaman sən onların yanında deyildin"**,[79] **"Biz Musaya əmri yerinə yetirməyi tapşırdıqda sən** (dağın) **qərb tərəfində deyildin. Sən** (buna) **şahid olanlardan da deyildin"**,[80] **"Biz (Musanı) çağırdığımız zaman da sən dağın yanında deyildin"**.[81] Allah-Təala Həzrət Peyğəmbərə (s.ə.s) onun Özünün elçisi olduğunu və insanlara din və dünyalarında nicat səbəbi olan keçmişdə yaşanmış ibarətamiz hadisələr haqqında məlumatlar verdiyini, ancaq buna baxmayaraq insanların əksə-

79. Ali-İmran, 3/44.
80. Qəsəs, 28/44.
81. Qəsəs, 28/46.

riyyətinin iman gətirməyəcəklərini xəbər verir. Bu səbəbdən belə buyurur: **“Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir”**. Başqa bir ayədə isə belə buyurur: **“Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar”**.[82]

“Halbuki sən bundan ötrü onlardan heç bir mükafat istəmirsən”. Yəni ey Mühəmməd, öyüd-nəsihətin və yaxşılığın nəticəsində sən onlardan hər hansı mükafat və bir əvəz də istəmirsən. Əksinə, bunu sırf Uca Allahın rizası üçün və Onun bəndələrinə öyüd-nəsihət vermək məqsədilə edirsən. **“Bu** (Quran) **isə aləmlərə yalnız bir öyüd-nəsihətdir!”** Yəni ondan öyüd-nəsihət götürəcəkləri, onunla doğru yolu tapacaqları, dünya və axirətdə nicat tapacaqları bir öyüddür.[83]

وَكَاَيِّنْ مِنْ اٰيَةٍ فِى السَّمٰوٰتِ وَالْاَرْضِ يَمُرُّوْنَ
عَلَيْهَا وَهُمْ عَنْهَا مُعْرِضُوْنَ ﴿١٠٥﴾ وَمَا يُؤْمِنُ اَكْثَرُهُمْ
بِاللّٰهِ اِلَّا وَهُمْ مُّشْرِكُوْنَ ﴿١٠٦﴾ اَفَاَمِنُوْٓا اَنْ تَاْتِيَهُمْ
غَاشِيَةٌ مِّنْ عَذَابِ اللّٰهِ اَوْ تَاْتِيَهُمُ السَّاعَةُ بَغْتَةً وَّهُمْ
لَا يَشْعُرُوْنَ ﴿١٠٧﴾

82. Ənam, 6/116.
83. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 260.

105. Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, (insanların çoxu) **onların yanından üz çevirib keçirlər.**

106. Onların çoxu ancaq şərik qoşaraq Allaha inanırlar.

107. Məgər onlar Allahın (hər şeyi) **bürüyən əzabının onları qaplamayacağına və ya özləri də hiss etmədən qiyamətin onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi?**

Təfsiri:

Allah-Təala insanların əksəriyyətinin Onun təkliyinə dəlalət edən göylərdəki və yerdəki dəlilləri düşünməkdən qafil olduqlarını bildirir. Uca Allah göylərdə sabit və parlaq ulduzlar, dövrə vuran planetlər və qalaktikalar yaratmışdır. Yer üzündə də bağ-bağçalar, dağlar, dənizlər, okeanlar, heyvanlar və bitkilər xəlq etmişdir. Tək və bir olan, cürbəcür məxluqatın yaradıcısı, adlar və sifətlərin sahibi, ölməz olan və heç kəsə möhtac olmayıb hər kəsin Ona möhtac olduğu Allah hər cür nöqsanlıqdan uzaqdır.

“Onların çoxu ancaq şərik qoşaraq Allaha inanırlar”. İbn Abbas belə demişdir: “Onların imanları belədir ki, onlardan: “Göyləri, yeri və dağları kim yaratdı?” – deyə soruşulanda onlar müşrik olduqları halda: “Allah!” – deyə cavab verərlər”. Bir hədisdə belə buyurulur: “Onlar: “Ləbbeyk, lə şərikə lək!” – dediklərində Rəsulullah (s.ə.s): *“Ki-*

fayətdir, kifayətdir! Bundan artığını deməyin!" – buyurdu". Allah-Təala bir ayeyi-kərimədə belə buyurur: **"Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"**[84]

Həsən Bəsri **"Onların çoxu ancaq şərik qoşaraq Allaha inanırlar"** ayəsi ilə bağlı belə demişdir: "Münafiq bir iş gördükdə bunu riyakarlıqla edər. Bununla da müşrik olar". Yəni Uca Allahın başqa bir ayəsində buyurduğu kimi: **"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki əslində Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər"**.[85] Əbu Səid ibn Əbu Füdalədən nəql edildiyinə görə, o, Rəsulullahın (s.ə.s) belə buyurduğunu eşitmişdir: *"Uca Allah haqqında heç bir şəkk-şübhə olmayan gündə ilkləri və sonları topladıqdan sonra bir carçı: "Kim Allah üçün etdiyi bir işə başqasını şərik qoşmuşsa, onun mükafatını Allahdan başqasından istəsin. Çünki Allah-Təala şərik qoşulanlar arasında şərik qoşulmaqdan ən çox münəzzəh (uzaq) olandır", – deyə səslənəcək"*.[86] Rəsulullah (s.ə.s) belə buyurur: *"Sizin haqqınızda ən çox qorxduğum kiçik şirkdir"*. Səhabələr: "Kiçik şirk nədir, ey Allahın Rəsulu?" – deyə soruşdular. Rəsulullah (s.ə.s): *"Riyakarlıqdır. Uca Allah qiyamət günündə insanlara əməllərinin əvəzini verən zaman: "Dünyada riyakarlıq etdiyiniz insanların yanına gedin. Baxın görün onlarda hər hansı mükafat tapa biləcəksiniz?!" – deyə buyuracaqdır"*.[87]

---

84. Loğman, 31/13.
85. Nisa, 4/142.
86. İbn Hənbəl, "Müsnəd", III, 466.
87. İbn Hənbəl, "Müsnəd", V, 428, 429.

Rəvayətə görə, Həzrət Əbu Bəkr Siddiq: “Ey Allahın Rəsulu! Mənə səhərə çıxdığımda, axşamladığımda və yatağa girdiyimdə oxuyacağım bir dua öyrət!” – dedi. Rəsulullah (s.ə.s) belə deməsini buyurdu:

اَللَّهُمَّ فَاطِرَ السَّمَوَاتِ والْأَرْضِ, عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ, رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ, أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ, أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي, وَشَرِّ الشَّيْطَانِ, وَشِرْكِهِ/“*Ey göyləri və yeri yaradan, görünməyəni və görünəni bilən, hər şeyin Rəbbi və maliki olan Allahım, Səndən başqa heç bir məbud olmadığına şahidlik edir, nəfsimin şərindən, şeytanın şərindən və şirkdən Sənə sığınıram!*”[88]

“Məgər onlar Allahın (hər şeyi) **bürüyən əzabının onları qaplamayacağına və ya özləri də hiss etmədən qiyamətin onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi?”** Yəni bu müşriklər heç fərqinə belə varmadıqları bir yerdən gəlib onları bürüyən əzabın gəlməyəcəyindən arxayındılarmı? Allah-Təala bununla bağlı müxtəlif ayələrdə buyurur: **“Alçaq hiylələrə əl atanlar Allahın onları yerə batırmayacağına və yaxud gözləmədikləri bir yerdən əzabın onlara gəlməyəcəyinə əmindirlərmi?”**,[89] **“Məgər o ölkələrin əhalisi əzabımızın onlara gecə vaxtı, onlar yatarkən gəlməyəcəyindən əminmi oldular? Ya da o ölkələrin əhalisi əzabımızın onlara səhər-səhər, onlar əylənərkən gəlməyəcəyindən əminmi oldular? yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər”**.[90]

88. İbn Hənbəl, “Müsnəd”, I, 187; Əbu Davud, “Ədəb”, 8.
89. Nəhl, 16/45.
90. Əraf, 7/97-99.

قُلْ هٰذِهٖ سَبِيْلِيْٓ اَدْعُوْٓا اِلَى اللّٰهِ عَلٰى بَصِيْرَةٍ اَنَا۠ وَمَنِ اتَّبَعَنِيْ ۭ وَسُبْحٰنَ اللّٰهِ وَمَآ اَنَا مِنَ الْمُشْرِكِيْنَ ﴿١٠٨﴾

108. De: “Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, (insanları) **Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm”.**

Təfsiri:

Allah-Təala insanlara və cinlərə göndərdiyi elçisinə əmr edərək buyurur ki, yolunun – sünnəsinin məhz bu olduğunu insanlara xəbər versin. Onun yolu tək və heç bir şəriki olmayan Allahdan başqa heç bir məbudun olmadığına şahidlik etməyə çağırmaqdır. Rəsulullah (s.ə.s) insanları bəsirət, dəqiq məlumat və dəlillə buna dəvət edir. O, özünə tabe olanın vəkili təyin edilmişdir.

Ayədəki “bəsirət” kəlməsi “açıq-aydın və qəti dəlil, inanc, məlumat, ibrət alınmalı olan hadisə, məsələ, qəlb gözü, sezmə, dərk etmə və qavrama qabiliyyəti” kimi mənalara gəlir. Bəsirət içində şəkk-şübhə olmayan bir bəyandır. Məhz Peyğəmbərimiz (s.ə.s) və dinin təbliğində onun izindən gedənlər insanları bəsirət üzrə Uca Allaha dəvət edərlər.[91]

91. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 655.

“Allah pakdır, müqəddəsdir”. Uca Allah hər hansı bir şəriki, oxşarı, tayı-bərabəri, oğlu, atası, xanımı, vəziri və müşaviri olmaqdan münəzzəhdir (uzaqdır), pak və ucadır. **“Yeddi göy, yer və onlarda olanlar Ona tərifl ər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, həlimdir, bağışlayandır”**.[92]

وَمَآ اَرْسَلْنَا مِنْ قَبْلِكَ اِلَّا رِجَالًا نُّوْحِيْٓ اِلَيْهِمْ مِّنْ اَهْلِ الْقُرٰىۗ اَفَلَمْ يَسِيْرُوْا فِى الْاَرْضِ فَيَنْظُرُوْا كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِيْنَ مِنْ قَبْلِهِمْۗ وَلَدَارُ الْاٰخِرَةِ خَيْرٌ لِّلَّذِيْنَ اتَّقَوْاۗ اَفَلَا تَعْقِلُوْنَ ﴿١٠٩﴾

109. Səndən əvvəl də ancaq şəhər əhlindən olub özlərinə vəhy etdiyimiz neçə-neçə kişilər göndərdik. Məgər yer üzündə gəzib dolaşmırlarmı ki, özlərindən əvvəl gəlib-gedənlərin aqibətinin necə olduğunu görsünlər? Həqiqətən, axirət yurdu Allahdan qorxub pis əməllərdən çəkinənlər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?

Təfsiri:

Uca Allah peyğəmbərlərini qadınlardan yox, məhz kişilərdən seçərək göndərdiyini xəbər verir. Bu, alimlərin ək-

92. İsra, 17/44.

səriyyətinin rəyidir. Bəziləri Həzrət İbrahimin xanımı Sara, Həzrət Musanın anası və Həzrət İsanın anası İmran qızı Məryəmin peyğəmbər olduqlarını iddia etmişlər. Buna da mələklərin Saranı Həzrət İshaq və ardınca Həzrət Yaqub ilə müjdələmələrini, Uca Allahın **"Biz Musanın anasına: "Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu çaya at. Qorxma və kədərlənmə. Çünki Biz onu sənə qaytaracaq və onu elçilərimizdən biri edəcəyik", – deyə vəhy etdik"**[93] ayəsini, mələyin Həzrət Məryəmin yanına gəlib Həzrət İsa ilə bağlı müjdə verməsini və Uca Allahın **"Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, təmizləmiş və aləmlərin qadınlarından üstün tutmuşdur"**[94] ayəsini dəlil göstərmişlər. Lakin alimlərin əksəriyyətinin fikrincə, qadınlardan peyğəmbər yoxdur, onlardan yalnız siddiqlər vardır. Uca Allahın Həzrət Məryəm barəsində xəbər verdiyi kimi: **"Onun anası isə siddiqə** (Allaha sidq ürəkdən inanan, pak, düzgün və dürüst) **bir qadın idi. Hər ikisi də yemək yeyirdi"**.[95] Bununla da Uca Allah onu məqamların ən üstünü olan siddiqliklə tövsif etmişdir. Əgər peyğəmbər olsaydı, onu bu ucaltma məqamında mütləq qeyd edərdi. Odur ki, Quranın açıq ifadəsi ilə o, siddiqədir. Dəhhak bu ayə ilə bağlı İbn Abbasdan belə nəql etmişdir: "Yəni onlar sizin dediyiniz kimi səmada yaşayan kəslərdən deyillər". Həqiqətən də, İbn Abbasın bu rəyini Uca Allahın **"Səndən öncəki elçilərimiz də, yemək yeyər, bazarları gə-**

93. Qəsəs,28/7.
94. Ali-İmran, 3/42-43.
95. Maidə, 5/75.

zib dolaşardılar"[96] ayəsi ilə **"Biz onları yeməz-içməz** (yemək yeməz) **bir bədən yaratmadıq. Onlar** (dünyada) **əbədi də deyillər"**[97] ayəsi dəstəkləyir.

Allah-Təala ayənin davamında buyurur: **"...şəhər əhr lindən..."**, yəni ayədə qeyd edilən və əsil mənası "kəndlər" olan "الْقُرَىٰ/əl-qura" kəlməsi "şəhərlər" mənasında istifadə olunmuşdur. **"Məgər** (ey Mühəmməd, səni təkzib edənlər) **yer üzündə gəzib dolaşmırlarmı ki, özlərindən əvvəl gəlib-gedənlərin aqibətinin necə olduğunu görsünlər?"** Yəni peyğəmbərləri təkzib edənlər özlərindən əvvəl peyğəmbərləri yalanlayan millətləri Allahın necə məhv edib yox etdiyini görsünlər. İnkarçılara da bunun oxşarı vardır. Uca Allahın başqa bir ayədə buyurduğu kimi: **"Məgər onlar** (peyğəmbərləri yalançı hesab edən kafirlər) **yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri** (bəsirət gözləri)**, eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər** (qəlb gözü) **kor olar"**.[98] Uca Allah ayənin davamında buyurur: **Həqiqətən, axirət yurdu Allahdan qorxub pis əməllərdən çəkinənlər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?"** Yəni möminləri dünyada qurtardığımız kimi, axirət yurdunda da onları nicat tapanlardan yazdıq. Həqiqətən də, axirət yurdu onlar üçün dünyadan qatbaqat xeyirlidir.[99]

Odur ki, peyğəmbərlər kişilərdən və şəhərlərdə yaşayan insanlar arasından seçilib göndərilmişlər. Çünki qadınlar

96. Fürqan, 25/20.
97. Ənbiya, 21/8.
98. Həcc, 22/46.
99. İbn Kəsir, "Müxtəsərü-ibn Kəsir", II, 262.

fiziki və ruhi baxımdan peyğəmbərlik yükünü daşıya biləcək gücə və iqtidara sahib deyillər. O cümlədən bədəvilər peyğəmbərlik vəzifəsinin yerinə yetirilməsi üçün lazımi hikmət və kamillikdən məhrumdurlar.[100]

حَتَّىٰٓ إِذَا ٱسْتَيْـَٔسَ ٱلرُّسُلُ وَظَنُّوٓا۟ أَنَّهُمْ قَدْ كُذِبُوا۟ جَآءَهُمْ نَصْرُنَا فَنُجِّىَ مَن نَّشَآءُ ۖ وَلَا يُرَدُّ بَأْسُنَا عَنِ ٱلْقَوْمِ ٱلْمُجْرِمِينَ ﴿١١٠﴾

110. Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin yalançı hesab edildiklərini güman etdikdə köməyimiz onlara yetdi, dilədiyimizə nicat verildi. Bizim əzabımız günahkarlardan əsla dəf olunmaz!

Təfsiri:

Uca Allah peyğəmbərlərə çətin vəziyyətlərində və Onun aradan qaldırmasını gözlədikləri ən çox ehtiyac duyulan vaxtlarda Öz köməyini nazil etdiyini bildirir. Uca Allah bununla bağlı başqa bir ayədə belə buyurur: **“Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan mömin-**

100. Çelik, “Hakkın Daveti Kuranı-Kerim ve Tefsiri”, II, 657.

lər də: “Allahın köməyi nə vaxt gələcək?” – dedilər. Həqiqətən, Allahın köməyi yaxındır”.[101]

Ayədəki **“...və özlərinin yalançı hesab edildiklərini güman etdikdə...”** ifadəsindəki “كُذِبُوا /küzibu” sözü ilə bağlı iki qiraət var. Belə ki, onlardan biri də “zal” hərfinin şəddəli oxunduğu “كُذِّبُوا /küzzibu” qiraətidir. Rəvayətə görə, Ürvə ibn Zübeyr bu ayənin mənasının necə olduğunu soruşmuş, Həzrət Aişə də belə cavab vermişdir: “Onlar Rəbbinə iman gətirən, peyğəmbərləri təsdiq edib onlara itaət edənlərdir. Sıxıntılar uzun-uzadı davam edib zəfər gecikdikdə, peyğəmbərlər göndərildikləri cəmiyyətlərdəki inkarçılardan ümidlərini kəsdilər, hətta öz tabeçilərinin belə onları təkzib etdiklərini sandılar. Məhz həmin vaxt Uca Allahın köməyi yetişdi”. İkinci qiraət isə “كُذِبُوا” şəklində olan şəddəsiz qiraətdir. Bu qiraətin təfsirində ixtilaf edilmişdir. İbn Abbas belə təfsir etmişdir: “Peyğəmbərlər dəvətlərinə qövmlərinin icabət etmələrindən ümid kəsib, qövmləri də peyğəmbərlərinin onlara yalan dediklərini zənn etdiklərində, həmin vaxt onlara qarşı peyğəmbərlərə yardım gəldi **“və dilədiyimizə nicat verildi”**.[102]

لَقَدْ كَانَ فِى قَصَصِهِمْ عِبْرَةٌ لِّأُولِى الْأَلْبَابِ ۗ مَا كَانَ
حَدِيثًا يُفْتَرَىٰ وَلَٰكِنْ تَصْدِيقَ الَّذِى بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ
كُلِّ شَىْءٍ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ ﴿١١١﴾

101. Bəqərə, 2/214.
102. Buxari, Təfsir, 12.

111. Onların qissələrində (hekayələrində) **ağıl sahibləri üçün bir ibrət vardır.** (Bu Quran) **uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.**

Təfsiri:

Uca Allah buyurur: “Həqiqətən, peyğəmbərlərin qövmləri ilə olan hekayələrində və bizim möminləri necə xilas edib inkarçıları məhv etməyimizdə **“ağıl sahibləri üçün bir ibrət vardır”**. (Bu Quran) **uydurulmuş bir kəlam deyildir”**. Yəni bu Quran Uca Allahdan başqası tərəfindən yalan və böhtanla uydurulan və ortaya qoyulan bir söz deyil. **“Ancaq özündən əvvəlkiləri təsdiqləyən”**. Yəni özündən əvvəl səmadan nazil edilən kitabların doğru olduğunu təsdiqləyən və onda hər hansı təhrif, təbdil və təğyir olduğunu qəbul etməyən bir kitabdır. O cümlədən **“... hər şeyi müfəssəl izah edəndir”**. Halal və haramları, gözəl və çirkin olanları, eləcə də digər ibadətləri, vaciblər və müstəhəbləri əmr edən, haramlara və buna oxşar digər məkruhlara qadağa qoyan, məsələləri açıq-aydın bəyan edən, gələcəklə bağlı ümumi və təfsilatlı məlumatlar verən, adları və sifətləri ilə məxluqata oxşamaqdan münəzzəh olan Uca Rəbdən xəbər verən bir kitabdır. Bu səbəbdən də **“... iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir”**. Onların qəlbləri Quranla azğınlıqdan xilas olub doğruluğa yönəlir, zəlalətdən düzgünlüyə vasil olur. Onlar məhz

bu kitabla dünyada və axirətdə Uca Allahdan mərhəmət arzulayırlar.[103] Beləliklə də, “Yusif” surəsi qissələrin ən gözəli olan Həzrət Yusif (ə.s) peyğəmbərin hekayətində düşünüb dərk edən insanlar üçün çoxlu sayda ibrətlər olduğunu bir daha vurğulayaraq sona çatır.

103. İbn Kəsir, “Müxtəsərü-ibn Kəsir”, II, 263-264.

سُورَةُ الْكَهْفِ

“KƏHF” SURƏSİ

Qurandakı sırası:	18
Nazil olduğu yer:	Məkkə
Ayələrin sayı:	110
Kəlmələrin sayı:	1583
Hərflərin sayı:	6425

سُورَةُ الْكَهْفِ

“Kəhf” surəsi

Adı:

Kəhf: Surənin adı 9-26-cı ayələrində bəhs edilən və “mağara yoldaşları” mənasına gələn Əshabi-kəhf qissəsindən alınmışdır. “الْكَهْف/əl-kəhf” sözü ərəb dilində “mağara” mənasına gəlir.

Ehtiva etdiyi mövzular:

Uca Allaha həmd ilə başlayan “Kəhf” surəsinin başlanğıcında Allahın qüdsiyyəti və kamal sifətləri ilə Qurani-Kərimin üstünlüyü, möminlərə veriləcək mükafat müjdəsi və Allaha şərik qoşanlara xəbərdarlıq kimi mövzulardan bəhs olunur. Bundan sonra isə zalım hökmdardan qaçıb mağaraya sığınan mömin gənclərin başına gələnlərdən bəhs edən Əshabi-kəhf qissəsi, Musa peyğəmbərin (ə.s) Xızır (ə.s) ilə olan səyahətini anladan qissə, Zülqərneynin (ə.s) şərq və qərb səyahətləri, eləcə də Yəcuc və Məcuc barəsində məlumat verən qissə yer alır. Bunlarla yanaşı, surədə təkəbbürlü və üsyankar ilə təvazökar və kasıb kimsənin təmsili qissəsi də yer alır. Həmçinin Həzrət Adəmə (ə.s) səcdə etməyən İblis haqqında da müəyyən məlumatlar verilir. Digər tərəfdən bu surədə Həzrət Peyğəmbərin (s.ə.s) peyğəmbərlik vəzifəsini yerinə yetirməsinə dair bəzi göstərişlər yer alır.

Surənin sonunda isə Allah-Təalanın təkliyi və möminlərə axirətdə veriləcək mükafatlar haqqında xəbər verilir.

Fəziləti:

"Kəhf" surəsinin fəziləti haqqında bir çox hədis varid olmuşdur. Eyni zamanda bu surə Dəccaldan mühafizə olma vasitəsi olaraq qəbul edilir. Bu haqdakı hədislərdən bəziləri bunlardır:

Əbu Dərdadan (r.ə) nəql edilən bir rəvayətə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Kim "Kəhf" surəsinin ilk on ayəsini əzbərləsə, Dəccaldan qorunmuş olar*".[1] İmam Əhmədin Əbu Dərdadan (r.ə) nəql etdiyinə görə, Həzrət Peyğəmbər (s.ə.s) belə demişdir: "*Kim "Kəhf" surəsinin son on ayəsini əzbərləsə, Dəccalın fitnəsindən qorunmuş olar*".[2] Nəsainin nəql etdiyi hədisdə də belə buyurulmuşdur: "*Kim "Kəhf" surəsindən on ayə oxuyarsa, Dəccalın fitnəsindən mühafizə olunar*".[3] Səvbandan (r.ə) nəql edilən rəvayətə görə isə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "*Hər kim "Kəhf" surəsinin son on ayəsini oxusa, həqiqətən, o, onu Dəccaldan qoruyacaqdır*".[4]

Bəra ibn Azibin nəql etdiyinə görə, o, belə demişdir: "Bir nəfər "Kəhf" surəsini oxuyurdu. Onun yanında da iki uzun ipə bağlı bir at var idi. Bu vaxt bir bulud o kimsənin üstünə enməyə başladı. Bulud getdikcə ona yaxınlaşırdı. Bu səbəbdən at hürküb narahat olmağa başladı. Səhəri gün

1. Müslim, "Səlat", 44; Əbu Davud, "Məlahim", 14; Əhməd ibn Hənbəl, "Müsnəd", XXXVI, 43.
2. Əhməd ibn Hənbəl, "Müsnəd", XXXXV, 508-509.
3. Nəsai, "əs-Sünənül-kübra", IX, 347.
4. Nəsai, "əs-Sünənül-kübra", IX, 347.

həmin adam Həzrət Peyğəmbərin (s.ə.s) yanına gələrək başından keçənləri danışdı. Rəsulullah (s.ə.s) belə buyurdu: *“O bulud sükunətdir. O, Quran üçün enmişdir”*.[5]

Nüzul səbəbi:

Məhəmməd ibn İshaq bu dəyərli surənin nazil olma səbəbi haqqında İbn Abbasdan (r.ə) belə nəql edildiyini bildirir: “Qüreyşli müşriklər Nədr ibn Harisi və Üqbə ibn Əbu Müeyti Mədinədəki yəhudi alimlərinin yanına göndərdilər və onlara belə dedilər: “Onlardan Mühəmməd haqqında soruşun. Onun xüsusiyyətlərini anladın və söylədiyi şeyləri xəbər verin. Çünki onlar kitab əhlidirlər. Peyğəmbərlər haqqında bizim bilmədiyimiz məlumatları onlar bilirlər”. Beləliklə, o ikisi yola düşdülər və nəhayət, gəlib Mədinəyə çatdılar. Onlar yəhudi alimlərindən Rəsulullah (s.ə.s) haqqında soruşdular. Onun xüsusiyyətlərini və sözlərindən bir qismini onlara anlatdılar və belə dedilər: “Şübhəsiz ki, siz Tövrat əhlisiniz. Bizim bu yoldaşımız haqqında bizə məlumat verəsiniz deyə, sizin yanınıza gəlmişik. Bu zaman yəhudi alimləri onlara belə dedilər: “Sizə söyləyəcəyimiz üç şey haqqında ona sual verin. Əgər o, həmin üç şey haqqında sizə məlumat versə, bilin ki, o, Allah tərəfindən göndərilmiş bir peyğəmbərdir. Əks təqdirdə, o, yalançı bir adamdır. Beləliklə, siz onun haqqında fikir sahibi olacaqsınız. Siz ondan keçmiş zamanlarda yaşamış gənclərin başına gələnləri soruşun. Çünki onların başına qəribə bir iş gəlmişdi. Həmçinin ona yer üzünün şərqinə və qərbinə gedib çıxan adam haqqında sual

5. Buxari, “Fəzail”, 11; Müslim, “Müsafirun”, 240.

verin. Bir də ondan ruhun nə olduğunu soruşun. Əgər bunlar haqqında sizə xəbər verərsə, bilin ki, o, peyğəmbərdir və siz də ona tabe olun. Yox, əgər cavab verə bilməzsə, o, iftiraçı bir adamdır. Buna görə də ona nə etmək istəsəniz, edərsiniz". Beləcə, Nədr və Üqbə geri qayıtdılar və Qüreyşlilərin yanına gəlib belə dedilər: "Ey Qüreyş camaatı! Biz sizə, bizimlə Mühəmməd arasında hökm verəcək bir şey gətirmişik. Yəhudi alimləri ona bəzi suallar verməyimizi əmr etdilər. Bu şeylər haqqında ona sual verin!" Beləcə, onlar Həzrət Peyğəmbərin (s.ə.s) yanına gəlib belə dedilər: "Ey Mühəmməd, bizə xəbər ver!" Onlar yəhudi alimlərinin özlərinə əmr etdikləri şeylər haqqında Həzrət Peyğəmbərə (s.ə.s) suallar verdilər. Rəsulullah (s.ə.s) onlara: *"Sizin mənə verdiyiniz suallara sabah cavab verəcəyəm"*, - dedi və heç bir şeyi bundan istisna tutmadı.[6] Müşriklər Rəsulullahın (s.ə.s) yanından ayrıldılar. Həzrət Peyğəmbər (s.ə.s) on beş gecə gözləməsinə baxmayaraq Uca Allah heç bir vəhy nazil etmədi və Cəbrail (ə.s) onun yanına gəlmədi. Nəhayət, Məkkə xalqı iftira atmağa başladı və belə dedilər: "Mühəmməd bizə sabahısı gün üçün söz vermişdi. Ancaq üstündən on beş gün keçməsinə baxmayaraq, ona verdiyimiz suallara heç bir cavab verə bilmədi". Rəsulullah (s.ə.s) vəhyin kəsilməsinə görə çox kədərləndi. Məkkəlilərin onun haqqında söylədikləri də ona çox pis təsir etmişdi. Bundan sonra isə Cəbrail (ə.s) Uca Allahdan Həzrət Peyğəmbərə (s.ə.s) mağara yoldaşlarından bəhs edən "Kəhf" surəsini nazil etdi.[7]

---

6. Yəni Həzrət Peyğəmbər (s.ə.s): "İnşallah/Allah qoysa", – deməmişdi.
7. İbn Aşur, "ət-Təhrir vət-tənvir", XV, 242-244.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

اَلْحَمْدُ لِلّٰهِ الَّذِیْٓ اَنْزَلَ عَلٰی عَبْدِهِ الْكِتٰبَ وَلَمْ یَجْعَلْ لَّهٗ عِوَجًاؕ ﴿۱﴾

1. Kitabı (Quranı) **bəndəsinə** (Mühəmmədə) **nazil edən və onda heç bir əyriliyə** (nöqsana, ziddiyyətə) **yol verməyən Allaha həmd olsun!**

Təfsiri:

“İradə və istəyə bağlı olaraq gözəl xüsusiyyətləri və lütf etdiyi nemətlər səbəbi ilə birini hörmət və ehtiramla tərifləmək” mənasına gələn “həmd” ifadəsi bu məna etibarilə yalnız Allaha məxsusdur. Uca Allah hər bir işin başında da, sonunda da müqəddəs zatına həmd edərək Özünü tərifləyir. Çünki O, hər bir halda həmd edilməyə layiqdir. Hər bir şeyin başında da, sonunda da Ona həmd edilər. Buna görə də Allah-Təala uca kitabını şərəfli peyğəmbəri Həzrət Mühəmmədə (s.ə.s) nazil etdiyi üçün Özünə həmd edir. Çünki bu kitab Allah-Təalanın yer üzündəki insanlara bəxş etdiyi ən böyük nemətidir. Uca Allah tərəfindən Həzrət Peyğəmbərə (s.ə.s) nazil edilən Qurani-Kərim nemətlərin ən böyüyü olduğu üçün məhz Allahın hörmət və tərifə layiq olduğu ifadə edilir. Ona görə ki, Uca Allah bu kitab

vasitəsilə insanları qaranlıqdan aydınlığa çıxartdı. Belə ki, O, Qurani-Kərimi içində heç bir əyrilik və zəlalət olmayan doğru bir kitab olaraq nazil etmişdir. Eyni zamanda o, kafirləri xəbərdar edən, möminlərə də müjdə verən bir kitabdır.

Ayədəki “عَبْد/bəndə” sözü ilə Mühəmməd peyğəmbər (s.ə.s), “كِتَاب/kitab” sözü ilə də Qurani-Kərim nəzərdə tutulur. İnsanları zülmətdən aydınlığa, zəlalətdən hidayətə çıxardan, onlara imanı və İslamı öyrədən, dünya və axirətdə xoşbəxt bir həyat yaşaya bilmələri üçün onlara Allahın əmr və qadağalarını, dini hökmləri, yaxşı və pis əməllərin hansılar olduğunu bildirən bir kitabın nazil edilməsi ümumilikdə bütün insanlar üçün, xüsusən də Həzrət Mühəmməd (s.ə.s) peyğəmbər üçün ən böyük nemətdir. Bunun üçün də Uca Allah Quranın **“içində heç bir əyriliyə yol verməyən...”** bir kitab olduğunu bildirir. Yəni Allah onun içinə əyrilik, azğınlıq və batil yola yönəlməyə dair hər hansı bir şey yerləşdirməmişdir. Əksinə, onu orta yolu göstərən və doğru bir kitab olaraq nazil etmişdir. Buna görə də Uca Allah bu kitabı **“doğru** (bir kitab)**”** olaraq təsvir etmişdir. Belə bir nemətə nail olan kimsənin o nemət üçün həmd və şükür etməsi isə labüddür. Uca Allah bu ayədə yalnız Ona şükür edilməli olduğunu da xüsusilə vurğulayır.

قَيِّمًا لِيُنْذِرَ بَأْسًا شَدِيدًا مِنْ لَدُنْهُ وَيُبَشِّرَ الْمُؤْمِنِينَ
الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ اَنَّ لَهُمْ اَجْرًا حَسَنًا ۙ ﴿٢﴾
مَاكِثِينَ فِيهِ اَبَدًا ۙ ﴿٣﴾

2. O, (Quranı) **Öz tərəfindən göndəriləcək şiddətli bir əzaba qarşı** (insanları) **xəbərdar etmək və yaxşı işlər görən möminləri gözəl bir mükafat ilə müjdələmək üçün doğru bir kitab olaraq nazil etdi.**

3. Onlar orada əbədi qalacaqlar.

Təfsiri:

Burada əvvəlki ayədə xüsusiyyətləri qeyd olunan Qurani-Kərimin nazil edilməsinin səbəbləri bəyan edilir. Belə ki, Quran bir yönü ilə Uca Allaha iman gətirməyənləri düçar olacaqları ağrılı-acılı əzabla xəbərdar etmək üçün göndərilmişdir. Yəni onu yalan sayan, ona qarşı çıxan və iman gətirməyən kimsələri həm tezliklə dünyada, həm də daha sonra axirətdə gələcək bir əzab ilə qorxutmaq üçün bu kitabı Allah-Təala Öz tərəfindən nazil etmişdir. Digər tərəfdən də Uca Allah Quranı iman gətirənləri əbədi nemətlərlə müjdələmək üçün göndərmişdir. Yəni Allah-Təala bu kitabı, saleh əməlləri ilə imanlarını təsdiqləyən möminlər üçün Allah dərgahında gözəl bir mükafat olacağını müjdə vermək üçün endirmişdir. Uca Allah buyurur ki, **“Onlar orada əbədi qalacaqlar!”** Yəni onlar Allah tərəfindən verilmiş cənnət mükafatı içində əbədi olaraq qalacaqlar. Cənnətdəki bu nemət heç vaxt bitməyəcək və əskilməyəcəkdir.

وَيُنْذِرَ الَّذِينَ قَالُوا اتَّخَذَ اللَّهُ وَلَدًا ﴿٤﴾ مَا لَهُمْ بِهِ مِنْ عِلْمٍ وَلَا لِآبَائِهِمْ ۖ كَبُرَتْ كَلِمَةً تَخْرُجُ مِنْ أَفْوَاهِهِمْ ۚ إِنْ يَقُولُونَ إِلَّا كَذِبًا ﴿٥﴾

4. Həm də: “Allah Özünə övlad götürdü!” - deyənləri xəbərdar etmək üçün (Quranı nazil etdi)**.**

5. Bu barədə nə onların, nə də atalarının məlumatı var. Ağızlarından çıxan söz necə də böyükdür! Onlar yalandan başqa bir şey söyləmirlər.

Təfsiri:

Allaha övlad isnad edənlərin iddiaları böyük bir iftira olduğu üçün Uca Allah yuxarıdakı ayələrdə bunu xüsusilə qeyd edərək həmin kimsələri xəbərdar etmişdir. Bəzi müşrik ərəblər mələklərin Allahın qızları olduğunu, bəzi yəhudilər Üzeyirin (ə.s) Allahın oğlu olduğunu, xristianlar da Həzrət İsanın (ə.s) Allahın oğlu olduğunu iddia edirdilər. Halbuki bunlar həqiqətin yox, cəhalətin məhsulu olan yalanlardır. Nə onların, nə də ulu babalarının əlində bununla bağlı heç bir qəti dəlil yoxdur. Yəni onların əlində bu sözlərindən başqa əsaslandıqları heç bir dəlil və sübut yoxdur. Onların söylədikləri ancaq yalan və iftiradır. Buna görə də Allah-Təala belə buyurmuşdur: **“Onlar yalandan başqa bir şey söyləmirlər”.**

فَلَعَلَّكَ بَاخِعٌ نَفْسَكَ عَلٰٓى اٰثَارِهِمْ اِنْ لَّمْ يُؤْمِنُوا بِهٰذَا الْحَدِيثِ اَسَفًا ﴿٦﴾

6. Onlar bu sözə (Qurana) **inanmadılar deyə az qala onların arxasınca kədərlənərək özünü həlak edəcəksən!**

Təfsiri:

Bu ayədə Uca Allah müşriklərin Qurana inanmamaları səbəbilə məhv olacaqları əndişəsi ilə kədərlənən Peyğəmbərini (s.ə.s) təsəlli edir və onun kədərlənməsinə ehtiyac olmadığını bildirir. Necə ki, Allah-Təala digər ayeyi-kərimələrdə belə buyurur: **“Buna görə də, onlar üçün kədərlənib özünü həlak etmə!”**[8], **“Onlar üçün kədərlənmə!”**[9], **“**(Ey Peyğəmbər!) **Onlar iman gətirmirlər deyə, az qalsın özünü həlak edəcəksən?!”**[10] Çünki peyğəmbərin vəzifəsi insanlara zorla İslamı qəbul etdirmək deyil, sadəcə olaraq onlara haqq dini təbliğ etməkdir. Allah-Təala insanlardan kimlərin haqq dini qəbul edib-etməyəcəyini sınamaq üçün bu qədər dünya nemətlərini yaratmış və iman gətirməyi tamamilə onların ixtiyarına buraxmışdır. Eyni zamanda Allah insanlara iradə və ağıl neməti bəxş etmişdir ki, bunlar sayəsində onlar haqq ilə batili bir-birindən ayırd edə bilirlər. Əks təqdirdə, bu imtahan dünyasının heç bir əhəmiyyəti qalmazdı.

8. Fatir, 35/8.
9. Nəhl, 16/127.
10. Şüəra, 26/3.

اِنَّا جَعَلْنَا مَا عَلَى الْاَرْضِ زِينَةً لَهَا لِنَبْلُوَهُمْ اَيُّهُمْ اَحْسَنُ عَمَلًا ﴿٧﴾ وَاِنَّا لَجَاعِلُونَ مَا عَلَيْهَا صَعِيدًا جُرُزًا ﴿٨﴾

7. Biz onlardan (insanlardan) **hansının daha gözəl əməl sahibi olduğunu yoxlamaq üçün yer üzündəki hər şeyi, ona məxsus bir zinət olaraq yaratdıq.**

8. Şübhəsiz, yer üzündəki hər şeyi qupquru bir torpağa da çevirərik.

Təfsiri:

Uca Allah dünya nemətlərinin fani olduğunu, bir gün bütün bu nemətlərin yox olub torpağa qarışacağını və ürəkdən dünyaya bağlanmağın doğru olmadığını vurğulayır. Əbu Səid Xüdridən (r.ə) nəql edilən bir rəvayətə görə Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *“Həqiqətən, dünya şirin və yaşıldır. Allah-Təala sizi orada xəlifə təyin etmişdir. O sizin hansı əməli edəcəyinizə baxır. Dünyadan və qadınlardan uzaq durun! Çünki İsrail oğulları arasında çıxan ilk fitnə qadınlar səbəbi ilə olmuşdur”*.[11] Daha sonra Uca Allah bu fani dünyanın yox olub darmadağın olacağını xəbər verərək belə buyurur: **“Şübhəsiz ki,** (yerin) **üzərində olan hər şeyi qupquru bir torpağa da çeviririk”.** Yəni Allah-Təala dünyanı bu qədər nemətlərlə bəzədikdən sonra darmadağın

11. Müslim, “Riqaq”, 1.

edib xarabaya çevirəcək, üzərindəki hər şeyi məhv edəcək, onu bitki cücərməyən və istifadəyə yararsız qupquru bir torpağa çevirəcəkdir. Qiyamət günü hər şey yox olacaq və hətta dünya da dəyişəcəkdir. Çünki Uca Allah başqa bir ayeyi-kərimədə: “**O gün yer başqa bir yerlə, göylər də** (başqa göylərlə) **əvəz olunacaqdır. Onlar tək və hər şeyə qalib olan Allahın hüzurunda duracaqlar**”,[12] - buyuraraq, hər şeyin yenisi ilə əvəz olunacağını və bundan sonra insanların məhşər yerində Allahın hüzuruna çıxaraq haqq-hesaba çəkiləcəklərini xəbər verir.

اَمْ حَسِبْتَ اَنَّ اَصْحَابَ الْكَهْفِ وَالرَّقِيمِ كَانُوا
مِنْ اٰيَاتِنَا عَجَبًا ﴿٩﴾ اِذْ اَوَى الْفِتْيَةُ اِلَى الْكَهْفِ
فَقَالُوا رَبَّنَآ اٰتِنَا مِنْ لَدُنْكَ رَحْمَةً وَهَيِّئْ لَنَا مِنْ
اَمْرِنَا رَشَدًا ﴿١٠﴾

9. Yoxsa Kəhf və Rəqim əhlini möcüzələrimizin ən qəribəsimi zənn etdin?!

10. Bir vaxt gənclər mağaraya sığınaraq: “Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və bizə bu vəziyyətdən çıxış yolu göstər!” - demişdilər.

12. İbrahim, 14/48.

Təfsiri:

Allah-Təala qiyamətin qopacağını və axirətdə ölülərin dirildiləcəyini insanların daha yaxşı dərk edə bilməsi üçün burada “Əshabi-kəhf” qissəsindən xəbər verir. “الْكَهْف/əl-kəhf” sözü ərəb dilində “mağara”, “Əshabi-kəhf” isə “mağara yoldaşları” mənasına gəlir. Belə ki, bir vaxtlar Uca Allah bir qrup gənci mağarada illərlə yuxulatdıqdan sonra təkrar ayıltmış və bunu o dövrdəki insanlara təkrar dirilişin dəlili olaraq göstərmişdi.

Ayədə keçən “الرَّقِيم/ər-rəqim” sözünün nə olduğu ilə bağlı müxtəlif fikirlər səsləndirilmişdir. Belə ki, bir qisim alimslər onun Əshabi-kəhfin adlarının, yaxud başlarına gələn hadisələrin yazıldığı və həmin mağaranın qabağına qoyulmuş bir daş kitabə olduğunu bildirmişlər. Bir qisim alimlər isə həmin mağaranın yer aldığı vadinin və ya dağın adının “ər-rəqim” olduğunu iddia etmişlər.[13] Əshabi-kəhfin Həzrət İsanın (ə.s) dininə mənsub olan gənclər olduğu haqqında rəvayətlər mövcuddur. Qurani-Kərimdə bu barədə məlumat verilməmiş, lakin onların başına gələn ibrətamiz hadisələr nəql edilmişdir. Əshabi-kəhf qissəsini belə xülasə edə bilərik:

Bütpərəst bir cəmiyyətdə Allahın varlığına və təkliyinə iman gətirən bir neçə gənc bu inanclarını xalqın içində ucadan dilə gətirərək bütpərəstliyə qarşı çıxmışdılar. Daha sonra isə oranın zalım kralı və xalqın şərindən mühafizə olunmaq üçün qaçıb dağdakı bir mağarada gizlənmişdilər. Yanlarındakı bir it də onlara qoşulub mağaraya getmişdi. Allah-Təala o gəncləri mağarada yuxulatmış və möcüzəvi

13. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XV, 131.

bir şəkildə 309 il sonra təkrar oyandırmışdı. Onlar oyandıqlarında bir gün, hətta bundan daha az bir vaxt yatıb qaldıqlarını zənn etmişdilər. Acdıqları üçün aralarından birini yemək alması üçün şəhərə göndərdilər. O da üstündəki qədim pulla yemək almaq istədiyi zaman hər şey ortaya çıxmışdı. Beləcə, bu hadisəyə şahid olanlar Allahın vədinin haqq olduğuna və axirətdə təkrar dirildiləcəklərinə yəqinliklə inandılar.

Qurani-Kərimdə bu hadisənin harada baş verdiyi və o gənclərin neçə nəfər olduğu haqqında təfsilatlı məlumatlar verilməmiş, sadəcə olaraq onların sayı barəsində mübahisə edənlər “qaranlığa daş atanlar”a bənzədilmiş və bunu yalnız Allahın bildiyi vurğulanmışdır. Uzun müddət yuxuladıqdan sonra oyanma hadisəsinə hinduizm dininin kitablarında, yəhudilərin Talmud kitabında və xristian etiqadındakı “yeddi yatan” hekayətində də rastlamaq olar.

Uca Allah bu ayələrdə Əshabi-kəhfin qissəsini xəbər verərək: **“Yoxsa Kəhf** (mağara) **və Rəqim əhlinin əcaib möcüzələrimizdən olduğunu güman edirsən?!” -** buyurur. Yəni onların halı Allahın qüdrət və hakimiyyətinin yanında elə də təəccüblü bir şey deyildir. Çünki göylərin və yerin yaradılması, günəş və ayın ram edilməsi və bunlardan başqa bir çox şeyin varlığı Allah-Təalanın qüdrətinə işarə edən böyük möcüzələrdəndir. Uca Allah istədiyini yaratmağa qadirdir. Heç bir şey Onu aciz qoya bilməz. Allah-Təala Peyğəmbərinə (s.ə.s) buyurur ki, belə olduğu halda Əshabi-kəhfin xəbərinəmi təəccüb edirsən? Uca Allah **“Bir zaman gənclər mağaraya sığınmış və: “Ey Rəbbimiz! Bizə**

Öz dərgahından mərhəmət bəxş et və bizə vəziyyətimizdən bir çıxış yolu hazırla!” - demişdilər” ayəsi ilə dinləri uğruna öz qövmlərindən qaçan və din barəsində özlərini fitnəyə salmamaları üçün onlardan qaçıb gizlənmək məqsədilə dağdakı bir mağaraya sığınan həmin gənclərdən xəbər verir. Onlar mağaraya girdikləri zaman Allahdan mərhəmətini və lütfünü diləmiş və belə demişdilər: **“Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et!”** Yəni Öz dərgahından bizə elə bir mərhəmət bəxş et ki, onunla bizi qövmümüzdən gizlədəsən. **“Və bizə vəziyyətimizdən bir çıxış yolu hazırla!”** Yəni bizim sonumuz qurtuluş olsun. Necə ki, bir hədisi-şərifdə belə buyurulmuşdur: “*Bizim barəmizdə verdiyin hökmlərin sonunu qurtuluş et!*”[14] Həmçinin Həzrət Peyğəmbər (s.ə.s) dua edərkən: *“Ya Rəbb, bütün işlərdə aqibətimizi xeyirli et! Bizi dünyanın rəzalətindən və axirətin əzabından qoru!”*[15] - deyirdi.

فَضَرَبْنَا عَلٰٓى اٰذَانِهِمْ فِى الْكَهْفِ سِنِينَ عَدَدًاۙ ﴿١١﴾
ثُمَّ بَعَثْنَاهُمْ لِنَعْلَمَ اَىُّ الْحِزْبَيْنِ اَحْصٰى لِمَا لَبِثُٓوا
اَمَدًاۚ ﴿١٢﴾

11. Buna görə də Biz onları illərlə mağarada yuxulatdıq.

14. Əhməd ibn Hənbəl, “Müsnəd”, XXXXII, 67.
15. Əhməd ibn Hənbəl, “Müsnəd”, XXIX, 171.

12. Sonra da iki qrupdan hansının, (yuxulayıb) **qaldıqları müddəti daha düzgün hesablayacağını bilmək** (görmək) **üçün onları oyandırdıq.**

Təfsiri:

Uca Allah 11-ci ayədə **“Buna görə də Biz onları illərcə mağarada yuxulatdıq”**, - buyurur. Yəni onlar mağaraya girdikləri zaman Allah onlara yuxu gətirdi və uzun illər boyunca yuxuladılar. 12-ci ayədə isə **“Sonra da iki qrupdan hansının, onların** (yuxulayıb) **qaldığı müddəti daha düzgün hesablayacağını bilmək** (görmək) **üçün onları oyandırdıq”**, - buyurularaq, uzun müddətdən sonra onların yuxudan oyandırıldıqları xəbər verilir. Ayədəki **“أَمَد/əməd”** kəlməsini bəziləri “hesablamaq” şəklində, bəziləri isə “nəticə” olaraq izah etmişlər. Bu ayədəki “لِنَعْلَمَ /linaləmə (bilmək üçün)” ifadəsindən məqsəd Allahın bilməsi deyil, insanların başa düşüb dərk etmələridir. Çünki Uca Allah dünyada baş verən və baş verəcək hər şeyi bilir. Sözügedən iki qrupun kimlər olduğu haqqında müxtəlif fikirlər mövcuddur:

a. Bunlar Əshabi-kəhfin qövmündən olan möminlər və kafirlərdir.

b. Bunlar Əshabi-kəhf və onların düşmənləridir.

c. Bunlar Əshabi-kəhfin özləridir.

Belə ki, o gənclər yuxulayıb qaldıqları müddət barəsində öz aralarında ixtilafa düşmüşdülər. Onların bir qismi bir gün,

yaxud daha az bir müddət yuxulayıb qaldıqlarını, bir qismi isə bu müddəti yalnız Allahın bildiyini söyləyirdi. “Kəhf” surəsinin 19-cu ayəsi də məhz bu hadisəyə işarə edir.

نَحْنُ نَقُصُّ عَلَيْكَ نَبَاَهُمْ بِالْحَقِّ ؕ اِنَّهُمْ فِتْيَةٌ اٰمَنُوا بِرَبِّهِمْ
وَزِدْنَاهُمْ هُدًى ۖ ﴿١٣﴾ وَرَبَطْنَا عَلٰى قُلُوبِهِمْ اِذْ قَامُوا
فَقَالُوا رَبُّنَا رَبُّ السَّمٰوٰتِ وَالْاَرْضِ لَنْ نَدْعُوَا مِنْ دُونِهٖۤ
اِلٰهًا لَقَدْ قُلْنَاۤ اِذًا شَطَطًا ﴿١٤﴾ هٰٓؤُلَاۤءِ قَوْمُنَا اتَّخَذُوا مِنْ
دُونِهٖۤ اٰلِهَةً ؕ لَوْلَا يَأْتُونَ عَلَيْهِمْ بِسُلْطَانٍ بَيِّنٍ ؕ فَمَنْ اَظْلَمُ
مِمَّنِ افْتَرٰى عَلَى اللّٰهِ كَذِبًا ؕ ﴿١٥﴾ وَاِذِ اعْتَزَلْتُمُوهُمْ وَمَا
يَعْبُدُونَ اِلَّا اللّٰهَ فَأْوٗۤا اِلَى الْكَهْفِ يَنْشُرْ لَكُمْ رَبُّكُمْ مِنْ
رَحْمَتِهٖ وَيُهَيِّئْ لَكُمْ مِنْ اَمْرِكُمْ مِرْفَقًا ﴿١٦﴾

13. Biz onların xəbərini sənə olduğu kimi danışırıq. Həqiqətən, onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq.

14. Onların qəlblərinə qüvvət (cəsarət) **verdik. Bu zaman onlar** (hökmdarın qarşısında) **ayağa qalxaraq belə demişdilər:**

“Bizim Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz Ondan başqa heç bir ilaha dua etmərik! Yoxsa, haqdan uzaq bir şey söyləmiş olarıq.

15. Bizim bu qövmümüz Allahdan başqa ilahlar qəbul etdi. Onlar bu ilahlar barəsində açıq bir dəlil gətirməli deyildilərmi? Elə isə, Allah barəsində yalan uydurandan daha zalım kim ola bilər?!”

16. (Həmin gənclərdən biri belə dedi:) **“Madam ki, onlardan və Allahı qoyub ibadət etdiklərindən uzaqlaşmısınız, onda dərhal mağaraya sığının ki, Rəbbiniz sizin üçün Öz mərhəmətindən bəxş etsin və bu işinizdə ehtiyacınız olan şeyləri sizin üçün hazırlasın”.**

Təfsiri:

Buradan etibarən hekayətin nəql edilməsi və izahı başlayır. Belə ki, Allah-Təala onların gənc oğlanlar olduğunu ifadə edir. Bu gənclər batil dinə sitayiş edən və zəlalətdə olan yaşlılardan daha çox haqq yoluna və hidayətə meyilli idilər. Din və vicdan azadlığının olmadığı bir cəmiyyətdə yaşayan həmin gənclər bütpərəst olan xalqa qarşı gələrək, göylərin və yerin Rəbbindən başqasına ibadət etməyəcəklərini açıq-aydın bəyan etmişdilər. Ancaq onlara edilən təzyiqlərdən sonra öz xalqlarının içində sərbəst şəkildə Allaha ibadət edə bilməyəcəklərini və hətta rahat şəkildə yaşaya

bilməyəcəklərini anladıqları zaman yanlarındakı itlə birlikdə həmin mağaraya sığınmışdılar. Zülmdən və təzyiqlərdən qaçan gənclər Allahın yardımını və Onun çıxış yolu göstərəcəyini ümid edərək: “Ey Rəbbimiz! Bizə rəhm et və bir çıxış yolu hazırla!” – deyə dua etmişdilər. Allah-Təala da onların duasını qəbul etmiş və uzun bir müddət onları orada dərin bir yuxuya salmışdı.

Təfsir alimlərinin əksəriyyəti həmin gənclərin Romalı mülkədarların və rəhbərlərin oğulları olduğunu qeyd etmişlər. O xalq öz bayramlarında çölə çıxıb yürüşə keçirdi. Hər ilin müəyyən bir vaxtında şəhərin kənarında yığışıb bütlərə ibadət edir və onlara qurbanlar kəsirdilər. Onlara Dakyanus adında zalım və qəddar bir kral hökmdarlıq edirdi. Bu kral insanları bütlərə sitayiş etməyə sövq edir və onları buna məcbur edirdi. İnsanlar həmin ibadət yerinə getmək üçün yola çıxdıqları zaman bu gənclər də ataları və xalq ilə birlikdə yola düşdülər. Ancaq xalqın etdiyinə bəsirət gözü ilə baxırdılar. Başa düşürdülər ki, insanların bütlərə səcdə etməsi və qurban kəsməsi yalnız yeri və göyləri yaradan Allah üçün edilməli ibadətlərdir. Buna görə də o gənclərin hər biri öz qövmündən xilas olub onlardan uzaqlaşmağa başladılar və özləri üçün Allaha ibadət edəcəkləri bir məbəd tikdilər. Onların qövmü bunu hiss etdi və onların bu hərəkətlərini krala şikayət etdilər. Bu səbəbdən kral onları öz hüzuruna çağırtdı və onlara nə etdiklərini soruşdu. Gənclər haqqı söylədilər və kralı da Allaha iman gətirməyə dəvət etdilər. Buna görə də Uca Allah onlardan xəbər verərkən belə buyurmuşdur: **“Onların qəlblərini möhkəmləndirdik. O zaman onlar** (hökmdarın qarşısında) **ayağa qalxaraq belə demişdilər: “Bizim Rəbbimiz göylərin və yerin**

Rəbbidir. Biz Ondan başqa heç bir tanrıya əsla dua etmərik”. Bunun üçün də Allah-Təala onlar haqqında belə buyurur: **“**(Yoxsa) **həqiqətən, haqdan uzaq bir şey söyləmiş olarıq”.** Həmin gənclər əks təqdirdə, batil, yalan və böhtan olan bir söz söyləmiş olacaqlarını bildirirlər. **“Bizim bu qövmümüz Ondan** (Allahdan) **başqa tanrılar qəbul etdilər. Onlar barəsində açıq bir dəlil gətirməli deyildilərmi?”** ayəsində müşriklərin ən azı etdikləri əməlin doğruluğu xüsusunda açıq bir dəlil gətirməli olduqları qeyd olunur.

Təfsirlərdə qeyd olunan bir rəvayətə görə, kral onları təhdid etmiş və gördükləri bu iş barəsində düşünmələri üçün onlara möhlət vermişdi ki, bəlkə təkrar əvvəlki dinlərinə qayıdalar. Bu, Uca Allahın onlara bəxş etdiyi bir lütf idi. Çünki onlar özlərinə verilən bu möhlət ərzində əvvəlki dinlərinə dönməmək üçün qaçmaq fikrinə düşdülər. İnsanlar arasında fitnə çıxdığı zaman din mövzusunda fitnəyə düşmək qorxusu ilə bir kimsənin oradan uzaqlaşması şəriətə uyğun bir davranışdır. Necə ki, bir hədisi-şərifdə belə buyurulmuşdur: *“Sizdən birinizin ən xeyirli malı, dini barəsində fitnəyə düşməmək üçün dağların başına və yağışlı yerlərə sürüb apardığı qoyunlarıdır”*.[16] Belə bir vəziyyətdə insanlardan qaçıb uzaqlaşmaq şəriətə uyğun hesab edilmişdir. Ancaq bundan başqa hallarda caiz deyildir. Çünki fitnə istisna olmaqla, digər hallarda insanlardan uzaqlaşmaq camaatdan ayrılmaq mənasına gəlir.

Bu gənclərin qövmlərindən qaçıb uzaqlaşmağa cəhd etmələrini və Allah-Təalanın onların bu hərəkətini uyğun

16. Buxari, “İman”, 10; Əbu Davud, “Fitən”, 4.

gördüyünü Uca Allah belə xəbər verir: **“Madam ki, onlardan və Allahı qoyub ibadət etdiklərindən uzaqlaşmısınız, onda dərhal mağaraya sığının ki, Rəbbiniz sizin üçün Öz mərhəmətindən bəxş etsin və bu işinizdə ehtiyacınız olan şeyləri sizin üçün hazırlasın”.** Bu sözləri onların arasından biri öz yoldaşlarına demişdi. Beləcə, gənclər mağaraya qaçıb ora sığındılar. Qövmləri isə onların izini itirdi. Kral da onları tapmaları üçün adamlar göndərmişdi. Lakin gəncləri axtaranlar onları tapa bilmədilər. Çünki Uca Allah gənclərin izini onlardan gizlətmişdi.[17]

وَتَرَى الشَّمْسَ اِذَا طَلَعَتْ تَزَاوَرُ عَنْ كَهْفِهِمْ ذَاتَ الْيَمِينِ وَاِذَا غَرَبَتْ تَقْرِضُهُمْ ذَاتَ الشِّمَالِ وَهُمْ فِى فَجْوَةٍ مِنْهُ ۗ ذٰلِكَ مِنْ اٰيَاتِ اللّٰهِ ۗ مَنْ يَهْدِ اللّٰهُ فَهُوَ الْمُهْتَدِ ۚ وَمَنْ يُضْلِلْ فَلَنْ تَجِدَ لَهُ وَلِيًّا مُرْشِدًا ۚ ﴿١٧﴾

17. Günəşin doğarkən onların mağarasının sağ tərəfinə meyil etdiyini, batarkən də onlara dəymədən sol tərəfə keçdiyini görərdin. Onlar isə orada geniş bir yerdə yatırdılar. Bu, Allahın möcüzələrindəndir. Allah kimi hidayətə yönəldərsə, o, doğru yoldadır, kimi haqq yoldan azdırarsa, artıq ona doğru yolu göstərən bir dost tapa bilməzsən!

17. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 129.

Təfsiri:

Ayələrdəki təsvirdən belə başa düşülür ki, Əshabi-kəhfin sığındığı mağaranın ağzı şimal və şimal-qərb arasındakı bir yönə baxırdı. Çünki səhər günəş sağ tərəflərindən doğur və batana qədər şüaları mağaranın içinə düşürdü. Ancaq axşam tərəfi günəş şüaları çox az bir müddətdə mağaranın içinə düşürdü. Onlar da mağaranın ortasında yatdıqları üçün bu şüalardan təsirlənmirdilər.

Uca Allah bu qissəni bizə anlatmaq surətilə bunu başa düşməyimizi və düşünməyimizi istəmiş, lakin həmin mağaranın dünyanın harasında olduğunu bizə bildirməmişdir. Əgər bu mağaranın harada olduğunu bilməyimiz dinimiz baxımından bizim üçün faydalı olsaydı, Allah-Təala və Peyğəmbəri (s.ə.s) onun yerini bizə bildirərdi. Beləcə, Uca Allah mağaranın yerləşdiyi yeri deyil, xüsusiyyətlərini bildirmiş və belə buyurmuşdur: **"Günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə meyil etdiyini, batdığı zaman da onlara dəymədən sol tərəfə keçdiyini görərdin. Onlar da orada geniş bir yerdə** (yatırdılar)**".** Yəni onlar günəş şüalarının düşməyəcəyi şəkildə mağaranın içində geniş bir yerdə yatırdılar. Onları məhz Uca Allah həmin mağaraya yönləndirmişdi. Bədənləri sağlam qalsın deyə, içəri günəş işığı və hava daxil olurdu. Bunun üçün də Uca Allah: **"Bu, Allahın möcüzələrindəndir"**, - buyurur. Daha sonra ayədə: **"Allah kimi hidayətə yönəldərsə, o doğru yoldadır",** - buyurulmuşdur. Yəni bu gəncləri qövmlərinin arasından çıxardıb doğru yola istiqamətləndirən Allah-Təa-

ladır. Çünki Allah-Təala kimi doğru yola yönəldərsə, məhz o, doğru yolda gedər. Ancaq Allah kimi zəlalətə salarsa, heç kim onu haqq yola yönəldə bilməz.

وَتَحْسَبُهُمْ اَيْقَاظًا وَهُمْ رُقُودٌ ۚ وَنُقَلِّبُهُمْ ذَاتَ الْيَمِينِ وَذَاتَ الشِّمَالِ ۚ وَكَلْبُهُمْ بَاسِطٌ ذِرَاعَيْهِ بِالْوَصِيدِ ۖ لَوِ اطَّلَعْتَ عَلَيْهِمْ لَوَلَّيْتَ مِنْهُمْ فِرَارًا وَلَمُلِئْتَ مِنْهُمْ رُعْبًا ﴿١٨﴾

18. Onlar yuxuda ikən sən onların oyaq olduğunu zənn edərdin. Biz onları sağ tərəfə və sol tərəfə çevirirdik. Onların iti də mağaranın girişində qabaq ayaqlarını uzadıb yatmışdı. Əgər onları müşahidə etsəydin, mütləq dönüb onlardan qaçardın və gördüklərinə görə səni qorxu bürüyərdi.

Təfsiri:

Həmin gənclər insanların yaşadığı yerdən uzaqda qaranlıq bir mağaranın içində dərin bir yuxuya getmiş, lakin ayıq kimi görünürdülər. Rəvayət olunduğuna görə, onları yuxu apardığı zaman çürüməmələri üçün gözləri açıq qalmışdı.[18]

18. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 130.

Onların yanında gələn it də mağaranın astanasında ayaqlarını uzadıb yatmışdı və sanki onları qoruyurdu. Onların bərəkəti itə də sirayət etmiş və beləcə onları bürüyən yuxu eynilə itə də keçmişdi. Burada, saleh və doğru kimsələrin söhbətində iştirak etməyin insana fayda verdiyinə dair bir işarə vardır. Necə ki, digər bir ayeyi-kərimədə: **“Ey iman gətirənlər, Allahdan qorxun və sadiqlərlə** (doğru insanlarla) **birlikdə olun!”**[19] – buyurulur.

Uca Allah: **“Əgər onları müşahidə etsəydin, mütləq, dönüb onlardan qaçardın və gördüklərinə görə səni dəhşət bürüyərdi”,** - buyurur. Yəni Allah-Təala onları elə heybətli bir hala salmışdı ki, onlara baxan hər kəs qorxardı. Heç kim onlara yaxınlaşmasın və toxunmasın deyə, onları qorxunc və heybətli bir vəziyyətə salmışdı ki, nəhayət, onlar üçün təyin olunmuş vaxt gəlib çatsın. Uzun müddət yatacaqları üçün Uca Allah həmin gəncləri yatdıqları yerdə sağa-sola çevirirdi ki, bədənləri zərər görməsin.

وَكَذٰلِكَ بَعَثْنَاهُمْ لِيَتَسَآءَلُوا بَيْنَهُمْ ۭ قَالَ قَآئِلٌ مِّنْهُمْ كَمْ
لَبِثْتُمْ ۭ قَالُوا لَبِثْنَا يَوْمًا اَوْ بَعْضَ يَوْمٍ ۭ قَالُوا رَبُّكُمْ اَعْلَمُ بِمَا
لَبِثْتُمْ فَابْعَثُوٓا اَحَدَكُمْ بِوَرِقِكُمْ هٰذِهٖٓ اِلَى الْمَدِيْنَةِ فَلْيَنْظُرْ
اَيُّهَآ اَزْكٰى طَعَامًا فَلْيَاْتِكُمْ بِرِزْقٍ مِّنْهُ وَلْيَتَلَطَّفْ وَلَا يُشْعِرَنَّ

19. Tövbə, 9/119.

بِكُمْ اَحَدًا ﴿١٩﴾ اِنَّهُمْ اِنْ يَظْهَرُوا عَلَيْكُمْ يَرْجُمُوكُمْ اَوْ
يُعِيدُوكُمْ فِى مِلَّتِهِمْ وَلَنْ تُفْلِحُوٓا اِذًا اَبَدًا ﴿٢٠﴾

19. Beləcə, öz aralarında bir-birindən (nə qədər vaxt yatıb qaldıqlarını) **soruşsunlar deyə onları oyatdıq. Onlardan biri: “Nə qədər** (yatıb) **qaldınız?” - dedi. Digərləri: “Bir gün, yaxud günün bir hissəsi qədər qaldıq!” - dedilər.** (Onlardan bəziləri də) **dedilər ki: “Rəbbiniz, qaldığınız müddəti daha yaxşı bilir. Aranızdan birini bu gümüş pulla şəhərə göndərin ki, hansı yeməyin daha təmiz olduğuna baxsın və o ərzaqdan sizə gətirsin. O, gizlicə hərəkət etsin və qətiyyən sizi heç kimə sezdirməsin!**

20. Əgər onlar sizi ələ keçirsələr, ya sizi daşqalaq edib öldürəcək, ya da dinlərinə geri qaytaracaqlar. O zaman əsla nicat tapa bilməyəcəksiniz!”

Təfsiri:

Uca Allah buyurur ki, onları necə yuxulatdıqsa, eynilə bədənləri, saçları və dəriləri çürüməmiş bir vəziyyətdə oyandırdıq. Onların bədənlərində və hallarında heç bir dəyişiklik baş verməmişdi. Uca Allahın mağaradakı gəncləri heç bir qida maddəsi qəbul etmədikləri halda bədənlərində hər

hansı bir xəsarət olmadan uzun müddət yuxulatdıqdan sonra oyandırması axirətdə insanları təkrar dirildəcəyinə dair dəlildir. Onlar yuxudan üç yüz doqquz il sonra oyandılar. O gənclər oyandıqdan sonra nə qədər yatıb qaldıqları barədə bir-birləri ilə mübahisə etmiş və baş verənlərdən xəbərsiz şəkildə hələ də onlar üçün təhlükənin davam etdiyini zənn etmişdilər. Buna görə də bir-birlərinə: **“**(Yuxlayıb) **nə qədər qaldınız?”** – deyə sual verdilər. Sonra da ayədə ifadə edildiyi kimi: **“Bir gün, yaxud günün bir hissəsi qədər qaldıq”**, - dedilər. Çünki onlar səhər mağaraya daxil olmuşdular. Yuxudan oyandıqlarında isə axşam idi. Buna görə də bunu aydınlaşdırmaq üçün: **“Bir gün, yaxud günün bir hissəsi qədər qaldıq”,** - dedilər. Bəziləri də belə dedilər: **“Rəbbiniz qaldığınız müddəti daha yaxşı bilir”.** Yəni Allah sizin halınızı daha yaxşı bilir. Sanki onlar uzun bir müddət yuxulamaları barəsində tərəddüd içində olub: “Ən doğrusunu Allah bilir”, - demişdilər. Daha sonra bu düşüncələrini bir kənara qoyaraq, içinə düşdükləri bu vəziyyətdə onlar üçün daha mühüm olan yemək və içmək ehtiyaclarını təmin etməyə çalışmışdılar. Bunun ardınca: **“Aranızdan birini bu gümüş pulunuzla şəhərə göndərin...”,** - dedilər və yemək alması üçün şəhərə göndərəcəkləri yoldaşlarını yaxşıca tənbehlədilər. Lakin həmin gəncin əyin-başı, danışığı və əlindəki qədim dövrə aid pul onu ələ vermişdi. Təfsirlərdə qeyd olunan rəvayətlərə görə, o, əlindəki pulla alış-veriş etmək istədiyi zaman camaat pulun üstündəki kral Dakyanusun şəklini görüb onun bir xəzinə tapdığını zənn etmişdi. Buna görə də onu öz hökmdarlarının yanına aparmışdılar. Əshabi-kəhfin mağaraya sığınmasından bu yana üç əsr keçmişdi və həm xalq, həm də hökmdar töv-

hid əqidəsinə sahib xristianlar idilər. O gənc başlarına gələn hadisələri hökmdara danışdı və hamısı birlikdə mağaranın yanına getdilər. Beləliklə, insanlar o gəncin anlatdıqlarının həqiqət olduğunu öz gözləri ilə gördülər.[20]

وَكَذٰلِكَ اَعْثَرْنَا عَلَيْهِمْ لِيَعْلَمُوٓا اَنَّ وَعْدَ اللّٰهِ حَقٌّ وَّاَنَّ السَّاعَةَ لَا رَيْبَ فِيهَاۚ اِذْ يَتَنَازَعُونَ بَيْنَهُمْ اَمْرَهُمْ فَقَالُوا ابْنُوا عَلَيْهِمْ بُنْيَانًاۗ رَبُّهُمْ اَعْلَمُ بِهِمْۗ قَالَ الَّذِينَ غَلَبُوا عَلٰٓى اَمْرِهِمْ لَنَتَّخِذَنَّ عَلَيْهِمْ مَسْجِدًا ﴿٢١﴾

21. Beləcə (insanları) **onların halından xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunu və qiyamətin qopacağına dair heç bir şübhə olmadığını bilsinlər. O zaman aralarında onların** (Əshabi-kəhfin) **məsələsini müzakirə edərək: “Onların üstündə bir bina tikin! Rəbbi onları ən yaxşı biləndir”, - dedilər. Onların işinə bələd olanlar isə: “Biz onların yanında bir məscid tikəcəyik!” - dedilər.**

Təfsiri:

Təfsir alimlərinə görə, təkrar dirilmənin mümkün olduğunu isbat edən bu hadisədən sonra bu gənclər eyni anda

[20] Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XV, 142-143.

vəfat etmişlər, yaxud hər biri müəyyən bir müddət yaşadıqdan sonra vəfat etmiş və onlar həmin mağarada dəfn edilmişlər. Bundan sonra bəziləri onların qəbirlərinin mağarada qalmasını və insanlar tərəfindən hər hansı bir zərər verilməməsi üçün üstünə məqbərə tikilməsini təklif etmişdilər. Şəhərin idarəçiləri isə mağaranın üstündə bir məbəd tikəcəklərini bildirmişdilər.

سَيَقُولُونَ ثَلٰثَةٌ رَّابِعُهُمْ كَلْبُهُمْ ۚ وَيَقُولُونَ خَمْسَةٌ سَادِسُهُمْ
كَلْبُهُمْ رَجْمًا بِالْغَيْبِ ۚ وَيَقُولُونَ سَبْعَةٌ وَّثَامِنُهُمْ كَلْبُهُمْ ۭ قُلْ
رَّبِّيْٓ اَعْلَمُ بِعِدَّتِهِمْ مَا يَعْلَمُهُمْ اِلَّا قَلِيْلٌ ۬ فَلَا تُمَارِ فِيْهِمْ
اِلَّا مِرَاۗءً ظَاهِرًا ۠ وَلَا تَسْتَفْتِ فِيْهِمْ مِّنْهُمْ اَحَدًا ۝٢٢

22. (İnsanlardan bəziləri)**: “Onlar üç nəfər idilər, dördüncüsü də itləri idi”, - deyəcəklər.** (Bəziləri də) **qeyb** (onların sayı) **barəsində fikir yürüdərək: “Beş nəfər idilər, altıncısı da itləri idi”, - deyəcəklər.** (Digərləri isə:) **“Yeddi nəfər idilər, səkkizincisi isə itləri idi”, - deyəcəklər. De ki: “Onların sayını ən yaxşı Rəbbim bilir. Onlar haqqında məlumatı olanlar çox azdır”. Ona görə də açıq-aydın dəlillər istisna olmaqla, onlar barəsində mübahisəyə girişmə və onların** (kitab əhlinin) **heç birindən onlar haqqında soruşma!**

Təfsiri:

Uca Allah həmin gənclərin neçə nəfər olduğu barəsində insanların ixtilafa düşdüklərini və bu mövzuda ortaya çıxan üç əsas fikir haqqında xəbər verir. Qurani-Kərimdə onların harada, nə zaman yaşadıqları, adları və neçə nəfər olduqları barəsində hər hansı bir məlumat verilmir. Sadəcə olaraq belə bir hadisənin baş verdiyi müxtəsər olaraq xəbər verilir. Çünki qissənin anladılmasının əsas məqsədi insanların belə bir hadisədən ibrət götürməsidir. İnsanların bəziləri onların üç nəfər olduğunu, bəziləri beş nəfər olduğunu, bəziləri də yeddi nəfər olduğunu irəli sürmüşdülər. Uca Allah onların bu iddialarına qarşı ən doğrusunu Özünün bildiyini xəbər verir.

Bəzi təfsirçilərə görə, ayədə onların üç və ya beş nəfər olduğunu iddia edənlər qeyd olunduqdan sonra “رَجْمًا بِالْغَيْبِ/ **qeyb** (onların sayı) **barəsində fikir yürüdərək”** ifadəsi yer aldığı halda yeddi nəfər olduğunu iddia edənlər qeyd olunduqdan sonra belə bir ifadəyə yer verilmədiyi üçün onaların həqiqətən də, yeddi nəfər olduğuna işarə edilmişdir. Həmçinin ayədəki “**Onlar haqqında məlumatı olanlar çox azdır**” ifadəsinin də bu fikri dəstəklədiyini bildirmişlər. İbn Abbas bu ifadə haqqında belə demişdir: “Mən Uca Allahın istisna tutduğu kəslərdənəm. Mənim fikrimə görə, onlar yeddi nəfər idilər”.[21] Uca Allahın: **“De: “Onların sayını ən yaxşı bilən Rəbbimdir”,** sözü belə hallarda ən doğru məlumatın Allah nəzdində olduğu və bu barədə fikir irəli sürməməyin daha yaxşı olduğuna dair yol göstərir. Çünki

21. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 134.

əlimizdə məlumat olmadığı halda belə mövzulara girişməyə ehtiyac yoxdur.

Allah-Təala belə buyurur: **“Ona görə də açıq bir dəlil olmadan onlar barəsində mübahisəyə girişmə!”** Yəni onlarla yumşaq danış. Çünki bu mövzunu bilməyin çox faydası yoxdur. Allah-Təala: **“Və heç birindən onlar haqqında bir şey soruşma!” –** buyuraraq, əhli-kitabın bilinməyən məsələlər barəsində təxmin etməkdən və uydurduqları sözlərdən başqa heç bir məlumatlarının olmadığını xəbər verir. Çünki onlar dəqiq bir dəlilə istinad etmədən danışırlar.

Bu qissə tarix və təfsir kitablarında geniş şəkildə fərqli rəvayətlərlə nəql edilmişdir. Ehtimal olunur ki, bu gənclər xristianlıq və ya yəhudi dininə mənsub idilər. Bu barədə Qurani-Kərimdə və hədislərdə dəqiq bir məlumat yoxdur. Ancaq müşriklərdən bu qissə haqqında Həzrət Peyğəmbərə sual verilməsini istəyənlərin Yəhudi alimləri olduğunu nəzərə alsaq, onların Həzrət İsadan (ə.s) əvvəl yaşamış olduqlarını söyləyə bilərik. Digər tərəfdən bu qissədə keçən “الرَّقِيم/ər-rəqim” sözünün etimologiyasını nəzərə alaraq onların Həzrət İsadan daha əvvəl yaşadıqlarını iddia edənlər olmuşdur.[22]

Bu hadisənin harada baş verdiyi Qurani-Kərimdə qeyd olunmasa da Türkiyə, İspaniya, Əlcəzair, Misir, İordaniya, Suriya, Əfqanıstan və s. ölkələrdə Əshabi-kəhfə nisbət edilən mağaralar mövcuddur. Xristian mənbələri isə bu hadisənin indiki Türkiyə Respublikasının Əfəs bölgəsində

22. İsmet Ersöz, “Ashab-ı Kehf”, DİA, III, 465-467.

baş verdiyini bildirmişdir.[23] Bununla yanaşı, Azərbaycan Respublikasına bağlı Naxçıvan Muxtar Respublikasında da Əshabi-kəhfə məxsus olduğu güman edilən bir mağara mövcuddur.[24]

وَلَا تَقُولَنَّ لِشَاْىْءٍ اِنِّى فَاعِلٌ ذٰلِكَ غَدًا ۲۳ اِلَّآ اَنْ
يَشَآءَ اللّٰهُ ۚ وَاذْكُرْ رَبَّكَ اِذَا نَسِيتَ وَقُلْ عَسٰٓى اَنْ يَهْدِيَنِ
رَبِّى لِاَقْرَبَ مِنْ هٰذَا رَشَدًا ۲۴

23. Heç bir şey üçün əsla: “Mən bunu sabah edəcəyəm”, - demə!

24. Ancaq: “Allah diləyərsə (“İnşallah” de!)**”** (İnşallah deməyi) **unutduğun zaman Rəbbini an və belə de: “Ola bilsin ki, Rəbbim məni indikindən daha çox doğruya yaxınlaşdırar”.**

Təfsiri:

Müşriklər Həzrət Peyğəmbərə (s.ə.s) Əshabi-kəhf haqqında sual verdikləri zaman o (s.ə.s): “İnşallah/Allah qoysa!” - deməyib bunun əvəzinə: “*Sabah sizə bunun cavabını verəcəyəm*”, - deyə cavab vermişdi. Buna görə də bir müddət

23. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 546.
24. Bax: Talıbov, “Əshabi-Kəhf (mağara)”, Naxçıvan Ensiklopediyası, I, 596.

vəhy kəsildi ki, bu bir xəbərdarlıq idi. Belə ki, on beş gün sonra təkrar vəhy gəlməyə başladı. Bu ayədə Uca Allah Peyğəmbərinə (s.ə.s) yol göstərir ki, gələcəkdə bir iş görmək istədiyi zaman o işi, qeybi bilən Allahın diləməsinə həvalə etsin. Çünki bir şeyin meydana gəlməsi üçün, sadəcə, insanın iradəsi kafi olmayıb bu işdə Allahın iradəsi də şərtdir. Buna görə də hər bir müsəlmanın gələcəkdə görəcəyi bir iş üçün “İnşallah” deməsi xoş görülmüşdür.

Təbərani İbn Abbasdan nəql edərək **“(**Bunu deməyi) **unutduğun zaman Rəbbini an!”** ifadəsi haqqında belə demişdir: “Yəni “İnşallah” deməyi unutduğun zaman Allahı yada sal!” Həmçinin Təbərani İbn Abbasın belə dediyini nəql etmişdir: “ Xatırladığın zaman da: “İnşallah”, - de”. İbn Abbas belə deyir: “Bu, yalnız Həzrət Peyğəmbərə (s.ə.s) məxsus bir haldır. Bizdən birinin and içmək istisna olmaqla, “İnşallah” deməsi vacib deyildir”.[25]

Bu ayənin başqa bir izahı da belə ola bilər ki, Uca Allah bu ifadə ilə, danışdığı zaman bir şeyi unudan kimsəyə Allahı xatırlamasını tövsiyə edir. Çünki unutqanlıq şeytandan qaynaqlanır. Necə ki, bir gənc Həzrət Musaya (ə.s) belə demişdi: **“Onu xatırlamağı mənə Şeytandan başqası unutdurmadı”**.[26] Allah-Təalanı yada salmaq isə şeytanı bizdən uzaqlaşdırar. Şeytan uzaqlaşdığı zaman unutqanlıq da yoxa çıxar. Uca Allahı yad etmək unutduğun bir şeyi xatırlamaq üçün də bir səbəbdir. Buna görə də Allah-Təala belə buyurur: **“**(Bunu deməyi) **unutduğun zaman Rəb-**

[25] İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 135.
[26] Kəhf, 18/63.

bini an və: “Ola bilsin ki, Rəbbim məni indikindən daha çox doğruya yaxınlaşdırar!” – de”. Yəni bilmədiyin bir mövzu barəsində bir kimsə sənə sual verdiyi zaman onu Allahdan soruş və bu xüsusda səni müvəffəq etməsi üçün Ona yönəl.

وَلَبِثُوا فِى كَهْفِهِمْ ثَلٰثَ مِائَةٍ سِنِينَ وَازْدَادُوا تِسْعًا ﴿٢٥﴾
قُلِ اللّٰهُ اَعْلَمُ بِمَا لَبِثُوا ۚ لَهُ غَيْبُ السَّمٰوَاتِ وَالْاَرْضِ ۖ
اَبْصِرْ بِهٖ وَاَسْمِعْ ۚ مَا لَهُمْ مِنْ دُونِهٖ مِنْ وَلِيٍّ وَلَا يُشْرِكُ فِى
حُكْمِهٖٓ اَحَدًا ﴿٢٦﴾

25. Onlar mağaralarında üç yüz il qaldılar və doqquz il də əlavə etdilər.

26. De: “Onların nə qədər qaldıqlarını ən yaxşı Allah bilir. Göylərin və yerin qeybi Ona aiddir. O necə də gözəl görür, necə də yaxşı eşidir! Onların Allahdan başqa heç bir himayədarı yoxdur. O, Öz hökmranlığına heç kimi ortaq etməz”.

Təfsiri:

Bu iki ayəni birlikdə şərh edən təfsirçilər iki fərqli fikir səsləndirmişlər. Bəzi təfsirçilərin fikrincə, daha əvvəlki ayələrdə də qeyd olunduğu kimi, bəzi insanlar həm Əshabi-

kəhfin neçə nəfər olduğu, həm də neçə il mağarada qaldıqları barəsində mübahisə edirdilər. Allah-Təala “Kəhf” surəsinin 25-ci ayəsində də onların bu iddialarına toxunmuş və bəzilərinə görə Əshabi-kəhfin ümumilikdə 300 il, bəzilərinə görə də 309 il mağarada qaldıqlarını iddia etdiklərini xəbər vermişdir. Bu izahdan belə bir nəticə çıxır ki, Uca Allah onların neçə nəfər olduğu və nə qədər müddət mağarada qaldıqları haqqında məlumat verməmişdir. Bunu yalnız Allah bilir. Necə ki, mağaradakı gənclər də öz aralarında ayədə qeyd olunduğu kimi “**Rəbbiniz qaldığınız müddəti daha yaxşı bilir**”,[27] - deyə danışırdılar. Eləcə də 26-cı ayədə Allah-Təala: “**Onların nə qədər qaldıqlarını ən yaxşı Allah bilir**”, - buyuraraq insanların bunu bilmələrinin qeyri-mümkün olduğunu xəbər verir.

Ancaq bəzi təfsir alimlərinə görə, 25-ci ayədə Uca Allah onların mağarada 309 il qaldıqlarını xəbər vermişdir. Belə ki, əhli-kitabdan olanlar Əshabi-kəhfin mağarada cəmi 300 il qaldığını iddia etmiş və bunu miladi təqvimlə hesablamışdılar. Allah-Təala onların hesablamalarının da doğru olduğunu, “**və doqquz il də əlavə etdilər**” ifadəsi ilə eyni zamanda hicri təqvimlə bunun 309 ilə bərabər olduğunu xəbər vermişdir. Çünki həqiqətən də, təqribi olaraq miladi təqvimdəki 300 il hicri təqvimdəki 309 ilə bərabərdir.

Ayənin davamında isə bu kimi qeyb xəbərlərinin yalnız Allaha məlum olduğu vurğulanmışdır. Çünki göylərdə və yer üzündə baş verənlərin hər birini bilən Allah Əshabi-kəhfin nə qədər mağarada qaldığını da bilir.

---

[27] Kəhf, 18/19.

Ayədə Uca Allah Özü haqqında: **“O necə də gözəl görür, necə də yaxşı eşidir!”** – buyurur. O, daim hər şeyi görüb müşahidə edir, hər bir şeyi eşidir. İbn Cərir bu haqda belə demişdir: “Bu, mübaliğəli bir şəkildə tərifləməyi ifadə edir. Sanki burada belə deyilmişdir: “Allah nə gözəl görür və nə gözəl eşidir!” Bu ifadələrin izahı belədir ki, Allah bütün məxluqatı necə də gözəl görür və bütün eşidilənləri necə də gözəl eşidir. Bu xüsusda heç bir şey Ondan gizli qala bilməz”.[28]

26-cı ayənin sonunda isə Uca Allah: “**O, Öz hökmranlığına heç kimi ortaq etməz**”, – buyuraraq, göylərdə və yerdə yeganə məbudun Özü olduğunu və heç bir şərikinin olmadığını vurğulayır. Belə ki, heç kim Onun hökmünə qarşı çıxa bilməz. Onun heç bir köməkçisi, şəriki və məsləhətçisi yoxdur. O, bütün bunlardan uzaqdır, pak və müqəddəsdir.

وَاتْلُ مَآ اُوْحِيَ اِلَيْكَ مِنْ كِتَابِ رَبِّكَ ۚ لَا مُبَدِّلَ لِكَلِمَاتِهٖ
وَلَنْ تَجِدَ مِنْ دُوْنِهٖ مُلْتَحَدًا ﴿٢٧﴾

27. Rəbbinin kitabından sənə vəhy olunanı oxu! Onun kəlmələrini heç kim dəyişdirə bilməz. Ondan başqa heç bir sığınacaq da tapa bilməzsən.

28. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XV, 233.

Təfsiri:

Uca Allah elçisinə (s.ə.s) uca kitabını oxumasını və onu insanlara təbliğ etməsini əmr edərək: “**Rəbbinin kitabından sənə vəhy olunanı oxu!**” – buyurur. Həzrət Peyğəmbər müşriklərin suallarına cavab verdikcə onlar yenə başqa suallar verib öz tələblərini irəli sürürdülər. Necə ki, onlar Əshabi-kəhf və Zülqərneyn (ə.s) haqqında sual vermiş, Rəsulullah (s.ə.s) da bu suallara vəhy ilə cavab vermişdi. Bu dəfə də müşriklər Həzrət Peyğəmbərdən (s.ə.s) dəvətini qəbul etmələri müqabilində Quranda onların adət-ənənələrini və etiqadlarını dəstəkləyən müəyyən dəyişikliklər etməsini tələb etmişdilər. Yuxarıdakı ayə onların bu istəklərini qəti şəkildə rədd etmək üzrə nazil olmuş və Rəsulullaha (s.ə.s) yalnız Allah tərəfindən vəhy olunan ayələri oxuyub bunlara tabe olması əmr olunmuşdur. Başqa bir ayeyi-kərimədə də Uca Allah: **“Ey Peyğəmbər! Rəbbindən sənə nazil ediləni** (Quranı) **təbliğ et! Əgər** (bunu) **etməzsən, Onun risalətini təbliğ etməmiş olarsan”**,[29] - buyuraraq, Öz elçisini bu mövzuda xəbərdar etmişdir. Yəni peyğəmbər yalnız ona gələn vəhyi oxumaq və buna əməl etməklə məsuldur. O (s.ə.s), Qurani-Kərimdəki hər hansı bir ayəni və ya sözü əsla dəyişdirə bilməz. Əks təqdirdə Həzrət Peyğəmbər (s.ə.s) Allahın əzabından qaçıb xilas ola bilməz.

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدٰوةِ وَالْعَشِيِّ
يُرِيدُونَ وَجْهَهُ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيٰوةِ

[29] Maidə, 5/67.

الدُّنْيَا وَلَا تُطِعْ مَنْ اَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوٰيهُ وَكَانَ اَمْرُهُ فُرُطًا ﴿٢٨﴾

28. Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə (çətinliklərə qarşı) **səbir et! Dünya həyatının zinətini istəyərək gözlərini onlardan çevirmə! Qəlbini Bizi anmaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan kimsəyə boyun əymə!**

Təfsiri:

Təfsirlərdə qeyd olunduğuna görə, bu ayə Qüreyş qəbiləsinin başçıları haqqında nazil olmuşdur. Belə ki, onlar Həzrət Peyğəmbərdən (s.ə.s) kasıb və aciz səhabələri ilə deyil, yalnız özləri ilə oturmasını tələb etmişdilər. Allah-Təala Öz Peyğəmbərinə (s.ə.s) bunu qadağan etmiş və: **“Rəbbinin rizasını diləyərək səhər-axşam Ona dua edənləri də qovma!”**[30] – buyuraraq, peyğəmbərini bu barədə xəbərdar etmişdir. Uca Allah belə kimsələrlə birlikdə oturmaq xüsusunda Rəsulullahın (s.ə.s) səbirli olmasını istəmiş və: **“Səhər-axşam Rəbbinə, Onun rizasını diləyərək dua edənlərlə birlikdə** (çətinliklərə qarşı) **özünü səbirli apar!” -** buyurmuşdur.

Səd ibn Əbu Vəqqasdan nəql edilən bir rəvayətə görə, o, belə demişdir: “Biz altı nəfər Rəsulullah (s.ə.s) ilə bərabər

30. Ənam, 6/52.

oturmuşduq. Müşriklər Həzrət Peyğəmbərə (s.ə.s): “Onları yanından qov! Onlar bizimlə birlikdə oturmağa cürət edə bilməzlər”, - dedilər”. Orada mən, İbn Məsud, Hüzeyl qəbiləsindən olan bir nəfər, Bilal və adını unutduğum iki nəfər var idi. Rəsulullahın (s.ə.s) ürəyindən Allahın dilədikləri keçirdi. Buna görə də Həzrət Peyğəmbər (s.ə.s) təkbaşına qaldığı zaman Allah-Təala **“Rəbbinin rizasını diləyərək səhər-axşam Ona dua edənləri də qovma!”**[31] ayəsini nazil etdi”.[32]

Ənəs ibn Malikdən nəql edilən rəvayət görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: *“Yalnız Uca Allahın rizasını istəyərək Onu zikr etmək üçün bir yerə yığışan elə bir topluluq yoxdur ki, göydən onlara belə bir nida gəlməsin: “Bağışlanmış olaraq qalxın! Həqiqətən, sizin pis əməlləriniz yaxşı əməllərinizlə dəyişdirilmişdir”.*[33] Təbərani isə Əbdürrəhman ibn Səhl ibn Hənifdən belə dediyini nəql etmişdir: “Rəsulullah (s.ə.s) evində ikən **“Səhər-axşam Rəbbinə, Onun rizasını diləyərək dua edənlərlə birlikdə** (çətinliklərə qarşı) **özünü səbirli apar!”** ayəsi nazil oldu. Buna görə də çölə çıxıb onları axtarmağa başladı. Bu zaman Allahı zikr edən bir topluluqla qarşılaşdı. Onlardan bəzisinin üst-başı açıq, bəzisinin dərisi qurumuş, bəzisinin də üzərində bir tək paltarı vardı. Onları görəndə dərhal yanlarına oturdu və belə dedi: *“Ümmətimdən, özləri ilə birlikdə oturub səbirli olmağımı əmr etdiyi kimsələr var edən Uca Allaha həmd olsun!”*[34]

---

31. Ənam, 6/52.
32. Müslim, “Fəzail”, 5.
33. Əhməd ibn Hənbəl, “Müsnəd”, XIX, 437.
34. Əbu Davud, “Elm”, 13.

Bu ayə Rəsulullaha (s.ə.s) xitab edərək bu kimi davranışları mənimsəyən kimsələrə xəbərdarlıq verir ki, üstünlük və şərəf dünya malında deyil, qəlb cövhərində, iman və gözəl əxlaqdadır. Zəngin və yüksək vəzifə sahiblərinə əhəmiyyət verib kasıb insanlara qarşı ehmalkar yanaşmaq doğru deyildir. Ona görə də mal-mülkü ilə təkəbbürlənən kafirlərin xətri üçün yoxsul müsəlmanlara laqeyd yanaşmaq olmaz. Çünki Uca Allahın ayələrindən kimin daha çox istifadə edəcəyini bilmirik. Bununla bağlı başqa bir ayeyi-kərimədə də Allah-Təala: “**Rəbbinin rizasını diləyərək səhər-axşam Ona dua edənləri də qovma! Onların verəcəyi hesabın sənə, sənin verəcəyin hesabın da onlara heç bir aidiyyəti yoxdur ki, onları qovub zalımlardan olasan**”,[35] - buyuraraq, Həzrət peyğəmbəri və eyni zamanda bütün möminləri bu mövzuda diqqətli olmağa çağırır.

وَقُلِ الْحَقُّ مِنْ رَبِّكُمْ فَمَنْ شَآءَ فَلْيُؤْمِنْ وَمَنْ شَآءَ
فَلْيَكْفُرْ ۚ اِنَّآ اَعْتَدْنَا لِلظّٰلِمِيْنَ نَارًا ۙ اَحَاطَ بِهِمْ سُرَادِقُهَا ؕ
وَاِنْ يَّسْتَغِيْثُوْا يُغَاثُوْا بِمَآءٍ كَالْمُهْلِ يَشْوِى الْوُجُوْهَ ؕ بِئْسَ
الشَّرَابُ ؕ وَسَآءَتْ مُرْتَفَقًا ﴿٢٩﴾

29. De: “Haqq sizin Rəbbinizdəndir. Ona görə də istəyən inansın, istəyən inkar etsin. Biz zalımlar üçün elə bir cə-

35. Ənam, 6/52.

hənnəm hazırlamışıq ki, onun divarları onları hər tərəfdən əhatə edər. Əgər (susuzluğa görə) **yardım istəsələr, onlara əridilmiş mədən kimi üzləri qızardan bir su ilə yardım olunar. O necə də pis içki və necə də pis məskəndir!**

Təfsiri:

Bu ayədə də bildirilir ki, Qurani-Kərim Allah-Təala tərəfindən göndərilmişdir və o, içində heç bir şəkk-şübhə və yalan olmayan haqq kitabdır. Eləcə də İslam dini Allah tərəfindən gəlmiş haqq dindir. Bu dində varlı-kasıb, gözəl-çirkin, güclü-zəif deyə fərq qoyulmadan hər kəs bərabərdir. Qurani-Kərim insanlar arasında heç bir ayrı-seçkilik etmədən hamıya eyni şəkildə xitab edir. İstəyən ona inanar, istəyən də onu inkar edər. Bu səbəbdən ayənin davamında: **“Ona görə də istəyən inansın, istəyən inkar etsin”, -** buyurulur. Bu ayə kafirlərin axirətdə məruz qalacaqları cəzanı vurğulamaqla yanaşı, dünya həyatında din və etiqad azadlığı üçün də əsas təşkil edir, həmçinin bu dünyada möminlər qədər kafirlərin də haqq və hüquqlarının olduğuna işarə edir. Allah-Təala insan oğluna ağıl, iradə və seçmə hüququ vermişdir. İnsan bu vasitələrlə haqq və ya batil yolu seçə bilər, nəticəsində də axirətdə bunun qarşılığını alar.

Eyni zamanda burada inkar edənlər üçün şiddətli bir təhdid vardır. Belə ki, Uca Allah: **“Biz zalımlar üçün elə bir cəhənnəm hazırlamışıq ki, divarları onları hər**

tərəfdən əhatə edər”, - buyuraraq, haqq yolu seçməyənlərin axirətdə ağrılı-acılı bir əzaba düçar olacaqlarını xəbər verir. Əbu Səid Xudridən (r.ə) nəql edilən bir rəvayətə görə, Rəsulullah (s.ə.s) belə buyurmuşdur: “*Cəhənnəmin ətrafında dörd qat divar var. Hər divarın qalınlığı da qırx illik məsafə qədərdir*”.[36] Bir hədisi-şərifdə isə Rəsulullah (s.ə.s) **“əridilmiş mədən kimi su”** ifadəsini belə açıqlamışdır: *“O, zeytun yağının çöküntüsünə bənzəyir. Onu içmək üçün üzünə yaxınlaşdırdığı zaman üzünün dərisi onun içinə düşər”*.[37] Həmçinin Həzrət Peyğəmbər (s.ə.s) **“Ona irinli su içiriləcəkdir”**[38] ayəsi haqqında: “*Ona yaxınlaşdırıldığı zaman ondan xoşlanmaz. O, sudan içmək üçün onu üzünə yaxınlaşdırdığı zaman üzü yanıb qızarar və başının dərisi həmin suyun içinə düşər. Ondan içdiyində isə bağırsaqlarını kəsib tökər.”* Allah-Təala: **“Əgər** (susuzluğa görə) **yardım istəsələr, onlara əridilmiş mədən kimi üzləri qızardan bir su ilə yardım olunar. O necə pis içki, necə pis məskəndir!”**[39] – buyuraraq, kafirlər üçün cəhənnəm əzabının nə qədər şiddətli olacağını xəbər vermişdir.

اِنَّ الَّذِينَ اٰمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ اِنَّا لَا نُضِيعُ اَجْرَ
مَنْ اَحْسَنَ عَمَلًا ﴿٣٠﴾ اُولٰٓئِكَ لَهُمْ جَنَّاتُ عَدْنٍ تَجْرِى

36. Tirmizi, “Sifəti-cəhənnəm”, 4; Əhməd ibn Hənbəl, “Müsnəd”, XVII, 335.
37. Tirmizi, “Sifəti-cəhənnəm”, 4; Əhməd ibn Hənbəl, “Müsnəd”, XVIII, 210.
38. İbrahim, 14/16.
39. Əhməd ibn Hənbəl, “Müsnəd”, XXXVI, 615.

مِنْ تَحْتِهِمُ الْاَنْهَارُ يُحَلَّوْنَ فِيهَا مِنْ اَسَاوِرَ مِنْ ذَهَبٍ
وَيَلْبَسُونَ ثِيَابًا خُضْرًا مِنْ سُنْدُسٍ وَاِسْتَبْرَقٍ مُتَّكِئِينَ
فِيهَا عَلَى الْاَرَآئِكِ ۭ نِعْمَ الثَّوَابُ ۭ وَحَسُنَتْ مُرْتَفَقًا ۝٣١

30. İman gətirib yaxşı işlər görənlərə gəldikdə, şübhəsiz ki, Biz yaxşı əməl sahiblərinin mükafatını zay etmərik.

31. Onlar üçün (ağacları) **altından çaylar axan Ədn cənnətləri vardır. Onlar orada taxtlar üzərində əyləşərək qızıldan bilərziklərlə bəzənəcək, nazik və qalın ipəkdən yaşıl paltarlar geyəcəklər. O nə gözəl mükafat və nə yaxşı məkandır!**

Təfsiri:

Allah-Təala əvvəlki ayədə kafirlərin axirətdəki halından bəhs etdikdən sonra bu ayədə Allaha iman edən, peyğəmbərlərin gətirdiklərini təsdiqləyən və əmr edilən gözəl işləri görənlərin halından bəhs edərək onların “Ədn” cənnətinə girəcəklərini müjdələyir. Yəni etdikləri gözəl əməllərin müqabilində cənnət möminlər üçün çox gözəl bir mükafat olacaqdır. Bu cənnət yaşamaq üçün olduqca gözəl bir məskəndir.

Eyni zamanda bu ayələrdə möminlərin cənnətdə oturacaqları yerlər və geyinəcəkləri əşyalardan bəhs olunur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Qurani-Kərimdə

axirətdəki həyatla əlaqəli təsvirlər dünya həyatındakı nümunələri ilə təsəvvür edilmişdir. Axirət həyatı dünya həyatından fərqli olduğu üçün bu ifadələri mütləq şəkildə anlamaqdan daha çox təmsili ifadə olaraq da başa düşə bilərik. Xülasə, bu ayələrdə möminlərin cənnətdə necə gözəl və rahat bir həyat sürəcəklərinə işarə olunur.

وَاضْرِبْ لَهُمْ مَثَلًا رَجُلَيْنِ جَعَلْنَا لِاَحَدِهِمَا جَنَّتَيْنِ مِنْ
اَعْنَابٍ وَحَفَفْنٰهُمَا بِنَخْلٍ وَجَعَلْنَا بَيْنَهُمَا زَرْعًا ﴿٣٢﴾
كِلْتَا الْجَنَّتَيْنِ اٰتَتْ اُكُلَهَا وَلَمْ تَظْلِمْ مِنْهُ شَيْـًٔا ۙ وَفَجَّرْنَا
خِلٰلَهُمَا نَهَرًا ۙ ﴿٣٣﴾ وَكَانَ لَهٗ ثَمَرٌ ۚ فَقَالَ لِصَاحِبِهٖ وَهُوَ
يُحَاوِرُهٗٓ اَنَا۠ اَكْثَرُ مِنْكَ مَالًا وَّاَعَزُّ نَفَرًا ﴿٣٤﴾ وَدَخَلَ جَنَّتَهٗ
وَهُوَ ظَالِمٌ لِّنَفْسِهٖ ۚ قَالَ مَآ اَظُنُّ اَنْ تَبِيْدَ هٰذِهٖٓ اَبَدًا ۙ ﴿٣٥﴾
وَّمَآ اَظُنُّ السَّاعَةَ قَآئِمَةً ۙ وَّلَئِنْ رُّدِدْتُّ اِلٰى رَبِّيْ لَاَجِدَنَّ
خَيْرًا مِّنْهَا مُنْقَلَبًا ﴿٣٦﴾

32. Onlara iki adamı misal ver. Onlardan birinə iki üzüm bağı vermişdik və hər ikisini xurmalıqlarla əhatə edib aralarında da əkin bitirmişdik.

33. Hər iki bağ öz məhsulunu vermiş və heç bir əskiklik olmamışdı. O ikisinin arasından bir çay axıtmışdıq.

34. Onun başqa gəliri də var idi. Ona görə də yoldaşı ilə söhbət edərkən ona: “Mən, mal-mülk cəhətdən səndən daha zənginəm, (əşirətdəki) **say etibarilə də səndən daha güclüyəm!” - dedi.**

35. O, özünə zülm edərək (küfrə düşmüş halda təkəbbürlənərək) **bağına girib dedi: “Bunun yox olacağını əsla zənn etmirəm!**

36. Qiyamətin qopacağını da zənn etmirəm. Əgər Rəbbimə qaytarılsam, şübhəsiz, (orada) **bundan da yaxşı bir məskən taparam”.**

Təfsiri:

Allah-Təala əvvəlki ayələrdə kafirlərin cəhənnəmdəki halları ilə möminlərin cənnətdəki vəziyyətlərindən bəhs etdikdən sonra, bu ayələrdə də bu iki firqənin halına uyğun olaraq mömin və kafirlərin timsalında iki adamın etiqadını və əməllərini məsəl çəkmişdir. Ümumiyyətlə Qurani-Kərimdə bu kimi məsəllər çoxdur və bunlarda məqsəd möminlərin ibrət götürməsidir.

Ayələrdə də qeyd olunduğu kimi, kafir olan şəxs böyük bir sərvət sahibi idi. Ancaq mömin olan şəxs kasıb idi. Zən-

gin adam əlindəki sərvətə görə Allaha şükür etmək əvəzinə mal-mülkü ilə kasıb olan möminə qarşı təkəbbürlənir və nankorluq edirdi. Eyni zamanda o, mal-mülkünün heç vaxt bitməyəcəyini və qiyamətin də qopmayacağını iddia edirdi. Hətta o, qiyamət qopsa belə, axirətdə dünyadakından da yaxşı bir həyat sürəcəyini iddia edərək belə deyirdi: **"Qiyamətin qopacağını da zənn etmirəm. Əgər Rəbbimə qaytarılsam, şübhəsiz ki,** (orada) **bundan daha yaxşı bir qayıdış yeri taparam!"**

Mömin olan kasıb adam isə iman və saleh əməl mövzusunda ona öyüd-nəsihət verir və torpaqdan mərhələli şəkildə mükəmməl bir insan xəlq edən Uca Allaha şərik qoşub nankorluq etməməyi tövsiyə edir, eləcə də axirəti inkar etməyin Allahı inkar etməklə bir olduğunu bildirir və zənginlik ilə kasıbçılığın imtahan vasitəsi olduğunu qeyd edirdi.

Bu iki şəxsin kim olduğu barəsində təfsirlərdə müxtəlif fikirlər səsləndirilmişdir. Bəzi təfsirçilərin fikrincə, bunlar Məkkədəki Məhzun qəbiləsindən olan iki qardaş idilər. Kafir olanın adı Əsvəd ibn Əbdüləşəd, mömin olanın adı isə Əbu Sələmə idi. Onların bağları isə Taifdə idi. Digər bir qrup təfsirçiyə görə, onlar İsrail oğullarından olan iki qardaş idilər və atalarından miras qalan sərvəti aralarında bölüşdürmüşdülər. Mömin olan öz sərvətini xeyir işlərdə xərcləmiş, digəri isə bu sərvətlə ayələrdə qeyd olunan bağları almışdı. Bəzi təfsirçilərə görə də, bu, möminlərlə kafirləri müqayisə edən və həqiqətdə baş verməmiş təmsili bir qissədir. Qissədə imanın insana verdiyi rahatlıq və xoşbəxtlik, küfrün də insana verdiyi narahatçılıq və bədbəxtlik izah edilərək,

Məkkəli zəngin müşriklər ilə kasıb möminlərin halları təsvir edilmişdir. Yoxsul möminlərlə birlikdə oturmaqdan imtina edən zəngin Məkkə müşriklərinin qınandığı ayələrdən sonra bu məsələnin verilməsi ilə müşriklərin də aqibətlərinin həmin zəngin bağ sahibinin aqibəti kimi olacağına işarə edilmişdir.[40]

قَالَ لَهُ صَاحِبُهُ وَهُوَ يُحَاوِرُهُۥٓ أَكَفَرْتَ بِالَّذِى خَلَقَكَ مِنْ
تُرَابٍ ثُمَّ مِنْ نُطْفَةٍ ثُمَّ سَوّٰىكَ رَجُلًا ﴿٣٧﴾ لٰكِنَّا۠ هُوَ
اللّٰهُ رَبِّى وَلَآ أُشْرِكُ بِرَبِّىٓ أَحَدًا ﴿٣٨﴾ وَلَوْلَآ إِذْ دَخَلْتَ
جَنَّتَكَ قُلْتَ مَا شَآءَ اللّٰهُ لَا قُوَّةَ إِلَّا بِاللّٰهِ ۚ إِنْ تَرَنِ أَنَا۠ أَقَلَّ
مِنْكَ مَالًا وَوَلَدًا ﴿٣٩﴾ فَعَسٰى رَبِّىٓ أَنْ يُؤْتِيَنِ خَيْرًا مِنْ
جَنَّتِكَ وَيُرْسِلَ عَلَيْهَا حُسْبَانًا مِنَ السَّمَآءِ فَتُصْبِحَ
صَعِيدًا زَلَقًا ﴿٤٠﴾ أَوْ يُصْبِحَ مَآؤُهَا غَوْرًا فَلَنْ تَسْتَطِيعَ
لَهُ طَلَبًا ﴿٤١﴾

37. Onunla söhbət edən yoldaşı ona dedi: “Səni torpaqdan, sonra nütfədən yaradan, sonra da səni insan surətinə salan Allahı inkarmı edirsən?

40. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 554-555.

38. O Allah mənim Rəbbimdir və mən heç kimi Rəbbimə şərik qoşmaram!

39. Bağına girdiyin zaman: “Maşallah (Allahın dilədiyi kimi oldu)**! Qüvvət yalnız Allaha məxsusdur!” - deməli deyildinmi?! Əgər mal-mülk və övlad cəhətdən məni özündən aşağı görürsənsə,** (onu da bil ki,)

40. Ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını verər, sənin bağına da göydən ildırımlar göndərər və beləcə o, qupquru bir torpaq halına düşər.

41. Yaxud oranın suyu çəkilər və onu əsla axtarıb tapa bilməzsən!”

Təfsiri:

Allah-Təala küfrə düşmək və təkəbbürlənmək kimi xislətlərdən çəkindirib öyüd-nəsihət vermək məqsədilə mömin yoldaşının ona verdiyi cavabı xəbər verərək belə buyurur: **“Səni torpaqdan yaradanı** (Allahı) **inkarmı edirsən?”** Belə ki, daha sonra mömin dostu həmin qafil yoldaşına Allahı xatırladır və Uca Allahın onun əslini torpaqdan, daha sonra özünü də bir damcı sudan yaratdığını və onu düzgün bir insan surətində xəlq etdiyini izah edir. Eyni zamanda onun belə davranmasının Allahı inkar etmək mənasına gəldiyini qeyd edir. Həmçinin özünün Allahı tək

bir ilah olaraq qəbul etdiyini, əsla Ona şərik qoşmadığını, Allahın verdiyi zənginliyə də, kasıbçılığa da razı olduğunu bildirir. Sonra isə o, öz dostuna bağına girdiyi zaman: **“Maşallah** (Allahın dilədiyi kimi oldu)**! Qüvvət yalnız Allaha məxsusdur!”** – deməsini, bütün bunların Allah tərəfindən verildiyini qəbul etmək və bunun müqabilində təkəbbürlənməyin əvəzinə Allaha boyun əyib şükür etmək gərəkdiyini izah edir. Güc və qüdrətin yalnız Allaha məxsus olduğunu bildirən bu ifadələrin nə qədər dəyərli olduğunu qeyd edən bir hədisi-şərifdə Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *“Sənə cənnət xəzinələrindən birinə aparan yolu göstərimmi? O söz “Allahdan başqa güc və qüdrət yoxdur!” sözüdür”*.[41]

Mömin dost öz yoldaşını səmimi şəkildə iman gətirib tövbəyə dəvət edir və eyni zamanda o, bu mal-mülkün Allahın diləməsi ilə bir anda əldən çıxa biləcəyi, başına Allah tərəfindən bir fəlakət gələ biləcəyi və bütün bunların qarşısında aciz və çarəsiz qala biləcəyi barəsində dostunu xəbərdar edir.[42]

وَاُحِيطَ بِثَمَرِهٖ فَاَصْبَحَ يُقَلِّبُ كَفَّيْهِ عَلٰى مَآ اَنْفَقَ فِيهَا
وَهِيَ خَاوِيَةٌ عَلٰى عُرُوشِهَا وَيَقُولُ يَا لَيْتَنِى لَمْ اُشْرِكْ

41. Müslim, “Zikr”, 13; Əbu Davud, “Təfri”, 26; İbn Macə, “Ədəb”, 59.
42. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 204-205.

بِرَبِّى اَحَدًا ﴿٤٢﴾ وَلَمْ تَكُنْ لَهُ فِئَةٌ يَنْصُرُونَهُ مِنْ دُونِ اللّٰهِ
وَمَا كَانَ مُنْتَصِرًا ﴿٤٣﴾ هُنَالِكَ الْوَلَايَةُ لِلّٰهِ الْحَقِّ هُوَ خَيْرٌ
ثَوَابًا وَخَيْرٌ عُقْبًا ﴿٤٤﴾

42. Beləcə, onun məhsulu tələf edildi. O, qoyduğu xərcə görə əllərini ovuşdurmağa başladı. (Bağın) **talvarları da çökmüşdü. O isə: “Kaş heç kimi Rəbbimə şərik qoşmayaydım!” - deyirdi.**

43. Allahdan başqa ona yardım edə biləcək kimsələr olmadığı kimi, o (özözünə) **kömək edə biləcək gücdə də deyildi.**

44. Burada himayədarlıq haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafatı da, ən yaxşı aqibəti də verən Odur.

Təfsiri:

Qissənin bu son hissəsindən aydın olur ki, həmin təkəbbürlənən şəxs mömin dostunun öyüd-nəsihətlərinə əhəmiyyət verməmiş, mömin dostu da onun layiqli bir cəzaya uğraması üçün Allah-Təalaya dua etmişdir. Nəhayət, Uca Allah onun duasını qəbul edərək zalım dostunun təkəbbürləndiyi iki gözəl bağına fəlakət göndərmiş, bunun nəticəsində də bağdakı bütün bitki və məhsullar tələf olmuşdu.

Bundan sonra isə o, böyük bir peşmançılıq çəkərək: **“Kaş heç kimi Rəbbimə şərik qoşmayaydım!”** – demişdi.

Misal verilən bu qissə eyni zamanda mömin və kafirin mənəvi dünyasını izah edir. Yəni burada Allaha iman gətirməyin insan ruhuna verdiyi mənəvi həzz və əminlik hissi ilə Allahı inkar etməyin insan ruhunda meydana gətirdiyi narahatçılıq və etibarsızlıq hissi təmsili şəkildə izah edilir. Eləcə də burada Məkkəli zəngin müşriklərin və kasıb müsəlmanların daxili aləmləri təsvir edilmişdir. Çünki bu qissədən əvvəlki ayələrdə kasıb möminlərlə birlikdə əyləşmək istəməyən Məkkəli müşriklərdən bəhs olunmuş və Uca Allah Həzrət Peyğəmbərdən (s.ə.s) müşriklərin belə istəklərinə məhəl qoymamasını istəmişdi.[43]

وَاضْرِبْ لَهُمْ مَثَلَ الْحَيٰوةِ الدُّنْيَا كَمَآءٍ اَنْزَلْنَاهُ مِنَ السَّمَآءِ فَاخْتَلَطَ بِهٖ نَبَاتُ الْاَرْضِ فَاَصْبَحَ هَشِيمًا تَذْرُوهُ الرِّيَاحُ ۗ وَكَانَ اللّٰهُ عَلٰى كُلِّ شَىْءٍ مُقْتَدِرًا ﴿٤٥﴾

45. Onlar üçün dünya həyatını da misal çək. (Dünya həyatı) **göydən endirdiyimiz su kimidir. Beləcə, yerdəki bitkilər onun sayəsində** (böyüyüb bir-birilərinə) **qarışar və sonra da küləyin sovurduğu çörçöpə çevrilər. Allah hər şeyə qadirdir.**

43. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 206.

Təfsiri:

Bu ayədə Uca Allah təbiətdəki bəzi prosesləri müxtəsər şəkildə misal çəkmişdir. Belə ki, göydən yağış yağar, bunun nəticəsində yer üzündə müxtəlif cür bitkilər cücərər, daha sonra güclü bir külək onları köklərindən qopardaraq göyə sovurar və nəticədə, bu bitkilər qurumuş çör-çöpə çevrilər. Dünya həyatı və dünya nemətləri də məhz belədir; qısa bir müddət ərzində ortaya çıxar və sonra yox olub gedər. Hətta insan həyatı da bu misaldakı kimidir. İnsan dünyaya gələr, böyüyüb boya-başa çatar, sonra isə ölüm küləyi onu sovurub çör-çöpə döndərər.[44]

Allah-Təala Qurani-Kərimin digər bir çox ayəsində də dünya həyatının gerçəyini bu kimi misallarla açıqlamışdır. Bir ayeyi-kərimədə Uca Allah belə buyurmuşdur: **“Həqiqətən, dünya həyatının halı göydən endirdiyimiz su kimidir ki, insanlar və heyvanların yeyəcəyi bitkilər yetişib bir-birinə qatışar. Nəhayət, yer üzü zinətini geyinib bəzəndiyi və sakinləri də ona hakim olduqlarını zənn etdikləri zaman gecə, yaxud gündüz vaxtı oraya əmrimiz** (bəlamız) **gələr və oranı sanki dünən heç yox imiş kimi biçilmiş bir hala gətirərik. Düşünən bir qövm üçün ayələri belə açıqlayırıq!”**[45] Digər bir ayədə də Allah-Təala: **“Bilin ki, dünya həyatı sadəcə olaraq oyun, əyləncə, bər-bəzək, aranızda bir-birinizə qarşı öyünmək, bir də mal və övlad çoxaltmaq yarışıdır. Bir yağışa bənzəyir ki, onun** (torpaqdan) **bitirdikləri**

44. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 207.
45. Yunis, 10/24.

kafirlərin xoşuna gələr. Sonra o quruyar, sən də onun saraldığını görərsən. Sonra da çör-çöp olar...”,[46] – buyurur. Həzrət Peyğəmbər (s.ə.s) də bir hədisi-şərifində: *“Dünya yaşıl və şirindir”,*[47] - buyuraraq bu dünyanın şirin, lakin qısa və fani olduğu həqiqətinə diqqət çəkmişdir.

اَلْمَالُ وَالْبَنُونَ زِينَةُ الْحَيٰوةِ الدُّنْيَا ۚ وَالْبَاقِيَاتُ الصَّالِحَاتُ
خَيْرٌ عِنْدَ رَبِّكَ ثَوَابًا وَخَيْرٌ اَمَلًا ﴿٤٦﴾

46. Mal-mülk və oğullar dünya həyatının zinətidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid bağlamaq etibarilə daha xeyirlidir.

Təfsiri:

Bu ayədə də Uca Allah dünya həyatının faniliyinə və axirət yurdunun əbədiliyinə diqqət çəkir. Eyni zamanda Uca Allah digər bir ayeyi-kərimədə: **“Şübhəsiz ki, malları-nız və övladlarınız** (sizin üçün) **bir imtahandır. Böyük mükafat isə Allah dərgahındadır”,**[48] – buyurmuşdur. Yəni Allah-Təalaya yönəlmək və yalnız Ona ibadət etməklə məşğul olmaq insanlar üçün övladları ilə həddindən artıq məşğul olmaqdan, onlardan ötrü mal-mülk yığmaqdan və onlara qarşı həddindən artıq sevgi bəsləməkdən daha xeyirli-

46. Hədid, 57/20.
47. İbn Macə, “Fitən”, 19; Əhməd ibn Hənbəl, “Müsnəd”, XVII, 84.
48. Təğabün, 64/15.

dir. Buna görə də Allah-Təala belə buyurur: **“Əbədi olaraq qalan yaxşı əməllər isə Rəbbinin dərgahında savab olaraq və ümid bağlamaq etibarilə daha xeyirlidir”.**

Bir rəvayətə görə, Əbu Hüreyrə (r.ə) bir gün ağac əkirdi. Bu əsnada Həzrət Peyğəmbər (s.ə.s) onun yanından keçirdi və ona: *“Ey Əbu Hüreyrə! Nədir bu əkdiyin?”* – deyə soruşdu. Əbu Hüreyrə də: “Əkilməli olan bəzi fidanlardır”, - deyə cavab verdi. Bu vaxt Həzrət Peyğəmbər (s.ə.s) belə buyurdu: *“Bu da gözəl bir işdir. Ancaq mən sənə bundan daha yaxşı əkilən fidanlar göstərimmi? Bu* “سُبْحَانَ اللهِ وَالْحَمْدُ لِلّٰهِ وَلَا اِلٰهَ اِلَّا اللهُ وَاللهُ اَكْبَرُ/*Allah pak və müqəddəsdir! Həmd Allaha məxsusdur. Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür!” – deməyindir. Bunların hər birinin müqabilində cənnətdə sənin üçün bir ağac əkilər”.*[49] Əbu Hüreyrədən nəql edilən digər bir rəvayətə görə də Allah Rəsulu (s.ə.s) belə buyurmuşdur: *“*سُبْحَانَ اللهِ وَالْحَمْدُ لِلّٰهِ وَلَا اِلٰهَ اِلَّا اللهُ وَاللهُ اَكْبَرُ/*Allah pak və müqəddəsdir! Həmd Allaha məxsusdur. Allahdan başqa ilah yoxdur. Allah ən böyükdür!” sözləri əbədi qalan saleh əməllərdir”.*[50] Bu hədisi-şəriflər xeyirli və əbədi qalan əməlin nə olduğunu izah edir. Yəni axirətdə bizim köməyimizə çatacaq dünya üçün gördüyümüz işlər deyil, Allah rizası üçün etdiyimiz əməllər və dilimizlə etdiyimiz zikrlər olacaqdır.

وَيَوْمَ نُسَيِّرُ الْجِبَالَ وَتَرَى الْاَرْضَ بَارِزَةً ۙ وَّحَشَرْنٰهُمْ فَلَمْ
نُغَادِرْ مِنْهُمْ اَحَدًا ۚ ﴿٤٧﴾ وَعُرِضُوْا عَلٰى رَبِّكَ صَفًّا ؕ لَقَدْ

49. İbn Macə, “Ədəb”, 56.
50. Əhməd ibn Hənbəl, “Müsnəd”, XXX, 299.

جِئْتُمُونَا كَمَا خَلَقْنَاكُمْ اَوَّلَ مَرَّةٍۢ بَلْ زَعَمْتُمْ اَلَّنْ نَجْعَلَ لَكُمْ مَوْعِدًا ﴿٤٨﴾

47. O gün (axirət günü) **dağları hərəkətə gətirəcəyik** (yox edəcəyik) **və yer üzünü dümdüz görəcəksən. Onlardan heç kimi kənarda qoymayıb** (hamısını) **bir yerə yığacağıq.**

48. Onlar Rəbbinin hüzuruna çıxarılacaqlar (və onlara belə deyiləcək:) **“Sizi ilk dəfə yaratdığımız kimi hüzurumuza gəldiniz. Ancaq siz, sizin üçün** (belə bir) **vədələşmə yeri yaratmayacağımızı iddia etmişdiniz!”**

Təfsiri:

Bu ayələrdə qiyamətin qopması və axirət günü insanların təkrar dirilməsi gözəl bir üslubla qısaca ifadə edilir. Ayədəki “**dağları hərəkətə gətirəcəyik**” ifadəsi ilə qiyamət günü şiddətli zəlzələlərin baş verəcəyi, böyük partlayışların olacağı və buna görə də dağların yerindən çıxaraq havaya sovrulacağı və yer üzünün dümdüz bir hala gələcəyi xəbər verilir.[51] Bir çox Quran ayəsində qiyamətin qopması və o an dağların necə bir hala düşəcəyi təsvir edilmişdir. Eləcə də başqa bir ayədə: “**Dağlar isə didilmiş rəngli yun kimi**

[51] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 558.

olacaqdır",[52] – buyurularaq, dağların qiyamət günündəki halı təsvir olunmuşdur. Digər bir ayədə isə bu haqda belə buyurulur: **"**(Ey Peyğəmbər!) **Səndən dağlar haqqında soruşurlar. De ki: "**(Qiyamət qoparkən) **Rəbbim onları ovxalayıb göyə sovuracaqdır. Beləcə, oranı dümdüz edəcəkdir. Orada nə bir eniş, nə də bir yoxuş görə bilərsən**".[53] Yəni Uca Allah yer üzünü dümdüz edəcək, onun üstündə heç bir bitki və canlı qalmayacaqdır.

Daha sonra isə Allah-Təala insanları torpaqdan dirildəcək və onlar Rəbbbinin hüzurunda toplanacaqlar. Bu zaman Uca Allah kafirlərə belə xitab edəcəkdir: **"Sizi ilk dəfə yaratdığımız kimi hüzurumuza gəldiniz. Ancaq siz, sizin üçün** (belə bir) **vədələşmə yeri yaratmayacağımızı iddia etmişdiniz!"** Beləcə, kafirlərin dünyada etdikləri özlərinə xatırladılacaq və orada qazandıqları maddi sərvətlərin axirətdə heç bir işə yaramadığı xəbər veriləcəkdir. Necə ki, digər bir ayeyi-kərimədə də: "**Şübhəsiz ki, sizə** (dünyada) **verdiklərimizi arxada qoyaraq ilk dəfə sizi yaratdığımız kimi tək-tək Bizə gələcəksiniz. Öz aranızda** (Allaha) **şərik qoşduğunuz şəfaətçilərinizi sizin yanınızda görməyəcəyik**",[54] – buyurularaq insanların axirətdəki halı bəyan edilir. Bu mövzu ilə bağlı nəql edilən bir rəvayətə görə, Həzrət Aişə (r.ə) belə demişdir: "Bir dəfə Allah Rəsulunun (s.ə.s) belə buyurduğunu eşitdim: "*İnsanlar qiyamət günü ayaqyalın, paltarsız və sünnətsiz halda bir yerə cəm ediləcəklər*". Mən də: "Ey Allahın Rəsulu! Kişilər və qadın-

52. Qariə, 101/5.
53. Taha, 20/105-107.
54. Ənam, 6/94.

lar bir-birlərinə baxacaqlar, eləmi?” – deyə soruşdum. Rəsulullah (s.ə.s): “*Ey Aişə! Onların vəziyyəti bir-birlərinə baxa bilməyəcəkləri dərəcədə dəhşətli və ağır olacaqdır*”, - deyə cavab verdi”.[55]

وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَا لِهٰذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصٰيهَا ۚ وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا ۗ وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا ﴿٤٩﴾

49. Kitab (əməl dəftəri) **ortaya qoyulacaq və günahkarların onun içindəkilərdən qorxduqlarını görəcəksən. Onlar da: “Vay halımıza! Bu necə bir kitabdır!** (Dünyada etdiyimiz) **böyük-kiçik heç bir şeyi kənarda qoymadan hesablamışdır”, - deyəcəklər. Beləcə, etdikləri əməlləri qarşılarında görəcəklər. Rəbbin heç kimə zülm etməz!**

Təfsiri:

Bu ayədə böyük günahlardan çəkinmək gərəkdiyi kimi, kiçik günahlardan da çəkinməyin labüdlüyünə işarə edilir.

55. Müslim, “Cənnət”, 56.

Çünki burada kiçik günahların da əməl dəftərimizə yazıldığı vurğulanır. Buna görə də Həzrət Peyğəmbər (s.ə.s): “*Kiçik kimi görünən günahlardan da uzaq durun! Çünki kiçik günahların halı bu qövmün etdiyinə bənzəyir. Belə ki, həmin qövm bir vadiyə gəlib çatar. Onlardan biri bir odun, digəri də bir odun gətirər. Beləcə, çörək bişirərlər*”.[56] Yəni kiçik günahlar üst-üstə yığılar və nəticədə sahibinin cəhənnəmdə yanmasına səbəb olar. Bunun üçün də mömin bir insan kiçik və əhəmiyyətsiz gördüyü günahlardan belə çəkinib istiğfar etməlidir.[57] Eyni zamanda ayədə kafirlərin o gün, bu dünyada etdikləri bütün günahlar ortaya çıxdığı üçün böyük bir qorxu keçirib dəhşətə düşəcəkləri ifadə olunur.[58] Necə ki, Uca Allah buyurur: **“Hər kəsin etdiyi yaxşı əməlləri və pis əməlləri, qarşısında hazır bir vəziyyətdə görəcəyi o gün, onunla** (günahları ilə) **özü arasında uzaq məsafə olmasını arzulayacaqdır”.[59] “O gün insana, etdiyi və** (etməyib) **təxirə saldığı hər şey xəbər verilər”.[60]** Həzrət Peyğəmbər (s.ə.s) bir hədisi-şərifində: *“Qiyamət günü hər bir zalımın arxasında, etdiyi zülmlər ölçüsündə bir bayraq ucaldılar. Sonra da: “Bura filankəs oğlu filankəsin zülm yeridir”, - deyilər”*,[61] - buyuraraq kafirlərin axirətdəki o hallarına işarə etmişdir.

---

56. Əhməd ibn Hənbəl, “Müsnəd”, I, 402.
57. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 209-210.
58. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 559.
59. Ali-İmran, 3/30.
60. Qiyamət, 75/13.
61. Buxari, “Cizyə”, 22; Müslim, “Cihad”, 4; İbn Macə, “Cihad”, 42.

Ayədə işarə olunan digər bir həqiqət isə insanların axirət günü cəza çəkmələrinin məsuliyyətinin tamamilə onların özlərinə aid olduğudur. Yəni onların axirətdə görəcəkləri əzabdan Uca Allahı məsul tutmaq əsla doğru deyildir. Çünki Uca Allah insan oğluna ağıl, haqq ilə batili bir-birindən ayırd etmə qabiliyyəti və iradə vermişdir.

وَاِذْ قُلْنَا لِلْمَلٰٓئِكَةِ اسْجُدُوا لِاٰدَمَ فَسَجَدُٓوا اِلَّآ اِبْلِيسَۜ كَانَ مِنَ الْجِنِّ فَفَسَقَ عَنْ اَمْرِ رَبِّهٖۜ اَفَتَتَّخِذُونَهٗ وَذُرِّيَّتَهٗٓ اَوْلِيَآءَ مِنْ دُونِى وَهُمْ لَكُمْ عَدُوٌّۜ بِئْسَ لِلظَّالِمِينَ بَدَلًا ﴿٥٠﴾

50. Bir zaman mələklərə: “Adəmə səcdə edin!” - demişdik. Cinlərdən olan İblis istisna olmaqla (bütün mələklər) **dərhal səcdə etdilər. Beləcə, o, Rəbbinin əmrindən çıxdı. İndi siz Məni qoyub onu və onun nəslini özünüzə dost tutursunuz? Halbuki, onlar sizin düşmənizdir. Zalımlar üçün bu nə pis bir mübadilədir!**

Təfsiri:

Uca Allah Adəm oğluna İblisin onlardan əvvəl ataları-na düşmən olduğu kimi onlara da düşmən olduğunu bildirir və Allah-Təalaya üsyan edib İblisə tabe olanları xəbərdar

edərək: **"Bir zaman mələklərə demişdik"**, - buyurur. Necə ki, Uca Allah digər ayələrdə belə buyurur: **"Bir zaman Rəbbin mələklərə demişdi: "Mən** (bişmiş) **quru palçıqdan, formalaşmış qara palçıqdan insan yaradacağam. Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz dərhal onun üçün səcdə edin!"**[62] **"İblis istisna olmaqla,** (bütün mələklər) **dərhal səcdə etdilər"**. Beləliklə, İblis öz xarakterinə uyğun olaraq xəyanət etdi. Çünki o, oddan yaradılmış, Allahın əmrinə asi olan və nəsilliklə insanların düşməni olan bir varlıqdır. Mələklər isə nurdan yaradılmış, Allaha asi olmayan, yeyib-içmək kimi xüsusiyyətləri, eləcə də erkəyi və dişisi olmayan varlıqlardır.[63] Çünki bir hədisi-şərifdə belə buyurulur: *"Mələklər nurdan yaradılmış, İblis isə alovlu oddan yaradılmışdır. Adəm isə sizə söylənilən şeydən (torpaqdan) yaradılmışdır"*.[64] Uca Allah burada İblisin cinlərdən olduğuna və oddan yaradıldığına diqqət çəkmişdir. Necə ki, Allah-Təala digər bir ayeyi-kərimədə: **"**(İblis) **dedi: "Mən ondan daha xeyirliyəm** (üstünəm)**. Məni oddan, onu isə palçıqdan yaratdın"**,[65] - buyuraraq, İblisin oddan xəlq edildiyini bəyan edir. Başqa bir ayeyi-kərimədə də: **"O gün Allah onların hamısını toplayacaq, sonra mələklərə: "Bunlar sizə ibadət edirdilər?" - deyəcəkdir. Mələklər: "Sən pak və müqəddəssən! Bizim dostumuz onlar deyil, Sənsən! Xeyr, onlar cinlərə ibadət edirdilər. Onların**

62. Hicr, 15/28-29.
63. Çelik, "Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri", III, 210.
64. Müslim, "Zühd", 10.
65. Əraf, 7/12.

çoxu cinlərə iman gətirmişdi”, - deyəcəklər”,[66] **-** buyurularaq, axirətdə Allahdan başqasına sitayiş edənlərin hesaba çəkiləcəyi xəbər verilir.

مَّآ اَشْهَدْتُهُمْ خَلْقَ السَّمٰوَاتِ وَالْاَرْضِ وَلَا خَلْقَ اَنْفُسِهِمْ ۖ
وَمَا كُنْتُ مُتَّخِذَ الْمُضِلِّيْنَ عَضُدًا ﴿٥١﴾

51. Onları nə göylərin və yerin yaradılışına, nə də öz yaradılışlarına şahid tutdum. Zəlalətə aparanları Özümə köməkçi tutan deyiləm.

Təfsiri:

Bu ayədəki “**Onları nə göylərin və yerin yaradılışına, nə də öz yaradılışlarına şahid tutdum**”, ifadəsi ilə Uca Allahın kimləri nəzərdə tutduğu haqqında təfsirçilər arasında əsas iki fikir mövcuddur. Bir qisim təfsirçilərin fikrincə, Allah-Təala bu ayədə İblisi və onun nəsli olan şeytanları yerin və göylərin yaradılışına şahid tutmadığını bəyan edir. Yəni ayədə göylərin, yerin və insanların yaradılmasında heç bir köməklikləri olmayan və özləri də sonradan yaradılmış olub ilah olmaları imkansız olan şeytanların sitayişə və itaətə layiq olmadıqları bildirilir. Eləcə də Uca Allahın insanları batil yola sövq edənləri Özünə əsla dost tutmayacağı vurğulanır.

66. Səbə, 34/40-41.

Bir qisim təfsirçilərə görə isə, Uca Allah İblisi və onun nəslini özlərinə dost tutan insanları bu yaradılışa şahid tutmadığını bildirir. Yəni Allah buyurur ki, Mən o müşriklərə nə göylərin, nə yerin, nə də öz yaradılışlarını göstərdim. Belə ki, Allah-Təala kainatı yaradarkən heç bir məxluqun köməyinə ehtiyac duymamışdır. Belə olan halda necə olur ki, bir qisim insanlar Allaha şərik qoşurlar.[67]

وَيَوْمَ يَقُولُ نَادُوا شُرَكَآءِيَ الَّذِينَ زَعَمْتُمْ فَدَعَوْهُمْ فَلَمْ يَسْتَجِيبُوا لَهُمْ وَجَعَلْنَا بَيْنَهُمْ مَوْبِقًا ﴿٥٢﴾ وَرَاَ الْمُجْرِمُونَ النَّارَ فَظَنُّوا اَنَّهُمْ مُوَاقِعُوهَا وَلَمْ يَجِدُوا عَنْهَا مَصْرِفًا ﴿٥٣﴾

52. O gün Allah: “İddia etdiyiniz şəriklərimi çağırın!” – deyər. Müşriklər də dərhal onları (bütlərini) **çağırarlar. Ancaq** (bütlər) **onlara cavab verməzlər. Biz onların arasında bir uçurum yaradarıq.**

53. Günahkarlar cəhənnəm alovunu gördükdə özlərinin ora düşəcəklərini anlayacaqlar. Oradan xilas olmaq üçün bir yol tapa bilməyəcəklər.

67. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 561.

Təfsiri:

Allah-Təala qiyamət günü müşriklərə necə xitab edəcəyini bildirərək belə buyurur: **“İddia etdiyiniz şəriklərimi çağırın!”** Halbuki o müşriklər dünyada ikən belə olacağını zənn edirdilər. Uca Allah qiyamət günü bütün məxluqatı haqq-hesaba çəkmək üçün bir yerə cəm etdiyi zaman bu dünyada müşriklərə şahidlərin hüzurunda onları qınamaq məqsədilə: **“İddia etdiyiniz şəriklərimi çağırın!”** – deyə səslənəcəkdir. Çünki onlar dünyada ikən Allaha şərik qoşduqları şeylərin onların imdadına yetişəcəyini zənn edirdilər. Bu vaxt müşriklər tanrı olduğunu iddia etdiklərini çağıracaq, lakin həmin tanrıları onlara cavab verə bilməyəcək. Çünki Uca Allah onlar ilə tanrıları arasına maneə qoymuşdur. Müşriklərin tanrı olduğunu iddia etdikləri şeylər nə sitayişə layiqdirlər, nə də başqalarına yardım etməyə qadirdirlər. O gün bu həqiqət ortaya çıxacaq və onlar bir-birlərini görə bilməyəcəklər. Batil tanrıların bu dünyada insanlara heç bir faydası olmadığı kimi, axirətdə də heç bir faydalarının olmadığı ortaya çıxacaqdır.[68] Necə ki, Uca Allah başqa bir ayədə: **“Öz aranızda** (Allaha) **şərik qoşduğunuz şəfaətçilərinizi də sizin yanınızda görməyəcəyik. Artıq aranızdakı** (əlaqə) **kəsilmiş və iddia etdiyiniz** (bütlər) **də sizdən uzaqlaşıb getmişdir”**,[69] - buyuraraq, baş verəcək bu hadisəyə işarə edir.

Uca Allah: **“Onlar oradan xilas olma yolunu da tapa bilməzlər”,** - buyurur. Yəni cəhənnəmdən xilas

68. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 561.
69. Ənam, 6/94.

olmaq üçün onların heç bir yolu yoxdur. Onlar mütləq ora daxil olacaqlar. Bununla bağlı Həzrət Peyğəmbər (s.ə.s) də: *“Kafir dörd yüz illik yol qədər uzaq bir məsafədən cəhənnəmi görəcək və ora girəcəyini dərk edəcəkdir”*,[70] - buyurmuşdur. O zaman günahkarlar cəhənnəmi görəcək, ora girəcəklərini və oradan çıxmaq üçün xilas yolunun olmadığını dərk edəcəklər.

وَلَقَدْ صَرَّفْنَا فِى هٰذَا الْقُرْاٰنِ لِلنَّاسِ مِنْ كُلِّ مَثَلٍ ؕ وَكَانَ الْاِنْسَانُ اَكْثَرَ شَىْءٍ جَدَلًا ﴿٥٤﴾

54. Şübhəsiz ki, Biz bu Quranda insanlar üçün hər cür misallar çəkdik. Ancaq insan çox mübahisə edəndir.

Təfsiri:

Uca Allah Qurani-Kərimin bir çox ayəsində ibrət almağımız üçün müxtəlif hadisələri və varlıqları misal çəkir. Bu misalların çəkilməsindəki məqsəd isə insanların bunlardan ibrət alıb dərs götürmələridir. Quranda milçəyin yaradılmasından kainatın yaradılmasına qədər bir çox misallar çəkilir. Eləcə də dünya həyatının faniliyi, yaxşı və pis əməllər və s. haqqında bir çox misallar çəkilir ki, insanlar bu həqiqətləri düşünüb dərk etsin və haqq yoldan ayrılmasınlar.[71]

70. Əhməd ibn Hənbəl, “Müsnəd”, XVIII, 243.
71. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 563.

Allah-Təala: **“Ancaq insan çox mübahisə edəndir”**, - buyuraraq, insan oğlunun təbiətindəki mühüm bir xislətə diqqət çəkir. Adətən mübahisə etməyin əsas məqsədi qarşısındakı insanı eyibləmək və onu pərişan hala salmaq olur. Lakin bu, kamil bir möminə yaraşan bir davranış deyildir.[72] Buna görə də Həzrət Peyğəmbər (s.ə.s) haqlı olduğu halda mübahisə etməkdən imtina edən bir mömin üçün cənnətdə bir köşk veriləcəyini müjdələmişdir.[73] Həzrət Əlidən (r.ə) də bu mövzu ilə bağlı belə bir rəvayət nəql edilmişdir ki, Rəsulullah (s.ə.s) bir gecə Həzrət Əli və qızı Həzrət Fatimə-ni yuxudan oyandırdı və onlara: *“Namaz qılmırsınızmı?”* – deyə sual verdi. Həzrət Əli: “Ey Allahın Rəsulu! Şübhəsiz ki, bizim canımız Allahın əlindədir. Bizi hara istəsə, ora göndərər”, - dedi. Həzrət Əli belə nəql edir: “Mən bunları dediyim zaman Həzrət Peyğəmbər heç bir şey söyləmədən geri döndü. Sonra onun əlləri ilə baldırlarına vuraraq belə dediyini eşitdim: ***“Ancaq insan ən çox mübahisə edəndir”***.[74] Beləcə, Həzrət Peyğəmbər (s.ə.s) bu ayəni oxumaqla insandakı bu xislətin hətta onun ibadətinə belə mane ola biləcəyinə diqqət çəkmişdir. Yəni insandakı mübahisə etmə xisləti onun həqiqətləri görməyib Quranda verilən bir çox misallardan ibrət almamasına səbəb ola bilər.

وَمَا مَنَعَ النَّاسَ اَنْ يُؤْمِنُٓوا اِذْ جَٓاءَهُمُ الْهُدٰى
وَيَسْتَغْفِرُوا رَبَّهُمْ اِلَّٓا اَنْ تَأْتِيَهُمْ سُنَّةُ الْاَوَّلِينَ اَوْ

72. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 211.
73. Əbu Davud, “Ədəb” 7.
74. Buxari, “Təhəccüd”, 5.

يَأْتِيَهُمُ الْعَذَابُ قُبُلًا ﴿٥٥﴾ وَمَا نُرْسِلُ الْمُرْسَلِينَ
اِلَّا مُبَشِّرِينَ وَمُنْذِرِينَ ۚ وَيُجَادِلُ الَّذِينَ كَفَرُوا
بِالْبَاطِلِ لِيُدْحِضُوا بِهِ الْحَقَّ وَاتَّخَذُوٓا اٰيَاتِى وَمَآ
اُنْذِرُوا هُزُوًا ﴿٥٦﴾

55. Özlərinə doğru yol göstərən rəhbər gəldiyi zaman insanların iman gətirməsinə və Rəbbindən bağışlanmalarını diləməsinə mane olan, sadəcə, əvvəlkilərin başına gələnlərin onların da başına gəlməsini, yaxud göz görə-görə əzabın gəlməsini gözləmələridir.

56. Biz peyğəmbərləri yalnız müjdə verən və xəbərdar edən olaraq göndərdik. Kafirlər isə haqqı (Quranı) **ortadan qaldırmaq üçün batil vasitəsilə mübarizə aparırlar. Onlar Mənim ayələrimi və xəbərdar edildikləri şeyi məsxərəyə qoydular.**

Təfsiri:

Uca Allah keçmişdə də, indiki dövrdə də kafirlərin açıq-aydın dəlilləri və ayələri görmələrinə rəğmən inadkarlıqları səbəbi ilə haqqı yalanladıqlarını xəbər verir. İnsanlardan bəzilərinin inadkarlığı, inkarçılığı, ənaniyyəti və şəxsi mənafeyi onları haqq dinə və Həzrət Peyğəmbərə (s.ə.s)

qarşı kor-koranə mübarizə aparmağa sövq etmiş və beləcə, onlar İslama qarşı müqavimət göstərərək batil yolda getməyə davam etmişlər. Onlar ilahi vəhy və ağıl nemətini layiqincə təfəkkür edib Allahdan məğfirət diləməyin əvəzinə əvvəlki qövmlərin başlarına gələn fəlakətlərin öz başlarına da gəlməsini gözləmiş və Allah tərəfindən gələcək əzabı öz gözləri ilə görmək istəmişdilər. Bu həqiqət digər bir Quran ayəsində belə ifadə olunur: “**Onlar vaxtilə belə demişdilər: “Ey Allahım! Əgər bu** (Quran) **Sənin dərgahından gələn bir həqiqətdirsə, onda başımıza göydən daş yağdır, yaxud bizə acı bir əzab gətir!**”[75] Digər bir ayədə də onların: **“Əgər doğru söyləyənlərdənsənsə, o zaman üzərimizə göydən** (əzab) **parçaları yağdır!”**[76] – deyərək, açıq şəkildə əzabın gəlməsini tələb etdikləri ifadə olunur.

Bununla yanaşı, Allah-Təala peyğəmbərləri insanları məhv etmək üçün deyil, onlara müjdə vermək və üsyankar bəndələri xəbərdar etmək üçün göndərmişdir. Lakin iman gətirməyənlər haqq dini ortadan qaldırmaq üçün mübarizə aparırlar. Eləcə də Allahın ayələri və bu ayələrdə xəbər verilən əzab ilə istehza edirlər. Belə inadkar insanlar üçün nə qədər misallar çəkilsə də, bunun onlara heç bir faydası olmaz. Çünki onlar Allahın əzabını görmədikcə iman gətirməzlər. Lakin əzabı gördükdən sonra iman gətirmələri onlara heç bir fayda verməz.[77]

---

75. Ənfal, 8/32.
76. Şüəra, 26/187.
77. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 563-564.

وَمَنْ اَظْلَمُ مِمَّنْ ذُكِّرَ بِاٰيَاتِ رَبِّهٖ فَاَعْرَضَ عَنْهَا وَنَسِيَ
مَا قَدَّمَتْ يَدَاهُ ۭ اِنَّا جَعَلْنَا عَلٰى قُلُوْبِهِمْ اَكِنَّةً اَنْ يَّفْقَهُوْهُ
وَفِيْٓ اٰذَانِهِمْ وَقْرًا ۭ وَاِنْ تَدْعُهُمْ اِلَى الْهُدٰى فَلَنْ يَّهْتَدُوْٓا
اِذًا اَبَدًا ﴿٥٧﴾

57. Rəbbinin ayələri özünə xatırladıldığı halda onlardan üz döndərən və öz əlləri ilə etdiklərini unudan kimsədən daha zalım kim ola bilər?! Onu (Quranı) **anlamasınlar deyə, Biz onların qəlblərinə pərdə çəkdik, qulaqlarına isə ağırlıq** (karlıq) **verdik. Sən onları hidayət yoluna dəvət etsən də, artıq onlar əsla haqq yola yönəlməyəcəklər.**

Təfsiri:

Allah-Təala buyurur ki, bəndələri arasındakı ən zalım insan özünə Allahın ayələri xatırladıldıqdan sonra onları unutmağa çalışan, onlardan üz çevirən, onlara qayğısız qalan və həmin ayələrə əhəmiyyət verməyən kimsədir. Həqiqətən də, Allahın ayələri oxunub bildirildiyi halda təkəbbürlənərək bunlardan üz çevirən və etdiyi pis əməlləri unudaraq xatırlamırmış kimi davranan kimsə ən böyük zülmkardır. Belə kimsələrdən daha zalım heç kim yoxdur. Çünki onun bu hərəkəti əbədi həyatının əzab içində keçməsinə səbəb olur. Uca Allah bu düşüncədə olan inadkarların

inkarçılıqları səbəbilə qəlblərini möhürləyər, qulaqlarını da haqqa qarşı kar edər. Nəticə etibarilə, onlar haqqı eşitməz və dərk etməzlər. Peyğəmbərlərin, yaxud digər haqq dəvətçilərinin təbliğləri onlara heç bir fayda verməz və əsla doğru yola yönəlməzlər. Ona görə ki, israrla haqqı inkar etmələri onların düşünmə və anlama qabiliyyətlərini yox etmişdir.[78] Müasir təfsirçilərə görə, əslində, bu tamamilə insanın özündən asılı olan psixoloji vəziyyətidir. İnsan öz daxilindəki üsyan və inadkarlıq duyğuları ilə hərəkət etdiyi üçün haqqı görə bilmir. Sadəcə olaraq bu həqiqət Quran ayələrində fərqli bir üslubla izah edilir. Buna görə də həmin şəxslər Allah tərəfindən qınanırlar.[79]

وَرَبُّكَ الْغَفُورُ ذُو الرَّحْمَةِ ۖ لَوْ يُؤَاخِذُهُمْ بِمَا كَسَبُوا لَعَجَّلَ لَهُمُ الْعَذَابَ ۚ بَلْ لَهُمْ مَوْعِدٌ لَنْ يَجِدُوا مِنْ دُونِهِ مَوْئِلًا ﴿٥٨﴾ وَتِلْكَ الْقُرَىٰ أَهْلَكْنَاهُمْ لَمَّا ظَلَمُوا وَجَعَلْنَا لِمَهْلِكِهِمْ مَوْعِدًا ﴿٥٩﴾

58. Sənin Rəbbin bağışlayandır, mərhəmətlidir. Əgər (Rəbbin) **onları günahlarına görə** (dərhal) **cəzalandırası olsaydı, əlbəttə, onlara tezliklə əzab verərdi. Ancaq onlar üçün təyin olunmuş bir vaxt vardır.** (Əzab gəldiyi zaman) **sığınacaq bir yer tapa bilməyəcəklər.**

78. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 564.
79. Ateş, “Yüce Kuranin Çağdaş Tefsiri”, V, 301.

59. Zülm etdikləri zaman o məmləkətləri məhv etdik. Onları məhv etmək üçün müəyyən bir vaxt təyin etmişdik.

Təfsiri:

Uca Allahın məğfirəti geniş, mərhəməti isə böyükdür. Bu səbəbdən O, bəndələrinin günah və üsyankarlıqlarına baxmayaraq onları dərhal cəzalandırmaz, əksinə, haqq yola qayıtmaları üçün onlara möhlət verər. Allah-Təala bu dünyada zalımlara və kafirlərə möhlət verər, lakin verilən bu müddət ərzində onlar tövbə edib haqq yola qayıtmasalar, onları cəzalandırar. Necə ki, Uca Allah daha əvvəl özlərinə zülm edən Ad, Səmud, Lut və s. qövmlərə də müəyyən bir vaxta qədər möhlət vermiş, ancaq bu müddət ərzində haqq yola dönmədikləri üçün onları cəzalandıraraq məhv etmişdi.

وَاِذْ قَالَ مُوسٰى لِفَتٰيهُ لَآ اَبْرَحُ حَتّٰٓى اَبْلُغَ مَجْمَعَ
الْبَحْرَيْنِ اَوْ اَمْضِىَ حُقُبًا ﴿٦٠﴾ فَلَمَّا بَلَغَا مَجْمَعَ
بَيْنِهِمَا نَسِيَا حُوتَهُمَا فَاتَّخَذَ سَبِيلَهُ فِى الْبَحْرِ سَرَبًا
﴿٦١﴾ فَلَمَّا جَاوَزَا قَالَ لِفَتٰيهُ اٰتِنَا غَدَآءَنَا لَقَدْ لَقِينَا مِنْ
سَفَرِنَا هٰذَا نَصَبًا ﴿٦٢﴾

60. Bir zaman Musa gənc yoldaşına belə demişdi: “İki dənizin qovuşduğu

yerə çatana qədər yol gedəcəyəm, yaxud uzun müddət yoluma davam edəcəyəm!”

61. İki dənizin qovuşduğu yerə çatdıqları zaman balığı unutmuşdular. Həmin balıq isə dənizə girib gözdən itmişdi.

62. (Oradan) **keçib getdikləri zaman Musa gəncə dedi: “Günorta yeməyimizi gətir! Bu səfərimiz bizi yaman yordu”.**

Təfsiri:

Bu Quran qissəsində Allah tərəfindən İsrail oğullarına göndərilən peyğəmbər olan Həzrət Musadan (ə.s) bəhs olunur. Təfsir mənbələrində qeyd olunan rəvayətlərə görə, onun yanındakı gənc yoldaş isə Həzrət Yusifin (ə.s) nəslindən olan Yuşa ibn Nundur və o, Həzrət Musanın bacısı oğlu idi. O gənc uzun müddət Həzrət Musanın (ə.s) qulluğunda durmuş, ondan elm öyrənmiş, onun vəfatından sonra isə İsrail oğullarının peyğəmbəri olaraq onlara rəhbərlik etmişdi. Rəvayətə görə, o, yüz on il ömür sürmüş və Həzrət Musadan (ə.s) sonra iyirmi yeddi il İsrail oğullarına rəhbərlik etmişdi.[80]

Bu qissədə qeyd olunan və Həzrət Musaya ləduni elm[81] haqqında müəyyən məlumatlar verən üçüncü şəxsin kim ol-

[80] İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XIII, 360.

[81] Bu elm Allah-Təala tərəfindən istədiyi bəndələrinə qeyri-adi bir şəkildə öyrədildiyi üçün İslami ədəbiyyatda buna “ləduni elm” deyilmişdir.

duğu haqqında Quranda açıq məlumat yoxdur. Ancaq təfsirçilərin əksəriyyəti onun Xızır (ə.s) olduğu fikrindədirlər.[82] Əbu Hüreyrədən (r.ə) nəql edilən bir rəvayətə görə, Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *“Xızıra “Xızır” adının verilməsinin səbəbi odur ki, bir dəfə o, otsuz bir yerdə oturmuşdu. Bir də gördü ki, altındakı torpaqdan yaşıl otlar çıxır”*.[83] Hədisin ərəbcə mətnində keçən “فَرْوَة/fərvə” sözü “quru ot” mənasına gəlir. Ləduni elmə sahib olan Xızırın (ə.s) peyğəmbər olub-olmadığı isə dəqiq bilinmir. Belə ki, bir qisim alimlər onun peyğəmbər olduğunu, bir qismi isə Allah dostu saleh bir kimsə olduğunu bildirmişdir.[84] Bəzi təfsirçilərə görə, Xızır (ə.s) abi-həyat (dirilik suyu) içdiyi üçün qiyamətə qədər yaşayacaqdır. Ancaq digər alimlər “**Səndən əvvəl də heç bir insana əbədilik vermədik**”[85] ayəsini və başqa bəzi rəvayətləri əsas götürərək onun vəfat etdiyini qeyd etmişlər. Bundan əlavə, Həzrət Peyğəmbərin (s.ə.s) vəfat etməzdən qısa bir vaxt əvvəl söylədiyi *“Yüz il sonra bu gecə həyatda olanlardan heç kim sağ qalmayacaq”*[86] hədisi də Xızırın (ə.s) vəfat etdiyinə dair dəlil kimi göstərilmişdir. Eyni zamanda onun fiziki yox, mənəvi aləmdə yaşayıb darda qalanlara köməklik edən biri olduğu da ehtimallar arasındadır.[87]

---

82. Bax: Razi, “Məfatihül-qeyb”, XXI, 149; Şövkani, “İrşadül-fühul”, III, 288.
83. Buxari, “Əhadisül-ənbiya”, 27; Əhməd ibn Hənbəl, “Müsnəd”, XIII, 474.
84. Razi, “Məfatihül-qeyb”, XXI, 148.
85. Ənbiya, 21/34.
86. Buxari, “Elm”, 41; Əhməd ibn Hənbəl, “Müsnəd”, IX, 438.
87. Bax: Ateş, “Yüce Kuranın Çağdaş Tefsiri”, V, 315.

Hədis mənbələrində qeyd olunduğuna görə, bu qissənin təfsilatı ilə əlaqədar olaraq Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *"Bir gün Həzrət Musa (ə.s) İsrail oğulları ilə söhbət edərkən ona: "İnsanların ən biliklisi kimdir?" – deyə sual verilmişdi. O (ə.s) da "Allah bilər" deməyin əvəzinə "Mənəm!" – deyə cavab vermişdi. Buna görə də Uca Allah ona: "İki dənizin qovuşduğu yerdə bir bəndəm var. O səndən daha biliklidir!" – deyə vəhy etmişdi. Həzrət Musa (ə.s): "Ey Rəbbim, onu necə tapa bilərəm?" – dedikdə Allah-Təala ona: "Bir balıq götürüb səbətə qoy. Balığı harada itirsən, bil ki, həmin bəndəm oradadır", - deyə cavab vermişdi. Musa peyğəmbər də köməkçisi olan Yuşa ibn Nun ilə bərabər yola çıxdı və nəhayət, onlar iki dənizin qovuşduğu yerə çatıb orada bir qayanın yanında uzanıb yatdılar. Bu zaman səbətdəki balıq tərpənməyə başladı və səbətdən dənizə sıçradı. Balıq dənizdə özünə bir yol tapıb getdi. Uca Allah balığa görə suyun axıntısını dayandırdı. Buna görə də balığın suda getdiyi yol kəmərə bənzədi. Onlar oyandıqları zaman Həzrət Musanın yoldaşı balığın düşdüyünü ona söyləməyi unutdu. O gün və ertəsi gecə yol getməyə davam etdilər. Nəhayət, səhər açıldığı zaman Həzrət Musa yoldaşına belə dedi:* **"Günorta yeməyimizi gətir bizə! And olsun ki, bu səyahətimiz bizi yordu".** *Həzrət Musa Uca Allahın ona əmr etdiyi yerə gələnə qədər heç bir çətinlik çəkməmişdi. Yoldaşı ona belə dedi:* **"Gördünmü, biz qayaya sığındığımız zaman mən balığı unutdum. Onu xatırlamağı mənə, şeytandan başqası unutdurmadı.** (Balıq da) **qeyri-adi bir şəkildə dənizdə öz yolunu tutub getdi".** *Balıq özünə bir yol tapıb getmişdi. Həzrət Musa və yoldaşı da çaşıb qal-*

mışdılar. Bu zaman "(Musa) **dedi: "İstədiyimiz şey bu idi!" Onlar dərhal öz** (ayaq) **izləri ilə geri qayıtdılar".** *Onlar izlərini təqib edə-edə geri qayıtdılar və gəlib həmin qayanın yanına çatdılar. Bir də gördülər ki, orada paltarına bürünmüş bir adam var. Həzrət Musa ona salam verdi. Həzrət Xızır da ona: "Sənin yaşadığın yerə "salam" haradan gəlib?" – deyə soruşdu. O da: "Mən Musayam", - dedi. Xızır: "İsrail oğullarının peyğəmbəri olan Musa?" – deyə sual verdi. Həzrət Musa: "Bəli, sənə verilən elmdən mənə də öyrədəsən deyə gəlmişəm", - dedi. Xızır belə dedi:* **"Doğrusu, sən mənimlə birlikdə olmağa səbir edə bilməzsən",** *ey Musa! Məndə Allahın mənə öyrətdiyi və sənin bilmədiyin bir elm var. Səndə də Allahın sənə öyrətdiyi və mənim bilmədiyim bir elm var. Həzrət Musa belə dedi:* **"İnşallah** (Allah qoysa)**, mənim səbirli olduğumu görəcəksən. Sənin əmrinə** (işlərinə) **qarşı çıxmayacağam".** *Xızır ona:* **"Əgər mənə tabe olacaqsansa, səbəbini sənə söyləyənə qədər heç bir şey barəsində mənə sual vermə!"** *Beləcə, o ikisi birlikdə dəniz sahilində yeriməyə başladılar. Sonra bir gəmi ilə rastlaşdılar və gəmiyə minmək üçün onun sahibləri ilə danışdılar. Onlar Xızırı tanıdılar və heç bir ödəniş tələb etmədən o ikisini gəmiyə qəbul etdilər. Həzrət Musa və Xızır gəmiyə mindilər və çox keçmədən Xızır gəminin taxtalarından birini yerindən sökməyə başladı. Həzrət Musa ona: "Onlar bizi heç bir ödəniş almadan gəmiyə qəbul etdilər, ancaq sən onları suya qərq etmək üçün gəmilərini deşirsən. Həqiqətən, sən böyük bir günah iş gördün!" – dedi. Xızır:* **"Mən demədimmi ki, sən mənimlə birlikdəliyə səbir edə bilməzsən?" Musa: "Unutdu-**

ğum bir şeyə görə məni danlama və işimdə məni çətin vəziyyətə salma!” – dedi”. Bu hədisi nəql edən şəxs deyir ki, Həzrət Peyğəmbər sonra belə buyurdu: *“Bu birinci hadisədə Həzrət Musa verdiyi sözü unutmuşdu. Bir sərçə gəlib gəminin bir kənarına qondu və dimdiyi ilə dənizdən bir-iki damcı su içdi. Bu zaman Xızır Həzrət Musaya belə dedi: “Mənim və sənin elmin, Allahın elmi yanında ancaq bu sərçənin dənizdən içdiyi su qədərdir”. Sonra onlar gəmidən düşdülər. İkisi birlikdə dənizin sahilində gedərkən digər uşaqlarla oyun oynayan bir uşaq gördülər. Xızır uşağın başını tutub qopardaraq onu öldürdü. Bu zaman Həzrət Musa ona belə dedi:* **“Can əvəzi olmayan** (heç kimi öldürməmiş) **tər-təmiz bir canımı öldürdün? Həqiqətən, sən çox pis bir şey etdin!”** (Xızır) **dedi: “Sənə deməmişdimmi ki, sən mənimlə birlikdəliyə səbir edə bilməzsən?”** Həzrət Peyğəmbər: *“Bu, əvvəlkindən daha şiddətli idi”,* - buyurdu və sonra sözünə belə davam etdi: **“**(Musa)**: “Əgər bundan sonra səndən bir şey barəsində soruşsam, o zaman mənimlə yoldaşlıq etmə! Artıq mənim tərəfimdən gələcək üzrxahlığın son həddinə çatdın** (artıq üzr istəyəcəyim bir şey etməyəcəm)**. Yenə yola düşdülər. Nəhayət, bir qəsəbə əhalisinin yanına gəlib çatdıqları zaman oranın əhalisindən yemək istədilər. Ancaq onlar, o ikisini qonaq etməyi rədd etdilər. Bu zaman orada yıxılmağa üz tutmuş bir divar gördülər.** (Xızır) **dərhal onu** (əli ilə) **düzəltdi** (təmir etdi)**”.** *Bu zaman Musa dedi: “Biz elə bir kəndə gəlmişik ki, nə bizə yemək verirlər, nə də bizi qonaq edirlər.* **“Əgər istəsəydin, əlbəttə, onun müqabilində bir ödəniş alardın”.** (Xızır) **dedi: “Bu,**

mənimlə sənin ayrılma (vaxtımızdır)**. Səbir edə bilmədiyin şeylərin yozumunu sənə xəbər verəcəyəm”.** Sonra Həzrət Peyğəmbər (s.ə.s) belə buyurdu: *“İstəyərdik ki, Həzrət Musa səbir etsin və ən sonunda Allah-Təala onların xəbərini bizə danışsın”*.[88]

Bu hadisənin harada və nə vaxt baş verdiyi barəsində Qurani-Kərimdə və hədis mənbələrində dəqiq məlumat yoxdur. Eyni zamanda o iki dənizin harada olduğu da dəqiq bilinmir. Bəzi təfsirçilər bu dənizlərin Aralıq dənizi ilə Qırmızı dəniz olduğunu, bəziləri Xəzər dənizi ilə Qara dəniz olduğunu, bəziləri isə Nil çayının iki qolu olan Bəyaz Nil və Mavi nil olduğunu təxmin edirlər. Bu iki dənizi daha fərqli təfsir edən təfsirçilər isə burada, əslində, məcazi mənada o iki dəniz ilə Həzrət Musa və Həzrət Xızırın qəsd olunduğunu iddia etmişlər. Çünki Həzrət Musa zahiri elmlərin dəryası, Həzrət Xızır isə batini elmlərin dəryası idi.[89]

قَالَ اَرَاَيْتَ اِذْ اَوَيْنَآ اِلَى الصَّخْرَةِ فَاِنِّى نَسِيتُ الْحُوتَ ۚ وَمَآ اَنْسَانِيهُ اِلَّا الشَّيْطَانُ اَنْ اَذْكُرَهُ ۚ وَاتَّخَذَ سَبِيلَهُ فِى الْبَحْرِ ۖ عَجَبًا ﴿٦٣﴾ قَالَ ذٰلِكَ مَا كُنَّا نَبْغِ ۖ فَارْتَدَّا عَلٰٓى اٰثَارِهِمَا قَصَصًا ۙ ﴿٦٤﴾

63. Gənc dedi: “Gördünmü, biz qayaya sığındığımız zaman mən balığı unut-

88. Buxari, “Təfsir”, 18; Müslim, “Fəzail”, 170-172.
89. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 570-571.

dum. Onu xatırlamağı mənə məhz şeytan unutdurdu. O da qeyri adi bir şəkildə dənizə girib getmişdir”.

64. Musa: **“İstədiyimiz məhz bu idi!” - dedi. Onlar dərhal özlərinin ayaq izləri ilə geri qayıtdılar.**

Təfsiri:

Təfsirçilərin əksəriyyəti 63-cü ayədə qeyd olunan qayanın dəniz kənarındakı hər hansı bir qaya olduğunu bildirmişlər. Ancaq bəzi təfsirçilər bu qayanın Qüds şəhərində olduğunu iddia etmişlər.[90] Lakin ayədə **“O da qeyri adi bir şəkildə dənizə girib getmişdir”** ifadəsindən belə başa düşülür ki, həmin qaya məhz dənizin kənarında yerləşirdi.

فَوَجَدَا عَبْدًا مِنْ عِبَادِنَآ اٰتَيْنَاهُ رَحْمَةً مِنْ عِنْدِنَا وَعَلَّمْنَاهُ مِنْ لَدُنَّا عِلْمًا ﴿٦٥﴾

65. Beləcə, (orada) **Öz dərgahımızdan rəhmət bəxş etdiyimiz və elm öyrətdiyimiz bir bəndəmizi** (Xızırı) **tapdılar.**

Təfsiri:

65-ci ayədəki “**elm öyrətdiyimiz bir bəndəmiz**” şəklində tərcümə edilən ifadədən aydın olur ki, Xızıra (ə.s) xüsusi bir elm öyrədilmişdi. Bu da “qeyb və sirr elmi” ola-

90. Elmalılı, “Hak Dini Kuran Dili”, V, 3259.

raq adlandırılan bir elm idi. Bu elm Allah-Təala tərəfindən qeyri-adi bir şəkildə öyrədildiyi üçün İslami ədəbiyyatda buna “ləduni elm” deyilmişdir. Təfsirçilər Allah tərəfindən peyğəmbərlərə öyrədilənlərin və vəhylərin bu elmə şamil olmadığını bildirirlər. Daha əvvəl qeyd edilən hədisi-şərifdə də qeyd olunduğu kimi, Xızır (ə.s) Həzrət Musaya: “*Ey Musa! Məndə Allahın mənə öyrətdiyi və sənin bilmədiyin bir elm var*”,[91] – deyərək buna işarə etmişdi. Həzrət Musa isə zahiri elmləri yaxşı bilirdi. Belə ki, o, Allahın nazil etdiyi hökmləri çox yaxşı bilir və fitva verə bilirdi. Xızırın bələd olduğu elm isə əşyanın batini, yəni daxili tərəfini və hikmətini bilməklə əlaqədar idi.[92]

قَالَ لَهُ مُوسٰى هَلْ اَتَّبِعُكَ عَلٰٓى اَنْ تُعَلِّمَنِ مِمَّا عُلِّمْتَ
رُشْدًا ﴿٦٦﴾ قَالَ اِنَّكَ لَنْ تَسْتَطِيعَ مَعِيَ صَبْرًا ﴿٦٧﴾
وَكَيْفَ تَصْبِرُ عَلٰى مَا لَمْ تُحِطْ بِهٖ خُبْرًا ﴿٦٨﴾ قَالَ
سَتَجِدُنِٓى اِنْ شَٓاءَ اللّٰهُ صَابِرًا وَلَٓا اَعْصِى لَكَ اَمْرًا ﴿٦٩﴾
قَالَ فَاِنِ اتَّبَعْتَنِى فَلَا تَسْـَٔلْنِى عَنْ شَىْءٍ حَتّٰٓى اُحْدِثَ
لَكَ مِنْهُ ذِكْرًا ﴿٧٠﴾

66. Musa ona: “Sənə öyrədilmiş doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənin-lə gələ bilərəmmi?” – dedi.

91. Buxari, “Təfsir”, 18; Müslim, “Fəzail”, 170-172.
92. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 572.

67. O dedi: “Doğrusu, sən mənimlə (yoldaşlığa) **səbir edə bilməzsən!**

68. Axı (həqiqətini) **dərk edə bilmədiyin bir şeyə necə səbir edə bilərsən?**

69. Musa dedi: “İnşallah, sən mənim səbirli olduğumu görəcəksən. Sənin işlərinə qarşı çıxmayacağam!”

70. O dedi: “Əgər mənimlə gələcəksənsə, səbəbini sənə söyləyənə qədər heç bir şey barəsində məndən soruşma!”

Təfsiri:

Təfsirçilərə görə, Həzrət Musanın Xızırla yol yoldaşlığı etməsindəki hikmət onun öz məqamını və elm səviyyəsini bilməsi, eləcə də səbirli olmağı öyrənməsi idi. Yəni Xızır (ə.s) Həzrət Musaya (ə.s) sanki belə deyirdi: “Sən mənimlə birlikdə yol getməyə səbir edə bilməzsən. Çünki sən bu mövzuda naqissən. Bu elm tam olaraq sənə verilməmişdir. Ancaq yenə də mənimlə gəlmək istəyirsənsə, bu dediklərimə riayət etməli və mən bir işin izahını verməmdikcə, məndən bu haqda heç bir şey soruşmamalısan”.[93] Bundan sonra isə o ikisinin qeyri-adi səyahəti başlamışdı.

فَانْطَلَقَا حَتّٰٓى اِذَا رَكِبَا فِى السَّفِينَةِ خَرَقَهَا ؕ قَالَ اَخَرَقْتَهَا
لِتُغْرِقَ اَهْلَهَا ۚ لَقَدْ جِئْتَ شَيْـًٔا اِمْرًا ﴿٧١﴾ قَالَ اَلَمْ اَقُلْ

93. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 220.

اِنَّكَ لَنْ تَسْتَطِيعَ مَعِىَ صَبْرًا ﴿٧٢﴾ قَالَ لَا تُؤَاخِذْنِى بِمَا نَسِيتُ وَلَا تُرْهِقْنِى مِنْ اَمْرِى عُسْرًا ﴿٧٣﴾

71. Beləcə, o ikisi yola düşdülər. Nəhayət, gəmiyə mindikləri zaman (Xızır) **onu deşdi. Musa dedi: “Gəmidəkiləri suda boğmaq üçünmü onu deşdin? Həqiqətən, sən pis bir iş gördün”.**

72. (Xızır:) **“Mən demədimmi ki, sən mənimlə** (yoldaşlığa) **səbir edə bilməzsən?” - dedi.**

73. Musa: “Unutduğum bir şeyə görə məni danlama və işimi çətinləşdirmə!” - dedi.

Təfsiri:

Xızır (ə.s) Həzrət Musa üçün belə bir şərt qoymuşdu ki, Həzrət Musa xoşuna gəlməyən bir şey gördüyü zaman Xızır (ə.s) bunu ona izah edənə qədər ondan bu barədə heç bir şey soruşmayacaqdı. Beləcə, onlar bir gəmiyə mindilər. Gəminin sahibləri Xızırı (ə.s) tanıdılar və ona hörmət göstərərək onları heç bir ücrət almadan gəmiyə mindirdilər. Gəmi hərəkət edib dənizdə dalğaların arasında üzərkən Xızır qalxıb gəminin taxtalarından birini yerindən çıxartdı və başqa bir şeylə ora yamaq vurdu. Həzrət Musa özünü

saxlaya bilmədi və buna etiraz edərək belə dedi: **“Gəmidəkiləri suda boğmaq üçünmü onu deşdin?”** Bu zaman Xızır daha əvvəl qoyduğu şərti xatırladaraq Həzrət Musaya belə dedi: **“Mən demədimmi ki, sən mənimlə** (yoldaşlığa) **səbir edə bilməzsən?”** Bu zaman Həzrət Musa: **“Unutduğum bir şeyə görə məni danlama və işimi çətinləşdirmə!” – dedi”.** Buna görə də bir hədisi-şərifdə Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *“Bu, Həzrət Musa unutduğu üçün olmuşdu”.*[94]

Qissənin bu hissəsi ilə bağlı Həzrət Peyğəmbər (s.ə.s) belə bir izah vermişdir: “*Beləliklə, Həzrət Musanın ilk unutqanlıq hadisəsi baş vermişdi. Bu əsnada bir sərçə gəlib gəminin kənarına qondu və su içmək üçün dimdiyini suya batırdı. Bu vaxt Xızır (ə.s) Həzrət Musaya: “Allahın elminin yanında sənin, mənim və bütün məxluqatın elmi bu sərçənin dənizdən dimdiyi ilə aldığı su qədərdir*”, - dedi”.[95] Beləcə, Xızır (ə.s) Həzrət Musanın xətasından keçdi və birlikdə yollarına davam etdilər. Lakin Həzrət Musanın bundan sonra qarşılaşacağı hadisə daha dəhşətli olacaqdı.

فَانْطَلَقَا حَتّٰٓى اِذَا لَقِيَا غُلَامًا فَقَتَلَهٗ ۙ قَالَ اَقَتَلْتَ نَفْسًا
زَكِيَّةًۢ بِغَيْرِ نَفْسٍ ۭ لَقَدْ جِئْتَ شَيْـــًٔا نُّكْرًا ﴿٧٤﴾ قَالَ اَلَمْ
اَقُلْ لَّكَ اِنَّكَ لَنْ تَسْتَطِيْعَ مَعِيَ صَبْرًا ﴿٧٥﴾ قَالَ اِنْ

94. Buxari, “Təfsir”, 199; Müslim, “Fəzail”, 46.
95. Buxari, “Təfsir”, 18; Müslim, “Fəzail”, 170.

سَأَلْتُكَ عَنْ شَيْءٍ بَعْدَهَا فَلَا تُصَاحِبْنِي ۚ قَدْ بَلَغْتَ مِنْ لَدُنِّي عُذْرًا ﴿٧٦﴾

74. Yenə yollarına davam etdilər. Nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqları zaman (Xızır) **onu öldürdü. Musa dedi: “Heç kimi öldürməmiş tər-təmiz bir canamı qəsd etdin? Həqiqətən, sən çox pis bir iş gördün!”**

75. (Xızır) **dedi: “Sənə deməmişdimmi ki, mənim yanımda səbir edə bilməzsən?**

76. (Musa)**: “Əgər bundan sonra səndən bir şey soruşsam, o zaman mənimlə yoldaşlıq etmə! Artıq məndən gələcək üzrxahlığın son həddinə çatdın**.

Təfsiri:

Allah-Təala buyurur ki, bu söhbətdən sonra **“yenə yollarına davam etdilər. Nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqları zaman** (Xızır) **onu öldürdü”.** Daha əvvəl də qeyd edildiyi kimi, bu uşaq kəndlərin birində uşaqlarla oyun oynayırdı. Xızır uşaqların arasındakı həmin uşağa yönəldi və onu öldürdü. Həzrət Musa isə buna qəti şəkildə etiraz etdi. Bu zaman Xızır (ə.s) Həzrət Musaya belə demişdi: “*Mənə Allah tərəfindən elə bir elm verilib ki, sənin bu elmə əməl etməyin uyğun deyildir. Çünki sən ona əməl*

etməklə mükəlləf deyilsən. Sənə də Allah tərəfindən elə bir elm verilib ki, mənim ona əməl etməyim uyğun deyildir. Çünki mən onunla mükəlləf deyiləm”.[96]

Xızırın gördüyü bu iş əvvəlki işindən daha böyük və qəbuledilməz bir şey idi. Əvvəlki işi gəmini deşmək idi ki, onu təmir etmək mümkündür. Ancaq bir insanı öldürdükdən sonra onu həyata qaytarmaq mümkün deyildi. Bundan sonra isə onların yol yoldaşlığını sona çatdıran hadisə baş verir.

فَانْطَلَقَا حَتّٰٓى اِذَآ اَتَيَآ اَهْلَ قَرْيَةٍ اسْتَطْعَمَآ اَهْلَهَا فَاَبَوْا اَنْ يُّضَيِّفُوْهُمَا فَوَجَدَا فِيْهَا جِدَارًا يُّرِيْدُ اَنْ يَّنْقَضَّ فَاَقَامَهٗ ۭ قَالَ لَوْ شِئْتَ لَتَّخَذْتَ عَلَيْهِ اَجْرًا ﴿٧٧﴾

77. Onlar yenə yollarına davam etdilər. Nəhayət, bir qəsəbəyə gəlib çatdıqları zaman oranın əhalisindən yemək istədilər. Ancaq onlar o ikisini qonaq etməkdən imtina etdilər. Bu zaman o ikisi orada yıxılmaq istəyən bir divar gördülər. (Xızır) **dərhal onu düzəltdi.** (Musa:) **“Əgər istəsəydin, əlbəttə, onun müqabilində bir muzd alardın”, - dedi.**

[96] Buxari, “Ənbiya”, 27.

Təfsiri:

Həzrət Musa yenə şəriətə müvafiq hərəkət edir və Xızıra gördüyü işin müqabilində müəyyən bir ücrət tələb etməsini söyləyir. Çünki Həzrət Musaya görə yeməyə ehtiyacları olduğu bir anda qazanc əldə etməyin əvəzinə pulsuz iş görməyin heç bir mənası yox idi. Əlsində, Həzrət Musa şəriətə zidd olan heç bir şey söyləməmişdi. Həzrət Musa Xızırın (ə.s) gördüyü işin müqabilində heç bir ücrət almamasına görə səbir edə bilmədi və yenə etiraz etdi. Beləcə, Həzrət Musa sözündə dura bilmədiyi üçün onların yol yoldaşlığı da sona çatdı.

Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: “*Allahın rəhməti bizim və Musanın üzərinə olsun! Əgər o tələsməsəydi, neçə-neçə heyrətamiz hadisələr müşahidə edəcəkdi. Lakin o, yol yoldaşından utandı. Əgər səbir etsəydi, heyrətamiz şeylər görəcəkdi*”.[97] Bundan sonra isə Xızır (ə.s) Həzrət Musanın səbir edə bilmədiyi işlərin hikmətlərini ona izah etməyə başladı.

قَالَ هٰذَا فِرَاقُ بَيْنِى وَبَيْنِكَ ۚ سَأُنَبِّئُكَ بِتَأْوِيلِ مَا
لَمْ تَسْتَطِعْ عَلَيْهِ صَبْرًا ﴿٧٨﴾ اَمَّا السَّفِينَةُ فَكَانَتْ
لِمَسَاكِينَ يَعْمَلُونَ فِى الْبَحْرِ فَاَرَدْتُ اَنْ اَعِيبَهَا وَكَانَ
وَرَآءَهُمْ مَلِكٌ يَأْخُذُ كُلَّ سَفِينَةٍ غَصْبًا ﴿٧٩﴾

97. Müslim, “Fəzail”, 172.

78. (Xızır) **dedi: “Bu, mənimlə sənin ayrılma vaxtımızdır. Səbir edə bilmədiyin şeylərin yozumunu sənə xəbər verəcəyəm!**

79. Gəmiyə gəldikdə, o, dənizdə işləyən yoxsul kimsələrə məxsus idi. Mən də onu qüsurlu vəziyyətə salmaq istədim. Çünki orada bütün (qüsursuz) **gəmiləri qəsb edən bir kral var idi.**

Təfsiri:

Bu ayələrdə Xızırın (ə.s) gəmini nə üçün deşdiyini Həzrət Musaya izah etməsi xəbər verilir. Nəticə etibarilə, onun bu hərəkəti ilahi bir rəhmət olub həmin gəminin sahibi olan kasıb insanlara etdiyi bir yaxşılıq idi. Allah-Təalanın hökmlərində də zahirən zərərli kimi görünən elə işlər vardır ki, onların əslini bilsək, bizim üçün çox faydalı olduğunu görə bilərik.[98] Necə ki, Uca Allah “**Xoşunuza gəlməsə də, döyüş sizə fərz edildi. Bəlkə də xoşlanmadığınız bir şey sizin üçün xeyirli, xoşlandığınız bir şey isə sizin üçün zərərlidir. Allah bilir, ancaq siz bilməzsiniz**”,[99] – ayəsində də bu həqiqətə işarə edir.

---

98. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 223.
99. Bəqərə, 2/216.

وَاَمَّا الْغُلٰمُ فَكَانَ اَبَوٰهُ مُؤْمِنَيْنِ فَخَشِيْنَآ اَنْ يُّرْهِقَهُمَا
طُغْيَانًا وَّكُفْرًا ﴿٨٠﴾ فَاَرَدْنَآ اَنْ يُّبْدِلَهُمَا رَبُّهُمَا خَيْرًا مِّنْهُ
زَكٰوةً وَّاَقْرَبَ رُحْمًا ﴿٨١﴾

80. Oğlan uşağına gəldikdə, onun ata-anası mömin idilər. Biz onun ata-anasını azğınlığa və küfrə sövq etməsindən qorxduq.

81. Beləcə istədik ki, Rəbbi onlara əvəzində ondan daha təmiz və daha mərhəmətli birini bəxş etsin.

Təfsiri:

Ayədə Xızırın (ə.s) öldürdüyü uşaq “غُلَام/ğülam” sözü ilə ifadə edilmişdir ki, bu söz ərəb dilində “həddi-büluğa çatmayan uşaq” mənasına gəlir. Übeyy ibn Kəbdən (r.ə) nəql edilən rəvayətə görə, Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *“Xızırın öldürdüyü uşaq ilk yaradıldığı gün kafir olaraq yaradılmışdı”.*[100] Buna görə də Xızır belə demişdi: **“Oğlan uşağına gəldikdə, onun ata-anası mömin idilər. Biz onun ata-anasını azğınlığa və küfrə sövq etməsindən qorxduq”.** Bir hədisi-şərifdə belə buyurulmuşdur: *“Allah-Təala mömin üçün hansı hökmü vermişsə, deməli bu, onun üçün xeyirlidir”.*[101] Həmin uşaq əgər sağ qalsaydı, azğın biri olub

[100] Müslim, “Qədər”, 6; Tirmizi, “Təfsir”, 19; Əbu Davud, “Sünnə”, 17.

[101] Əhməd ibn Hənbəl, “Müsnəd”, XXXIII, 405.

gələcəkdə ata-anasını da haqq yoldan azdıracaq və küfrə sürükləyəcəkdi. Halbuki onun ata-anası saleh möminlər idilər və küfrə düşməyə layiq deyildilər. Beləcə, Uca Allah onları küfrdən qorumuş və övladlarını uşaq yaşda vəfat etdirmişdi. Beləliklə, nəticədə bu iş həm valideynlər, həm də uşaq üçün xeyirli olmuşdu. Təfsirçilərə görə, Xızırın uşağı öldürməsi ilə ata-anası üçün üç rəhmət qapısı açılmışdır: həm o uşağın gələcəkdə verəcəyi zərərdən xilas oldular, həm ölən uşağın müqabilində daha sonra onların saleh bir uşaqları dünyaya gələcək, həm də həmin övladları uşaq yaşda öldüyü üçün əbədi cəhənnəm əzabından xilas olmuşdu. Rəvayətə görə, bundan sonra onların bir qız uşağı dünyaya gəlmiş, o da bir peyğəmbər anası olmuşdu.[102]

وَاَمَّا الْجِدَارُ فَكَانَ لِغُلَامَيْنِ يَتِيمَيْنِ فِى الْمَدِينَةِ
وَكَانَ تَحْتَهُ كَنْزٌ لَهُمَا وَكَانَ اَبُوهُمَا صَالِحًا ۚ فَاَرَادَ رَبُّكَ
اَنْ يَبْلُغَا اَشُدَّهُمَا وَيَسْتَخْرِجَا كَنْزَهُمَا ۖ رَحْمَةً مِنْ
رَبِّكَ ۚ وَمَا فَعَلْتُهُ عَنْ اَمْرِى ۚ ذٰلِكَ تَأْوِيلُ مَا لَمْ تَسْطِعْ
عَلَيْهِ صَبْرًا ۟ ﴿٨٢﴾

82. Divara gəldikdə isə, o, şəhərdəki iki yetim oğlan uşağına məxsus idi. Onun altında onlara aid bir xəzinə vardı.

102. Razi, “Məfatihül-qeyb”, XXI, 137; Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 224.

Ataları da yaxşı insan idi. Rəbbin istədi ki, onlar həddi-büluğa çatıb Rəbbindən bir rəhmət olaraq öz xəzinələrini çıxartsınlar. Mən bunu öz ixtiyarımla etmədim. Bu, səbir edə bilmədiyin şeylərin yozumudur!”

Təfsiri:

Uca Allah bu ayədə işarə olunan üç səbəbdən həmin xəzinənin əsil sahiblərinə qalması üçün Xızırın (ə.s) vasitəsilə onu mühafizə etmişdir:

Xəzinənin varisləri olan o iki yetim uşaq hələ çox balaca idilər və o yaşda xəzinəni qoruyub ondan lazımınca istifadə edə bilməzdilər. Allah-Təalanın yetimlərə qarşı xüsusi bir mərhəməti və şəfqəti vardır.

Onların atası saleh bir mömin idi. Beləcə, onun yaxşı insan olması uşaqlarına belə fayda vermişdi.

Həmin xəzinədəki mal-mülk halal qazancla əldə edilmişdi. Çünki onu qazanan ataları saleh bir insan olub yalnız halal qazanc əldə etməyə çalışırdı. Deməli, Uca Allah halal yoldan əldə edilən qazancı qoruyacağını vəd edir.[103]

Əslində, Musa-Xızır qissəsini oxuyub dəyərləndirərkən bizdə fərqli bir fikir formalaşır. Sanki durbinlə hadisələrin dərinliklərinə nəzər salırıq. Həyatda baş verən hadisələri bu pəncərədən baxaraq mühakimə etdikdə Allaha layiqincə

[103] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 225.

qulluq etməyib Onun rizasını qazana bilməmək istisna olmaqla, heç bir şeyin əslində şər olmadığını başa düşərik və əsla ümidsizliyə düşmərik. Çünki Uca Allah bizim görə bilmədiklərimizi görür və bizim üçün nəyin xeyirli olduğunu çox yaxşı bilir.

وَيَسْـَٔلُونَكَ عَنْ ذِى الْقَرْنَيْنِ ۖ قُلْ سَاَتْلُوا عَلَيْكُمْ مِنْهُ
ذِكْرًا ۖ ﴿٨٣﴾ اِنَّا مَكَّنَّا لَهُ فِى الْاَرْضِ وَاٰتَيْنَاهُ مِنْ كُلِّ
شَىْءٍ سَبَبًا ۙ ﴿٨٤﴾

83. Sənə Zülqərneyn barəsində də sual verirlər. De: “Sizə ondan bəhs edəcəyəm”.

84. Həqiqətən, Biz onu yer üzündə iqtidar və güc sahibi etdik, ona hər yerin yolunu öyrətdik.

Təfsiri:

Bu ayələrdə Quran qissələrindən biri olan Zülqərneyn (ə.s) qissəsindən bəhs olunur. Ayədə keçən “ذُو الْقَرْنَيْنِ/Zülqərneyn” ifadəsi ərəb dilində “iki buynuzlu”, “iki əsr sahibi” və “iki qövmün başçısı” kimi mənalara gəlir. Zülqərneynin (ə.s) Allah tərəfindən göndərilmiş bir peyğəmbər olub-olmadığı mübahisəlidir. Bəzi təfsirçilər “Kəhf” surəsinin 86-cı ayəsindəki **“Biz: “Ey Zülqərneyn! Ya** (onlara) **əzab verər,**

ya da onlar barəsində yaxşılıq yolunu tutarsan!” – dedik” ifadəsini dəlil göstərərək onun peyğəmbər olduğunu bildirmişlər.[104] Bəziləri isə onun Allahdan ilham alan bir bəndə olduğunu qeyd etmişlər.[105] Bununla yanaşı, onun Allahın varlığına və təkliyinə iman gətirmiş saleh bir mömin və ədalətli bir hökmdar olduğu məsələsində bütün təfsirçilər həmfikirdirlər. Allah-Təala Zülqərneynə (ə.s) böyük bir səltənət və hakimiyyət bəxş etmişdi. Eyni zamanda, ona istədiyi hər bir işi görə bilməsi üçün müəyyən vasitələr və imkanlar vermişdi. Təfsirçilərə görə, o, Həzrət Nuhun (ə.s) oğlu Yafəsin nəslindən olub İbrahim peyğəmbərin (ə.s) dövründə yaşamış, hətta onunla birlikdə həccə getmiş və onun duasının bərəkəti ilə bir çox uğurlar əldə etmişdi.[106] Zülqərneyn (ə.s) kafirlərə qarşı mübarizə aparmış, məzlum xalqlara kömək etmiş və Allahın tövhid dinini yaymağa çalışmışdır.[107] Həzrət Əli (r.ə) isə onun peyğəmbər və ya hökmdar olmadığını, sadəcə olaraq Allahın ixlaslı bir qulu olduğunu, Allahı çox sevdiyini, Allahın da onu çox sevdiyini, Allah rizası üçün insanlara öyüd-nəsihət verdiyini bildirmişdir.[108] Ümumiyyətlə, Qurani-Kərimdə Zülqərneyn (ə.s) haqqında verilən məlumatlar və xüsusiyyətləri, eləcə də fəth etdiyi əraziləri nəzərə alaraq onun eramızdan əvvəl 2200-cü il-

104. Razi, “Məfatihül-qeyb”, XXI, 165; Elmalılı, “Hak Dini Kuran Dili”, V, 3284.
105. Mövdudi, “Təfhimül-Quran”, III, 177.
106. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 185.
107. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 227.
108. Şövkani, “İrşadül-fühul”, III, 345-346.

lərdə hökmdarlıq edən Akkad kralı Naram-Sin olduğu da ehtimal olunur.[109]

Bu ayələrin nazil olma səbəbi ilə əlaqədar olaraq belə bir rəvayət nəql olunmuşdur ki, Həzrət Peyğəmbər İslamın ilk illərində Məkkədə haqq dini təbliğ edərkən Mədinə şəhərindəki yəhudilər də son peyğəmbərin onların arasından çıxacağını gözləyirdilər. Onlar Məkkədən gələn müşrik ərəblərə: “Məkkədə bir peyğəmbər peyda olubmuş. Əgər o, həqiqi peyğəmbərdirsə, ona Əshabi-kəhf, Zülqərneyn və ruhun mahiyyəti barəsində suallar verin. Əgər o, Əshabi-kəhf və Zülqərneyn haqqında ətraflı məlumat verib ruh barəsində də səthi məlumat verərsə, deməli, o, həqiqətən, peyğəmbərdir. Belə olsa, siz də ona tabe olun! Yox, əgər bu üç məsələ barəsində o sizə xəbər verməzsə, deməli, o, yalançıdır”, - dedilər. Həmin Məkkəli müşriklər də Məkkəyə qayıtdıqları zaman Həzrət Peyğəmbərin (s.ə.s) yanına gələrək: “Əshabi-kəhf və şərq ilə qərb arasında səyahət edən Zülqərneyn kimdir? Ruhun mahiyyəti nədir?” – deyə sual verdilər. Bu səbəbdən “Kəhf” surəsinin bir hissəsi, eləcə də içindəki bu ayələr nazil oldu.[110]

فَاَتْبَعَ سَبَبًا ﴿٨٥﴾ حَتّٰٓى اِذَا بَلَغَ مَغْرِبَ الشَّمْسِ
وَجَدَهَا تَغْرُبُ فِىْ عَيْنٍ حَمِئَةٍ وَوَجَدَ عِنْدَهَا قَوْمًا ؕ
قُلْنَا يَا ذَا الْقَرْنَيْنِ اِمَّآ اَنْ تُعَذِّبَ وَاِمَّآ اَنْ تَتَّخِذَ فِيْهِمْ

109. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 577.
110. Vahidi, “Əsbabün-nüzul”, s. 298.

حُسْنًا ﴿٨٦﴾ قَالَ اَمَّا مَنْ ظَلَمَ فَسَوْفَ نُعَذِّبُهٗ ثُمَّ يُرَدُّ
اِلٰى رَبِّهٖ فَيُعَذِّبُهٗ عَذَابًا نُّكْرًا ﴿٨٧﴾ وَاَمَّا مَنْ اٰمَنَ
وَعَمِلَ صَالِحًا فَلَهٗ جَزَآءَ ۨ الْحُسْنٰى ۚ وَسَنَقُوْلُ لَهٗ مِنْ
اَمْرِنَا يُسْرًا ﴿٨٨﴾

85. Beləcə, o, bir yol tutub getdi.

86. Nəhayət, günəşin batdığı yerə gəlib çatdığı zaman onu palçıqlı bir gölməçədə batan gördü. Gölməçənin yanında da bir qövm gördü. Biz: “Ey Zülqərneyn! Ya (onlara) **əzab verər, ya da onlar barəsində yaxşılıq yolunu tutarsan!” – dedik.**

87. O dedi: “Haqsızlıq edənə əzab verəcəyik. Sonra o Rəbbinə qaytarılacaq və (Rəbbi) **ona, görünməmiş bir əzab verəcək.**

88. İman gətirib saleh əməl edən kimsəyə gəldikdə, onun üçün ən gözəl mükafat vardır. Biz ona asan işləri buyuracağıq”.

Təfsiri:

Allah-Təala Zülqərneyni (ə.s) yer üzündə güc-qüvvət, elm, irfan və hər cür maddi-mənəvi imkanlara sahib bir rəhbər etmişdi. Bu imkanlar sayəsində o, istədiyini edir və

istədiyi hər hansı bir şeyə sahib olurdu. O, bu imkanları Allah yolunda istifadə etmək üçün cihad məqsədilə səfərə çıxmışdı. Təfsirçilərin qeyd etdiyinə görə, Zülqərneyn (ə.s) qərbdə Atlantik okeanına və ya şərqdə Qara dənizə qədər səfər etmiş və orada günəşin üfüqdə batmasını seyr etmişdi. Günəş dumanlı dəniz üfqündə batarkən sanki palçıqlı bir gölün içinə batırmış kimi görünürdü. Qurani-Kərimdə bu hadisə ilə bağlı hər hansı bir coğrafi məlumat verilməmiş, sadəcə, bu hadisə ədəbi bir üslubla təsvir edilmişdir.

Təfsirçilərə görə, Zülqərneynin (ə.s) sahildə qarşılaşdığı insanlar kafir idilər. Uca Allah Zülqərneyni (ə.s) bu insanları cəzalandırmaq, yaxud tərbiyələndirmək və beləcə gözəlliklə onları haqq yola gətirmək xüsusunda sərbəst buraxmışdı.[111] Buna görə də o, belə demişdi: **“Haqsızlıq edənə əzab verəcəyik. Sonra o Rəbbinə qaytarılacaq və** (Rəbbi) **ona, görünməmiş bir əzab verəcək. İman gətirib saleh əməl edən kimsəyə gəldikdə, onun üçün ən gözəl mükafat vardır. Biz ona asan işləri buyuracağıq”**. Deməli, Zülqərneyn (ə.s) o qövmə əzab vermək, yaxud yaxşılıq etmək məsələsində istədiyi kimi hərəkət edə bilərdi. Ancaq yenə də o, səbəbsiz yerə hərəkət etmədi. Əzabı zülm edənlərə, yaxşılıq və mükafatı da iman gətirib saleh əməl işləyənlərə məxsus etdi. O, əlindəki güc-qüvvəti zülm və pis bir iş üçün istifadə etmədi. Çünki Zülqərneyn (ə.s) özünün də axırda Rəbbinin hüzuruna dönəcəyini bilirdi.[112]

---

111. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 578.
112. Elmalılı, “Hak Dini Kuran Dili”, V, 3283.

ثُمَّ اَتْبَعَ سَبَبًا ﴿٨٩﴾ حَتّٰٓى اِذَا بَلَغَ مَطْلِعَ الشَّمْسِ وَجَدَهَا
تَطْلُعُ عَلٰى قَوْمٍ لَّمْ نَجْعَلْ لَّهُمْ مِنْ دُوْنِهَا سِتْرًاۙ ﴿٩٠﴾
كَذٰلِكَۗ وَقَدْ اَحَطْنَا بِمَا لَدَيْهِ خُبْرًا ﴿٩١﴾

89. Sonra o, yoluna davam etdi.

90. Nəhayət, günəşin doğduğu yerə çatdığı zaman onu bir qövmün üzərində doğarkən gördü. Biz onlar üçün günəşə qarşı heç bir örtük yaratmamışdıq.

91. Beləcə, Biz onunla bağlı hər şeydən xəbərdar idik.

Təfsiri:

Allah-Təala buyurur ki, Zülqərneyn (ə.s) daha sonra özünə bir yol tutub günəşin batdığı yerdən günəşin doğduğu yerə tərəf yola çıxır. O, yoluna hansı tayfa çıxsa, onlara qalib gəlir və onları Allahın yoluna dəvət edirdi. Beləcə, Zülqərneyn (ə.s) qərbdəki işlərini bitirdikdən sonra şərqə yönəlmiş, çox ehtimal ki, Afrikanın və ya Asiyanın şərq sahillərinə gedib çıxmışdı. Yəni Hind okeanı, yaxud Xəzər dənizinin sahilinə çatmışdı. Ayələrdəki ifadələrdən elə başa düşülür ki, bu ərazidə mədəniyyət hələ inkişaf etməmişdi. Zülqərneynin (ə.s) burada rastlaşdığı insanlar sivilizasiyadan uzaq qaldıqları üçün günəşin istisindən və yağışdan özlərini

qoruyacaq vasitələr düzəltməyi və paltar tikməyi bacarmırdılar. Həmçinin onlar içində yaşamaq üçün ev tikməyi də bilmirdilər. Yaşadıqları ərazidə onlara kölgə salası bitki örtüyü də yox idi.[113] Bəzi təfsirçilərə görə, günəş doğandan batana qədər onlar mağaralarında, yaxud dənizdə qalırdılar. Çünki onların torpaqlarında dağlar yox idi.[114]

ثُمَّ أَتْبَعَ سَبَبًا ﴿٩٢﴾ حَتَّىٰٓ إِذَا بَلَغَ بَيْنَ السَّدَّيْنِ وَجَدَ مِنْ دُونِهِمَا قَوْمًا ۙ لَّا يَكَادُونَ يَفْقَهُونَ قَوْلًا ﴿٩٣﴾

92. Sonra o, yenə yoluna davam etdi.

93. Nəhayət, iki dağ arasına çatdığı zaman onların önündə demək olar ki, heç bir sözü anlamayan bir tayfa gördü.

Təfsiri:

Zülqərneyn (ə.s) üçüncü dəfə ordusunu hazırlayıb səfərə çıxmışdı. Onun bu dəfə hansı istiqamətə səfər etdiyi Quran-i-Kərimdə qeyd edilməsə də təfsirçilər onun şimal tərəfə yönəldiyini təxmin edirlər. Bir qisim təfsirçilərə görə isə, Zülqərneynin (ə.s) gedib çıxdığı iki dağın arası Xəzər dənizindən Qara dənizə kimi uzanan dağ silsilələrində yer alan Dəmirqapı bölgəsidir. Bu dağların arxasında isə Yəcuc və

113. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 578.
114. Təbəri, “Camiül-bəyan ən təvilil-Quran”, XVIII, 100.

Məcuc tayfaları vardı.[115] Digər bir fikrə görə, bu iki dağ türk yurdunda yerləşirdi. XX əsrdə yaşamış türk təfsirçi Almalılı Həmdi Yazıra görə, bununla Çin səddinə işarə edilmişdir.[116] Ancaq tarixçilərin verdiyi məlumata görə, Çin səddini Zülqərneyn (ə.s) yox, məhz çinlilər inşa etmişdilər.[117]

93-cü ayədəki “**heç bir sözü anlamayan bir tayfa gördü**” şəklində tərcümə etdiyimiz ifadəni fərqli bir qiraət əsas alınaraq “heç bir sözü anlada bilməyən bir tayfa gördü” şəklində də tərcümə etmək mümkündür. Yəni həmin insanlar fəqli bir dildə danışdıqları üçün Zülqərneyn (ə.s) onları başa düşmür, onlar da Zülqərneyni (ə.s) başa düşmürdülər. Lakin özünə Allah tərəfindən hər cür imkan verilən Zülqərneyn (ə.s) onlarla dil tapdı və onların təklifi və yardımları ilə Yəcuc və Məcuc qövmlərinə qarşı bir sədd inşa etdi. Qurani-Kərimdə bu səddin harada və nə zaman inşa edildiyi ilə əlaqədar hər hansı bir məlumat yer almır. Ancaq ümumilikdə təfsirçilər Zülqərneynin (ə.s) qarşılaşdığı insanların türklər olduğuna işarə etmişlər.[118] Buna görə də deyə bilərik ki, bu hadisə Orta Asiya, yaxud Qafqaz dağları ərazisində baş vermişdir.

قَالُوا يَا ذَا الْقَرْنَيْنِ اِنَّ يَأْجُوجَ وَمَأْجُوجَ مُفْسِدُونَ
فِى الْاَرْضِ فَهَلْ نَجْعَلُ لَكَ خَرْجًا عَلٰٓى اَنْ تَجْعَلَ

115. Mövdudi, “Təfhimül-Quran”, III, 179.
116. Elmalılı, “Hak Dini Kuran Dili”, V, 3285.
117. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 579.
118. Zəməxşəri, “əl-Kəşşaf”, II, 498; Razi, “Məfatihül-qeyb”, XXI, 169; İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 191.

بَيْنَنَا وَبَيْنَهُمْ سَدًّا ﴿٩٤﴾ قَالَ مَا مَكَّنِّى فِيهِ رَبِّى خَيْرٌ
فَأَعِينُونِى بِقُوَّةٍ أَجْعَلْ بَيْنَكُمْ وَبَيْنَهُمْ رَدْمًا ﴿٩٥﴾ ءَاتُونِى
زُبَرَ الْحَدِيدِ حَتَّىٰٓ إِذَا سَاوَىٰ بَيْنَ الصَّدَفَيْنِ قَالَ انفُخُوا
حَتَّىٰٓ إِذَا جَعَلَهُ نَارًا قَالَ ءَاتُونِىٓ أُفْرِغْ عَلَيْهِ قِطْرًا ﴿٩٦﴾
فَمَا اسْطَاعُوا أَنْ يَظْهَرُوهُ وَمَا اسْتَطَاعُوا لَهُ نَقْبًا ﴿٩٧﴾

94. Onlar dedilər: “Ey Zülqərneyn! Həqiqətən, Yəcuc və Məcuc (tayfaları) **bu ərazidə fitnə-fasad törədirlər. Bizimlə onların arasında bir sədd çəkəsən deyə sənə müəyyən məbləğ verəkmi?”**

95. O dedi: “Rəbbimin mənə verdiyi səltənət və qüdrət daha yaxşıdır. Siz (iş) **qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim.**

96. Mənə dəmir parçaları gətirin!” Nəhayət, iki dağın arasını eyni səviyyəyə gətirdiyi zaman: “(Körükləri) **üfürün!” - dedi. Onu od halına saldığı zaman: “Mənə gətirin, onun üzərinə ərimiş mis töküm!” - dedi.**

97. Beləcə (Yəcuc-Məcuc tayfaları) **nə o səddi aşa bildilər, nə də onu deşib keçə bildilər.**

Təfsiri:

Qurani-Kərimdə Yəcuc və Məcucun kimlər olduğu, harada və hansı dövrdə yaşadıqları haqqında məlumat verilməmişdir. Ancaq tarixçilər onların Həzrət Nuhun (ə.s) oğlu Yafəsin nəslindən gələn iki qəbilə olduğunu bildirmişlər. Bu mövzu ilə bağlı digər bir rəvayətə görə, Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: *“Allah-Təala: “Ey Adəm!” – deyə səslənmişdi. Həzrət Adəm (ə.s) də: “Buyur Allahım! Əmrinə* müntəzirəm!” *– demişdi. Uca Allah: “Cəhənnəmə gedəsiləri digərlərindən ayır!” – deyə buyurmuşdu. Həzrət Adəm (ə.s): “Cəhənnəmə gedəsilərin sayı nə qədərdir?” – deyə soruşduqda Allah-Təala belə buyurmuşdu: “Hər min nəfərdən doqquz yüz doxsan doqquzu cəhənnəmlikdir. Qalan bir nəfər cənnətlikdir. O günün dəhşətindən uşaqlar qocalar, hamilə qadınlar uşaqlarını salarlar. Şübhəsiz, sizdən iki tayfa var ki, onlar hara getsələr də, Allah onların sayını çoxaltmışdır. Onlar Yəcuc* və *Məcuc tayfalarıdır”*.[119] Eyni zamanda ayədəki **“fitnə-fasad törədirlər”** şəklində tərcümə etdiyimiz Quran ifadəsini əsas alaraq onların bir neçə qəbilədən ibarət bir topluluq olduğunu da söyləmək mümkündür. Bununla yanaşı, onların iyirmidən çox qəbilədən ibarət olduqları haqqında rəvayətlər də mövcuddur.[120]

Yəcuc və Məcuc haqqında Həzrət Peyğəmbərdən də bir çox rəvayət nəql edilmişdir. Əbu Hüreyrədən (r.ə) nəql olunan bir rəvayətə görə, Rəsulullah belə buyurmuşdur: “*Yəcuc və Məcuc tayfaları hər gün səddin altını qazırlar. Nəhayət, günəşin şüalarını gördükləri vaxt başlarındakı rəhbər*

119. Buxari, “Əhadisül-ənbiya” 9; Müslim, “İman”, 96.
120. Elmalılı, “Hak Dini Kuran Dili”, V, 3288.

onlara: "Qayıdın! Qalan hissəsini sabah qazarsınız!" – deyir. Növbəti gün qazmaq üçün qayıtdıqlarında oranın sanki heç qazılmamış və daha möhkəm bir şəkildə olduğunu görürlər. Nəhayət, onların orada qalma müddətləri sona çatıb Uca Allah onları insanların üstünə göndərmək istəyəndə yenə qazacaqlar. Bu dəfə də günəşin şüalarını gördükləri zaman başlarındakı rəhbər onlara: "Qayıdın! Qalan hissəsini sabah qazarsınız!" - deyəcək və "İnşallah/Allah qoysa" sözünü ifadə edəcək. Ertəsi gün geri gəldikləri zaman qazdıqları yerin qoyub getdiklərində olduğu kimi qaldığını görəcək və qazmağa davam edəcəklər. Beləliklə, onlar insanlara hücum çəkəcək və insanların bütün sularını içəcəklər. İnsanlar isə onların qorxusundan sığınacaqlara girəcəklər. Onlar göyə ox atacaq, oxları yerə düşəndə üstündə qan izinə oxşar bir şey olduğunu görəcək və belə deyəcəklər: "Yer üzündəkiləri məğlub etdik, göydəkilərə də qalib gəldik". Buna görə də Uca Allah onların boyunlarına qurd salacaq və beləcə, onları öldürəcək". Sonra Allah Rəsulu (s.ə.s) belə buyurdu: *"Məhəmmədin həyatı əlində olan Allaha and olsun ki, yer üzünün vəhşi heyvanları onların ətindən yeyib qanından içərək kökələcək və Allaha şükür edəcək".*[121]

Təfsirçi İbn Kəsirə görə, bu hədis Həzrət Peyğəmbərə isnad edilə bilməz. Çünki bu rəvayətdə qeyd olunur ki, Yəcuc və Məcuc tayfaları səddi aşmağı bacarırlar. Ancaq ayənin zahirinə baxdıqda onların çox möhkəm tikilmiş bu səddi aşmaları, yaxud deşmələri mümkün deyildir. İbn Kəsir ehtimal edir ki, Əbu Hüreyrə (r.ə) bu rəvayəti yəhudilikdən İs-

[121] Tirmizi, "Təfsir", 19; Əhməd ibn Hənbəl, "Müsnəd", II, 510; İbn Macə, "Fitən", 33.

lam dininə keçən Kəbül-Əxbardan nəql etmiş, daha sonrakı ravilər isə bunu səhvən Rəsulullaha (s.ə.s) isnad etmişlər.[122]

İki dağın arasını tamamilə dəmirdən ibarət bir sədd ilə bağlayıb üzərinə ərimiş mis tökmək və arxasınca buna üfürmək olduqca əziyyətli və böyük bir işdir. Bəzi təfsirçilər bununla bağlı ifadələri iki şəkildə təfsir etmişlər. Bir fikrə görə, Zülqərneynin (ə.s) dövründə dəmirçilik və bununla bağlı sənaye olduqca inkişaf etmişdi və buna görə də onlar belə bir sədd düzəldə bilmişdilər. İkincisi odur ki, bu sədd Zülqərneynin (ə.s) möcüzəsi olaraq belə möhkəm şəkildə inşa edilmiş və gələcəkdə insanların elm, texnika və sənaye cəhətdən bu səviyyəyə yüksələcəklərinə Qurandakı bu ifadələrlə işarə edilmişdir. Beləliklə, bu sədd elə hündür və elə möhkəm oldu ki, Yəcuc və Məcuc qəbilələri bir daha nə onu aşa bildilər, nə də deşib keçə bildilər. Təfsirçi Almalılıya görə, halbuki tarixdə neçə-neçə yüksək dağlar və sədlər aşıla bilmişdir. Deməli, bu səddin inşasında Zülqərneynin (ə.s) istifadə etdiyi materiallarla yanaşı ilahi bir qüvvə də böyük rol oynamışdır. 97-ci ayədəki “**onun üzərinə ərimiş mis töküm**” deyə tərcümə etdiyimiz ifadə ilə buna işarə edilmişdir.[123]

قَالَ هٰذَا رَحْمَةٌ مِنْ رَبِّىۚ فَإِذَا جَآءَ وَعْدُ رَبِّى جَعَلَهُ
دَكَّآءَۚ وَكَانَ وَعْدُ رَبِّى حَقًّاۖ ﴿٩٨﴾ وَتَرَكْنَا بَعْضَهُمْ

122. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 580.
123. Elmalılı, “Hak Dini Kuran Dili”, V, 3289.

يَوْمَئِذٍ يَمُوجُ فِى بَعْضٍ وَنُفِخَ فِى الصُّورِ فَجَمَعْنَاهُمْ جَمْعًا ﴿٩٩﴾

98. (Zülqərneyn) **dedi: “Bu, Rəbbimdən gələn bir mərhəmətdir. Ancaq Rəbbimin vədi gəldiyi zaman O, bu səddi yerlə yeksan edəcəkdir. Rəbbimin vədi haqdır”.**

99. O gün Biz onları (dalğalar kimi) **bir-birinə qarışmış bir halda qoyarıq. Sur çalınar və onların hamısını bir yerə cəm edərik.**

Təfsiri:

Bu iki ayədə Zülqərneynin (ə.s) inşa etdiyi səddin bir gün dağılacağından, Yəcuc və Məcuc qəbilələrinin qarışması və qiyamət qopacağı vaxt İsrafilin (ə.s) sura üfürəcəyindən bəhs olunur. Bununla bağlı iki fərqli izah mövcuddur:

Bir fikrə görə, qiyamət günü yaxınlaşdığı zaman qiyamət əlaməti olaraq həmin sədd dağılacaq, Yəcuc və Məcuc qəbilələri yer üzünə yayılacaq və nəhayət, sura birinci dəfə üfürülməklə qiyamət qopacaqdır. Sonra isə sura ikinci dəfə üfürüləcək və bütün insanlar yenidən dirildiləcək və haqq-hesaba çəkilmək üçün Uca Allahın hüzuruna cəm ediləcəklər.

Digər bir fikrə görə, birinci dəfə sura üfürülən zaman dünyadakı hər şey dağılacağı kimi, həmin sədd də dağılacaq-

dır. İkinci dəfə sura üfürələndə isə Yəcuc və Məcuc tayfaları da digər insanlar kimi təkrar dirildiləcək və haqq-hesaba çəkilmək üçün insanlara qarışıb Allahın hüzuruna gələcəklər.

Bununla yanaşı, Zülqərneyn (ə.s) ilə Yəcuc və Məcuc qissəsini batini şəkildə təvil edənlər bu ayələri fərqli şəkildə təfsir etmişlər. Belə ki, bu ayələrdə sözügedən Zülqərneyn (ə.s) Həzrət Mühəmməd peyğəmbəri (s.ə.s), aralarına sədd inşa edilən iki dağ Məkkə və Mədinə şəhərlərini, həmin sədd Məkkənin fəthi ilə həyata keçən İslam birliyini, Yəcuc və Məcuc tayfaları isə kafirləri təmsil edir. Yəni kafirlər qiyamətə qədər əsla müsəlmanların birliyini yox edə bilməyəcəklər.

Ayədə ifadə edilən və qiyamətin qopmasına səbəb olan “sur” isə mahiyyətini qavraya bilmədiyimiz bir vasitədir. Həzrət Peyğəmbər tərəfindən “sur” buynuza bənzədilmişdir. İsrafil birinci dəfə sura üfürəndə qiyamət qopacaq və hər şey yox olacaqdır. İkinci dəfə üfürəndə isə bütün canlılar təkrar diriləcəklər.[124]

وَعَرَضْنَا جَهَنَّمَ يَوْمَئِذٍ لِلْكَافِرِينَ عَرْضًا ﴿١٠٠﴾ الَّذِينَ
كَانَتْ أَعْيُنُهُمْ فِي غِطَاءٍ عَنْ ذِكْرِي وَكَانُوا لَا يَسْتَطِيعُونَ
سَمْعًا ﴿١٠١﴾

[124] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, III, 581.

100. O gün cəhənnəmi kafirlərə göstərərik.

101. O (kafirlər) **ki, gözləri pərdəli olduğu üçün Məni anmır və** (haqqı) **eşidə bilmirdilər.**

Təfsiri:

Qiyamətin qopacağına və axirətdə insanların təkrar diriləcəyinə inanmayan, eləcə də bu dünyada Uca Allahın varlığını və təkliyini göstərən bir çox dəlilləri inkar edən kafirlər isə axirətdə cəhənnəmə atılmaq üçün onun qarşısına gətiriləcəklər. İbn Məsuddan (r.ə) nəql edilən bir rəvayətdə Həzrət Peyğəmbər (s.ə.s) axirətdə baş verəcək bu hadisəni belə təsvir etmişdir: *“Qiyamət günü cəhənnəm yetmiş min kəndir ilə dartılaraq gətiriləcəkdir. Hər bir kəndiri də yetmiş min mələk dartacaq. Cəhənnəm elə bir yerə qoyulacaq ki, cənnətə girə bilmək üçün cəhənnəmin üstündəki sirat körpüsündən keçməkdən başqa bir yol qalmasın”*.[125] Beləcə, möminlər sirat körpüsündən keçərək cənnətə daxil olacaq, kafirlər isə buradan keçə bilməyərək cəhənnəmə düşəcəklər.

Ayədəki “**gözləri pərdəli olduğu üçün**” şəklində tərcümə etdiyimiz ifadə ilə inkarçılıqları səbəbilə kafirlərin mənəvi qəlb gözlərinin qapalı olduğuna və buna görə də haqq yolu görə bilmədiklərinə işarə olunur. Bu ifadəni batini şəkildə şərh edən təfsirçilər isə bunu belə izah etmişlər:

125. Müslim, “Cənnət”, 29; Tirmizi, “Cəhənnəm”, 1.

“Onların cismani gözləri ibrətlə baxa bilmədiyi üçün qəflət pərdəsi ilə örtülmüşdür. Qəlb gözləri dünya sevgisi və şəhvət pərdələri ilə axirətin dərəcələrini görməkdən pərdələnmişdir. Sirr gözləri Allah-Təalanın möcüzələrini müşahidə etməkdən pərdələnmişdir. Ruh gözləri də Allahı zikr etməkdən pərdələnmişdir. Həqiqət budur ki, batini göz müşahidə ilə, zahiri göz isə ibrətlə baxmaq surətilə açılar”.[126]

اَفَحَسِبَ الَّذِينَ كَفَرُوا اَنْ يَتَّخِذُوا عِبَادِى مِنْ دُونِى
اَوْلِيَآءَ ۚ اِنَّآ اَعْتَدْنَا جَهَنَّمَ لِلْكَافِرِينَ نُزُلًا ﴿١٠٢﴾

102. Kafirlər Məni qoyub qullarımı özlərinə himayəçi tutacaqlarınımı zənn etdilər? Biz cəhənnəmi kafirlər üçün məskən olaraq hazırladıq.

Təfsiri:

Bu ayədə Uca Allahı qoyub Həzrət İsaya (ə.s), mələklərə, şeytanlara və s. varlıqlara sitayiş edənlər qınanırlar. Şübhən siz ki, Allahdan başqa heç bir varlıq ilah olmağa layiq deyilɣ dir. Onların ilah olaraq adlandırdığı və sitayiş edib yardım istədikləri şeylər nə onlara hər hansı bir fayda verə biləcək, nə onlara kömək edə biləcək, nə də onların cəhənnəmə girmələrinə mane ola biləcəkdir. Ayədəki “məskən” şəklində

126. Bursevi, “Ruhül-Beyan Tefsiri”, V, 359.

tərcümə etdiyimiz “نُزُل/nüzül” sözü ərəb dilində “qonaqlar üçün hazırlanan yer” mənasına gəlir. Beləcə, Quranda kafirlərin daxil olacağı cəhənnəm bu sözlə ifadə edilərək onlarla istehza edilmişdir.

قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْاَخْسَرِينَ اَعْمَالًا ﴿١٠٣﴾ اَلَّذِينَ ضَلَّ
سَعْيُهُمْ فِى الْحَيٰوةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ اَنَّهُمْ يُحْسِنُونَ
صُنْعًا ﴿١٠٤﴾ اُولٰٓئِكَ الَّذِينَ كَفَرُوا بِاٰيَاتِ رَبِّهِمْ وَلِقَآئِهِ
فَحَبِطَتْ اَعْمَالُهُمْ فَلَا نُقِيمُ لَهُمْ يَوْمَ الْقِيٰمَةِ وَزْنًا ﴿١٠٥﴾
ذٰلِكَ جَزَآؤُهُمْ جَهَنَّمُ بِمَا كَفَرُوا وَاتَّخَذُٓوا اٰيَاتِى وَرُسُلِى
هُزُوًا ﴿١٠٦﴾

103. De: “Etdikləri əməllər baxımından ən çox ziyana uğrayanları sizə xəbər verəkmi?

104. (Bunlar) **yaxşı işlər gördüklərini zənn etdikləri halda, dünya həyatındakı səyləri hədər getmiş kəslərdir.**

105. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən və beləcə, əməlləri puça çıxan kəslərdir. Buna görə də qiyamət günü Biz onlar üçün heç tərəzi də qurmayacağıq.

106. İnkar etmələri, ayələrimə və peyğəmbərlərimə istehza etmələri səbəbilə onların cəzası cəhənnəmdir.

Təfsiri:

İnsan oğlu bu dünyada qarşısına bir məqsəd qoyar və ona çatmaq üçün səy göstərər. Məsələn, insanın məqsədi Allahın rizasını qazanmaqdırsa, bu uğurda əlindən gələni edər və axirət səadətinə nail olmağa çalışar. Lakin bir kimsənin hədəfi axirətə əhəmiyyət verməyib, sadəcə, dünya nemətlərini əldə etməkdirsə, o da bu uğurda səy göstərər. Uca Allah Özünə şirk qoşanların və ya Onu inkar edənlərin bu dünyadakı əməllərinin heç bir dəyəri olmadığını ifadə edir. Buna görə də onların bu dünyada etdikləri bütün əməlləri puç olmuşdur.

Əbu Hüreyrədən (r.ə) nəql edilən bir rəvayətə görə, Allah Rəsulu (s.ə.s) bu barədə belə buyurmuşdur: *“Qiyamət günü elə bir nəfər gətiriləcək ki, o, kök və iri cüssəli olduğu halda Allahın yanında milçəyin qanadı qədər dəyəri olmayacaqdır. İstəsəniz,* ***“Buna görə də qiyamət günü Biz onlar üçün heç tərəzi də qurmayacağıq”*** *ayəsini oxuyun”.*[127] Digər bir rəvayətə görə, bir dəfə Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdu: *“Qiyamət günü çox yeyib-içən gövdəli bir kişi gətiriləcək. Lakin tərəzidə onun bir dən qədər ağırlığı olmayacaq”*. Sonra Rəsulullah (s.ə.s) **“Buna görə də qi-**

[127] Buxari, “Təfsir”, 18; Müslim, “Münafiqun”, 18.

yamət günü Biz onlar üçün heç tərəzi də qurmayacağıq” ayəsini oxudu.[128]

Axirət günü insanlar haqq-hesaba çəkilərkən dünyada etdikləri yaxşı və pis əməllər mahiyyətini dərk edə bilmədiyimiz bir tərəzidə çəkiləcəkdir. Nəticə etibarilə, bu tərəzidə pis əməlləri çox olanlar cəhənnəmə atılaraq cəzalandırılacaq, yaxşı əməlləri çox olanların isə günahlarının əfv edilib-edilməyəcəyi Allah-Təala tərəfindən müəyyən ediləcəkdir. Daha doğrusu, bu tərəzi mömin olaraq vəfat etmiş kimsələrin əməllərinin miqdarını təyin etmək üçündür. Yoxsa, imansız ölənlər üçün bu tərəzinin heç bir mahiyyəti yoxdur. Çünki bir insanın nə qədər yaxşı əməlləri olsa da, o, küfr içində öldüyü təqdirdə əbədi olaraq cəhənnəmdə qalacaqdır.[129] Necə ki, digər bir ayeyi-kərimədə Uca Allah belə buyurur: **“Biz onların etdiyi hər bir** (yaxşı) **əmələ nəzər salar və onu səpələnmiş zərrələrə çevirərik** (puç edərik)**”**.[130] Buna görə də imanla dəstəklənməyən əməllərin axirətdə heç bir faydası olmayacaqdır.

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَانَتْ لَهُمْ
جَنَّاتُ الْفِرْدَوْسِ نُزُلًا ﴿١٠٧﴾ خَالِدِينَ فِيهَا لَا يَبْغُونَ
عَنْهَا حِوَلًا ﴿١٠٨﴾

128. İbn Əbu Hatim, “Təfsirül-Quranil-əzim”, VII, 2393.
129. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, III, 237.
130. Fürqan, 25/23.

107. İman gətirib yaxşı işlər görənlərə gəldikdə, onlar üçün məskən olaraq Firdövs cənnətləri vardır.

108. Onlar orada əbədi qalacaq və oradan ayrılmaq istəməyəcəklər.

Təfsiri:

İnkar edənlərə veriləcək cəzanın əksinə, iman gətirənlər Allah tərəfindən mükafatlandırılacaqlar. Bunlar Allaha və Onun peyğəmbərlərinə iman gətirən və peyğəmbərlərin gətirdiklərini təsdiq edən əməlisaleh kimsələrdir. Onların gedəcəyi yer “Firdövs” cənnətidir. Ayədə ifadə edilən “فِرْدَوْس/ firdövs” cənnətin ən uca, ən üstün və ən gözəl təbəqəsidir. Çünki hədis mənbələrində nəql edilən bir rəvayətə görə, Həzrət Peyğəmbər (s.ə.s) belə buyurmuşdur: “*Kim Allaha və Rəsuluna iman gətirər, namazı düzgün qılar, Ramazan ayında oruc tutarsa, Uca Allah onu cənnətə göndərər. O kimsə istər Allah yolunda cihad etsin, istərsə də getməyib öz yurdunda otursun, heç bir fərqi yoxdur*”. Yanındakı səhabələr: “Ey Allahın Rəsulu! Bunu insanlara müjdələməyəkmi?” – deyə soruşduqları zaman Allah Rəsulu (s.ə.s.) belə buyurdu: “*Cənnətdə yüz dərəcə var. Allah-Təala bu dərəcələri Allah yolunda cihad edənlər üçün hazırlamışdır. Hər iki dərəcənin arası göy ilə yer arasındakı məsafə qədərdir. Buna görə də Uca Allahdan cənnəti istədiyiniz zaman Firdövs cənnətini istəyin. Çünki o, cənnətin ən yüksək yeri və tən ortasıdır.*

Cənnətdəki çayların mənbəyi də oradadır. Onun üstündə isə Rəhman olan Allahın ərşi vardır”.[131]

Allah-Təala **“Onlar orada əbədi qalacaq və oradan ayrılmaq istəməyəcəklər”** deyə tərcümə etdiyimiz ayədə möminlərin Firdövs cənnətini çox sevəcəklərinə diqqət çəkir. Halbuki bir yerdə uzun müddət məskunlaşan birinin oradan sıxılıb bezəcəyi və başqa bir yerə getmək istəyəcəyi güman olunur. Uca Allah xəbər verir ki, onlar uzun müddət burada qalmalarına baxmayaraq nə bu məskənlərini başqa bir yerlə dəyişdirmək, nə başqa bir yerə köçmək, nə də buradan çıxmaq istəyəcəklər.[132]

قُلْ لَوْ كَانَ الْبَحْرُ مِدَادًا لِكَلِمَاتِ رَبِّى لَنَفِدَ الْبَحْرُ قَبْلَ
اَنْ تَنْفَدَ كَلِمَاتُ رَبِّى وَلَوْ جِئْنَا بِمِثْلِهٖ مَدَدًا ﴿١٠٩﴾

109. De: “Əgər Rəbbimin sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənmədən dəniz tükənərdi”.

Təfsiri:

Ayədəki **“Rəbbimin sözləri”** şəklində tərcümə etdiyimiz ifadədə məqsəd Allah-Təalanın elmi və hikmətidir.

131. Buxari, “Cihad”, 5; Əhməd ibn Hənbəl, “Müsnəd”, II, 335.
132. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, V, 182.

Qurani-Kərim və əvvəlki ilahi kitablar da Onun elminin bu dünyadakı bir təzahürüdür. Uca Allahın elmi və hikməti sonsuzdur və onu yazıb qurtarmaq mümkün deyildir. Uca Rəbbimiz bu həqiqəti bizim başa düşəcəyimiz bir misalla bəyan etmişdir. Çünki dəniz, mürəkkəb və qələm insanların dərk etdiyi şeylərdir. Bu misalla izah edilir ki, əgər bütün dənizlər mürəkkəb olsa, bir o qədər mürəkkəb də ona əlavə olunsa və bu mürəkkəb vasitəsilə Allahın kəlmələri - Onun elmi və hikmətləri yazılsa, mürəkkəb bitər, ancaq Allahın elmi və hikmətlərini yazıb bitirmək mümkün olmaz. Qurani-Kərimin digər bir ayəsində də: “**Şayət yer üzündəki ağaclar qələm olsaydı və dəniz mürəkkəb olub arxasından yeddi dəniz də ona qatılsaydı, yenə də Allahın sözləri** (yazmaqla) **tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət və hikmət sahibidir**”,[133] – buyurularaq bu həqiqətə diqqət çəkilir.

قُلْ اِنَّمَآ اَنَا بَشَرٌ مِّثْلُكُمْ يُوحٰٓى اِلَيَّ اَنَّمَآ اِلٰهُكُمْ اِلٰهٌ وَّاحِدٌ ۚ فَمَنْ كَانَ يَرْجُوا لِقَآءَ رَبِّهٖ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَّلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهٖٓ اَحَدًا ﴿١١٠﴾

110. De: “Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin ilahınız tək olan ilahdır. Ona görə də kim Rəb-

133. Loğman, 31/27.

binə qovuşacağını ümid edirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətdə heç kimi Ona şərik qoşmasın!”

Təfsiri:

Bu ayənin səbəbi-nüzulu ilə əlaqədar nəql edilən bir rəvayətə görə, Cündəb ibn Züheyr Rəsulullahın (s.ə.s) yanına gələrək belə demişdi: “Ey Allahın Rəsulu! Mən Allah-Təala üçün bir əməl edirəm və yalnız Onun rizasını istəyirəm. Lakin bu əməlim başqa biri tərəfindən bilinərsə, bu məni sevindirər”. Bu zaman Həzrət Peyğəmbər (s.ə.s): “*Şübhəsiz ki, Allah təmiz və gözəldir və yalnız təmiz və gözəl olanı qəbul edər. O, ixlasla edilməli olduğu halda Ona ortaq qoşularaq edilən heç bir əməli qəbul etməz!*” – buyurdu və bu zaman yuxarıdakı ayə nazil oldu.[134]

Ayədə Həzrət Mühəmməd Peyğəmbərin (s.ə.s) də bir insan olduğu həqiqətinə işarə olunur. Onun Allah-Təalanın bütün elminə agah olması imkansızdır. O, sadəcə, özünə gələn vəhyləri bilir. Bu surədə nəql edilən qissələr də ona vəhy edilən elmdən bir hissədir. Ona gələn vəhylərdən biri də bütün insanların ilahının tək bir Allah olduğudur. Ona görə də kim Rəbbinə qovuşmağı arzulayarsa, gözəl əməllər işləməli və Allaha itaət edərkən Ona şirk qoşmamalıdır. İslam dininə görə, ən böyük günah Allaha şirk qoşmaq, yəni Allahla yanaşı başqa məbudların da varlığını qəbul etməkdir. Bu günah isə Allah-Təala tərəfindən əsla bağışlanmaz.

134. Vahidi, “Əsbabün-nüzul”, s. 299.

Açıq şirk olduğu kimi gizli şirk də vardır. Məsələn, göstəriş üçün ibadət etmək, Allahdan başqasının himayədarlığına sığınmaq, Allahdan qorxduğu kimi başqalarından da qorxmaq və buna bənzər davranışlar gizli şirk sayılmışdır. Bununla bağlı İmam Əhməd ibn Hənbəl Şəddad ibn Övsdən (r.ə) nəql edir ki, bir dəfə o ağlamışdı. Ona: “Səni ağladan nədir?” – deyə soruşulduqda o belə cavab vermişdi: “Allah Rəsulundan (s.ə.s) eşitdiyim bir şey məni ağlatdı. Mən Həzrət Peyğəmbərin (s.ə.s) belə buyurduğunu eşitmişdim: *“Şirk və gizli şəhvətə görə ümmətim üçün narahatam”*. Mən: “Ey Allahın Rəsulu! Səndən sonra ümmətin şirkə düşəcək?” – deyə soruşdum. O: *“Bəli, onlar günəşə, aya, daşa və bütə sitayiş etməyəcəklər. Lakin əməllərində riyakarlıq edəcəklər. Gizli şəhvət isə odur ki, bir nəfər səhər oruclu olar, ancaq arzuladığı bir şey ona verilsə, orucunu pozar”*.[135] Digər bir rəvayətə görə isə, Həzrət Peyğəmbər (s.ə.s) bir dəfə səhabələrinə belə demişdi: “*Sizin barənizdə ən çox qorxduğum kiçik şirkdir*”. Səhabələr: “Ey Allahın Rəsulu, kiçik şirk nədir?” – deyə soruşduqda Rəsulullah (s.ə.s) belə buyurmuşdu: “*Qiyamət günü Allah-Təala insanlara əməllərinin qarşılığını verəcəyi zaman riyakarlara belə səslənəcək: “Dünyada özləri üçün göstəriş etdiyiniz kimsələrin yanına gedin, baxın görün, onların yanında hər hansı bir mükafat tapa biləcəksinizmi?”*[136] Beləcə, “Kəhf” surəsi Uca Allah tərəfindən hər bir müsəlman üçün çox zəruri olan saleh əməllərin əhəmiyyətinə və eyni zamanda gizli və açıq şirkdən uzaq durulmasına diqqət çəkilərək sona çatır.

---

135. Əhməd ibn Hənbəl, “Müsnəd”, XXVIII, 346-347.
136. Əhməd ibn Hənbəl, “Müsnəd”, V, 428.

سُورَةُ يس

“YASİN” SURƏSİ

Qurandakı sırası:	36
Nazil olduğu yer:	Məkkə
Ayələrin sayı:	83
Kəlmələrin sayı:	727
Hərflərin sayı:	3000

سُورَةُ يس

“YASİN” SURƏSİ

Adı:

Yasin: Bu ad surənin ilk ayəsini təşkil edən “yə” və “sin” hərflərindən götürülmüşdür. Bu surənin digər adları isə belə dir: قَلْبُ الْقُرآنِ/**Qəlbül-Quran** (Quranın qəlbi), مُدَافِعَة قَاضِيَة/**Müdafəə qadiyə** (Bəlaları dəf edən), المُعِمَّة/**əl-Müimmə** (Dünya və axirət nemətlərinə nail edən), العَظِيمَة/**əl-Əzimə** (Şərəfli).

Ehtiva etdiyi mövzular:

“Cinn” surəsindən sonra, “Fürqan” surəsindən əvvəl Məkkə şəhərində nazil olan “Yasin” surəsində Həzrət Məhəmmədin (s.ə.s) haqq peyğəmbər olduğunun ona nazil olan Qurani-Kərim dəlili ilə dəstəkləndiyi bəyan edilmişdir. Həmçinin burada digər peyğəmbərlərin həyatlarına dair bəzi qissələrə də yer verilməklə haqq yolunda böyük əzab-əziyyətə məruz qalan Peyğəmbərimiz (s.ə.s) və səhabələrinə təsəlli verilmişdir. Digər tərəfdən “Yasin” surəsi Allah-Təalanın birliyini və qüdrətini göstərən dəlillər, kainatdakı yaradılış və nizam-intizam, öldükdən sonra təkrar dirilmə mövzularını ehtiva edir.

Fəziləti:

Hədis mənbələrində Həzrət Peyğəmbərin (s.ə.s) “Yasin” surəsi haqqında söylədiyi hədislər də yer alır. Bunlardan

birində belə buyurulmuşdur: *“Hər bir şeyin qəlbi var. Quranın qəlbi də “Yasin”dir”.*[1] Bu hədisi-şərif bizə surənin nə qədər dəyərli bir surə olduğunu açıq-aydın göstərir. Həzrət Peyğəmbər “Yasin” surəsinin fəzilətini başqa bir hədisində belə xəbər vermişdir: *“Yasin” Quranın qəlbidir. Bir kimsə onu Allahın rizasını və axirət yurdunu istəyərək oxuyarsa, şübhəsiz ki, onun günahları bağışlanar. Ölülərinizə (can üstündə olanlarınıza) “Yasin” surəsini oxuyun!”*[2] Digər bir hədisi-şərifdə də yenə *“Ölülərinizə (can üstündə olanlarınıza) “Yasin” surəsini oxuyun!”*[3] - buyurulur. Bu hədisin ərəbcəsində keçən və hərfi mənası “ölüləriniz” olan “مَوْتَاكُمْ/mövtaküm” ifadəsi İslam alimləri tərəfindən əsas alınaraq “can üstündə olanlarınız” şəklində şərh edilmişdir. Yəni ölüm döşəyində olan kimsənin yanında “Yasin” surəsinin oxunması onun imanını gücləndirər və imanla axirətə köçməsinə kömək olar. Bir qisim İslam alimləri isə bu hədisə “Ölüb dəfn edilənlərinizə “Yasin” surəsini oxuyun” şəklində məna vermişlər. Çünki ölən müsəlmanlar üçün edilən duaların, kəsilən qurbanların və verilən sədəqələrin həmin kimsələr üçün fayda verəcəyini xəbər verən bir çox ayeyi-kərimə[4] və hədisi-şərif[5] vardır.[6] Buna görə də “Yasin” surəsi hər dövrdə müsəlmanlar üçün əhəmiyyət kəsb edən, oxunub başa düşülməsinə rəğbət göstərilən bir surə olmuşdur.

---

1. Tirmizi, “Fəzailül-Quran”, 7.
2. Əhməd ibn Hənbəl, “Müsnəd”, V, 26.
3. Əbu Davud, “Kitabül-cənaiz”, 24.
4. Bax: Həşr, 59/10.
5. Bax: Buxari, “Vəsaya”, 15; Müslim, “Vəsiyyət”, 14.
6. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 194.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

يٰسٓ ﴿١﴾

1. Ya, Sin!

Təfsiri:

“Yasin” surəsinin ilk ayəsi ərəb dilindəki “yə” və “sin” hərflərindən ibarətdir. Bu iki hərfin hansı mənaya gəldiyi ilə əlaqədar olaraq təfsirçilər iki fərqli fikir irəli sürmüşlər. Birinci fikrə görə, bunlar iki müstəqil hərf deyil, müəyyən bir mənası olan kəlməni ifadə edir. Belə ki, bu iki hərf birləşməsi bəzi ərəb ləhcələrində “ey insan” mənasına gəlir və bu ifadə ilə Həzrət Peyğəmbərə xitab edilir. Səid ibn Cübeyrdən nəql edilən bir rəvayətə görə, “Yasin” Həzrət Peyğəmbərin adlarından biridir.[7] Digər bir fikrə görə, bu, Allah-Təalanın adlarından biridir və burada Uca Allaha and içilir.

Bunların müstəqil iki hərf olduğunu söyləyən təfsirçilərə görə isə, bu hərflər Qurani-Kərimdəki iyirmi doqquz surənin əvvəlində yer alan “hürufi-müqəttəə” hərflərindəndir. Bitişmələri ilə ərəb dilində hər hansı bir məna ifadə etməyən bu hərflər bəzi surələrdə müstəqil ayə, bəzi surələrdə isə ilk ayənin əvvəlini təşkil edir. İlk dövr sələf alimlərinə görə, mütəşabeh (mənası dəqiq bilinməyən) ayələrdən sayılan hü-

7. İbn Ətiyyə, “əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz”, IV, 445.

rufi-müqəttəənin mənasını yalnız Allah bilir və bunları təfsir etmək olmaz. Sonrakı dövrlərdə təfsirçilər tərəfindən bu hərflərə verilən fərqli izahları isə belə xülasə edə bilərik:

✓ Bu hərflərlə Uca Allah kafirlərə meydan oxuyur və Quranın bənzərsiz bir kitab olduğunu bildirir. Belə ki, Qurani-Kərim məhz bu hərflərdən meydana gəlir. Yəni kafirlərdən kimin gücü çatırsa, bu hərflərdən istifadə edərək Qurana bənzər bir kitab meydana gətirsin. Ancaq bunu bacarmazlar.

✓ Bu hərflərlə insanların diqqəti Qurani-Kərimə qulaq asmağa cəlb edilir.

✓ Bu hərflər əvvəlində yer aldıqları surələrin adlarıdır.

✓ Bu hərflər surələrdəki mənaları qüvvətləndirmək üçün and içmə ifadə edir.

✓ Hər bir hərf müəyyən bir kəlmənin kök hərflərindən biridir və o kəlməyə işarə edir. Məsələn, “ya” hərfi “ey”, “sin” hərfi isə “insan” sözünə işarə edir.[8]

وَالْقُرْاٰنِ الْحَكِيمِۙ ﴿٢﴾

2. Hikmətli Qurana and olsun ki,

Təfsiri:

Cahiliyyə dövründə ərəblər yalan yerə and içməyin böyük fəlakətlərə səbəb olacağına inanırdılar. Qura-

8. Cerrahoğlu, “Tefsir Usulü”, s. 139-141.

ni-Kərimin müxtəlif ayələrində Allah-Təala tərəfindən yaratdığı müəyyən varlıqlara and içilir və beləcə, təkidlə insanlar imana dəvət olunurlar. Bu ayədə də Uca Allah hikmətlərlə dolu Qurana and içərək onları növbəti ayədə qeyd olunan həqiqətlərə iman gətirməyə dəvət edir. Eyni zamanda ayədə Qurani-Kərim “الْحَكِيمِ/**əl-həkim**” yəni **“hikmətli”** sifəti ilə tövsif olunmuşdur. Bu ifadə ilə Quranın bir çox hikmətləri, öyüd-nəsihətləri, əmr və qadağaları, eləcə də dərin mənaları ehtiva etdiyinə işarə edilir. Eyni zamanda təfsirçilər Quranın bu sifətinin aşağıdakı mənaları əhatə etdiyini də bildirirlər:

✓ Etiqad, ibadət və əxlaqla bağlı sağlam və dəyişməz hökmlər ehtiva edir.

✓ Hər bir ayəsində bir çox hikmətlər vardır.

✓ Ayələri arasında hər hansı bir ziddiyyət və ya ixtilaf olmayan mükəmməl bir kitabdır.[9]

إِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ ﴿٣﴾

3. Həqiqətən, sən göndərilən peyğəmbərlərdənsən.

Təfsiri:

Bu ayədə **“həqiqətən”** deyə tərcümə etdiyimiz təkid ədatları olan **“اِنَّ/innə”** və **“لَ/lə”** hərfləri yer alır. Quranda-

[9] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 196.

kı bu təkid ədatlarının daha çox kafirlərə xitab edən ayələrdə yer aldığı görülür. Ancaq burada Həzrət Peyğəmbərə xitab edilirsə, nə üçün təkid ədatına yer verilmişdir deyə sual verilə bilər. Bu suala belə cavab verilir ki, təkid ədatlarından istifadə edilməsinin məqsədi Həzrət Peyğəmbəri (s.ə.s) arxayın etməkdir. Yəni ayədə sanki belə deyilir: “Ey Peyğəmbər! Kafirlərin inkar və yalanlamalarına rəğmən bil ki, sən Allah tərəfindən göndərilən haqq peyğəmbərlərdən birisən və əgər peyğəmbərlik vəzifəsini yerinə yetirməzsən, bunun bir cəzası olacaqdır”.

عَلٰى صِرَاطٍ مُّسْتَقِيمٍ ﴿٤﴾

4. Doğru yoldasan.

Təfsiri:

Bu ayədə Həzrət Peyğəmbərə xitab edilərək onun heç bir əyriliyi olmayan və Allaha aparan düzgün yolda olduğu bəyan edilir. Yəni sən səndən əvvəlki peyğəmbərlərin yolu olan ən doğru yolda və Allahın razı qaldığı İslam dinindəsən. Bu, **“Şübhəsiz ki, bu Mənim doğru yolumdur. Ona tabe olun! Sizi Onun yolundan uzaqlaşdıran yollara uymayın!”**[10] deyə Uca Allah tərəfindən əmr olunan haqq yoldur. Ayədəki **“doğru yol”** odur ki, insan Allahdan başqa hər bir şeydən üz döndərməli, bütün qəlbi, fikri və zikri ilə Allaha yönəlməlidir.[11]

[10] Ənam, 6/153.

[11] Razi, “Məfatihül-qeyb”, I, 218.

تَنْزِيلَ الْعَزِيزِ الرَّحِيمِ ﴿٥﴾

5. (Bu Quran) **yenilməz qüvvət sahibi və mərhəmətli Allah tərəfindən nazil edilmişdir.**

Təfsiri:

Yəni hissə-hissə, tədricən nazil edilən bu Quran, çox qüdrətli və izzətli, həmçinin möminlərə qarşı çox mərhəmətli Allah tərəfindən göndərilmişdir.

لِتُنْذِرَ قَوْمًا مَّا أُنْذِرَ آبَاؤُهُمْ فَهُمْ غَافِلُونَ ﴿٦﴾

6. Ataları xəbərdar edilmədiyinə görə qəflət içində olan bir qövmü xəbərdar edəsən deyə (nazil edilmişdir)**.**

Təfsiri:

Bu ayədə Quranın nazil olma səbəblərindən biri izah edilir. Belə ki, ilk başda Həzrət Peyğəmbərə yaşadığı yerin sakinləri olan Məkkəliləri İslam dininə çağırması və onları xəbərdar etməsi əmr olunmuşdu. Ümumiyyətlə, təfsirçilər **“ataları xəbərdar edilmədiyinə görə”** ifadəsi ilə Həzrət Mühəmmədin (s.ə.s) peyğəmbərliyinin ilk illərində İslam dinini təbliğ etdiyi Qüreyş qəbiləsi və onların ətrafındakı ərəblərin nəzərdə tutulduğunu, eyni zamanda bu ifadə ilə həmin ərəblərə bundan əvvəl Allah tərəfindən peyğəmbər göndə-

rilmədiyinə işarə edildiyini qeyd etmişlər. Ayədəki "مَّا اُنْذِرَ اٰبَآؤُهُمْ/**ma ünzirə abauhum (ataları xəbərdar edilmədiyinə görə)"** ifadəsində yer alan **"مَا/ma"** ədatını *inkar ədatı* deyil, *bağlayıcı əvəzlik* olaraq qəbul edən bəzi təfsirçilər isə bu ifadəyə **"ataları da xəbərdar edilmiş"** mənasını vermiş və buna əsasən ərəblərə daha əvvəl də peyğəmbər göndərildiyini bildirmişlər.[12]

لَقَدْ حَقَّ الْقَوْلُ عَلٰٓى اَكْثَرِهِمْ فَهُمْ لَا يُؤْمِنُونَ ﴿٧﴾

7. Həqiqətən, onların əksəriyyəti barəsində söz (əzab hökmü) **vacib olmuşdur. Çünki onlar iman gətirməzlər.**

Təfsiri:

Təfsirlərdə ayədəki **"söz"** olaraq tərcümə etdiyimiz **"الْقَوْلُ/əl-qövl"** kəlməsi ilə Uca Allahın "Hud" surəsinin 119-cu və "Səcdə" surəsinin 13-cü ayəsində **"Cəhənnəmi insanların və cinlərin bir qismi ilə dolduracağam!"** şəklində and içməsinə işarə edildiyi bildirilmişdir.[13] Yəni Allah-Təala Quran və Sünnə ilə bəyan edilən İslam dinindən kənara çıxan insanları cəzalandıracaqdır.[14]

12. Təbəri, "Camiül-bəyan ən təvili ayil-Quran", XXII, 150; İbn Ətiyyə, "əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz", IV, 446.
13. Zəməxşəri, "əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil", III, 280.
14. Çelik, "Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri", IV, 196.

اِنَّا جَعَلْنَا فِىٓ اَعْنَاقِهِمْ اَغْلٰلًا فَهِىَ اِلَى الْاَذْقَانِ فَهُمْ مُّقْمَحُونَ ﴿٨﴾

8. Biz onların boyunlarına çənələrinə dirənən zəncirlər vurduq. Buna görə də başları yuxarı qalxmışdır.

Təfsiri:

Bu ayədə küfr içində yaşamaqda israr edənlərin bu dünyadakı halı təmsili şəkildə ifadə edilmişdir. Ayədəki “مُقْمَحُونَ/müqməhun” kəlməsi “başını yuxarı qaldırıb gözlərini yuman” mənasına gəlir. İslam dəvətini rədd edən kafirlər təkəbbürlü kimsələr idilər. Haqq dəvəti qəbul etməməkdə israr edən bu kimsələr o qədər təkəbbürlənirdilər ki, sanki çənələrinin altına zəncir vurulmuş kimi çənələrini yuxarı qaldırıb kibrli bir şəkildə gəzirdilər.[15] Qurani-Kərim onların halını bu şəkildə təsvir etmişdir. Bununla yanaşı, ayədə kafirlərin axirətdə düşəcəkləri hallarına işarə edildiyini irəli sürən təfsirçilər də olmuşdur. Ancaq sonrakı ayədə onların gözlərinin pərdələnəcəyi və görə bilməyəcəklərindən bəhs edilməsi bu fikri zəiflədir.

وَجَعَلْنَا مِنْ بَيْنِ اَيْدِيهِمْ سَدًّا وَمِنْ خَلْفِهِمْ سَدًّا فَاَغْشَيْنَاهُمْ فَهُمْ لَا يُبْصِرُونَ ﴿٩﴾

15. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 197.

9. Önlərinə bir sədd, arxalarına da bir sədd çəkib onları bağlamışıq. Buna görə də onlar (haqqı) **görə bilməzlər.**

Təfsiri:

Bu ayə əvvəlki ayənin davamıdır. Yəni Allah kafirlərin önlərinə və arxalarına böyük bir sədd çəkmişdir. Bu sədd nəticəsində onlar heç bir şeyi görə bilməzlər. Bu, onların vəziyyətlərinin çox pis olduğuna işarə edir. Belə ki, onlara bir çox dəlillər və möcüzələr göstərildiyi halda onlar yenə də iman gətirməzlər.[16] Çünki onların qəlb gözlərinə mənəvi bir pərdə çəkilmişdir. Təfsirçilərə görə, burada bənzətmə yolu ilə maddi sədd ifadə edilərək kafirlər üçün iman yollarının bağlandığına işarə edilir.

Digər tərəfdən İbn Hişamın öz əsərində nəql etdiyi bir rəvayətə görə, Həzrət Peyğəmbər Məkkədən Mədinəyə hicrət etməyə niyyətləndiyi zaman müşriklər evinin ətrafında pusqu qurub onu öldürmək üçün gözləyirdilər. Həzrət Peyğəmbər isə "Yasin" surəsini başdan bu ayəyə qədər oxumuş və yerdən biraz torpaq ovuclayıb həmin müşriklər tərəfə atmışdı. Beləcə, möcüzəvi bir şəkildə Həzrət Peyğəmbər onların gözünə görünmədən aralarından keçərək evini tərk etmişdi.[17]

16. Əbüssüud, "İrşadül-əqlis-səlim ila məzayal-Quranil-kərim", IV, 249.
17. İbn Hişam, "əs-Sirətün-nəbəviyyə", s. 416.

وَسَوَآءٌ عَلَيْهِمْ ءَاَنْذَرْتَهُمْ اَمْ لَمْ تُنْذِرْهُمْ لَا يُؤْمِنُونَ ﴿١٠﴾

10. Sən onları xəbərdar etsən də, etməsən də onlar üçün birdir. Onlar iman gətirməzlər.

Təfsiri:

Bu ayədə Uca Allah peyğəmbərinə xitab edərək buyurur ki, kafirləri xəbərdar edib-etməməyin onlar üçün birdir. Çünki onlar azğınlıq içində yaşayıb qəlblərini zəlalət bürüdüyü üçün özlərinə heç bir xəbərdarlıq və tənbeh fayda verməz. Buna görə də onlar iman gətirməzlər. Belə ki, xəbərdarlıq ölü qəlbləri dirildə bilməz. Bu ilahi xəbərdarlıqlar yalnız iman etməyə hazır olan qəlblərə fayda verər. Bu ayə Həzrət Peyğəmbər (s.ə.s) üçün təsəlli mahiyyəti daşıyır. Necə ki, digər bir ayeyi-kərimədə Uca Allah Peyğəmbərinə: **“Onlar iman gətirmirlər deyə, az qalsın özünü həlak edəcəksən!”**[18] – deyə xitab edir və kafirlərin imana gəlməmələrinə görə Həzrət Peyğəmbərin kədərlənməməsini istəyir.

اِنَّمَا تُنْذِرُ مَنِ اتَّبَعَ الذِّكْرَ وَخَشِيَ الرَّحْمٰنَ بِالْغَيْبِ ۚ فَبَشِّرْهُ بِمَغْفِرَةٍ وَاَجْرٍ كَرِيمٍ ﴿١١﴾

[18] Şüəra, 26/3.

11. Sən yalnız Zikrə (Qurana) **tabe olan və görmədiyi halda Rəhman olan Allahdan qorxan kimsəni xəbərdar edə bilərsən. Buna görə də onu bağışlanma və gözəl bir mükafatla müjdələ!**

Təfsiri:

Təfsirçilərin əksəriyyəti burada keçən **“الذِّكْر/əz-zikr”** kəlməsi ilə Qurani-Kərimin nəzərdə tutulduğu barəsində həmfikirdir. Bəzi təfsirçilər isə bu kəlməni Quran ayələri və ya açıq-aydın dəlillər şəklində təfsir etmişlər.[19] Ayədə **“yalnız”** deyə tərcümə etdiyimiz **“اِنَّمَا / innəma”** istisna ədatı ilə iman gətirməyənlər xəbərdar edilməkdən istisna tutulmamışlar, sadəcə olaraq bu xəbərdarlıqların kafirlərə heç bir fayda verməyəcəyinə işarə edilmişdir.[20]

اِنَّا نَحْنُ نُحْيِ الْمَوْتٰى وَنَكْتُبُ مَا قَدَّمُوا وَاٰثَارَهُمْ ؕ وَكُلَّ شَىْءٍ اَحْصَيْنَاهُ فِىٓ اِمَامٍ مُّبِيْنٍ ﴿١٢﴾

12. Həqiqətən, Biz ölüləri dirildər, etdikləri əməlləri və qoyduqları izləri yazarıq. Biz hər şeyi açıq-aydın kitabda sayıb yazmışıq.

19. Razi, “Məfatihül-qeyb”, XXVI, 47.
20. İbn Ətiyyə, “əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz”, IV, 448.

Təfsiri:

Bəzi ilk dövr təfsirçiləri bu ayədəki **"ölüləri dirildər"** ifadəsi ilə nəzərdə tutulanın insanları şirkdən xilas edib imana qovuşdurmaq olduğunu qeyd etmişlər.[21] Ayədə keçən **"etdikləri əməlləri və qoyduqları izlər"** şəklində tərcümə etdiyimiz ifadə belə izah edilir ki, istər yaxşı, istər pis əməl olsun, insanın bütün etdikləri əməl dəftərinə qeyd edilir. Digər tərəfdən ayədə insan öldükdən sonra onun əməl dəftərinin bağlanmadığına işarə edilir. Çünki insanın bu dünyada qoyub getdiyi izlər sayılan elm öyrətmə, xeyriyyəçilik, insanların daim istifadə edə biləcəyi məscid, kitabxana, məktəb, bulaq və s. kimi əsərlər ortaya qoymaq kimi faydalı əməllərinin savabı ölümündən sonra da əməl dəftərinə yazılar.[22] Həzrət Peyğəmbərin (s.ə.s) *"İnsan öldükdən sonra onun əməl dəftəri bağlanar. Yalnız bu üç işə görə savabı yazılmağa davam edər: Sədəqeyi-cariyə[23], faydalı elm və ölənin arxasınca dua edən xeyirli övlad!"*[24] hədisi də bu həqiqəti bəyan edir.

Eyni zamanda bir kimsə digər insanların zərər çəkəcəyi, yaxud onları Allahın yolundan azdıran əsərlər qoyub gedərsə, bunun günahı da onun əməl dəftərinə yazılar. Yəni

---

21. Zəməxşəri, "əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil", III, 281.
22. Zəməxşəri, "əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil", III, 281.
23. Elə əməllər vardır ki, insan öldükdən sonra da ona görə əməl dəftərinə savab yazılar. Belə əməllərə sədəqeyi-cariyə deyilmişdir. Buna *yol inşa etmək, su quyusu qazdırmaq, məktəb və ya məscid tikdirmək* kimi cəmiyyət üçün faydalı işləri misal göstərmək olar.
24. Müslim, "Vəsiyyət", 14.

bu ayə başqalarının günaha batmasına səbəb olanları da əhatə edir. İnsanlar üçün yaxşı və pis cığır açanların aqibətləri haqqında Həzrət Peyğəmbər (s.ə.s) belə buyurur: *“Kim yaxşı bir işə başçılıq edərsə, ona həm o işin savabı, həm də qiyamətə qədər onu özünə nümunə götürənlərin savabı qədər savab yazılar. Kim də pis bir işə başçılıq edərsə, ona da həm o işin günahı, həm də qiyamətə qədər onu özünə nümunə götürənlərin günahı qədər günah yazılar”*.[25]

Təfsirçilərin bir qismi ayədəki **“açıq-aydın kitab”** deyə tərcümə etdiyimiz **“اِمَامٍ مُبِيْنٍ/imamin-mübin”** ifadəsi ilə Allah dərgahında olan və bütün əməllərin yazıldığı lövhi-məhfuza işarə olunduğunu bildirmişlər. Bəzi təfsirçilər isə, bunun insanın əməl dəftəri olduğu qənaətindədirlər.[26]

وَاضْرِبْ لَهُمْ مَثَلًا اَصْحٰبَ الْقَرْيَةِۘ اِذْ جَآءَهَا
الْمُرْسَلُوْنَۚ ﴿١٣﴾ اِذْ اَرْسَلْنَآ اِلَيْهِمُ اثْنَيْنِ فَكَذَّبُوْهُمَا
فَعَزَّزْنَا بِثَالِثٍ فَقَالُٓوْا اِنَّآ اِلَيْكُمْ مُّرْسَلُوْنَ ﴿١٤﴾ قَالُوْا
مَآ اَنْتُمْ اِلَّا بَشَرٌ مِّثْلُنَاۙ وَمَآ اَنْزَلَ الرَّحْمٰنُ مِنْ شَيْءٍۙ
اِنْ اَنْتُمْ اِلَّا تَكْذِبُوْنَ ﴿١٥﴾ قَالُوْا رَبُّنَا يَعْلَمُ اِنَّآ اِلَيْكُمْ
لَمُرْسَلُوْنَ ﴿١٦﴾ وَمَا عَلَيْنَآ اِلَّا الْبَلَاغُ الْمُبِيْنُ ﴿١٧﴾ قَالُٓوْا

25. Müslim, “Elm”, 15.
26. İbn Ətiyyə, “əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz”, IV, 448.

اِنَّا تَطَيَّرْنَا بِكُمْ ۚ لَئِنْ لَمْ تَنْتَهُوا لَنَرْجُمَنَّكُمْ وَلَيَمَسَّنَّكُمْ
مِنَّا عَذَابٌ اَلِيمٌ ﴿١٨﴾ قَالُوا طَٰٓئِرُكُمْ مَعَكُمْ ۗ اَئِنْ ذُكِّرْتُمْ ۗ
بَلْ اَنْتُمْ قَوْمٌ مُسْرِفُونَ ﴿١٩﴾ وَجَآءَ مِنْ اَقْصَا الْمَدِينَةِ
رَجُلٌ يَسْعٰى قَالَ يَا قَوْمِ اتَّبِعُوا الْمُرْسَلِينَ ۙ ﴿٢٠﴾
اِتَّبِعُوا مَنْ لَا يَسْـَٔلُكُمْ اَجْرًا وَهُمْ مُهْتَدُونَ ﴿٢١﴾ وَمَا
لِيَ لَآ اَعْبُدُ الَّذِي فَطَرَنِي وَاِلَيْهِ تُرْجَعُونَ ﴿٢٢﴾ ءَاَتَّخِذُ
مِنْ دُونِهٖٓ اٰلِهَةً اِنْ يُرِدْنِ الرَّحْمٰنُ بِضُرٍّ لَا تُغْنِ عَنِّي
شَفَاعَتُهُمْ شَيْـًٔا وَلَا يُنْقِذُونِ ۚ ﴿٢٣﴾ اِنِّي اِذًا لَفِي ضَلَالٍ
مُبِينٍ ﴿٢٤﴾ اِنِّي اٰمَنْتُ بِرَبِّكُمْ فَاسْمَعُونِ ۗ ﴿٢٥﴾ قِيلَ
ادْخُلِ الْجَنَّةَ ۗ قَالَ يَا لَيْتَ قَوْمِي يَعْلَمُونَ ۙ ﴿٢٦﴾ بِمَا غَفَرَ
لِي رَبِّي وَجَعَلَنِي مِنَ الْمُكْرَمِينَ ﴿٢٧﴾ وَمَآ اَنْزَلْنَا عَلٰى
قَوْمِهٖ مِنْ بَعْدِهٖ مِنْ جُنْدٍ مِنَ السَّمَآءِ وَمَا كُنَّا مُنْزِلِينَ
﴿٢٨﴾ اِنْ كَانَتْ اِلَّا صَيْحَةً وَاحِدَةً فَاِذَا هُمْ خَامِدُونَ
﴿٢٩﴾ يَا حَسْرَةً عَلَى الْعِبَادِ ۚ مَا يَأْتِيهِمْ مِنْ رَسُولٍ اِلَّا

كَانُوا بِهٖ يَسْتَهْزِءُوْنَ ﴿٣٠﴾ اَلَمْ يَرَوْا كَمْ اَهْلَكْنَا قَبْلَهُمْ
مِنَ الْقُرُوْنِ اَنَّهُمْ اِلَيْهِمْ لَا يَرْجِعُوْنَ ﴿٣١﴾ وَاِنْ كُلٌّ لَّمَّا
جَمِيْعٌ لَّدَيْنَا مُحْضَرُوْنَ ﴿٣٢﴾

13. Sən onlara şəhər xalqını misal çək! Bir vaxtlar ora elçilər gəlmişdi.

14. O zaman Biz onlara iki elçi göndərmişdik. Ancaq onlar ikisini də təkzib etmişdilər. Biz də o ikisini üçüncü bir elçi ilə dəstəkləmişdik. Onlar: “Həqiqətən, biz (Allah tərəfindən) **sizə göndərilən elçilərik!” - dedilər.**

15. (Şəhərin əhalisi:) **“Siz də bizim kimi bir insansınız. Rəhman olan Allah heç bir şey nazil etməmişdir. Siz yalan danışırsınız!” - dedilər.**

16. Onlar dedilər: “Rəbbimiz bilir ki, biz həqiqətən, sizə göndərilmiş elçilərik.

17. Bizim vəzifəmiz ancaq (Allahın əmrlərini) **açıq-aşkar təbliğdir”.**

18. Onlar (şəhər əhalisi)**: “Həqiqətən, biz sizdə bir uğursuzluq gördük. Əgər bu işdən vaz keçməzsəniz, and olsun ki, sizi daşqalaq edəcəyik və bizdən sizə acı bir əzab toxunacaq”, - dedilər.**

19. Elçilər dedilər: “Sizin uğursuzluğunuz özünüzdəndir. Əgər sizə öyüd-nəsihət verilirsə (bu uğursuzluqdurmu)**? Xeyr! Siz həddi aşan bir qövmsünüz”.**

20. Şəhərin ən ucqar yerindən bir kişi qaçaraq gəlib belə dedi: “Ey qövmüm, bu elçilərə tabe olun!

21. Sizdən heç bir əvəz istəməyən və doğru yolda olan bu kimsələrə tabe olun!”

22. “Mən nəyə görə məni yaradana ibadət etməməliyəm?! Siz də Onun hüzuruna qaytarılacaqsınız.

23. Mən heç Ondan başqa ilahlar qəbul edərəmmi? Əgər Rəhman olan Allah mənə bir zərər vermək istəsə, onların (bütlərin) **şəfaəti mənə heç bir fayda verməz və onlar məni xilas edə bilməzlər.**

24. (Əgər bütlərə sitayiş etsəm,) **o zaman mən açıq-aşkar bir azğınlıq içində olaram.**

25. Şübhəsiz ki, mən sizin Rəbbinizə iman gətirdim. Mənə qulaq asın!”

26. “Cənnətə daxil ol!” – deyildi. O da belə dedi: “Kaş qövmüm biləydi ki,

27. Rəbbim məni bağışladı və məni möhtərəm kimsələrdən etdi”.

28. Ondan sonra qövmünün üstünə göydən heç bir ordu göndərmədik və göndərəsi də deyildik.

29. (Onları məhv edən) **qorxunc səsdən başqa bir şey deyildi. Onlar birdən-birə sönüb getdilər.**

30. Özlərinə bir peyğəmbər gəldikdə onu ələ salan qulların vay halına!

31. Onlardan əvvəl neçə-neçə millətləri məhv etdiyimizi və bir daha onların yanına qayıda bilmədiklərini görmədilərmi?

32. Əlbəttə, hamısı birlikdə Bizim hüzurumuza gətiriləcəklər.

Təfsiri:

Qurani-Kərimdə bir çox keçmiş peyğəmbərin və onların xaricindəki bəzi insanların ibrətamiz həyat hekayələri qısa şəkildə anladılır ki, bunlara “Quran qissələri” deyilir. Bu qissələrin Quranda yer almasının əsas məqsədi Həzrət Peyğəmbər (s.ə.s) və möminləri çətinliklərə qarşı təsəlli edib onları İslam yolunda ruhlandırmaqdır. Qissələrin ən əsas xüsusiyyəti odur ki, bəhs edilən kimsələrin çox azının adı qeyd olunur, eyni zamanda tarix və məkan kimi məlumatlara yer verilmir və hekayətlər ixtisarla anladılır. Çünki Quran qissələrinin məqsədi tarixi məlumatlar vermək deyil, oradan götürəcəyimiz ibrət dərsidir.

Yuxarıdakı ayələrdə də İslamdan əvvəlki bir dövrdə yaşamış üç haqq elçisinin qissəsi nəql olunur. Belə ki, Allah-Təala tərəfindən bir şəhərə oranın əhalisini haqqa dəvət etmələri üçün üç elçi göndərilmiş, ancaq küfr içində qalmaqda israr edən, eyni zamanda həmin elçilərə iman gətirən birini təhqir edib qətl edən əhaliyə bu əməlinə görə Allah tərəfindən böyük bir bəla göndərilmişdir. Beləliklə, Mühəmməd peyğəmbəri (s.ə.s) inkar edən, hətta ona qarşı sui-qəsd planlayan Məkkə müşriklərinə bu ibrətamiz hadisə ilə xəbərdarlıq edilmişdir. Ayədəki **"şəhər xalqı"** olaraq tərcümə etdiyimiz ifadə ilə hansı şəhərin nəzərdə tutulduğu haqda Qurani-Kərimdə və hədisi-şəriflərdə hər hansı bir məlumat yoxdur. Ancaq klassik təfsir mənbələrində bu şəhərin bugünkü Türkiyə ərazisində yerləşən Antakya şəhəri olduğu və həmin elçilərin İsa peyğəmbərin həvariləri olduğu qeyd olunur. Həmin şəhərin əhalisini də rumlar təşkil edirdi.[27]

Bu qissənin bizə verdiyi məlumata görə, həmin şəhərə gələn iki elçi haqq dini oranın xalqına təbliğ etmiş, ancaq onlar haqqı inkar etdiklərinə görə Uca Allah üçüncü elçini də onlara dəstək üçün göndərmişdir. Lakin xalq yenə də elçiləri hədələyib küfrdə israr etdi. Həmçinin elçilərin onlara uğursuzluq gətirəcəyini iddia etdilər və bu işə son qoymasalar, onları daşqalaq etməklə təhdid etdilər. Xalqın bu hərəkətlərini qəbul etməyən və elçilərə hər hansı bir zərər yetirmələrindən narahat olan Həbib Nəccar deyə bilinən mömin bir kişi isə şəhərin ucqar bir yerindən gələrək camaata öyüd-nəsihət vermiş və onları elçilərə tabe olub Alla-

27. İbn Kəsir, "Təfsirül-Quranil-əzim", VI, 505.

ha iman gətirməyə dəvət etmişdi. Onun sözlərinə də qulaq asmayan xalq hiddətlənərək həmin mömini şəhid etmişdi. Təfsirçilərə görə, Allah-Təala tərəfindən həmin möminə son nəfəsində nail olacağı cənnətdəki məqamı göstərilmiş və **"Cənnətə daxil ol!" – deyildi"** ayəsi də məhz buna işarə edir. Eyni zamanda Həbib Nəccarın son nəfəsində belə xalqı üçün heyifsiləndiyi və onların da həqiqəti görməsini arzuladığı **"O da belə dedi: "Kaş qövmüm biləydi ki, Rəbbim məni bağışladı və məni möhtərəm kimsələrdən etdi"** ifadələri ilə Qurani-Kərimdə xəbər verilir.

Qissənin davamında həmin şəhərin kafir əhalisinin Allah-Təala tərəfindən necə cəzalandırıldıqlarından bəhs edilir. 29-cu ayədə o kafirlərə verilən cəzanın qorxunc bir səsdən ibarət olduğu qeyd olunur və bu cəza **"qorxunc bir səs"** şəklində ifadə edilir. Bu səsin mahiyyəti haqqında heç bir məlumat verilməməklə yanaşı, Qurani-Kərimdə başqa qövmlərə verilən cəzalar üçün də eyni ifadə yer alır. Həmin ayələri nəzərə aldıqda bu cəzanın ildırım vurması və ya zəlzələ ola biləcəyi ehtimal olunur. Bəzi təfsirçilər isə bu qorxunc səsin Həzrət Cəbrailin (ə.s) çıxartdığı bir səs olduğunu bildirmişlər. Qissənin sonunda Quranın xitab etdiyi kafirlərin də bundan ibrət götürmələri istənilir və axirət günü hər kəsin Allahın hüzurunda hesab verəcəyi qeyd olunur.

Təfsirçilərə görə, elçilərin təbliğini qəbul edib onlara iman gətirən və camaat tərəfindən öldürülən adamın adı Həbib ibn Musa, yaxud Həbib ibn Məri idi. O, dülgərliklə məşğul olduğu üçün mənbələrdə onun adı daha çox "Həbibi Nəccar" olaraq qeyd olunur. Çünki ərəb dilində dülgərə

“nəccar” deyilir. Bəzi mənbələrin qeyd etdiyinə görə, o, gündəlik qazancının yarısını öz ailəsi üçün, digər yarısını isə xeyriyyəçilik fəaliyyəti üçün xərcləyirdi. Cüzam xəstəliyinə tutulduğuna görə şəhərdən kənar bir yerdə yaşayırdı. Dülgər olduğu üçün əvvəllər büt düzəldib satmaqla məşğul olan Həbibi Nəccar daha sonra elçilərin möcüzələrini görüb tək olan Allaha iman gətirmişdi.

Bu qissə Həzrət Mühəmmədin (s.ə.s) peyğəmbərliyini qəbul etməməkdə israr edən və ona qarşı ədavət bəsləyən müşriklərin aqibətinə dair bir nümunə təşkil edir. Bir tərəfdən qissədə müşriklərə xəbərdarlıq edilir, digər tərəfdən isə Həzrət Peyğəmbərin (s.ə.s) yolundan gedən möminlərə təsəlli verilir və onların əhval-ruhiyyələri yüksəldilir. XX əsr təfsirçilərindən Almalılı Həmdi Yazır isə bu qissəyə fərqli bir məna yükləmişdir. Belə ki, ayədə **“Biz də o ikisini üçüncü bir elçi ilə dəstəkləmişdik”** ifadəsi ilə təmsil mahiyyətində üç böyük səmavi dinin peyğəmbərlərinə işarə edilmişdir. Yəni ilk iki elçi ilə Musa peyğəmbər və İsa peyğəmbər, üçüncüsü ilə də Mühəmməd peyğəmbərə işarə edilmişdir. Ayədə dünya bir şəhərə bənzədilmişdir. Şəhərin əhalisindən iman gətirən kimsə ilə də dünyadakı hər bir cəmiyyətdə haqq dini qəbul edənlərin azlıq təşkil etdiyinə işarə edilmişdir.[28]

وَاٰيَةٌ لَّهُمُ الْاَرْضُ الْمَيْتَةُ ۚ اَحْيَيْنٰهَا وَاَخْرَجْنَا مِنْهَا حَبًّا
فَمِنْهُ يَاْكُلُوْنَ ﴿٣٣﴾

28. Elmalılı, “Hak Dini Kuran Dili”, VI, 4017.

33. Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu (su vasitəsilə) **dirildir və oradan dənələr çıxardırıq, onlar da bunlardan yeyirlər.**

Təfsiri:

Yer üzü qupquru və orada həyatdan əsər-əlamət yox ikən ona can verən və üstündə növbənöv bitki və heyvanları var edən Allah-Təaladır. Düşünüb təfəkkür edənlər üçün burada Uca Allahın varlığını, birliyini və qüdrətini göstərən bir çox dəlil vardır. Ayədəki “dənə” şəklində tərcümə etdiyimiz **“حَبًّا/həbbən”** kəlməsi ərəb dilində əksəriyyətlə taxıl toxumu üçün istifadə edilməklə yanaşı, burada, ümumiyyətlə, toxum növünü ifadə edir və kəmiyyətcə az, ya da çox hər cür dənə və toxumları ehtiva edir. Bir görüşə görə isə, bu ifadə ilə yer üzündəki həyatın başlanğıcına işarə edilir. Belə ki, yer üzündə heç bir canlı yox ikən ilk əvvəl orada Allah tərəfindən bitkilər yaradılmış və təkamül nəticəsində daha sonra heyvanlar, bundan sonra isə təkamülün son halqası olan insan xəlq edilmişdir.[29] Eyni zamanda burada insanın yaşaması üçün lazımi qidaların başında gələn dənli bitkilərin hər il yenidən cücərməsinin də Uca Allahın qüdrətinə və iradəsinə bağlı olduğuna işarə edilmişdir. Buna görə də bir qisim təfsirçilər bu ayədə məhz insan üçün zəruri qidalanma vasitəsi olan buğdadan bəhs olunduğunu bildirmişlər.[30]

29. Elmalılı, “Hak Dini Kuran Dili”, VI, 4024.

30. Zəməxşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, III, 285-286; Razi, “Məfatihül-qeyb”, XXVI, 66.

وَجَعَلْنَا فِيهَا جَنَّاتٍ مِنْ نَخِيلٍ وَأَعْنَابٍ وَفَجَّرْنَا فِيهَا مِنَ
الْعُيُونِ ﴿٣٤﴾ لِيَأْكُلُوا مِنْ ثَمَرِهِ وَمَا عَمِلَتْهُ أَيْدِيهِمْ أَفَلَا
يَشْكُرُونَ ﴿٣٥﴾

34. Biz orada xurma və üzüm bağları yaratdıq, orada bulaqlar qaynatdıq ki,

35. Onun meyvələrindən və əlləri ilə emal etdiklərindən yesinlər. Hələ də şükür etməzlərmi?

Təfsiri:

Bu ayələrdə də Allah-Təala insanların faydalanması üçün dünyada yaratdığı nemətləri xatırladır və bunun müqabilində insanların əksəriyyətinin nankor və naşükür olduğuna işarə edir. 34-cü ayədə keçən **“orada bulaqlar qaynatdıq”** şəklində tərcümə etdiyimiz ifadədəki “فِيهَا/**fiha (orada)**” kəlməsi ilə su mənbələrinə işarə olunur. Təfsirçilərə görə, burada nəzərdə tutulan su mənbələrinin yer altı sular ola biləcəyi kimi, bağların arasından axan bulaq və çaylar olması da mümkündür.[31] Digər tərəfdən 35-ci ayədəki **“ثَمَرِهِ/səmərihi (onun meyvələri)”** ifadəsindəki **“هِ/hi (onun)”** şəxs əvəzliyinin nəyə işarə etdiyi haqqında da iki fərqli rəy vardır. Bir rəyə görə, bununla bağlar nəzərdə tutulur ki, insanlar bağların bəhrəsi olan meyvələrdən faydalanırlar. Bəzi təfsirçilərə görə isə, burada həmin şəxs

31. Elmalılı, “Hak Dini Kuran Dili”, VI, 4027.

əvəzliyi ilə Allah-Təalaya işarə olunur və digər hər bir şey kimi, meyvələrin də Allaha məxsus olduğuna işarə olunur.

Ayədəki **“əlləri ilə emal etdiklərindən yesinlər”** deyə tərcümə etdiyimiz ifadə ilə insanların istehsal etdiyi və ticarət yolu ilə əldə edilən qida məhsulları, eləcə də əl əməyi ilə əldə edilən və bişirilən yeməklər və s. nəzərdə tutulur.[32]

سُبْحَانَ الَّذِى خَلَقَ الْاَزْوَاجَ كُلَّهَا مِمَّا تُنْبِتُ الْاَرْضُ وَمِنْ اَنْفُسِهِمْ وَمِمَّا لَا يَعْلَمُونَ ﴿٣٦﴾

36. Torpağın bitirdiklərindən, (insanların) **özlərindən və bilmədikləri başqa şeylərdən bütün cütləri yaradan Allah pak və müqəddəsdir!**

Təfsiri:

Bu ayeyi-kərimədə dünyadakı insan, heyvan və bitkilər kimi hər kəsə məlum olan varlıqların, eləcə də insanların bilmədiyi digər bütün cüt olan varlıqların Allah tərəfindən xəlq edildikləri qeyd olunur. Həmçinin bir-birinin cifti və ya əksi olan bu cütlüklərin hamısının xaliqinin tək olduğuna işarə edilir. Qurani-Kərimin nazil olduğu yeddinci əsrdə insanlar kainatdakı bir çox şeyin cüt olduğunu bilmirdilər və bu yalnız müasir elm tərəfindən kəşf olunmuşdur. Ancaq

[32] Razi, “Məfatihül-qeyb”, XXVI, 68.

on dörd əsr əvvəl nazil olan bu ayədə həmin elmi həqiqətin gələcəkdə kəşf olunacağına işarə olunmuşdur. Belə ki, Paul Dirac adlı elm adamı atom parçacıqlarının da cüt olduğunu, yəni atomdakı hər bir elektronun qarşısında bir pozitronun olduğunu kəşf etmiş və “parite qanunu” adı verilən bu kəşfə görə ona Nobel mükafatı verilmişdir.[33]

Bu ayəyə Allahı ucaltma olan **“سُبْحَان/sübhan** (pak və müqəddəsdir)**”** ifadəsi ilə başlanılır və beləcə, bu nemətin böyük əhəmiyyət kəsb etdiyinə işarə edilir. Həmçinin burada cütlərin qeyd olunması ilə insanların cütləşməsi olan evliliyin önəmli və dəyərli olduğu həqiqətinə işarə edən incə bir məna olduğu qeyd olunur.[34]

وَاٰيَةٌ لَّهُمُ الَّيْلُ ۚ نَسْلَخُ مِنْهُ النَّهَارَ فَاِذَا هُمْ مُّظْلِمُوْنَ ۙ ﴿٣٧﴾

37. Gecə də onlar üçün (Allahın qüdrətini göstərən) **bir dəlildir. Biz gündüzü ondan sıyırıb çıxardarıq və bu zaman onlar qaranlıqda qalarlar.**

Təfsiri:

Bu ayədə gecə və gündüzü meydana gətirən sistemin də Allah tərəfindən yaradılıb nizama salındığı və onun Allahın varlığını və qüdrətini göstərən bir dəlil olduğu ifadə edilir.

33. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, IV, 488.
34. Elmalılı, “Hak Dini Kuran Dili”, VI, 4028.

Ayədəki **“sıyırıb çıxardarıq”** şəklində tərcümə etdiyimiz **“نَسْلَخُ/nəsləxü”** feili ərəb dilində “bir şeyin dərisini soymaq” və ya “qabığı soyub çıxartmaq” kimi mənalara gələn سَلَخَ/*sələxə* feilinin indiki zaman formasıdır. Günəş doğarkən, yaxud batarkən gündüzün və gecənin tədricən meydana gəlməsi məcazi olaraq bu feillə ifadə edilmişdir. Təfsirçilər ayənin sonundakı **“bu zaman onlar qaranlıqda qalarlar”** ifadəsi ilə gecənin qorxuducu tərəfinə diqqət çəkildiyini və gündüzün insanlar üçün çox böyük bir nemət olduğuna işarə edildiyini qeyd etmişlər.[35] Digər tərəfdən bu ayədən belə bir nəticə də çıxartmaq olar ki, kainatda əsas olan qaranlıqdır. Dünyamızın günəş ətrafında fırlanması sayəsində yerin müəyyən bir hissəsində o qaranlıq yarılaraq aydınlıq ortaya çıxar və daha sonra təkrar ora qaranlığa qərq olar.[36]

وَالشَّمْسُ تَجْرِى لِمُسْتَقَرٍّ لَهَا ۚ ذٰلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ ﴿٣٨﴾

38. Günəş də özü üçün təyin olunmuş yerdə axıb gedir. Bu, yenilməz qüvvət sahibi və hər şeyi bilən Allahın qoyduğu nizamdır.

35. Zəməxşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, III, 286.
36. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, IV, 489.

Təfsiri:

Allah-Təala bu ayədə insanlar üçün yaratdığı günəş nemətinə diqqət çəkir. Yer kürəsi və digər müəyyən planetlər “Günəş” adını verdiyimiz ulduzun ətrafında dövr edir ki, buna biz günəş qalaktikası deyirik. Günəş qalaktikası isə kainatdakı milyardlarla qalaktikalardan biridir. Astronomiya elmi xəbər verir ki, günəş həm həcm, həm də parlaqlıq etibarilə digər ulduzlardan fərqlənmir. Ancaq o, yer kürəsinə daha yaxın olduğu üçün digər ulduzlardan daha böyük və daha işıqlı görünür. Günəşin əhəmiyyəti ondadır ki, yer kürəsi onun ətrafında dövr edir və günəş oradakı canlı həyat üçün istilik enerjisi və işıq mənbəyidir. Dünyadakı iqlim dəyişikliyi, külək və yağışların meydana gəlməsində də günəş böyük rol oynayır. Gecə dünyanı aydınladan ay da məhz günəş sayəsində nur saçır. Digər tərəfdən insanlar üçün hesablama vasitələri olan gün, həftə, ay və illər məhz günəş sayəsində hesablana bilir.

İslamiyyətdən əvvəlki dövrlərdə Ərəbistan yarımadasının müxtəlif bölgələrində günəş, ay və ulduz kimi göy cisimlərinə sitayiş edilirdi. Bu ayələrdə günəş və aya işarə edilməklə Allahın elminin hər şeyi ehtiva etdiyi, bu göy cisimlərinin də Onun yaratdığı varlıqlar olduğu və Allahın onları insanlar üçün nemət olaraq yaratdığı vurğulanır. Günəş və aydan bəhs edən ayələrin əksəriyyətinin Məkkədə nazil olması da göstərir ki, bu kimi ayələrin məqsədi batil inanclara sahib Məkkə ərəblərini hidayətə sövq etməkdir. Möminlər isə Allahın xəlq etdiyi bu göy cisimləri haqqında təfəkkür etməli və bütün bu nemətlərə görə Uca Allaha şükür etməlidirlər.

Ayədə günəşin hərəkətini ifadə edən **“تَجْرِى/təcri (axıb gedir)”** feilinin yer alması isə elmi həqiqətlərə zidd deyildir. Çünki günəşin də özünə xas maqnit sahəsi var və o da öz oxu ətrafında dövr edən bir göy cismidir. Günəşin dövr etmə periodu ekvatorda 25 gün, qütblərdə isə 35 gün olaraq hesablanmışdır.[37] Eyni zamanda bu feilin günəş sisteminin samanyolu qalaktikasındakı hərəkətinə işarə etməsi də ehtimal olunur.

Ayədəki **“Bu, yenilməz qüvvət sahibi və hər şeyi bilən Allahın qoyduğu nizamdır”** cümləsi ilə təfəkkür etməyimiz istənilən əsas məsələyə işarə edilmişdir. Yəni bu mükəmməl sistemin və çox incə hesabların qüdrətli və hər şeyi incəliyinə qədər bilən Uca Allah tərəfindən yaradıldığı, kainatdakı bütün bu nizam-intizamın Onun tərəfindən qoyulduğu bildirilir.[38]

وَالْقَمَرَ قَدَّرْنَاهُ مَنَازِلَ حَتّٰى عَادَ كَالْعُرْجُونِ الْقَدِيمِ ﴿٣٩﴾

39. Ay üçün də mərhələlər təyin etdik. Nəhayət, o, xurma ağacının qurumuş əyri budağına bənzər bir hala (hilal şəklinə) **düşər.**

37. Martinez, “The observer’s guide to astronomy”, I, 9.
38. Zəməxşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, III, 286.

Təfsiri:

Ayədəki **“mərhələlər”** deyə tərcümə etdiyimiz **“مَنَازِل/mənazil”** kəlməsi “مَنْزِل/mənzil” sözünün cəm formasıdır və ərəb dilində “məskən, dayanacaq, ev” kimi mənalara gəlir. Dünyanın təbii peyki olan ay yer kürəsinin ətrafında dövr edərkən ayın günəş şüalarının işıqlandırdığı tərəfi parlaq görünür və hər gün bu parlaqlığın forması tədricən dəyişir. Ayın dünyadan görünüş etibarilə dairəvi formasından incə yay formasına çevrilib təkrar dairəvi formaya keçməsi 28 dəyişkənlikdə baş verir ki, ərəblər bunları “mənzil” adlandırırdılar. Bir ay 29 gündən ibarət olarsa, bir gecə, 30 gündən ibarət olarsa, iki gecə ay səmada görünməz. Buna görə də ayın insan gözü ilə görünən tərəfləri 28 mənzildir.[39] Ayədə ayın xurma ağacının qurumuş əyri budağına bənzədilməsi ilə bu mənzillərin ən incə formasına işarə edilmişdir. Çünki ayədə buna işarə edən “عُرْجُون/**urcun**” sözü ərəb dilində quruduqdan bir il sonra çox incəlib əyilmiş xurma budağına deyilir.

لَا الشَّمْسُ يَنْبَغِى لَهَآ اَنْ تُدْرِكَ الْقَمَرَ وَلَا الَّيْلُ سَابِقُ النَّهَارِ ۗ وَكُلٌّ فِى فَلَكٍ يَسْبَحُونَ ﴿٤٠﴾

40. Nə günəş aya çata bilər, nə də gecə gündüzü keçə bilər. Hər biri öz orbitində üzər.

[39] Zəməxşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, III, 286-287.

Təfsiri:

Bu ayədəki **“Nə günəş aya çata bilər, nə də gecə gündüzü keçə bilər”** ifadəsi ilə günəş və ayın dünya və insanlar üçün böyük əhəmiyyət kəsb etdiyi və onların üzərində böyük təsirləri olduğu, bu iki göy cismi üçün Allah tərəfindən təyin edilmiş hərəkət nizamını heç kimin poza bilməyəcəyi və hər birinin Allahın qoyduğu qanunlara tabe olduğu vurğulanır. Bəzi təfsirçilər bu ifadə ilə günəş və ayın saçdığı işıqların bir-birinə bənzəmədiyinə işarə edildiyini qeyd etmişlər. Bir qisim təfsirçi isə bu ifadəyə “onlardan biri doğduğu zaman digəri batar” mənası vermişlər.[40]

Ayənin sonundakı **“Hər biri öz orbitində üzər”** şəklində tərcümə etdiyimiz hissəsində keçən **“فَلَك /fələk”** sözü təfsirçilər tərəfindən göy cisimlərinin dövr etdikləri orbit olaraq izah edilmişdir. Bəzi təfsirçilər isə bu sözün “qalaktika” mənasına gəldiyini qeyd etmişlər.[41]

وَاٰيَةٌ لَّهُمْ اَنَّا حَمَلْنَا ذُرِّيَّتَهُمْ فِى الْفُلْكِ الْمَشْحُونِ ﴿٤١﴾

41. Onların nəsillərini (ulu babalarını) **yüklə dolu gəmiyə mindirməyimiz də onlar üçün bir dəlildir.**

Təfsiri:

Uca Allah bu ayədə Nuh tufanına işarə edir və bunun Allahın varlığına və təkliyinə dəlalət etdiyini xəbər verir.

40. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII, 7-8; Şövkani, “İrşadül-fühul”, IV, 424.
41. Elmalılı, “Hak Dini Kuran Dili”, VI, 4030.

Belə ki, Nuh peyğəmbər Allah tərəfindən qövmünü haqq yola dəvət etməsi üçün göndərilmişdi. Ancaq onlardan az bir qismi istisna olmaqla, əksəriyyəti onu təkzib etdi. Buna görə də Allah-Təala Nuh peyğəmbərə bir gəmi düzəltməsini və tufan qopacağı zaman möminləri və hər bir heyvan cinsindən bir cütlüyü gəmiyə mindirməsini əmr etdi. Nəhayət, tufan qopub yer üzünün hər tərəfini su basdığı zaman Allah həmin gəmidəkiləri xilas etmişdi. Beləcə, məhz o gəmidəki insanlar sayəsində yer üzündə insan nəsli davam etmişdir. Allah-Təala insan oğlunun bu tarixi həqiqəti təfəkkür etməsini və Allaha yönəlməsini istəyir.

Ayədəki “ذُرِّيَّة/zürriyyə” kəlməsinə “gələcək nəsillər” mənasını verən bir qisim təfsirçilərə görə, ayədə ifadə edilən yüklə dolu gəmilər ilə analaların bətnləri, “ذُرِّيَّة/zürriyyə” kəlməsi ilə də həmin bətnlərdəki uşaqlar nəzərdə tutulmuşdur.

وَخَلَقْنَا لَهُمْ مِنْ مِثْلِهِ مَا يَرْكَبُونَ ﴿٤٢﴾

42. Onlar üçün bunun kimi başqa minik vasitələri də yaratdıq.

Təfsiri:

Bu ayədə kafirlərə Allahın onlara bəxş etdiyi nemətləri düşünüb ibrət almaları üçün ətraflarında müşahidə etdikləri dəlillər göstərilir ki, bunlardan biri də nəqliyyat vasitələridir. Məhz Allahın bu neməti sayəsində insanlar bir yerdən başqa bir yerə daha sürətli və rahat şəkildə səyahət edə

bilirlər. Bu vasitələrdən biri də gəmidir. Əvvəlki ayədə Nuh peyğəmbərin gəmisinə işarə edildikdən sonra burada, ümumiyyətlə, insanların istifadə etdikləri gəmilər qeyd olunur və insanların bu nemətləri düşünüb Allaha şükür etmələri istənilir. Hərçənd ki, gəmilər insan əli ilə düzəldilib, insana gəmi düzəltmək üçün lazım olan şüur və qabiliyyəti verən və bunun üçün istifadə edəcəyi ləvazimatı yaradan Allah-Təaladır. Buna görə də ayədə **“خَلَقْنَا/xələqna (yaratdıq)”** ifadəsi yer alır. Həmçinin ağır yüklərlə və insanlarla dolu gəmilərin suda batmadan üzməsi Uca Allahın qoyduğu təbiət qanunları nəticəsində meydana gəlir. Digər tərəfdən ayədə gələcək dövrlərdə ixtira ediləcək müxtəlif cür dəniz nəqliyyat vasitələrinə işarə edildiyi də ehtimal olunur.

وَاِنْ نَشَأْ نُغْرِقْهُمْ فَلَا صَرِيخَ لَهُمْ وَلَا هُمْ يُنْقَذُونَ ﴿٤٣﴾

اِلَّا رَحْمَةً مِنَّا وَمَتَاعًا اِلٰى حِينٍ ﴿٤٤﴾

43. Əgər istəsəydik, onları suda boğardıq. O zaman nə onların köməyinə çatan olardı, nə də onlar xilas olunardılar.

44. Ancaq tərəfimizdən bir mərhəmət olaraq və müəyyən bir vaxta qədər (dünyadan) **faydalansınlar deyə** (onları xilas etdik)**.**

Təfsiri:

Allah-Təala bu ayədə gəmi ilə səyahət edənləri suya qərq edə biləcəyini və heç kimin onların imdadına çata bilməyəcəyini xəbər verir. Yəni gəmi ilə sağ-salamat səyahət edən kimsə buna görə Uca Allaha şükür etməlidir. Uca Allah gəmi ilə səyahət edənlərin Ondan başqa heç kim tərəfindən xilas edilə bilməyəcəyini xəbər verir. Allahın mərhəməti sayəsində onlar əcəlləri çatana qədər dünya nemətlərindən faydalanaraq ömür sürərlər. Əgər gəmidəkilər Allahın mərhəmətinə nail ola bilməsələr, gündüz, yaxud gecənin bir anında o gəmi suya qərq olar və içindəkilər ölüb yox olarlar. Dənizdə səyahət edənlər və bu təhlükələri görənlər bunu başa düşüb Allahın mərhəmətini hiss edər və belə bir yerdə xilaskarın yalnız Allah-Təala olduğunu dərk edərlər.

وَإِذَا قِيلَ لَهُمُ اتَّقُوا مَا بَيْنَ أَيْدِيكُمْ وَمَا خَلْفَكُمْ لَعَلَّكُمْ تُرْحَمُونَ ﴿٤٥﴾

45. Onlara: “Önünüzdəkindən və arxanızdakından qorxun! Ola bilsin ki, sizə mərhəmət olunar”, - deyildikdə (onlar üz çevirərlər)**.**

Təfsiri:

Kainatda və insanların ətrafında baş verən hadisələrdən misallar verilərək, insanlar Allahın varlığı və təkliyini təfək-

kürə dəvət edildikdən sonra, bu və daha sonrakı ayələrdə iman və əxlaqla bağlı məlumatlara yer verilmişdir. Ayədəki **“Önünüzdəkindən və arxanızdakından qorxun!”** ifadəsindəki ön və arxa ilə nəyin nəzərdə tutulduğu barəsində təfsirçilər müxtəlif fikirlər səsləndirmişlər. Bu fikirləri belə xülasə etmək olar:

✓ Sizdən əvvəlki ümmətlərin başına gələnlər və axirət əzabı.

✓ Keçmişdə işlədiyiniz və gələcəkdə işləyəcəyiniz günahların cəzası.

✓ Dünyadakı və axirətdəki cəza.

✓ Görə bildiyiniz və görə bilmədiyiniz müsibətlər.[42]

Kafirlərin bu xəbərdarlıq qarşısında hansı cavabı verdikləri onlardan daha ətraflı bəhs edən 46-cı ayənin sonunda **“üz çevirərlər”** şəklində bəyan edilmişdir.[43] Yəni bütün bu xəbərdarlıqlara rəğmən kafirlər yenə də haqqı qəbul etmək istəmirlər.

وَمَا تَأْتِيهِمْ مِنْ اٰيَةٍ مِنْ اٰيَاتِ رَبِّهِمْ اِلَّا كَانُوا عَنْهَا مُعْرِضِينَ ﴿٤٦﴾

46. Onlara Rəbbinin ayələrindən elə bir ayə gəlməz ki, ondan üz çevirməsinlər.

42. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII, 11-12.
43. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, IV, 443.

Təfsiri:

Yəni haqq yola dəvət qarşısında ağlını işlətməyən və qəlbini bağlı tutaraq inadkarlıq edən kafirlər hansı dəlil gətirilsə də, yenə inkarçılığa davam edərlər. Bu ayədəki **“ayə”** kəlməsinə təfsirçilər tərəfindən “Allahın varlığını göstərən dəlil”, “möcüzə”, “ilahi vəhy” kimi mənalar verilmişdir.[44]

وَاِذَا قِيلَ لَهُمْ اَنْفِقُوا مِمَّا رَزَقَكُمُ اللّٰهُ ۙ قَالَ الَّذِينَ كَفَرُوا لِلَّذِينَ اٰمَنُوٓا اَنُطْعِمُ مَنْ لَوْ يَشَٓاءُ اللّٰهُ اَطْعَمَهٗٓ ۖ اِنْ اَنْتُمْ اِلَّا فِى ضَلَالٍ مُبِينٍ ﴿٤٧﴾

47. Onlara: “Allahın sizə verdiyi ruzidən infaq edin!” – deyildikdə kafirlər möminlərə: “Allahın istədiyi təqdirdə yedirdə biləcəyi kimsəni bizmi yedirdəcəyik? Siz tamamilə zəlalət içindəsiniz”, - dedilər.

Təfsiri:

Məkkə dövründə nazil olan ayələrin daha çox iman və əxlaq mövzusunu ehtiva etdiyi və bu iki sahədəki batil əməllərin aradan qaldırılmasına istiqamətləndiyi görülür. Bu əməlləri Allaha şərik qoşmaq və sahib olduğu mal-mülkdən ehtiyac sahibləri üçün infaq etməmək olaraq xülasə edə bilərik.

44. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, IV, 443-444.

Bu ayənin Məkkəli müşriklərin müsəlman olan kölələrə və yoxsul qohum-əqrəbalarına yardımlarını kəsmələri və bunun müqabilində Həzrət Peyğəmbərin (s.ə.s) möminləri bu kimi ehtiyac sahiblərinə yardım edilməsi üçün dəvət etməsi səbəbilə nazil olduğu rəvayət olunur.[45] Bəzi təfsirçilərə görə, bir qisim müşriklər möminlər tərəfindən öz mallarından kasıblar üçün xərcləməyə dəvət olunduqları halda onlar möminlərə: “Siz: “Ruzini verən Allahdır. O, istədiyinə çox, istədiyinə az ruzi verir”, – deyirsiniz. Elə isə Allahın ruzi vermək istəmədiyi birini biz nə üçün doyuzduraq?!” – deyərək istehzalı cavablar verirdilər. Halbuki bəndələrinə ruzi bəxş etmək Allahın iradəsinə bağlıdır. Onu heç kim buna görə sorğu-sual edə bilməz. Digər tərəfdən Allahın ruzi verməsi birbaşa ola biləcəyi kimi, O, başqalarını buna vasitəçi də edə bilər. Ancaq insanların imkan daxilində möhtac olanlara yardım etməsi onlar üçün bir sınaqdır.

وَيَقُولُونَ مَتٰى هٰذَا الْوَعْدُ اِنْ كُنْتُمْ صَادِقِينَ ﴿٤٨﴾

48. Onlar: “Əgər doğru söyləyirsinizsə, bu vəd olunan (qiyamət) **nə zaman olacaq?” - deyirlər.**

Təfsiri:

Müşriklər axirəti inkar etdikləri üçün: “Bizi təhdid etdiyiniz qiyamət günü nə vaxt gələcək? Bizi qorxutduğunuz o cəhənnəm əzabı nə zaman baş verəcək? Əgər düz deyirsi-

45. İbn Ətiyyə, “əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz”, IV, 456.

nizsə, bunları da bizə xəbər verin”, - deyirdilər. Allah-Təala da onların bu suallarına aşağıdakı ayə ilə cavab vermişdir.

مَا يَنْظُرُونَ اِلَّا صَيْحَةً وَاحِدَةً تَأْخُذُهُمْ وَهُمْ يَخِصِّمُونَ ﴿٤٩﴾

49. Onlar bir-birləri ilə höcətləşdikləri bir vaxtda özlərini yaxalayacaq o qorxunc səsi gözləyirlər.

Təfsiri:

Əvvəlki ayədə qeyd olunan müşriklərin sualına burada cavab verilmiş və qiyamətin anidən baş verəcəyinə işarə edilmişdir. Belə ki, onlar dünyəvi işləri ilə məşğul olarkən və öz aralarında mübahisələr apararkən qiyamət baş verəcək və daha sonra haqq-hesab günü gələcəkdir.[46] Ayədəki **“qorxunc səs”** deyə tərcümə etdiyimiz “**صَيْحَةً وَاحِدَةً/səyhətən vahidətən**” ifadəsi ilə qiyamətin qopması üçün böyük mələklərdən biri olan İsrafilin (ə.s) sura üfürməsi nəticəsində meydana gələn səsə işarə edilmişdir.[47] İbn Kəsirin (ö. 774/1373) qeyd etdiyinə görə, bu qorxu səsidir. İnsanlar gündəlik işləri ilə məşğul olduqları bir anda Uca Allah İsrafilə (ə.s) əmr edəcək, o da sura uzun-uzun üfürəcək və yer üzündə bu səsi eşitməyən heç kim qalmayacaq.[48]

46. İbn Ətiyyə, “əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz”, IV, 456; Razi, “Məfatihül-qeyb”, XXVI, 87.
47. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII, 13-14.
48. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, VI, 516.

فَلَا يَسْتَطِيعُونَ تَوْصِيَةً وَلَآ إِلَىٰٓ أَهْلِهِمْ يَرْجِعُونَ ﴿٥٠﴾

50. O zaman onlar nə vəsiyyət edə bilər, nə də ailələrinin yanına qayıda biləcəklər.

Təfsiri:

Qiyamət qopan zaman insanların bir-birlərinə söz deməyə, öyüd verməyə, yaxud vəsiyyət etməyə belə imkanları qalmayacaq. Digər tərəfdən insan can verərkən öz ailəsinin yanında olmağı arzulayır, ancaq qiyamət qoparkən insanların bu imkanı da olmayacaq və dərhal olduqları yerdə can verəcəklər.[49] Həzrət Peyğəmbər (s.ə.s) bir hədisi-şərifində belə buyurur: *“Qiyamət alıcı və satıcı öz aralarında parçanı açdıqdan sonra onun alış-verişini edə bilmədən və parçanı bükmədən qopacaqdır. Qiyamət bir adam öz su hovuzunu palçıqla təmir etdikdən sonra onun suyundan istifadə edə bilmədən qopacaqdır. Qiyamət bir insan loğmanı ağzına apardıqdan sonra onu uda bilmədən qopacaqdır”.*[50] Buradan da aydın olur ki, qiyamətin qopması ani və sürətli bir şəkildə baş verəcəkdir. Bu zaman insanların əllərindəki bir işi bitirməyə, yaxud söz söyləməyə belə fürsətləri qalmayacaq və hər kəs öləcəkdir.

---

49. İbn Ətiyyə, “əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz”, IV, 456-457; Şövkani, “İrşadül-fühul”, IV, 427-428.
50. Buxari, “fitən”, 25.

وَنُفِخَ فِى الصُّورِ فَاِذَا هُمْ مِنَ الْاَجْدَاثِ اِلٰى رَبِّهِمْ يَنْسِلُونَ ﴿٥١﴾

51. Sur (ikinci dəfə) **çalınan kimi onlar qəbirlərindən qalxıb sürətlə Rəbbinə tərəf gedəcəklər.**

Təfsiri:

Yəni daha sonra İsrafil ikinci dəfə sura üfürəcək və beləcə, bütün insanlar üçün ölümdən sonrakı diriliş başlayacaqdır. Həzrət Adəmdən (ə.s) qiyamətə qədər yaşamış bütün insanlar qəbirlərindən qalxaraq məhşərdə Allahın hüzurunda toplanacaqlar.[51]

قَالُوا يَا وَيْلَنَا مَنْ بَعَثَنَا مِنْ مَرْقَدِنَا ۜ هٰذَا مَا وَعَدَ الرَّحْمٰنُ وَصَدَقَ الْمُرْسَلُونَ ﴿٥٢﴾

52. Onlar belə deyəcəklər: “Vay halımıza! Yatdığımız yerdən (qəbirlərimizdən) **bizi kim qaldırdı? Bu, Rəhman olan Allahın vəd etdiyidir. Peyğəmbərlər də doğru deyirlərmiş”.**

[51] Sabuni, “Səfvətüt-təfasir”, III, 16.

Təfsiri:

İnsanlar yenidən dirilib sürətli bir şəkildə məhşərə tərəf gedərkən dünyada ikən bu həqiqəti inkar edənlər əvvəlcə nəyə məruz qaldıqlarını başa düşməyəcəklər. Buna görə də bir-birlərindən nə baş verdiyini soruşacaq, sonra da həqiqəti anlayıb dərin bir peşmançılığa qərq olacaqlar. Onlar Allahın vədinin və peyğəmbərlərin söylədiklərinin doğru olduğunu etiraf edəcəklər. Bəzi təfsirçilərə görə, ayədəki sualın kafirlər tərəfindən, **“Bu, Rəhman olan Allahın vəd etdiyidir. Peyğəmbərlər də doğru deyirlərmiş”** şəklindəki cavabın isə mələklər və ya möminlər tərəfindən veriləcəyi ehtimal olunur. Təfsir alimi Təbəri (ö. 310/923) bu cavabın möminlər tərəfindən veriləcəyi ehtimalına üstünlük vermişdir.[52] Təfsirçilərin əksəriyyətinə görə, ayədəki **“yatdığımız yer”** şəklində tərcümə etdiyimiz **“مَرْقَدِنَا/mərqədina”** ifadəsi ilə insanların basdırıldıqları qəbirləri və ya ölüb qaldıqları yerlər nəzərdə tutulmuşdur.

اِنْ كَانَتْ اِلَّا صَيْحَةً وَاحِدَةً فَاِذَا هُمْ جَمِيعٌ لَدَيْنَا مُحْضَرُونَ ﴿٥٣﴾

53. O dəhşətli səs qopan kimi onların hamısı Bizim hüzurumuza gətiriləcəklər.

[52] Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII,16-17.

Təfsiri:

Təfsirçilərə görə, bu ayədə qeyd olunan dəhşətli səs isə İsrafilin ikinci dəfə sura üfürməsidir.[53] Bu zaman bütün insanlar dirildilib dünyada etdikləri əməllərdən haqq-hesaba çəkilmək üçün Allahın hüzurunda, yəni məhşərdə toplanacaqlar.

فَالْيَوْمَ لَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَلَا تُجْزَوْنَ اِلَّا مَا كُنْتُمْ تَعْمَلُوْنَ ﴿٥٤﴾

54. Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Siz ancaq etdiyiniz əməllərin qarşılığını alacaqsınız.

Təfsiri:

Axirət günü heç kimə cüzi bir haqsızlıq və zülm edilməyəcəkdir. O insan istər mömin və yaxşı əməl sahibi olsun, istərsə də kafir və pis əməl sahibi olsun fərqi yoxdur. Eyni zamanda heç kimə başqasının günahı yüklənməyəcək və başqasının əməlindən məsul tutulmayacaqdır. Hər kəs yalnız öz əməlinə görə mükafat, yaxud cəza alacaqdır.

اِنَّ اَصْحَابَ الْجَنَّةِ الْيَوْمَ فِىْ شُغُلٍ فَاكِهُوْنَ ﴿٥٥﴾

55. Həqiqətən cənnətliklər bu gün nemətlər içində səfa sürərlər.

53. Razi, “Məfatihül-qeyb”, XXVI, 88.

Təfsiri:

Təfsir mənbələrində qeyd edildiyinə görə, axirətdə cənnətliklər özlərinə bəxş edilən nemətlər içində kef çəkəcək, hurilərlə xoş vaxt keçirəcəklər. Səhabələrdən İbn Abbasa (r.ə) görə, ayədə möminlərin cənnətdə əylənəcəklərinə və kafirlərin cəhənnəmdəki hallarını düşünməyəcəklərinə işarə edilmişdir.[54] Ayədə, ümumiyyətlə, cənnət əhlinin istədikləri hər cür naz-nemət içində səfa sürəcəkləri və heç bir bezginlik və narahatçılığa məruz qalmayacaqları bildirilir.

هُمْ وَاَزْوَاجُهُمْ فِى ظِلَالٍ عَلَى الْاَرَآئِكِ مُتَّكِؤُنَ ﴿٥٦﴾

56. Onlar və zövcələri kölgəliklər altındakı taxtlara söykənib oturarlar.

Təfsiri:

Cənnəti qazananlar sıx kölgəlikləri olan cənnət bağlarında həyat yoldaşları ilə birlikdə səfa sürəcəklər. Orada nə günəşin istisi, nə də şiddətli soyuq olacaqdır. Onlar cənnətdə bər-bəzəkli taxtlarda əyləşəcəklər.[55]

لَهُمْ فِيهَا فَاكِهَةٌ وَلَهُمْ مَا يَدَّعُونَ ﴿٥٧﴾

57. Orada onlar üçün meyvə və istədikləri hər şey mövcuddur.

54. Sabuni, “Səfvətüt-təfasir”, III, 16.
55. Sabuni, “Səfvətüt-təfasir”, III, 17.

Təfsiri:

Cənnətdəkilər hər cür meyvədən istədikləri qədər bol-bol yeyəcəklər. Onlar üçün arzuladıqları hər şey orada hazır olacaqdır. Ayədəki **“istədikləri hər şey mövcuddur”** deyə tərcümə etdiyimiz ifadə cənnət nemətlərinin həddi-hüdudu olmadığını göstərir. Yəni cənnətə daxil olan bir insan ürəyindən nə keçirsə, onun üçün mövcud olacaq və bezmədən-usanmadan həmin nemətlərdən faydalana biləcəkdir.[56]

سَلَامٌ قَوْلًا مِنْ رَبٍّ رَحِيمٍ ﴿٥٨﴾

58. Rəhmli Rəbb tərəfindən (onlara) **“salam” deyilər.**

Təfsiri:

Əvvəlki ayələrdə cənnət nemətləri haqqında bəhs edildikdən sonra bu ayədə Uca Allahın rizasını qazanmış olma müjdəsinin sadalanan digər bütün cənnət nemətlərindən daha dəyərli olduğu vurğulanmışdır. Təfsirçilər Allahın salamının cənnət əhlinə mələklər vasitəsilə, yaxud birbaşa çatdırılacağını qeyd etmişlər.[57] Bir hədisi-şərifdə bununla əlaqədar olaraq belə buyurulmuşdur: *“Cənnətdəkilər nemətlər içində səfa sürərkən anidən yuxarıdan bir nur gələr. Başlarını qaldırdıqları zaman Allah-Təalanın onlara yaxınlaşdığını görərlər. Uca Allah onlara: “Ey cənnət əhli, sizə salam*

[56] Şövkani, “İrşadül-fühul”, IV, 431.

[57] Zəməxşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, III, 290.

olsun!” – buyurar. Onlar Allaha, Allah da onlara baxar. Ona baxdıqları müddətcə O, gözlərindən itmədən heç bir nemətə baxmazlar. Allahın nuru və bərəkəti yurdlarında onların üstündə qalar”.[58] Digər bir izaha görə, bu ayədəki **“salam”** ifadəsi ilə cənnət əhli üçün əmin-amanlığın olacağına və heç bir şübhə və narahatçılığa yer olmadığına işarə edilmişdir.[59]

وَامْتَازُوا الْيَوْمَ اَيُّهَا الْمُجْرِمُونَ ﴿٥٩﴾

59. (Günahkarlara isə belə deyilər:) **“Ey günahkarlar, bu gün** (möminlərdən) **ayrılın!”**

Təfsiri:

Uca Allah əvvəlki ayələrdə möminlərin cənnətdəki halından xəbər vermişdi. Bu və sonrakı ayələrdə isə kafirlərin aqibətinin necə olacağını bildirir. Bu ayədən aydın olur ki, axirət günü mələklər kafirlərə səslənərək möminlərdən ayrılmalarını tələb edəcəklər. Bəzi təfsirçilərə görə, məhşər yerində möminlərə: “Cənnətə daxil olun!” – deyildikdən sonra kafirlərə onlardan uzaqlaşmaları söylənəcək.[60] Beləcə mömin və kafir tayfalar bir-birlərindən ayrılacaqlar.

58. Razi, “Məfatihül-qeyb”, XXVI, 94-95; İbn Macə, “Sünnə”, 13.
59. Razi, “Məfatihül-qeyb”, XXVI, 94-95.
60. Sabuni, “Səfvətüt-təfasir”, III, 19.

اَلَمْ اَعْهَدْ اِلَيْكُمْ يَا بَنِىٓ اٰدَمَ اَنْ لَا تَعْبُدُوا الشَّيْطَانَ ۚ
اِنَّهٗ لَكُمْ عَدُوٌّ مُّبِيْنٌ ۙ﴿٦٠﴾ وَّاَنِ اعْبُدُوْنِىْ ۭ هٰذَا صِرَاطٌ
مُّسْتَقِيْمٌ ﴿٦١﴾

60. Ey Adəm oğulları! Mən sizə əmr etmədimmi ki, şeytana ibadət etməyin, o, sizin açıq-aşkar düşmənizdir.

61. Mənə ibadət edin. Doğru yol budur!

Təfsiri:

Axirətdə Allah-Təala tərəfindən deyiləcək bu sözlər qınaq və töhmət ifadə edir. Beləcə, günahkar kafirlər qınanacaq və nə üçün şeytana tabe olduqları barəsində sorğu-sual olunacaqlar. Şeytana ibadətdən məqsəd onun vəsvəsələrinə qulaq asmaq və onun ardınca gedib Allaha üsyan etməkdir.[61] Şeytan insanın açıq-aydın düşmənidir. Çünki o, ilk insan olan Həzrət Adəmin (ə.s) xəlq olunmasından etibarən insanlığa qarşı öz düşmənçiliyini elan etmiş və bunun qiyamətə qədər davam edəcəyini bildirmişdir. İmtahan dünyasının sirri də məhz buradadır. Həsən Bəsri (r.ə) belə deyir: “Bir kimsədə bu dört xüsusiyyət olarsa, Uca Allah onu şeytanın şərindən mühafizə edər:

61. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII, 23.

1. Hər hansı bir şeyə qarşı həddindən artıq istək duyduğu zaman özünü itirmədən nəfsinə hakim olmaq.

2. Bir şeydən qorxduğu zaman yenə özünü itirmədən özünə hakim olmaq.

3. Şəhvani hislər oyandığı zaman onu dəf edə bilmək və nəfsinə hakim olmaq.

4. Qəzəbləndiyi zaman qəzəbinə hakim olmaq, şüursuz hərəkətlərə yol verməmək və özünü ələ almaq.[62]

Eyni zamanda bu ayələrdə günahkarlara veriləcək cəzanın qeyri-adi olmadığına işarə olunur. Çünki 61-ci ayədə də qeyd edildiyi kimi onlara daha əvvəl Allahın elçiləri vasitəsilə yalnız Allaha itaət etmələri və doğru yolun yalnız bu olduğu xəbər verilmişdi. Ancaq onlar peyğəmbərlərin Allaha çağıran bu təbliğatlarına rəğmən şeytanın ardınca gedərək zəlalət yolunu seçdilər.

وَلَقَدْ اَضَلَّ مِنْكُمْ جِبِلًّا كَثِيرًا ۬ اَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ ﴿٦٢﴾

62. Həqiqətən, (şeytan) **sizdən bir çox nəsilləri haqq yoldan azdırdı. Hələ də dərk etmirsinizmi?**

62. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 218.

Təfsiri:

Bu ayə **“şeytana ibadət etməyin”** əmrinin səbəbini təkid edir. Yəni and olsun ki, şeytan sizdən bir çox kimsəni azdırdı və onun doğru yola yönəlməsinə mane oldu. Təbəriyə görə, şeytanın insanları Allaha itaət etməkdən yayındırmasının nəticəsi onların şeytana ibadət etmələridir. Uca Allah ayənin davamında şeytana tabe olanların ağıllarını işlətmədiyini xəbər verir və sual cümləsi ilə onları qınayır. Yəni ağıllı kimsə heç vaxt şeytana uymaz və haqq yoldan azmaz.[63]

هٰذِهٖ جَهَنَّمُ الَّتِى كُنْتُمْ تُوعَدُونَ ﴿٦٣﴾

63. Bu, sizə vəd olunan cəhənnəmdir.

Təfsiri:

Uca Allah şeytana uyaraq haqq yoldan azanları məruz qalacaqları əzaba dair xəbərdar edir. Bu, məhz cəhənnəm odudur. Eyni zamanda bu əzab barəsində onlara peyğəmbərləri tərəfindən xəbər verildiyi də vurğulanır.

اِصْلَوْهَا الْيَوْمَ بِمَا كُنْتُمْ تَكْفُرُونَ ﴿٦٤﴾

64. (Haqqı) **inkar etdiyinizə görə bu gün ora girin!**

63. Sabuni, “Səfvətüt-təfasir”, III, 19.

Təfsiri:

Yəni dünyada haqqı inkar etməyiniz səbəbilə cəhənnəm əzabını dadın və müxtəlif cür əzablara məruz qalın! Bu əmr cəhənnəmlikləri təhqir mənasına gələr. Belə ki, onlar dünyada ikən çox təkəbbürlənir və Allahı inkar edirdilər. Bundan sonra isə Uca Allah kafirlərin axirətdə hər kəsin gözü qabağında rüsvay ediləcəklərini xəbər verir.

اَلْيَوْمَ نَخْتِمُ عَلٰٓى اَفْوَاهِهِمْ وَتُكَلِّمُنَآ اَيْدِيهِمْ وَتَشْهَدُ اَرْجُلُهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ ﴿٦٥﴾

65. Bu gün onların ağızlarını möhürləyərik. Qazandıqları günahlar barəsində Bizimlə əlləri danışar, ayaqları da şahidlik edər.

Təfsiri:

İnsanlar arasındakı sosial əlaqələrdə sorğu-suala çəkmək sorğuya çəkilən kimsəyə sual verilməsi və onun da bu suallara cavab verməsi şəklində baş verir. Ancaq bu ayədə axirətdəki haqq-hesaba çəkilməyin bu şəkildə olmayacağına işarə edilir. Axirətdə insan ağzı ilə cavab verərək özünü müdafiə edə bilməyəcək. Bunun əvəzinə əlləri, ayaqları və digər orqanları həqiqəti söyləyəcək və onun günahlarına şahidlik edəcək. Bir hədisi-şərifində Həzrət Peyğəmbər (s.ə.s) bu mövzuda belə buyurmuşdur: *“Bəndə: Ey Rəbbim, sən məni zülmdən qorumadınmı?” – deyəcək. Allah-Təala:*

“Bəli, qorudum!” – buyuracaq. Bəndə: “Ancaq mən yalnız öz tərəfimdən bir şahidin gətirilməsinə razıyam”, - deyəcək. Uca Allah: “Bu gün sənə bir şahid olaraq nəfsin, şahidlər olaraq da əməl dəftərini yazan mələklər kifayətdir!” – buyuracaq. Sonra isə həmin bəndənin ağzı möhürlənəcək və bədən üzvlərinə: “Danışın!” – deyiləcək. Həmin bədən üzvləri də sahiblərinin əməllərini xəbər verəcək. Sonra o bəndənin danışmasına icazə veriləcək və o da öz bədən üzvlərinə: “Məndən uzaq olun! Mən yalnız sizin üçün mübarizə aparırdım”, - deyəcək”.[64] Beləcə, Allah-Təalanın hüzurunda hər şey ortaya çıxacaq və günahkarlar etdikləri əməlləri dana bilməyəcəklər.

وَلَوْ نَشَآءُ لَطَمَسْنَا عَلَىٰٓ اَعْيُنِهِمْ فَاسْتَبَقُوا الصِّرَاطَ فَاَنّٰى يُبْصِرُونَ ﴿٦٦﴾

66. Əgər Biz istəsəydik, onların gözlərini tamamilə kor edərdik. Bu zaman onlar (doğru) **yola çatmaq üçün bir-birləri ilə yarışardılar. Ancaq necə görə bilərdilər?**

Təfsiri:

Əvvəlki ayədə Uca Allah axirətdə bədən üzvlərinin insanın əleyhinə şahidlik edəcəyini və həqiqətləri söyləyəcəyini

64. Müslim, “Zühd”, 17.

xəbər vermişdi. Bu ayədə isə dünyada ikən Allah istəsə, insanın gözünü tamamilə kor edə biləcəyini və beləcə, düzgün bir yolda gedə bilməyəcəyini bildirərək kafirləri təhdid edir. Allah-Təala insanları sınamaq üçün bütün şərtləri hazılamışdır. O, insana göz, qulaq, qəlb, ağıl, və idrak qabiliyyəti bəxş etmiş və onu yaşaya bilməsi üçün hər cür imkanlarla təmin etmişdir. Həmçinin Allah insanı digər canlı və cansız varlıqlardan üstün yaratmış və ona geniş imkanlar vermişdir.[65] Təfsirçilər burada məcazi ifadələrə yer verildiyini, nəzərdə tutulan gözün qəlb gözü olduğunu və yolun da haqq yolu olduğunu qeyd etmişlər. Yəni Allah istəsəydi, bütün kafirlərin qəlbini möhürləyərdi və onlardan heç kim İslamla şərəflənə bilməzdi. Kafirlərin ətrafında bir çox dəlillər vardır ki, onları qəlb gözləri ilə görüb düşünmür və haqqı görə bilmirlər.

وَلَوْ نَشَآءُ لَمَسَخْنَاهُمْ عَلَىٰ مَكَانَتِهِمْ فَمَا اسْتَطَاعُوا مُضِيًّا وَلَا يَرْجِعُونَ ﴿٦٧﴾

67. Əgər Biz istəsəydik, onları olduqları yerdə elə bir hala salardıq ki, nə irəli gedə bilər, nə də geri qayıda bilərdilər.

Təfsiri:

Bu ayədə də Allah-Təala kafirləri təhdid edir və buyurur ki, əgər Allah istəsə, onları elə bir hala salar ki, olduqları

65. Çelik, "Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri", IV, 219.

yerdə donub qalarlar və beləliklə də, heç bir tərəfə gedə bilməzlər. Ancaq bu dünya imtahan dünyası olub əsil haqq-hesab axirətdə gerçəkləşəcəyi üçün Allah kafirlərə müvəqqəti sərbəstlik və möhlət vermişdir. İnsanların iman və küfrdən birini mənimsəmək mövzusunda ixtiyar sahibi olmalarının bir hikməti vardır. Çünki dünya həyatı yaxşını və pisi bir-birindən ayıra bilmək üçün imtahan yeri olaraq nizamlanmışdır. Buna görə də möminlər bir çox əziyyətlərə düçar olsalar da, yenə Allahdan ümidlərini kəsməməli və əzmlə haqq yol uğrunda mübarizə aparmalıdırlar.[66]

وَمَنْ نُعَمِّرْهُ نُنَكِّسْهُ فِى الْخَلْقِ ۖ اَفَلَا يَعْقِلُونَ ﴿٦٨﴾

68. Kimə uzun ömür versək, onu yaradılış etibarilə tərsinə çevirərik (qocaldıb zəif bir hala salarıq)**. Hələ də dərk etmirlərmi?**

Təfsiri:

Uca Allah istədiyi insanları hələ uşaq və ya gənc ikən vəfat etdirir, istədiklərinə də uzun bir ömür bəxş edir. Ancaq uzun ömür yaşayan kimsələr də sanki uşaqlıq çağlarına geri qayıdar və başqalarına möhtac, aciz bir hala düşərlər. Bu ayeyi-kərimədə xüsusilə qocalıq dövrünü təfəkkür etməyimiz istənilir. Qocalmış insanlara baxdığımız zaman yaradılış etibarilə onlarda tərsinə bir gedişatın olduğunu müşahidə

66. İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXIII, 51.

edirik. Həddindən artıq qocalan insanın belinin büküldüyünü, dişlərinin töküldüyünü, gözlərinin yaxşı görə bilmədiyini, qulağının ağır eşitdiyini, əl və ayaqlarını rahat bir şəkildə hərəkət etdirə bilmədiyini və mədəsinin hər şeyi həzm edə bilmədiyini görə bilərik.[67] İnsana uzun ömür verilməsi onun gələcəyi üçün təminat deyil, ölümün yaxınlaşdığını göstərən bir amildir. Buna görə də kafirlərin bu dünyada onlara verilən həyatın bitməz-tükənməz olduğunu zənn etmələri böyük bir aldanmadır. Ayədə onların ağıllarını işlətməmələri və bu həqiqətləri görməmələri qınanır. Eyni zamanda ayədə Uca Allahın bu dünyada insanları bir haldan başqa bir hala sala bildiyi kimi, axirətdə də onu başqa bir yaradılışla xəlq edə biləcəyinə işarə edilir.[68]

وَمَا عَلَّمْنَاهُ الشِّعْرَ وَمَا يَنْبَغِي لَهُ ۚ إِنْ هُوَ إِلَّا ذِكْرٌ وَقُرْآنٌ مُبِينٌ ﴿٦٩﴾

69. Biz ona şeir öyrətməmişik, bu ona yaraşmaz da. Bu ancaq (Allah tərəfindən göndərilmiş) **bir öyüd və açıq-aşkar Qurandır.**

Təfsiri:

Bu ayədə Allah-Təala insanlıq üçün mərhəmət olaraq göndərdiyi son peyğəmbərin və onunla göndərdiyi son ilahi

67. Çelik, "Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri", IV, 220.
68. Şövkani, "İrşadül-fühul", IV, 434.

kitab olan Qurani-Kərimin haqq olduğunu vurğulayır. Belə ki, bəzi kafirlər peyğəmbərimiz haqqında: “O şairdir. Onun dedikləri də şeirdən ibarətdir”, - deyərək haqqı inkar edirdilər. Bu ayə onların bu kimi ittihamlarına cavab mahiyyəti daşıyır. Yəni Mühəmməd peyğəmbər əsla şair deyil, Qurani-Kərim də şeir kitabı deyildir. Çünki şeirlərin bir qismi bir çox yalanlarla bəzədilmiş xəyallardan ibarət olur.

Quranın nazil olduğu dövrdə cahiliyyə ərəbləri arasında şeir söyləmək və bununla bağlı müsabiqələr keçirmək dəb idi. Ərəblərin ictimai həyatlarında şeir və şairlər mühüm yer tuturdu. Ancaq Qurani-Kərim qafiyəli üslubu ilə şeirdən üstün olduğunu və bəşər sözü olmadığını onlara göstərdi. Quran nə nəzmdir, nə də nəsr, o, Uca Allahın insanların dünya və axirət səadəti üçün göndərdiyi rəhbər kitab, kəlamların ən gözəli, öyüd və nəsihətdir.[69] Ayədə, eyni zamanda, şeir söyləməyin peyğəmbərə yaraşmadığı da ifadə edilmişdir. Ancaq bu kimi ayələri əsas alaraq, ümumiyyətlə, İslamın şeiri qadağan etdiyi və şeir qələmə almağa mənfi baxdığı düşünülməməlidir. Həzrət Peyğəmbərin (s.ə.s) şair səhabələri var idi ki, onlar şeirlərində Allah Rəsulundan, İslamın müdafiəsindən və müsəlmanların mübarizəsindən bəhs edirdilər.[70]

لِيُنْذِرَ مَنْ كَانَ حَيًّا وَيَحِقَّ الْقَوْلُ عَلَى الْكَافِرِينَ ﴿٧٠﴾

70. Diri olanları xəbərdar etsin və kafirlər barəsindəki (əzab) **sözü vacib olsun deyə** (onu nazil etdik)**.**

69. Sabuni, “Səfvətüt-təfasir”, III, 20.
70. Şövqi, “Tarixül-ədəbil-ərəbiyyil-əsril-cahiliy”, s. 144.

Təfsiri:

Qurani-Kərimin nazil olmasının əsas məqsədlərindən birinin qısaca ifadə edildiyi bu ayədə iki zümrəyə işarə edilir. Bunlardan biri ağıl nemətindən faydalanaraq və qəlblərini mənəvi cəhətdən diri tutaraq İslamı qəbul edənlər, digəri isə ağlını işlətməyən və mənəvi qəlbləri kor olub küfrdə israr edənlərdir. Uca Allah buyurur ki, bu Quran məhz mənəvi qəlbləri diri olanlara təsir edər və onlar Qurani-Kərimi oxuyub ondan layiqincə istifadə edərlər. Onlar da möminlərdir. Çünki Qurandan layiqli şəkildə istifadə edən onlardır. Ayədəki **“kafirlər barəsindəki** (əzab) **sözü vacib olsun deyə”** ifadəsi ilə kafirlərin mənəvi ölülər olduğuna və Qurana tabe olmadıqları üçün əzaba düçar olacaqlarına işarə olunmuşdur. Ayədə kafirlərin axirətdə heç bir bəhanələrinin qalmayacağını və buna görə də onların cəhənnəmə girəcəklərinə dair Allahın hökmünün yerinə yetiriləcəyi ifadə edilir. Təfsirçilər **“xəbərdar etsin”** ifadəsi ilə xəbərdar edənin Quran, yaxud peyğəmbər ola biləcəyini bildirmişlər.[71] Hər iki halda da əsas mənada və verilən mesajda heç bir fərqlilik olmur.

اَوَلَمْ يَرَوْا اَنَّا خَلَقْنَا لَهُمْ مِمَّا عَمِلَتْ اَيْدِيْنَآ اَنْعَامًا فَهُمْ لَهَا مَالِكُوْنَ ﴿٧١﴾

71. Onlar üçün sahib olduqları heyvanları Öz qüdrətimizlə yaratdığımızı görmədilərmi?

71. Şövkani, “İrşadül-fühul”, IV, 435.

Təfsiri:

Bu ayeyi-kərimə sual cümləsindən ibarətdir. Qurani-Kərimdə bir çox ayə buna bənzər sual cümlələri ehtiva edir. Qurandakı bu kimi sual cümlələri oxucunun diqqətini cəlb etmək və onu təsirləndirmək məqsədi daşıyır. Eyni zamanda təəccüblü bir məqam olduğu diqqətə çatdırılır. Digər tərəfdən Allah-Təala insanlar üçün müxtəlif heyvanlar xəlq etdiyini xəbər verir və bunu **“görmədilərmi?”** ifadəsi ilə vurğulayır. İnsanların bu hadisəni görməsi iki cür izah edilə bilər. Birincisi bu ifadəyə “onlar Allahın yaratdığı qoyun, keçi, inək, dəvə və s. heyvanlara baxıb təfəkkür etmirlərmi” mənası verilə bilər. İkincisi də, həmin heyvanlar hər zaman insanların gözləri önündə balalayır və çoxalırlar, onlar da bu hadisəni görürlər. Ayədə heyvanlar üçün ifadə edilən **“اَنْعَام/ənam”** sözü ərəb dilində, xüsusilə, qoyun, keçi, inək və dəvə kimi ev heyvanları üçün istifadə edilir. Uca Allah məhz bu heyvanları qeyd edərək bunların insanlar üçün böyük bir nemət olduğuna işarə edir ki, aşağıdakı ayələrdə də məhz bu nemətlər sadalanır.

Onu da qeyd edək ki, ayədə “Öz qüdrətimizlə” deyə tərcümə etdiyimiz **“اَيْدِيناَّ/əydina”** ifadəsinin hərfi mənası “öz əllərimizlə” şəklindədir. Ancaq təfsirçilər bununla Allahın güc və qüdrətinin nəzərdə tutulduğunu bildirmişlər.[72]

وَذَلَّلْنَاهَا لَهُمْ فَمِنْهَا رَكُوبُهُمْ وَمِنْهَا يَأْكُلُونَ ﴿٧٢﴾ وَلَهُمْ فِيهَا مَنَافِعُ وَمَشَارِبُ ۖ أَفَلَا يَشْكُرُونَ ﴿٧٣﴾

72. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, IV, 453.

72. Bu heyvanları onların əmrinə verdik. Onlardan bəzilərinə minir, bəzilərini də yeyirlər.

73. Bu heyvanlarda onlar üçün bir çox fayda və içəcək süd də vardır. Onlar hələ də şükür etmirlərmi?

Təfsiri:

Allah-Təala bu heyvanları insanların istifadəsi üçün yaratdığını bildirir və onların istifadə edildikləri sahələrə dair misallar gətirərək bu nemətin əhəmiyyətinə işarə edir. Belə ki, heyvanlar insan oğlu qarşısında acizdir və onlar asanlıqla heyvanları əhliləşdirib istədikləri şəkildə işlədə bilirlər. İnsanlar onların yunundan, ətindən, sümüyündən, dərisindən və bir çox başqa hissələrindən geniş şəkildə istifadə edib faydalanırlar. Eyni zamanda heyvanların südü də insanlar üçün əhəmiyyətli bir qida mənbəyidir. Süd neməti digər bir ayeyi-kərimədə belə ifadə edilir: **“Şübhəsiz, heyvanlarda da sizin üçün bir ibrət vardır. Belə ki, sizə onların qarınlarındakı ifrazat ilə qan arasından çıxan, içənlərin boğazından rahatlıqla keçən xalis bir süd içirdirik”**.[73] Bu ev heyvanları sahiblərinə itaət edir və sahibləri onları istədikləri kimi otladır, sürür və kəsirlər. Dəvə və at kimi heyvanlardan çox vaxt minik vasitəsi olaraq istifadə edir, uzun səyahətlərində onlardan faydalanır və yüklərini onların belində daşıyırlar.[74] Bütün bunları insanın ixtiyarı-

[73.] Nəhl, 16/66.
[74.] Sabuni, “Səfvətüt-təfasir”, III, 21.

na verən isə şübhəsiz ki, Allah-Təaladır. Uca Allah: **“Onlar hələ də şükür etmirlərmi?”** – buyuraraq bütün bu nemətlərin müqabilində Allaha şükür etmək əvəzinə Ona şəriklər qoşan və ya Onu inkar edənlərə xəbərdarlıq edir. Çünki insanların bir qismi bu nemətlərin heç birini təmin edə bilməyən bütlərə sitayiş edir, bir qismi isə, ümumiyyətlə, Allahı inkar edərək bu nemətlərə nankorluq edir. Eyni zamanda möminlərin də bu nemətlərə görə Allaha həmd etmələri istənilir.

وَاتَّخَذُوا مِنْ دُونِ اللهِ اٰلِهَةً لَعَلَّهُمْ يُنْصَرُونَ ﴿٧٤﴾

74. Onlar özlərinə yardım ediləcəyini umaraq Allahdan başqa ilahlar qəbul etdilər.

Təfsiri:

Yuxarıdakı ayələrdə qeyd olunan nemətlər qarşısında müşriklər Allaha həmd etməyin əvəzində Ona şəriklər qoşurlar. Həmçinin ayədə bütlərin onlara yardım edəcəyinə dair müşriklərin batil inanclarına işarə edilir.[75] Çünki müşriklər həm dünya işlərində bütlərdən imdad diləyir, həm də Allah yanında bütlərin onlar üçün şəfaət edəcəyini iddia edirdilər.

[75] İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXIII, 71.

لَا يَسْتَطِيعُونَ نَصْرَهُمْ ۙ وَهُمْ لَهُمْ جُنْدٌ مُحْضَرُونَ ﴿٧٥﴾

75. (Bu bütlərin) **onlara yardım etməyə gücləri çatmaz. Halbuki onlar özləri bütlər üçün hazır durmuş əsgərlərdir.**

Təfsiri:

Müşriklərin ilah olduğunu iddia etdikləri o bütlər heç cür onlara şəfaət və yardım edə bilməzlər. Bütlər onlara kömək göstərə bilmədikləri halda, müşriklər bütlərə bağlılıqda, sədaqətdə və onlar uğrunda özlərini fəda etməkdə əsgərlər kimi hazır vəziyyətdə dururlar. Halbuki Allahdan başqa sitayiş edilən heç bir məbud dünyada və ya axirətdə insana hər hansı bir köməklik göstərə bilməz.

فَلَا يَحْزُنْكَ قَوْلُهُمْ ۘ إِنَّا نَعْلَمُ مَا يُسِرُّونَ وَمَا يُعْلِنُونَ ﴿٧٦﴾

76. (Ey Peyğəmbər!) **Onların sözləri səni kədərləndirməsin. Şübhəsiz ki, Biz onların gizlətdiklərini də, aşkar etdiklərini də bilirik.**

Təfsiri:

Bu ayədə Allah-Təala Mühəmməd peyğəmbərə (s.ə.s) xitab edir və bir növ onu təsəlli edir. Yəni ey Mühəmməd!

Onların səni təkzib etmələrinə və səni şair, yaxud sehrbaz olmaqla ittiham etmələrinə görə kədərlənmə! Ayənin davamında isə Allahın elmi ilə hər şeydən xəbərdar olduğuna işarə edilir və müşriklərin gizli və ya aşkar etdikləri heç bir şeydən Allahın qafil olmadığı bildirilir. Bu ifadələr də Allah Rəsulunu təsəlli mahiyyəti daşıyır. Çünki müşriklər Həzrət Peyğəmbərə (s.ə.s) zərər vermək üçün müxtəlif planlar qururdular. Lakin Uca Allah Cəbrail (ə.s) vasitəsilə onların planlarını peyğəmbərinə xəbər verirdi.

اَوَلَمْ يَرَ الْاِنْسَانُ اَنَّا خَلَقْنَاهُ مِنْ نُطْفَةٍ فَاِذَا هُوَ خَصِيمٌ مُبِينٌ ﴿٧٧﴾ وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ ؕ قَالَ مَنْ يُحْيِ الْعِظَامَ وَهِيَ رَمِيمٌ ﴿٧٨﴾

77. İnsan Bizim onu nütfədən yaratdığımızı görmədimi? Bir də baxırsan ki, o, (Rəbbinə qarşı) **açıq-aydın bir düşmən kəsilib.**

78. O öz yaradılışını unudaraq Bizə qarşı bir misal çəkib: “Çürümüş sümükləri kim dirildəcək?!” - deyir.

Təfsiri:

Bu ayələrdə insanın öz yaradılışı barəsində düşünmək əvəzinə Uca xaliqinin və Onun göndərdiyi peyğəmbərin bildirdiklərini ağlı ilə mühakimə etməyə cəhd göstərməsinin

nə qədər ziddiyyətli olduğu açıq bir misalla ortaya qoyulmuşdur. Bu misalda nütfə və sümük müqayisə edilir. Qurani-Kərimdəki **“نُطْفَة/nütfə”** kəlməsi təfsirçilər tərəfindən “kişinin dölü”, yaxud “döllənmiş ziqot” olaraq şərh edilmişdir. Burada, həcm etibarilə kiçik və əhəmiyyətsiz kimi görünən bir sudan ana bətnində müəyyən mərhələlər keçirdikdən sonra insanın meydana gəlməsini təmin edən Uca Allahın çürüyüb sür-sümük olan insanı torpaqdan təkrar yarada bilməsindən şübhə edən müşriklər qınanır. Nə var ki, haqqı qəbul etməyən inadkar Məkkə müşrikləri istehzalı bir şəkildə axirətdə çürümüş sümüklərin əvəzinə necə olub yenidən insan yaranacağını soruşur və beləcə, Allaha açıq-aşkar düşmənçilik edirdilər. Bu ayələrin nazil olma səbəbi haqqında belə bir rəvayət nəql edilir; Məkkədəki müşriklərin liderlərindən biri olan Übeyy ibn Xələf əlində çürümüş insan sümüyü ilə Həzrət Peyğəmbərin (s.ə.s) yanına gəlir və sümüyü xırdalayıb yerə tökərək belə deyir: “Belə çürüdükdən sonra Allah bunu təkrar dirildəcək, elə mi?!” Həzrət Peyğəmbər (s.ə.s) isə: “*Bəli, Allah səni də öldürəcək, sonra yenidən dirildib cəhənnəmə atacaq!*” – deyə cavab verir.[76]

قُلْ يُحْيِيهَا الَّذِى اَنْشَاَهَا اَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ ﴿٧٩﴾

79. De ki: “Onları ilk dəfə yaradan dirildəcəkdir. O, hər cür yaratmağı yaxşı bilir”.

76. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII, 30-31.

Təfsiri:

Bu ayə yuxarıdakı ayələrdə qeyd olunan müşriklərin suallarına cavab mahiyyəti daşıyır. Yəni sümükləri yoxdan yaradan Allah axirətdə təkrar onları yaradıb dirildəcəkdir. Yoxdan var edən onu təkrar yarada da bilər. Cəsədlər çürüyüb yox olduqdan sonra onları diriltmək Allah üçün çətin deyildir.[77]

اَلَّذِی جَعَلَ لَكُمْ مِنَ الشَّجَرِ الْاَخْضَرِ نَارًا فَاِذَآ اَنْتُمْ مِنْهُ تُوقِدُونَ ﴿٨٠﴾

80. Sizin üçün yaşıl ağacdan od əmələ gətirən Odur. Beləcə, siz onunla od qalayırsınız.

Təfsiri:

Öldükdən sonra dirilişə inanmayanlar üçün verilən digər bir misal isə iki əks yönlü maddələrdən birinin digərinə çevrilməsidir. Bu da yaşıl ağacdan od əmələ gəlməsidir. Burada Uca Allah odu yaşıl ağacdan yaratdığını bildirir. Bu mövzuda klassik təfsir əsərlərində bildirilir ki, ərəblər yamyaşıl rəngdə olan “mərx” və “afar” adlı iki ağac növünün budaqlarını sıxaraq suyunu süzür və onları bir-birinə sürtərək od qalayırdılar. Digər bitkilərdə də alışqanlıq qabiliyyəti olduğu halda bunlarda alışqanlıq qabiliyyətinin daha çox olması sə-

77. Sabuni, “Səfvətüt-təfasir”, III, 22.

bəbilə alimlər bu ayədə Allah Təalanın bu iki ağaca işarə etdiyini bildirmişlər.

Ancaq müasir təfsirçilər bununla yanaşı fərqli fikirlər də irəli sürmüşlər. Belə ki, Qurani-Kərim hər dövrə xitab edir və hər dövrün insanı Qurandan öz elmi səviyyəsinə görə istəfadə edə bilər. Quranın elmi təfsirinə əhəmiyyət verən alimlər Quranı almaz daşına bənzədirlər. Belə ki, almaz daşına fərqli yönlərdən baxanlar onda fərqli rənglər müşahidə edirlər, onun kimi Qurani-Kərimin də fərqli dövrlərdə müxtəlif gizli mənaları üzə çıxa bilər.

Bu ayədə ifadə edilən yaşıl ağacdan od yaranması məsələsinə gəldikdə, bununla əlaqədar olaraq həmin alimlər iki fərqli fikir irəli sürmüşlər. Bir fikrə görə, Allah-Təala **"yaşıl ağac"** ifadəsi ilə oksigenə işarə etmişdir. Çünki oksigen olmadan od yarana bilməz. Oksigeni havaya ixrac edən də məhz yaşıl bitkilər və ağaclardır.[78] Beləliklə, Quran bundan on dörd əsr əvvəl oksigenlə od arasındakı əlaqəyə diqqət çəkmişdir. Digər fikrə görə isə, bu ayədəki **"yaşıl ağac"** ifadəsilə odun əsas yanacaq maddələrindən biri olan daş kömürə işarə edilmişdir. Çünki daş kömür bundan uzun illər əvvəl var olmuş bitkilərin çürüməsi nəticəsində yaranmış və enerji mənbəyi olmuşdur. Bu ayədə də bir zamanlar yaşıl və canlı olan bitkilərin daha sonra çürüyüb daş kömürə çevrildiyinə və insanların ondan od əldə edəcəklərinə işarə edilmişdir. Yuxarıda sadalanan hər üç izahın da doğru ola biləcəyini və Allahın bu təfsirləri bir ayədə cəm etdiyini söyləmək də mümkündür.

78. Çelik, "Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri", IV, 225-226.

اَوَلَيْسَ الَّذِى خَلَقَ السَّمٰوَاتِ وَالْاَرْضَ بِقَادِرٍ عَلٰٓى اَنْ يَخْلُقَ مِثْلَهُمْ ؕ بَلٰى وَهُوَ الْخَلَّاقُ الْعَلِيمُ ﴿٨١﴾

81. Göyləri və yeri yaradan Allah onların bənzərini yaratmağa qadir deyilmi? Bəli, qadirdir! O, hər şeyi yaradandır, hər şeyi biləndir.

Təfsiri:

Bu ayə sual cümləsi ilə başlayır və təkid ifadə edir. Uca Allah ilk dəfə yaradanın onun bənzərini də yarada biləcəyini sual cümləsi ilə vurğulayır. Sonra isə bu suala **“Bəli, qadirdir!”** deyə tərcümə etdiyimiz vurğulu bir cümlə ilə cavab verir. Bu sual cümləsində “مِثْلَهُمْ/**misləhum** (onların bənzərini)” ifadəsi yer aldığı üçün İslam alimləri yenidən dirilmənin sadəcə ruhani deyil, həm də cismani olaraq gerçəkləşəcəyinə qənaət gətirmişlər. Digər tərəfdən axirətdəki təkrar yaradılışın dünyaya nisbətdə daha fərqli və özünəməxsus bir şəkildə baş verəcəyi, ayədə əsas etibarilə axirəti inkar edənlərə cavab verildiyi də qeyd edilir.[79] Ayənin sonunda isə Allahın yaratma işini çox yaxşı bildiyi və bundan heç kimin şübhə etməməsinin vacibliyi ifadə edilir.

اِنَّمَآ اَمْرُهٗٓ اِذَآ اَرَادَ شَيْـًٔا اَنْ يَقُولَ لَهٗ كُنْ فَيَكُونُ ﴿٨٢﴾

82. O, bir şeyin olmasını istədiyi zaman ona yalnız: “Ol!” - deyə əmr edər. O da dərhal olar.

79. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, IV, 455-456.

Təfsiri:

Bu ayədə Uca Allah üçün yaratma işinin çox asan olduğuna işarə edilir. Belə ki, Allah-Təala hər hansı bir şeyi yaradarkən heç bir çətinliklə üzləşməz və yorulmaz. Yaratdıqlarındakı acizlik və qüsurların heç biri Allah-Təalada mövcud deyildir. Təfsirçilər ayədəki **“كُنْ/kün (ol)”** ifadəsinin ərəb dilində tələffüzü ən asan olan sözlərdən olduğunu bildirmiş və buna görə də Allah-Təalanın ayədə Özü üçün yaratmağın nə qədər asan bir iş olduğunu göstərmək üçün bu ifadəyə yer verdiyini qeyd etmişlər.[80] Yəni Allah üçün canlı-cansız, böyük-kiçik hər hansı bir şeyi yaratmaq çox asandır. O, bir şeyi xəlq etmək istədiyi zaman sadəcə olaraq “ol” deyər və həmin şey dərhal yaranar. Buna görə də axirətdə insanların yenidən yaradılmasından şübhə etməyə ehtiyac yoxdur.

فَسُبْحَانَ الَّذِى بِيَدِهٖ مَلَكُوتُ كُلِّ شَىْءٍ وَاِلَيْهِ تُرْجَعُونَ ﴿٨٣﴾

83. Hər şeyə hökmran olan Allah pak və müqəddəsdir! Siz Ona qaytarılacaqsınız.

Təfsiri:

“Yasin” surəsi Uca Allahın mütləq surətdə ilah və rəbb olduğunu qısaca ifadə edən bir ayə ilə sona çatır. Bu ayədə Allah-Təalanın hər şeyin sahibi və maliki olduğu, yaratdıq-

80. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIII, 32.

ları barəsində istədiyi kimi hökm verdiyi, eləcə də bütün nöqsan sifətlərdən uzaq və pak olduğu ifadə edilir. Ayənin sonunda **"Siz Ona qaytarılacaqsınız"** ifadəsinin yer alması ilə hər kəsin axirətdə hesaba çəkilmək üçün Allahın hüzuruna gətiriləcəyinə işarə edilir. Bəzi təfsirçilərə görə, ilahi mükafata nail olmaq istəyən möminlər Allahın hüzuruna öz istəkləri ilə qaça-qaça gələcək, cəhənnəm əzabına düçar olacaq kafirlər isə istəməyərək və zorla gətiriləcəklər.[81]

Beləcə, "Yasin" surəsi Həzrət Mühəmmədin (s.ə.s) həqiqətən, Allah-Təala tərəfindən göndərilən bir peyğəmbər olduğuna dair Qurana and içilməsi ilə başlanmış və təsbehlə, yəni Uca Allahın bütün nöqsan sifətlərdən uzaq olduğu və bütün insanların ən sonda Ona dönəcəyi xəbər verilərək sonlanmışdır.

81. Heyet, "Kuran Yolu Türkçe Meal ve Tefsir", IV, 456.

سُورَةُ الْفَتْحِ

“FƏTH” SURƏSİ

Qurandakı sırası:	48
Nazil olduğu yer:	Mədinə
Ayələrin sayı:	29
Kəlmələrin sayı:	560
Hərflərin sayı:	2433

سُورَةُ الْفَتْح

“Fəth” surəsi

Adı:

Fəth: Surə adını ilk ayədə keçən “fəth” kəlməsindən alır. Belə ki, Uca Allah bu surənin ilk ayəsində möminləri yaxın gələcəkdə gerçəkləşəcək olan fəth ilə müjdələyərək: **“Həqiqətən, Biz sənə açıq-aydın bir fəth** (zəfər) **bəxş etdik”**, - buyurmuşdur.

Ehtiva etdiyi mövzular:

“Fəth” surəsi Mədinədə nazil olan digər surələr kimi əsasən əhkam ayələrini ehtiva edir. Surədə hicrətin 6-cı ilində Həzrət Peyğəmbər ilə müşriklər arasında bağlanan Hüdeybiyyə sülh müqaviləsindən bəhs edilir. Bu müqavilənin əsas xüsusiyyəti böyük fəth olaraq qəbul edilən Məkkənin fəthini müjdələməsidir. Belə ki, inanc sahibi insanların üstünlüyü, zəfəri və hakimiyyəti bu fəth sayəsində tamamlanmış, insanlar qrup-qrup Allahın dininə daxil olmağa başlamışdılar. Surədə möminlərin Allah yolunda cihada çıxmasından və səhabələrin ölənə qədər Allah yolunda cihad edəcəklərinə dair Rəsulullaha (s.ə.s) verdikləri sözdən (Rizvan beyəti) bəhs edilir. Surədə eyni zamanda Rəsulullah (s.ə.s) ilə bərabər cihada çıxmayan münafiqlərdən də bəhs olunmaqdadır.

Bu mübarək surədə Rəsulullahın (s.ə.s) Mədinədə gördüyü və yaxın dostlarına danışdığı yuxusundan da bəhs olunur. Bu yuxusunda Rəsulullah (s.ə.s) müsəlmanlar ilə bərabər əminlik içində Məkkəyə girdiyini görmüşdü. Bu yuxunu eşidən səhabələr çox sevinmişlər. Allah Rəsulunun gördüyü bu yuxu çin olmuş və möminlər əminlik içində ümrə etmək üçün Məkkəyə girmişdilər. Bu surə Rəsulullahı (s.ə.s) və onun səhabələrinin üstünlüklərini vəsf edərək bitir.

Fəziləti:

“Fəth” surəsinin dəyəri və üstünlüyü haqqında Rəsulullahdan belə bir hədis nəql olunmuşdur: “*Bu gecə mənə üzərinə günəşin doğduğu hər şeydən daha dəyərli və gözəl bir surə nazil oldu*”. Rəsulullah (s.ə.s) bunu söylədikdən sonra “Fəth” surəsini oxumağa başlamışdır.[1]

[1] Buxari, “Təfsir”, 274.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

إِنَّا فَتَحْنَا لَكَ فَتْحًا مُّبِينًا ﴿١﴾

1. Həqiqətən, Biz sənə açıq-aydın bir fəth (zəfər) **bəxş etdik.**

Təfsiri:

“Fəth” surəsi hicrətin altıncı ili Zilqədə ayında Həzrət Peyğəmbər min beş yüzə yaxın səhabəsi ilə Hüdeybiyyədən qayıdarkən nazil olmuşdur. Hüdeybiyyə Məkkənin 20 km qərbində və köhnə Ciddə yolu üzərində yerləşən bir yerin adıdır. Müşriklər o il Həzrət Peyğəmbər və onunla bərabər olan səhabələrin Məscidi-Harama girərək ümrə ibadətini icra etmələrinə mane olmuşdular. Müşriklər ilə Həzrət Peyğəmbər arasındakı razılaşmaya əsasən müsəlmanlar həmin il geri dönəcək və növbəti il ümrə etmək üçün gəldiklərində Məkkəyə girmələrinə icazə veriləcəkdi. Həzrət Ömər başda olmaqla bəzi səhabələr Həzrət Peyğəmbərin müşriklərlə olan bu müqaviləsini müsbət qarşılamasalar da Allah Rəsulu (s.ə.s) müşriklərlə olan bu müqavilənin şərtlərini qəbul etmişdi. Həzrət Peyğəmbər və səhabələr geri dönməyə məcbur qaldıqdan sonra olduqları yerdə qurbanlarını kəsmiş və bu hadisədən sonra “Fəth” surəsi nazil olmuşdur. Hər nə qədər bu hadisə zahirən müsəlmanların məğlubiy-

yəti kimi görünsə də, Uca Allah bu müqaviləni ehtiva etdiyi faydalar və nəticəsi etibarilə “fəth” olaraq adlandırmışdır.

Təfsirçilər ayədə keçən “fəth” sözünü iki şəkildə izah etmişdirlər. Bir qrup təfsirçiyə görə, burada qəsd olunan məna Məkkənin fəthidir. Belə ki, bu ayə Rəsulullah (s.ə.s) Məkkədən qayıdarkən nazil olmuş və beləliklə ayənin nazil olmasıyla Həzrət Peyğəmbərə Məkkənin fəth olunacağı vəd olunmuşdur. İkinci görüşə görə isə, ayədə qəsd olunan fəth Hüdeybiyyə sülh müqaviləsinin elə özüdür. Çünki Hüdeybiyyə sülh müqaviləsinin bağlandığı tarix ilə Məkkənin fəthi arasında iki illik bir zaman müddəti vardır. Bu, İbn Məsud, Bəra ibn Azib və Ənəs ibn Malik kimi bir çox səhabədən nəql edilən fikirdir.[2] Bu fikrin sahiblərinə görə, “fəth” kəlməsi “məsələni həll etmək” mənasına gəldiyi üçün “sülh” mənasında da istifadə olunan bir kəlmədir.

Ayədə keçən “فَتَحْنَا/fətəhna” kəlməsi keçmiş zaman formasındadır. Bu kəlmənin keçmiş zamanda olmasını təfsirçilər fəthin mütləq gerçəkləşəcəyi şəklində izah etmişdirlər.

لِيَغْفِرَ لَكَ اللّٰهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَمَا تَاَخَّرَ وَيُتِمَّ نِعْمَتَهُ عَلَيْكَ وَيَهْدِيَكَ صِرَاطًا مُّسْتَقِيمًا ۙ ﴿٢﴾

2. Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni doğru yola yönəltsin.

2. Buxari, “Məğazi”, 37.

Təfsiri:

Burada Uca Allah Həzrət Peyğəmbərin keçmiş və gələcək günahlarının bağışlandığını bəyan edərək ona böyük bir lütfkarlıq göstərmişdir. Əslində bütün peyğəmbərlər kimi Həzrət Peyğəmbər də günah işləməkdən qorunmuş (ismət sifətinə sahib) bir peyğəmbərdir. Bu səbəblə də Allah Rəsulu (s.ə.s) onsuzda günahsız olmuşdur. İsmət sifəti bir bəşər olaraq peyğəmbərlərdə mövcud olan günah işləyə bilmə potensiyalının reallaşmasının qarşısını alan ilahi bir mühafizənin adıdır. Ayədə keçən “bağışlama” ifadəsi ilə bu məna qəsd edilir. [3] Yəni Həzrət Peyğəmbərin günaha meyil etmək istəməsindən əmələ gələn günahları da bağışlanmışdır. Halbuki, bu, digər insanlar üçün günah sayılmır.

Bu bağışlama Həzrət Peyğəmbərə məxsus olan xüsusiyyətlərdəndir. O, həm özündən öncə yaşayan, həm də özündən sonra yaşayacaq bütün insanlığın çatmadığı və çatmayacağı bir mərtəbəyə çatmışdır. O, dünyada və axirəttə bəşəriyyətin ən mükəmməli və ən üstünüdür. Uca Allahın ən itaətkar bəndəsi olduğu üçün Allah ona fəthi müjdələmiş və onun keçmiş və gələcək günahlarını bağışlamışdır. Bunların hər biri Rəsulullahın Allah dərgahındakı şərəfinə dəlalət edir. Bütün bunlara rəğmən Həzrət Peyğəmbər gecə-gündüz nafilə ibadətlərlə məşğul olaraq həm bu mövzuda ümmətinə nümunə olmuş, həm də ibadətlərin cənnət ümidi və ya cəhənnəm qorxusu ilə deyil, məhz Uca Allah buna layiq olduğu və bəndələr bununla mənəvi rahatlıq tapdığı üçün ediləcəyini göstərmişdir. Həzrət Peyğəmbərə (s.ə.s) keçmiş

[3] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 65-67.

və gələcək bütün günahlarının bağışlandığı xatırladılaraq nə üçün bu qədər ibadət etdiyi soruşulduğu zaman o: *“Mən Rəbbimə şükür edən bir bəndə olmayımmı?!”* - cavabını vermişdir.[4]

Ayədə keçən nemətin tamamlanmasından məqsəd, Allahın müsəlmanlara dinlərini yaşamaq fürsəti verməsi və kəlimeyi-tövhidi yüksəltmələri üçün əmin-amanlıq bəxş etməsidir. Müsəlmanların kafirlərin fitnələrindən yaxa qurtararaq Allahın dininin nöqsansız olaraq yaşandığı bir İslam diyarına sahib olmaları da Allahın nemətinin onlar üçün tamamlanması mənasını daşıyır. Uca Allah bu neməti Öz Rəsulunun timsalında bütün İslam ümmətinə bəxş etmişdir.

Allahın Həzrət Peyğəmbəri doğru yola yönəltməsi ona fəthin və qələbənin yolunu göstərməsidir. Yəni Allah-Təala Öz Rəsuluna Hüdeybiyyədəki bu sülh müqaviləsi sayəsində İslamın yayılmasına mane olan bütün düşmənləri məğlub edəcəkləri ən uyğun və ən gözəl yolu göstərmişdir.

وَيَنْصُرَكَ اللّٰهُ نَصْرًا عَزِيزًا ﴿٣﴾

3. Və sənə şanlı bir zəfər bəxş etsin.

Təfsiri:

Ayədə keçən “عَزِيز/əziz” kəlməsi “güclü, misilsiz və nadir” mənalarına gəlir. Kəlmənin bu mənasından yola çıxaraq ayəni belə başa düşmək mümkündür: Allah sənə şanlı

4. Tirmizi, “Səlat”, 304; İbn Macə, “İqamətüs-səlat”, 200.

bir zəfər nəsib edərək səni gücləndirdi. Bu zəfər sənə həm dünyada, həm də axirətdə üstünlük qazandıracaqdır.

هُوَ الَّذِىٓ اَنْزَلَ السَّكِينَةَ فِى قُلُوبِ الْمُؤْمِنِينَ لِيَزْدَادُٓوا
اِيمَانًا مَعَ اِيمَانِهِمْ ۗ وَلِلّٰهِ جُنُودُ السَّمٰوَاتِ وَالْاَرْضِ ۜ وَكَانَ
اللّٰهُ عَلِيمًا حَكِيمًا ۙ ﴿٤﴾

4. Möminlərin imanlarını daha da artırmaq üçün onların qəlblərinə mənəvi rahatlıq verən Odur. Göylərin və yerin orduları da Allaha məxsusdur. Allah hər şeyi biləndir, hikmət sahibidir.

Təfsiri:

Ayədə keçən “السَّكِينَة/əs-səkinə” kəlməsini İbn Abbas “qəlb hüzuru və rəhmət” olaraq təfsir etmişdir. Qətadəyə görə isə, bu kəlmə “möminlərin qəlblərindəki cəsarət” mənasına gəlir.[5] Möminlərin Hüdeybiyyədəki əhval-ruhiyyələri nəzərə alındıqda ayədə qeyd olunan qəlb rahatlığının nə qədər əhəmiyyətli olduğu daha yaxşı anlaşılır. Allah möminlərin fəthə nail ola bilmələri üçün onların qəlblərinə təskinlik vermişdir.

Burada qeyd olunan möminlər Hüdeybiyyə günü Allah və Rəsulunun dəvətini qəbul edərək Allahın və Peyğəmbərinin hökmünə boyun əyib beyət edən səhabələrdir. Səha-

[5] Sabuni, “Müxtəsərü İbn Kəsir”, II, 341.

bələrin Həzrət Peyğəmbərə etdikləri bu beyət müşriklərin onları Məkkəyə girməyə qoymamaları və hədəflərinə çatmadan geri qayıtmağa məcbur qaldıqları bir vaxtda baş vermişdir. Səhabələr bu hadisədən çox məyus olmalarına və qəzəblənmələrinə baxmayaraq onlardan heç kim dinindən dönməmiş və Həzrət Peyğəmbərə sədaqətlə bağlı qalmışdılar. Bu səbəblə də Uca Allah onların imanlarına iman qataraq inanclarını qüvvətləndirmişdir. Bu hadisə qarşısında ən çox qəzəblənən Həzrət Ömər olmuşdur. O, Rəsulullahın (s.ə.s) yanına gələrək: "Ey Allahın Rəsulu! Sən Allahın haqq peyğəmbəri deyilsənmi?! Düşmənlərimiz batil yolda, biz haqq yolda deyilikmi?!" - demiş və Rəsulullah (s.ə.s) onun soruşduğu bu suallara: "*Bəli*" - deyərək cavab vermişdi. Bundan sonra Həzrət Ömər: "Elə isə dinimiz üçün biz niyə zillətə razı oluruq?" - deyincə, Allah Rəsulu (s.ə.s) bu cavabı vermişdi: "*Şübhəsiz ki, mən Allahın rəsuluyam. Mən ona üsyan etmərəm. O mənim yardımçımdır*".[6]

Mələklər, cinlər, heyvanlar və məhv edici gurultular, zəlzələlər kimi göylərin və yerin bütün orduları Uca Allahındır. Allah istədiyi hər şeyi onlarla məhv edə bilər. Ayədə Allahın ordularından bəhs edilməsi Allahın kafirləri məhv etmək üçün heç kimə və heç nəyə ehtiyacının olmadığını, lakin möminləri sınamaq üçün bu vəzifəni onların çiyinlərinə yüklədiyini bildirmək üçündür. Beləliklə möminlər kafirlərə qarşı cihad edərək Allahın dinini müdafiə edəcək və kəlimeyi-tövhidi hər tərəfə yayaraq Allahın dininə xidmət edəcəklər. Buna görə də Uca Allah ayənin sonunda: "**Allah hər şeyi biləndir, hikmət sahibidir**", - buyurmuşdur.

6. Buxari, "Şürut", 15.

لِيُدْخِلَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَيُكَفِّرَ عَنْهُمْ سَيِّئَاتِهِمْ ۚ وَكَانَ ذَٰلِكَ عِنْدَ اللَّهِ فَوْزًا عَظِيمًا ۝٥

5. (Bütün) **bunlar Allahın mömin kişiləri və mömin qadınları altından çaylar axan və içində əbədi qalacaqları cənnətlərə daxil etməsi və onların günahlarının üstünü örtməsi üçündür. Bu, Allah dərgahında böyük bir uğurdur!**

Təfsiri:

Bu ayədə möminlərin itaətləri səbəbilə günahlarının bağışlanmasından və cənnətə daxil olaraq orada əbədi qurtuluşa nail olacaqlarından bəhs edilir. Ayədə mömin kişilərlə yanaşı mömin qadınlar da qeyd olunmuşlar. Halbuki, mənbələrdə Hüdeybiyyədə iştirak edən səhabələrin əsasən kişilərdən ibarət olduğu qeyd olunur. Bunun səbəbi odur ki, Hüdeybiyyədə iştirak edən səhabələrin xanımları ərlərinin, oğullarının, qardaşlarının, atalarının bu təhlükəli səfərə çıxmalarına mane olmamış və onlar səfərdə ikən onların övladlarını, mallarını və namuslarını qorumuşdurlar. Buna görə də həmin xanımlar da evlərində oturmalarına baxmayaraq Hüdeybiyyədə Allahın lütfünə nail olan səhabələr kimi bu lüftə nail olmuşdurlar.[7] Uca Allah ayədə Hüdeybiy-

[7] Mövdudi, “Təfhimül-Quran”, V, 409.

yədə iştirak edən səhabələrin insan olmaları səbəbilə işlədikləri günahlarının üstünü örtməsindən də bəhs edir. Bu, axirət günü onların etdikləri günahlara görə utanmamaları və könül rahatlığıyla cənnətə girmələri üçün önəmli bir məqamdır. Onların bu şəkildə günahlarının üstü örtülərək bağışlanmış halda cənnətə girmələri Allah dərgahında böyük bir uğurdur.

وَيُعَذِّبَ الْمُنَافِقِينَ وَالْمُنَافِقَاتِ وَالْمُشْرِكِينَ وَالْمُشْرِكَاتِ الظَّانِّينَ بِاللَّهِ ظَنَّ السَّوْءِ ۚ عَلَيْهِمْ دَائِرَةُ السَّوْءِ ۚ وَغَضِبَ اللَّهُ عَلَيْهِمْ وَلَعَنَهُمْ وَأَعَدَّ لَهُمْ جَهَنَّمَ ۖ وَسَاءَتْ مَصِيرًا ﴿٦﴾

6. Həmçinin Allah haqqında pis zənn bəsləyən münafiq kişi və qadınlara, müşrik kişi və qadınlara əzab verməsi üçündür. Onların (müsəlmanlar haqqında) **bəslədikləri pis fikirlər öz başlarına gəlsin! Allah onlara qəzəblənmiş, onlara lənət etmiş və cəhənnəmi onlar üçün hazırlamışdır. O necə də pis bir dönüş yeridir!**

Təfsiri:

Allah bunu həmçinin münafiqləri və müşrikləri cəzalandırmaq üçün etmişdir. Onlar Allahın Öz peyğəmbərinə və möminlərə yardım etməyəcəyini və müşriklərin bütün müsəlmanları məhv edəcəyini zənn etmişdilər. “Fəth” surəsinin 12-ci ayəsində Uca Allah bu həqiqəti belə ifadə etmişdir: **“Siz Peyğəmbərin və möminlərin bir daha ailələrinin yanına qayıtmayacaqlarını zənn etmişdiniz”**. Münafiqlər haqqı açıq olaraq inkar edən kafirlərdən daha təhlükəli olduqları üçün Uca Allah münafiqlərin cəzalandırılacağını kafirlərdən öncə zikr etmişdir. Ayədə qeyd olunan “دَائِرَةُ السَّوْءِ/dairətüs-səv” ifadəsi münafiqlər və müşriklər üçün bəddua mənasına gəlir. Yəni ayənin mənası “möminlər haqqında düşündükləri mənfi fikirlər onların öz başlarına gəlsin!” deməkdir. Onlar möminlər üçün düşündükləri bəladan öz canlarını qurtarmaq istəsələr də özləri həmin bəlaya düçar oldular. İnkarçılıq və münafiqliklərinə görə Uca Allah onlara qəzəblənmiş və onları Öz rəhmətindən uzaqlaşdırmışdır. Onlar qiyamət günü cəhənnəmə atılacaq və orada əbədi olaraq əzab görəcəklər.

وَلِلّٰهِ جُنُودُ السَّمٰوَاتِ وَالْاَرْضِ ؕ وَكَانَ اللّٰهُ عَزِيزًا حَكِيمًا ﴿٧﴾

7. Göylərin və yerin orduları Allaha məxsusdur. Allah qüdrətlidir, hikmət sahibidir.

Təfsiri:

Uca Allah 4-cü ayədə göylərin və yerin ordularının Öz ixtiyarında olduğunu buyurduqdan sonra burada da eyni xüsusa diqqət çəkmişdir. Burada bu ayənin təkrarlanması münafiq və kafirlərdən alınacaq intiqamı təkid etmək üçündür. Birinci ayədə göylərin və yerin ordularının Allaha məxsus olduğu bildirildikdən sonra ayənin sonu “**Allah hər şeyi biləndir, hikmət sahibidir**” şəklində bitdiyi halda burada ayənin sonu “**Allah qüdrətlidir, hikmət sahibidir**” şəklində bitir. Təfsirçilər birinci ayədə Allahın möminlərə olan rəhmətinin bildirildiyini, ikinci ayədə isə kafirlərə əzabın veriləcəyinə diqqət çəkildiyini bildirmişdirlər.[8] Ona görə də birinci ayənin sonu ilə ikinci ayənin sonu bir-birindən fərqlənir.

إِنَّآ أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا ﴿٨﴾

8. Şübhəsiz ki, Biz səni şahid, müjdəçi və xəbərdarlıq edən bir peyğəmbər olaraq göndərdik.

Təfsiri:

Ey Mühəmməd! Biz səni qiyamət günündə bütün insanlara bir şahid, möminlərə cənnəti müjdələyən və kafirləri cəhənnəmin əzabından xəbərdar edən bir peyğəmbər olaraq göndərdik.

8. Sabuni, “Səfvətüt-təfasir”, III, 203.

لِتُؤْمِنُوا بِاللّٰهِ وَرَسُولِهٖ وَتُعَزِّرُوهُ وَتُوَقِّرُوهُ ؕ وَتُسَبِّحُوهُ بُكْرَةً وَّاَصِيلًا ﴿٩﴾

9. Allaha və Rəsuluna iman gətirəsiniz, ona yardım edib hörmət göstərəsiniz və səhər-axşam Allahı təsbeh edəsiniz.

Təfsiri:

Ey insanlar! Sizə peyğəmbər göndərdik ki, Rəbbinizə və peyğəmbərinizə iman gətirib inanasınız, Rəsulullaha hörmət göstərərək yardım edəsiniz, qəlbinizin hər an Allah ilə bərabər olması üçün səhər-axşam Rəbbinizi təsbeh edəsiniz.

اِنَّ الَّذِينَ يُبَايِعُونَكَ اِنَّمَا يُبَايِعُونَ اللّٰهَ ؕ يَدُ اللّٰهِ فَوْقَ اَيْدِيهِمْ ۚ فَمَنْ نَكَثَ فَاِنَّمَا يَنْكُثُ عَلٰى نَفْسِهٖ ۚ وَمَنْ اَوْفٰى بِمَا عَاهَدَ عَلَيْهُ اللّٰهَ فَسَيُؤْتِيهِ اَجْرًا عَظِيمًا ﴿١٠﴾

10. Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş sayılırlar. Allahın əli onların əllərinin üstündədir. Kim əhdini pozarsa, yalnız öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdə sadiq qalarsa, Allah ona böyük bir mükafat verəcəkdir.

Təfsiri:

Bu ayə Hüdeybiyyədə Həzrət Peyğəmbərə beyət edən səhabələrin əslində Allaha beyət etmiş olduqlarını bəyan etməkdədir. Bu, Allah tərəfindən Həzrət Peyğəmbərə verilən dəyəri ifadə edən bir ayədir. Çünki ona edilən beyət Allaha edilmiş kimi qəbul olunmuşdur. Allah-Təala orada beyət edənlərdən razı olduğunu bu surənin 18-ci ayəsində belə xəbər vermişdir: **“Şübhəsiz ki, möminlər ağacın altında sənə beyət etdiklərində Allah onlardan razı olmuşdur”**. Həzrət Peyğəmbər də ağacın altında ona beyət edənlərdən heç kimin cəhənnəmə girməyəcəyini buyuraraq[9] orada iştirak edən səhabələrin Allah dərgahındakı fəzilətlərinə diqqət çəkmişdir. Bu səbəblə də səhabələrin Hüdeybiyyədə Səmurə adlanan bir ağacın altında Rəsulullaha etdikləri bu beyət “beyətür-rizvan” adıyla tarixə düşmüşdür.

Rəsulullah (s.ə.s) hicrətin 6-cı ilində (miladi 628) 1500-ə yaxın səhabə ilə birlikdə ümrə ibadətini əda etmək məqsədilə yola çıxmış və Məkkədən 17 km uzaqda yerləşən Hüdeybiyyə adlanan yerə gəlib çatmışdı. Həzrət Peyğəmbərin məlumat almaq üçün göndərdiyi səhabələr müşriklərin müsəlmanlara mane olmaq qərarı aldıqlarını və bu məqsədlə Xalid ibn Vəlidin iki yüz nəfərlik bir dəstə ilə yola çıxdığı xəbərini gətirdilər. Bu xəbəri alan Allah Rəsulu (s.ə.s) gəliş məqsədini açıqlamaq və Kəbəni ziyarət etməyə icazə istəmək məqsədilə əvvəlcə Xiraş ibn Ümeyyə əl-Xüzaini müşriklərlə danışığa göndərmişdi. Lakin onun müşriklər

[9] Tirmizi, “Mənaqib”, 57.

tərəfindən pis qarşılanması və ölüm təhlükəsi ilə qarşı-qarşıya qalmasından sonra Rəsulullah (s.ə.s) Məkkəlilər arasında qohumları olan və hörmətli sayılan Həzrət Osmanı elçi olaraq göndərmişdi. Qısa bir müddət sonra müsəlmanlar arasında Həzrət Osmanın müşriklər tərəfindən öldürüldüyünə dair bir şayiə yayılmış və bu xəbəri alan Rəsulullah (s.ə.s) oradakı səhabələri toplayaraq onlardan beyət almışdı. Səmurə adlanan bir ağacın altında Rəsulullahın (s.ə.s) 1500-ə yaxın səhabənin tək-tək əllərini tutaraq beyət aldığı xəbərini eşidən Məkkə müşrikləri təşvişə düşmüş və Süheyl ibn Amrın başçılığı altında bir heyəti Rəsulullah ilə danışığa göndərmişdilər.

Hüdeybiyyədə müsəlmanlar ilə müşriklər arasında aparılan danışıqlardan sonra bəzi qərarlar alınmışdır. Alınan bu qərara əsasən müsəlmanlar həmin il geri qayıtmalı və ümrə etmək məqsədilə növbəti il gəlməli, Məkkədə yaşayan biri qaçıb Mədinəyə sığınacağı təqdirdə geri qaytarılmalı, lakin bunun əksi olarsa, geri qaytarılmamalı, üçüncü bir tərəflə müharibə olacağı təqdirdə üçüncü tərəfə dəstək olmaq məqsədi ilə tərəflər müdaxilə etməməli idi.

Ayədə keçən **"Allahın əli onların əllərinin üstündədir"** ifadəsi haqqında təfsirçilər fərqli fikirlər irəli sürmüşdürlər. İbn Kəsirə görə, səhabələr Allaha Peyğəmbər vasitəsilə beyət etmişdirlər. Allah orada onlarla bərabər olmuş, onları eşitmiş, görmüş və ürəklərindən keçənləri bilmişdir.[10] Zəməxşəriyə görə, beyət edənlərin əllərinin üzərində olan Rəsulullahın əli sanki Allahın əli kimi olmuşdur. Bunun mə-

[10] Sabuni, "Müxtəsərü İbn Kəsir", II, 342.

nası odur ki, kim Peyğəmbərə beyət edərsə, Allaha beyət etmiş olar. Qurani-Kərimin başqa bir ayəsində buna bənzər şəkildə Uca Allah belə buyurmuşdur: **“Kim Rəsula itaət edərsə, şübhəsiz ki, Allaha itaət etmiş olar”**.[11] Kim də beyəti pozarsa, bunun zərəri özünə olar. Çünki o, Rəbbi ilə olan əhdinə vəfa göstərməmiş və verdiyi sözdən dönmüşdür.[12]

سَيَقُولُ لَكَ الْمُخَلَّفُونَ مِنَ الْاَعْرَابِ شَغَلَتْنَآ
اَمْوَالُنَا وَاَهْلُونَا فَاسْتَغْفِرْ لَنَاۚ يَقُولُونَ بِاَلْسِنَتِهِمْ مَا
لَيْسَ فِى قُلُوبِهِمْۗ قُلْ فَمَنْ يَمْلِكُ لَكُمْ مِنَ اللّٰهِ شَيْـًٔا
اِنْ اَرَادَ بِكُمْ ضَرًّا اَوْ اَرَادَ بِكُمْ نَفْعًاۗ بَلْ كَانَ اللّٰهُ بِمَا
تَعْمَلُونَ خَبِيرًا ﴿١١﴾

11. Bədəvi ərəblərdən geridə qalanlar sənə: “Mallarımız və ailələrimiz bizi (döyüş üçün səfərə çıxmaqdan) **yayındırdı. Ona görə də Allahdan bizim bağışlanmağımızı dilə!” - deyəcəklər. Onlar dilləri ilə qəlblərində olmayanı deyirlər. De: “Əgər Allah sizə bir zərər, yaxud xeyir vermək istəsə, kim Ona qarşı çıxa bilər?! Xeyr! Allah sizin etdiklərinizdən xəbərdardır”.**

11. Nisa, 4/80.
12. Zəməxşəri, “Kəşşaf”, IV, 335.

Təfsiri:

Ayədə qeyd olunanlar Mədinə ətrafında yaşayan və geridə qalaraq döyüşə qatılmayan Ğifar, Müzeynə, Cüheynə, Əşca, Dil və Əşləm adlanan bədəvi ərəb qəbilələridir. Bu bədəvilər Həzrət Peyğəmbər ilə bərabər səfərə çıxacaqlarına söz verdikləri halda sonradan möminlərin bu səfərdən sağ geri qayıtmayacaqlarını zənn etdikləri üçün sözlərində durmamışdılar. Çünki onlar İslamı yeni qəbul etmiş və iman hələ onların qəlblərinə yerləşməmişdi. Uca Allah burada onların edəcəkləri üzrxahlıqları əvvəlcədən Rəsulullaha (s.ə.s) xəbər verərək onların yalanlarını ifşa etmişdir. Belə ki, onlardan döyüşə niyə qatılmadıqları soruşulduqda onlar mallarını və ailələrini bəhanə göstərmişdilər. Onlar səfərə qatılmamaları səbəbilə bağışlanmaları üçün Həzrət Peyğəmbərə müraciət edərək: **“Allahdan bizim bağışlanmamızı dilə!”** Çünki bizim səfərə qatılmamağımız səbəbsiz deyildir. Biz sənin əmrinə qarşı çıxmamışıq”, - demişdilər. Allah-Təala isə onların bu iddialarını rədd edərək: **“Onlar dilləri ilə qəlblərində olmayanı deyirlər”**, - buyurmuşdur. Onların səfərə qatılmamaq üçün ciddi bir səbəbləri yox idi və onlar bu üzrxahlıqlarında da səmimi deyildilər. Buna görə də Uca Allah Həzrət Peyğəmbərə xitabən: “Ey Mühəmməd! Onlara de: **“Əgər Allah sizə bir zərər, yaxud xeyir vermək istəsə, kim Ona qarşı çıxa bilər?!”** - buyurmuşdur. Nəticə olaraq, bu ayə Allaha və Onun peyğəmbərinə itaət edənlərin axirətdə mükafat qazanacaqlarını, müxalifət edənlərin isə əzaba məruz qalacaqlarını xəbər verir.

بَلْ ظَنَنْتُمْ اَنْ لَنْ يَنْقَلِبَ الرَّسُولُ وَالْمُؤْمِنُونَ اِلٰٓى اَهْلِيهِمْ اَبَدًا وَزُيِّنَ ذٰلِكَ فِى قُلُوبِكُمْ وَظَنَنْتُمْ ظَنَّ السَّوْءِۚ وَكُنْتُمْ قَوْمًا بُورًا ﴿١٢﴾

12. Əksinə, siz Peyğəmbərin və möminlərin bir daha ailələrinin yanına qayıtmayacaqlarını zənn etmişdiniz. Bu, sizin qəlblərinizin xoşuna gəldi və pis zənn bəslədiniz. Siz məhv olmağa layiq kimsələr oldunuz.

Təfsiri:

Ey səfərə qatılmayıb geri qalanlar! Siz Həzrət Peyğəmbərin və səhabələrinin əsla Mədinəyə geri qayıtmayacaqlarını zənn etmişdiniz. Sizin bu düşüncəniz qəlblərinizin xoşuna gəlmişdi. Çünki şeytan sizə bu düşüncənizi xoş göstərmişdi. Şeytanın və nəfsinizin tələsinə düşməklə siz Allahın qəzəbinə düçar oldunuz və məhv olmağa layiq bir hala gəldiniz.

وَمَنْ لَمْ يُؤْمِنْ بِاللّٰهِ وَرَسُولِهٖ فَاِنَّٓا اَعْتَدْنَا لِلْكَافِرِينَ سَعِيرًا ﴿١٣﴾

13. Kim Allaha və Onun Peyğəmbərinə iman gətirməzsə, bilsin ki, Biz kafirlər üçün alovlu bir od hazırlamışıq.

Təfsiri:

Uca Allah əvvəlki ayələrdə Rəsulullah (s.ə.s) ilə bərabər səfərə çıxmayanların düşdükləri halı xəbər verdikdən sonra burada ümumi bir qayda olaraq Allaha və Peyğəmbərinə iman gətirməyənlərin kafirlərdən olduqlarını bildirmişdir.

وَلِلّٰهِ مُلْكُ السَّمٰوٰتِ وَالْاَرْضِ ؕ يَغْفِرُ لِمَنْ يَّشَآءُ وَيُعَذِّبُ
مَنْ يَّشَآءُ ؕ وَكَانَ اللّٰهُ غَفُوْرًا رَّحِيْمًا ﴿١٤﴾

14. Göylərin və yerin hökmranlığı Allaha məxsusdur. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah bağışlayandır, rəhmlidir.

Təfsiri:

Bu ayə səfərə qatılmayan bədəvi ərəbləri etdikləri əməllərə görə peşman olmağa və tövbə etməyə dəvət edir. Belə ki, Uca Allah onların qeyri-səmimi və ixlassız davranışlarından uzaqlaşıb səmimiyyətlə hərəkət edəcəkləri təqdirdə Allahın onları bağışlaya biləcəyini və mərhəmət edəcəyini xəbər vermişdir. Çünki O, bağışlayandır və mərhəmətlidir.

سَيَقُوْلُ الْمُخَلَّفُوْنَ اِذَا انْطَلَقْتُمْ اِلٰى مَغَانِمَ لِتَاْخُذُوْهَا
ذَرُوْنَا نَتَّبِعْكُمْ ۚ يُرِيْدُوْنَ اَنْ يُّبَدِّلُوْا كَلٰمَ اللّٰهِ ؕ قُلْ لَّنْ تَتَّبِعُوْنَا

كَذٰلِكُمْ قَالَ اللّٰهُ مِنْ قَبْلُ ۚ فَسَيَقُولُونَ بَلْ تَحْسُدُونَنَا ۚ بَلْ كَانُوا لَا يَفْقَهُونَ اِلَّا قَلِيلًا ﴿١٥﴾

15. Qənimətləri almaq üçün getdiyiniz zaman (səfərə getməyib) **arxada qalanlar: “İcazə verin biz də sizin arxanızca gələk!” - deyəcəklər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De: “Siz əsla bizim arxamızca gəlməyəcəksiniz! Allah daha əvvəl sizin üçün belə buyurmuşdur”. Onlar: “Xeyr! Siz bizə paxıllıq edirsiniz”, - deyəcəklər. Əksinə, onlar çox az anlayan kimsələrdir.**

Təfsiri:

Həzrət Peyğəmbər Hüdeybiyyədən qayıtdıqdan sonra bir-iki ay Mədinədə qalmış və hicrətin yeddinci ilinin əvvəllərində Hüdeybiyyədə iştirak edən müsəlmanlarla bərabər şimal bölgəsində təxribat törədən Xeybər yəhudilərinin önünü kəsmək məqsədilə Xeybər səfərinə çıxmış və oranı fəth etmişdi. Ayənin üslubundan da anlaşıldığı kimi bu ayələr nazil olduğu zaman müsəlmanlar hələ Xeybər səfərinə çıxmamışdılar. Allah-Təala bu ayədə yaxın gələcəkdə baş tutacaq bir səfəri və bu səfərin qələbə ilə nəticələnəcəyini xəbər vermişdir. Həqiqətən də, bu səfər əsnasında müsəlmanlar qələbə qazanmış və çoxlu qənimətlər əldə etmişdilər. Ayədə Uca Allah Hüdeybiyyə səfərinə səbəbsiz

olaraq gəlməyənlərin Xeybər səfərinə qatılmayacaqlarını bildirməkdədir. Burada keçən “Allahın sözü” ifadəsi ilə qəsd edilən də elə budur. Hüdeybiyyəyə qatılmayıb qənimət əldə etmək üçün Xeybərə qatılmaq istəyənlər Allahın sözünü dəyişmək istəmişdilər. Allahın sözü isə dəyişməzdir. Onların məqsədi müsəlmanların əldə edəcəkləri qənimətlərdən pay almaq istəmələri idi. Ancaq Uca Allah onlara qənimət verilməyəcəyinə hökm etmişdir. Onlar isə Allahın bu hökmünü qəbul etməyərək müsəlmanların onları qənimətə ortaq qoşmamaq üçün belə etdiklərini irəli sürmüş və Uca Allah onların “**çox az anlayan kimsələr**” olduğunu buyurmuşdur. Əgər onlar anlayışlı insanlar olsaydılar, Hüdeybiyyə səfərinə qatılmadıqları halda Xeybərdəki qənimətlərdən pay istəməyə utanardılar. Lakin onlar nə etsələr də, nəticədə, Xeybər səfərinə yalnız Hüdeybiyyədə iştirak edən səhabələr və Həbəşistandan qayıdan mühacirlər çıxmışdılar.

قُلْ لِلْمُخَلَّفِينَ مِنَ الْاَعْرَابِ سَتُدْعَوْنَ اِلٰى قَوْمٍ اُولِى
بَأْسٍ شَدِيدٍ تُقَاتِلُونَهُمْ اَوْ يُسْلِمُونَ ۚ فَاِنْ تُطِيعُوا يُؤْتِكُمُ
اللّٰهُ اَجْرًا حَسَنًا ۚ وَاِنْ تَتَوَلَّوْا كَمَا تَوَلَّيْتُمْ مِنْ قَبْلُ يُعَذِّبْكُمْ
عَذَابًا اَلِيمًا ﴿١٦﴾

16. (Səfərə çıxmayıb) **arxada qalan bədəvi ərəblərə de: “Siz çox qüvvətli bir qövm ilə döyüşməyə çağırılacaqsınız. Siz ya onlarla döyüşəcəksiniz, ya da on-**

lar təslim olacaqlar. Əgər itaət etsəniz, Allah sizə gözəl bir mükafat verəcəkdir. Əgər daha əvvəl üz döndərdiyiniz kimi yenə üz döndərsəniz, O sizə acı bir əzab verəcəkdir”.

Təfsiri:

Bu ayədə Hüdeybiyyə səfərinə qatılmayanların Xeybər savaşına olmasa da, daha sonra **“çox qüvvətli bir qövm ilə döyüşməyə çağrılacaqları”** buyurulmaqdadır. Buradan Hüdeybiyyə səfərinə qatılmayan kimsələrin münafiqlər olmadığı nəticəsi ortaya çıxır.[13] Bu güclü düşmənin Həvazin qəbiləsi, Səqif qəbiləsi, Hənifə oğulları, İranlılar və Romalılar olduğuna dair fərqli fikirlər ortaya atılmışdır.[14] Lakin ayənin **“Siz ya onlarla döyüşəcəksiniz, ya da onlar təslim olacaqlar”**, cümləsi bu düşmənlərin ya müşriklər, ya da mürtədlər olduğuna işarə edir. Belə ki, əgər bu düşmən əhli-kitabdan olan bir tayfa olsaydı, o zaman müsəlmanların qarşısında iki deyil, üç seçim haqqı olardı: İslama dəvət, döyüş və vergi vermək şərtilə sülh. Lakin ayədə iki seçim olduğunun bildirilməsi bu düşmənin əhli-kitab deyil, müşriklər və ya mürtədlər olduğunu göstərir.[15]

Yəni ey Hüdeybiyyə səfərinə qatılmayanlar! Əgər bu düşmənlə döyüşə çıxsanız, Allah sizə dünyada qənimət və qalibiyyət, axirətdə isə cənnət bəxş edəcək. Lakin Hüdeybiyyədə etdiyiniz kimi etsəniz, Allah sizə cəhənnəmdə acı bir əzab verəcəkdir.

---

13. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 72.
14. Sabuni, “Müxtəsərü İbn Kəsir”, II, 344.
15. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 72-73.

لَيْسَ عَلَى الْاَعْمٰى حَرَجٌ وَّلَا عَلَى الْاَعْرَجِ حَرَجٌ وَّلَا عَلَى الْمَرِيْضِ حَرَجٌ ؕ وَمَنْ يُّطِعِ اللّٰهَ وَرَسُوْلَهٗ يُدْخِلْهُ جَنّٰتٍ تَجْرِىْ مِنْ تَحْتِهَا الْاَنْهٰرُ ۚ وَمَنْ يَّتَوَلَّ يُعَذِّبْهُ عَذَابًا اَلِيْمًا ۙ ﴿١٧﴾

17. (Döyüşə getmədiklərinə görə) **kora, topala və xəstəyə günah yoxdur. Kim Allaha və Peyğəmbərinə itaət edərsə, Allah onu** (ağacları) **altından çaylar axan cənnətlərə daxil edəcəkdir. Kim də üz döndərərsə, Allah ona acı bir əzab verəcəkdir.**

Təfsiri:

Keçərli bir səbəb olmadığı halda, döyüşə qatılmamaq İslam hüququ və İslam əxlaqı cəhətindən mənfi bir davranışdır. Lakin Uca Allah burada kor, topal və hər hansı bir xəstəliyi olanların döyüşə qatılmaya biləcəklərini bəyan etmişdir. Ayənin davamında Uca Allah bir qayda olaraq Ona itaət etməyin nəticəsinin cənnət, itaətsizliyin nəticəsinin isə cəhənnəm olduğunu bildirmişdir.

لَقَدْ رَضِىَ اللّٰهُ عَنِ الْمُؤْمِنِيْنَ اِذْ يُبَايِعُوْنَكَ تَحْتَ الشَّجَرَةِ فَعَلِمَ مَا فِىْ قُلُوْبِهِمْ فَاَنْزَلَ السَّكِيْنَةَ عَلَيْهِمْ وَاَثَابَهُمْ فَتْحًا قَرِيْبًا ۙ ﴿١٨﴾

18. Şübhəsiz ki, möminlər ağacın altında sənə beyət etdiklərində Allah onlardan razı olmuşdur. Allah onların qəlblərində olanı bilmiş, onlara mənəvi rahatlıq vermiş və onları yaxın bir fəth (zəfər) **ilə mükafatlandırmışdır.**

Təfsiri:

Ayədə Hüdeybiyyə sülhündən öncə Rəsulullahın (s.ə.s) səhabələrdən aldığı beyətdən bəhs olunmaqdadır. Rəsulullahın (s.ə.s) səhabələrdən aldığı bu beyətin səbəbi belə olmuşdur: Allah Rəsulu (s.ə.s) Qüreyş qəbiləsinin liderlərinə Məkkəyə gəliş məqsədini izah etməsi üçün öncə Xiraş ibn Ümeyyə əl-Xüzaini müşriklərlə danışığa göndərmişdi. Lakin onun müşriklər tərəfindən pis qarşılanması və ölüm təhlükəsi ilə qarşı-qarşıya qalmasından sonra Rəsulullah (s.ə.s) Həzrət Öməri çağırmış və onu elçi olaraq göndərmək istəmişdi. Həzrət Ömər Qüreyş qəbiləsində mənsub olduğu Adi oğullarından heç kimin olmadığını və onu orada Qüreyşdən qoruyacaq heç kəsin mövcud olmadığını söyləmişdir. O, qüreyşlilər tərəfindən sevilən və qəbul edilən biri olaraq Həzrət Osmanın adını təklif etmiş və Allah Rəsulu (s.ə.s) onun bu təklifindən sonra Həzrət Osmanı elçi olaraq göndərmişdi. Həzrət Osman Məkkəyə çatdıqdan sonra Əban ibn Səid ilə görüşmüş və onun himayəsi altında Rəsulullahın (s.ə.s) məktubunu Əbu Süfyan və Qüreyşin digər böyüklərinə çatdırmışdı. Həzrət Osman Rəsulullahın (s.ə.s) məqsədini onlara izah etdikdən sonra qüreyşlilər ona Kəbəni tavaf et-

mək istəyəcəyi təqdirdə buna icazə verəcəklərini bildirmiş, lakin o, Rəsulullah Kəbəni tavaf etmədən özünün də tavaf etməyəcəyini bildirərək onların bu təklifini qəbul etməmişdi.

Qüreyşlilər bir müddət Həzrət Osmanın geri qayıtmasını gecikdirdikləri üçün müsəlmanların arasında onun öldürüldüyünə dair şayiələr dolaşmağa başlamışdı. Bu xəbəri alan Allah Rəsulu (s.ə.s) da səhabələrini Səmurə adlanan bir ağacın altında toplayaraq onlardan beyət almışdı. Səhabələrin arasında olan Cəd ibn Qeysdən başqa hər kəs beyət etmişdi. Mənbələrdə beyət edən səhabələrin 1400 və ya 1500 nəfər oduqları qeyd olunmaqdadır.[16] Hüdeybiyyədə Səmurə ağacının altında Rəsulullahın səhabələrdən aldığı bu beyət tarixə “rizvan beyəti” adıyla düşmüşdür. Çünki Uca Allah ayədə: **“Şübhəsiz ki, möminlər ağacın altında sənə beyət etdiklərində Allah onlardan razı olmuşdur”**, - buyurmuşdur. Ayədə qeyd olunan razılıq ərəbcə “رِضْوَان/rizvan” kəlməsi ilə ifadə olunmaqdadır.

Müşriklər müsəlmanların Məkkəyə girmələrinə icazə verməyincə, başda Həzrət Ömər olmaq üzrə bəzi səhabələr buna sərt reaksiya göstərmiş, lakin Uca Allah **“onların qəlblərində olanı bilmiş, onlara mənəvi rahatlıq vermiş və onları yaxın bir fəth** (zəfər) **ilə mükafatlandırmışdır”.** Burada qeyd olunan “yaxın fəth” Mədinə yaxınlığında yerləşən Xeybərin fəthidir.

16. Təbəri, “Camiül-bəyan”, XXII, 224-225.

وَمَغَانِمَ كَثِيرَةً يَأْخُذُونَهَا ۗ وَكَانَ اللَّهُ عَزِيزًا حَكِيمًا ﴿١٩﴾

19. Həmçinin Allah onları əldə edəcəkləri bir çox qənimətlərlə mükafatlandırmışdır. Allah qüdrətlidir, hikmət sahibidir.

Təfsiri:

Ayədə qeyd olunan qənimətlər müsəlmanların Xeybərdə əldə edəcəkləri qənimətlərdir. Çünki Allah qüdrət və hikmət sahibidir.

وَعَدَكُمُ اللَّهُ مَغَانِمَ كَثِيرَةً تَأْخُذُونَهَا فَعَجَّلَ لَكُمْ هَٰذِهِ وَكَفَّ أَيْدِيَ النَّاسِ عَنكُمْ وَلِتَكُونَ آيَةً لِّلْمُؤْمِنِينَ وَيَهْدِيَكُمْ صِرَاطًا مُّسْتَقِيمًا ﴿٢٠﴾

20. Allah sizə əldə edəcəyiniz bir çox qənimətlər vəd etmişdir. Bunu sizə tezliklə verdi və insanların əllərini sizdən çəkdi ki, bu, möminlər üçün (zəfərə) **işarə olsun və sizi doğru yola yönəltsin.**

Təfsiri:

Bu ayə İslam ordularının daha neçə-neçə yerləri fəth edəcəyini və islamiyyətin şərqə və qərbə yayılacağını xəbər verir. Həmçinin Uca Allah bu fəthlər sayəsində müsəlmanların çoxlu qənimətlər əldə edəcəklərini vəd edir. Burada tezliklə verilən qənimətlər ilə müsəlmanların Xeybərdə əldə edəcəkləri qənimətlər qəsd olunmuşdur. İbn Abbasa görə isə, tezliklə verilən qənimət ilə Hüdeybiyyə sülh müqaviləsinin elə özü qəsd olunur. Çünki bu sülh müsəlmanlar üçün qənimət mahiyyətində bir sülh idi.[17] Ayədə müsəlmanların Xeybərdə əldə etdikləri qənimətlər çox olsa da bundan sonra edəcəkləri savaşlardan əldə edəcəkləri qənimətlərin daha çox olacağına işarə edilmişdir. Ayədə Uca Allah: **"İnsanların əllərini sizdən çəkdi"**, - buyurmuşdur. Təfsirçilərə görə, bu insanlar Xeybər yəhudiləri, Bəni-Əsəd və Qətəfan qəbilələridir. Çünki möminlər Hüdeybiyyə müqaviləsinin bağlandığı il Məkkəyə ümrə etmək üçün yola çıxdıqları zaman Allah möminlərin Mədinədə qalan ailələrini orada yaşayan yəhudilərin şərindən qorumuşdu. Allah-Təala bütün bunları **"möminlər üçün zəfərə bir işarə olması"** və Həzrət Peyğəmbərin peyğəmbərliyinə və onun Allah tərəfindən dəstəkləndiyinə bir dəlil olması üçün etmişdir. Həmçinin Uca Allah bunları möminlər cihadları və ixlasları sayəsində cənnətə gedən doğru yola yönəlsinlər deyə etmişdir.

17. Təbəri, "Camiül-bəyan", XXII, 230.

وَاُخْرٰى لَمْ تَقْدِرُوا عَلَيْهَا قَدْ اَحَاطَ اللّٰهُ بِهَا ؕ وَكَانَ اللّٰهُ عَلٰى كُلِّ شَىْءٍ قَدِيرًا ﴿٢١﴾

21. Hələ əldə etmədiyiniz başqa qənimətlər də vardır ki, Allah onları elmi ilə əhatə etmişdir. Allah hər şeyə qadirdir.

Təfsiri:

Allah-Təala burada müsəlmanların hələ güclərinin çatmadığı, lakin gələcəkdə fəth edəcəkləri yerlərə işarə etməkdədir. Gələcəkdə fəth ediləcək yerlər haqqında fərqli fikirlər söylənmişdir. Bu fikirlər arasında fars diyarı, Roma və qiyamətə qədər müsəlmanların fəth edəcəkləri yerlər vardır. Lakin əsas görüş Məkkənin fəthidir. Çünki bu ayə nazil olduğu zaman möminlərin fəth etməyə güclərinin çatmadığı yer Məkkə idi. Allah-Təala möminlərə düşmən olan qövmlərə aid yolları öz elmi və qüdrətiylə əhatə etmiş və düşmənləri möminlərə məğlub etdirmişdir. Çünki Allah öz dostlarını müzəffər etməyə, düşmənlərini isə məğlubiyyətə uğratmağa qadirdir.

وَلَوْ قَاتَلَكُمُ الَّذِينَ كَفَرُوا لَوَلَّوُا الْاَدْبَارَ ثُمَّ لَا يَجِدُونَ وَلِيًّا وَلَا نَصِيرًا ﴿٢٢﴾

22. Əgər kafirlər sizinlə döyüşsəydilər, arxalarını çevirib qaçacaqdılar. Sonra onlar nə bir dost, nə də bir yardımçı tapa biləcəkdilər.

Təfsiri:

Bu ayə Hüdeybiyyədə Həzrət Peyğəmbərə beyət edən səhabələrin mənəviyyatını gücləndirən bir ayədir. Belə ki, Uca Allah burada kafirlərin sülh etməyib onlarla savaşacaqları təqdirdə mütləq məğlub olacaqlarını və dönüb qaçacaqlarını xəbər vermişdir. Çünki Allah möminlərin dostu və yardımçısıdır. Kafirlərin isə nə bir dostu, nə də bir yardımçısı vardır.

سُنَّةَ اللهِ الَّتِى قَدْ خَلَتْ مِنْ قَبْلُ ۚ وَلَنْ تَجِدَ لِسُنَّةِ اللهِ تَبْدِيلًا ﴿٢٣﴾

23. Bu, Allahın əzəldən qoyduğu qanunudur. Allahın qoyduğu qanunda heç bir dəyişiklik tapa bilməzsən.

Təfsiri:

Allahın və göndərdiyi peyğəmbərlərinin kafirlərə qalib gəlməsi Uca Allahın bir qanunudur. Çünki **“Allah əzəldən belə yazmışdır: Mən və elçilərim hökmən qalib gələcəyik!”**[18] Allahın bu qanunu əsla dəyişməz. Belə ki, yaxşılıq edənə yaxşılıq, pislik edənə pislik etmək Allahın ədalətinin tələbidir.

[18] Mücadilə, 58/21.

وَهُوَ الَّذِى كَفَّ اَيْدِيَهُمْ عَنْكُمْ وَاَيْدِيَكُمْ عَنْهُمْ بِبَطْنِ مَكَّةَ مِنْ بَعْدِ اَنْ اَظْفَرَكُمْ عَلَيْهِمْ ؕ وَكَانَ اللّٰهُ بِمَا تَعْمَلُونَ بَصِيرًا ﴿٢٤﴾

24. Onlara qarşı sizə zəfər bəxş etdikdən sonra Məkkənin yaxınlığında (Hüdeybiyyədə) **onların əllərini sizdən, sizin əllərinizi də onlardan çəkən Odur. Allah sizin etdiklərinizi görür.**

Təfsiri:

Məkkə müşriklərindən səksən nəfərlik bir dəstə Rəsulullaha və səhabələrə qəfil hücum etmək üçün Tənim dağında pusqu qururlar. Lakin onlar səhabələr tərəfindən yaxalanaraq əsir tutulurlar. Onların etdikləri bu pisliklərinə rəğmən Allah Rəsulu (s.ə.s) onların öldürülməsinə deyil, bağışlanmalarına qərar verir. Beləliklə müşriklər Allah Rəsulunun aldığı bu qərardan sonra onlara hücum etməyi artıq düşünməmiş və müsəlmanlarla sülh yoluna getmişdirlər. Bunun da nəticəsində Allah müşriklərin əllərini möminlərdən çəkərək onların möminlərə hücum etmələrinin qarşısını almış, möminlərin də əllərini müşriklərdən çəkərək onların müvəqqəti olaraq Məscidi-Harama girmələrinə icazə verməmişdir. Bu hadisədən sonra Uca Allah bu ayəni nazil etmişdir: **“Onlara qarşı sizə zəfər bəxş etdikdən sonra Məkkənin yaxınlığında** (Hüdeybiyyədə) **onların əllərini sizdən, sizin əllərinizi də onlardan çəkən Odur”**. Ayədə bəhs olunan zəfər müsəlmanların səksən nəfərlik bu

müşrik dəstəsi üzərində əldə etdikləri qələbədir.[19] **“Allah sizin etdiklərinizi görür”.** Ona görə də sizə mərhəmət edərək və Allahın evində qan tökülməsini istəməyərək kafirlərlə savaşmanıza mane oldu.

هُمُ الَّذِينَ كَفَرُوا وَصَدُّوكُمْ عَنِ الْمَسْجِدِ الْحَرَامِ
وَالْهَدْىَ مَعْكُوفًا اَنْ يَبْلُغَ مَحِلَّهٗ ؕ وَلَوْلَا رِجَالٌ مُّؤْمِنُونَ
وَنِسَآءٌ مُّؤْمِنَاتٌ لَّمْ تَعْلَمُوهُمْ اَنْ تَطَـَٔوْهُمْ فَتُصِيبَكُمْ
مِّنْهُمْ مَّعَرَّةٌۢ بِغَيْرِ عِلْمٍ ۚ لِيُدْخِلَ اللّٰهُ فِى رَحْمَتِهٖ مَنْ يَّشَآءُ ۚ
لَوْ تَزَيَّلُوا لَعَذَّبْنَا الَّذِينَ كَفَرُوا مِنْهُمْ عَذَابًا اَلِيمًا ﴿٢٥﴾

25. Onlar kafir olub sizin Məscidi-harama ziyarət etməyinizə və gözlədilən qurbanlıqların qurbangaha çatmasına mane olanlardır. Əgər (Məkkədə) **özlərini hələ tanımadığınız üçün bilmədən tapdalayıb əzməyiniz** (öldürməyiniz) **səbəbilə günaha girəcəyiniz mömin kişi və qadınlar olmasaydı,** (Allah döyüşməyinizə izin verərdi)**. Allah istədiyi kimsəni Öz rəhmətinə daxil etmək üçün belə etmişdir. Əgər onlar bir-birindən ayrılmış olsaydılar, əlbəttə, onlardan kafir olanlara acı bir əzab verərdik.**

19. Süyuti, “Təfsirül-Cəlaleyn”, s. 682.

Təfsiri:

Allah-Təala bu ayədə Məkkə müşriklərinin kafir olduqlarını bəyan edir. Çünki onlar Mədinədən Məkkəyə ümrə etmək məqsədilə gələn Rəsulullahı (s.ə.s) və səhabələri Kəbəyə buraxmamışdılar. Onlar Rəsulullahın (s.ə.s) və səhabələrin özləri ilə qurban kəsmək üçün gətirdikləri yetmiş qurbanlıq dəvənin də qurbangahda (Minada) kəsilməsinə icazə verməmişdilər. Halbuki Məkkə müşriklərinin öz əcdadlarından görüb öyrəndikləri adət-ənənələrinə görə ziyarət üçün gələn zəvvarlara Kəbədə xidmət olunardı. Lakin onlar etdiklərinin doğru olmadığını bilə-bilə kökləşmiş bu adətlərinə rəğmən qəlblərində bəslədikləri kin və düşmənçilik duyğularının təsiri altında qalaraq müsəlmanlara mane olmuşdular. Ayədə müsəlmanlara müşriklərlə döyüşmək üçün icazə verilməməsinin səbəbi də Məkkədə müsəlman olduqlarını gizli saxlayan insanların mövcudluğu ilə izah edilir. Uca Allah Məkkədəki imanlarını gizləyən din qardaşlarını öldürməsinlər və bu səbəblə günaha girməsinlər deyə, Hüdeybiyyəyə gələn səhabələrə döyüşə icazə verməmişdir. Allah müşriklərin arasından möminləri xilas etmək və onların müsəlmanlara qoşulmaları üçün belə etmişdir. Həqiqətən də sonradan müşriklərin arasından insanlar dəstə-dəstə gələrək müsəlmanlara qoşulmuş və İslamı gözəl bir şəkildə yaşayaraq bir müsəlman kimi dünyalarını dəyişmişdilər. Bu ayə İslam dininin müsəlmanlara nə qədər əhəmiyyət verərək onları qoruduğunu göstərməkdədir. Əgər möminlər kafirlərdən ayrı olsaydı, əlbəttə, Allah onlardan kafir olanları məhv edərək şiddətli bir şəkildə cəzalandırardı.

اِذْ جَعَلَ الَّذِينَ كَفَرُوا فِى قُلُوبِهِمُ الْحَمِيَّةَ حَمِيَّةَ الْجَاهِلِيَّةِ فَاَنْزَلَ اللّٰهُ سَكِينَتَهُ عَلٰى رَسُولِهِ وَعَلَى الْمُؤْمِنِينَ وَاَلْزَمَهُمْ كَلِمَةَ التَّقْوٰى وَكَانُوٓا اَحَقَّ بِهَا وَاَهْلَهَا ؕ وَكَانَ اللّٰهُ بِكُلِّ شَىْءٍ عَلِيمًا ﴿٢٦﴾

26. Kafirlər öz qəlblərinə təkəbbürü - cahiliyyə təkəbbürünü yerləşdirdikləri zaman Allah Peyğəmbərinə və mömin-lərə mənəvi rahatlıq verdi və onlara təqva kəlməsini (kəlmeyi-tövhidi) **vacib etdi. Bu, ən çox onların haqqı idi və onlar buna layiq idilər. Allah hər şeyi biləndir.**

Təfsiri:

Hüdeybiyyədə müsəlmanlar ilə müşriklər arasında sülh danışıqları davam edərkən müşriklər tərəfindən gələn Süheyl ibn Amr müqaviləyə Həzrət Peyğəmbərin adının Allahın Rəsulu Mühəmməd olaraq yazılmasına etiraz edərək: “Əgər biz sənin Allahın Rəsulu olduğunu qəbul etsəydik, səni Məkkəyə buraxar və səninlə savaşmazdıq”, - demişdir.[20] Uca Allah bu ayədə həmin bu hadisəyə diqqət çəkərək onun Həzrət Peyğəmbərə qarşı etdiyi bu hərəkətinin cahiliyyə təkəbbürü olduğunu bildirmişdir. Başqa bir izaha görə isə Qüreyşin böyükləri Həzrət Mühəmməd və səhabələrin

[20] Buxari, “Şürut”, 15.

Məkkəyə girəcəkləri təqdirdə bunun bütün ərəb qəbilələri tərəfindən eşidiləcəyi və bu hadisənin onların nüfuzuna xələl gətirəcəyini düşünmüşdülər. Bu səbəbdən də Məkkə müşrikləri cahiliyyə təkəbbürünə qapılaraq ümrə etmək üçün gələn Həzrət Peyğəmbərin Məkkəyə girməsinə icazə verməmişdilər. Lakin müşriklərin bu etdiklərinə baxmayaraq Uca Allah Həzrət Peyğəmbərin və möminlərin qəlblərinə mənəvi rahatlıq vermişdir. Belə ki, Allah Rəsulu (s.ə.s) Məkkəyə girməyin mümkün olmadığını anladığı zaman səhabələrə olduqları yerdə qurbanlıqlarını kəsib ehramdan çıxa biləcəklərini söyləsə də səhabələrdən bəziləri bir qədər tərəddüd etmiş, lakin Həzrət Peyğəmbərin həyat yoldaşı Ümmü Sələmənin təklifi ilə Həzrət Peyğəmbər qurbanını kəsincə bütün səhabələr ondan sonra qurbanlarını kəsərək ehramdan çıxmışdılar.[21] Allah-Təala da onların Həzrət Peyğəmbərə göstərdikləri bu itaətkarlıqdan sonra qəlblərinə mənəvi bir rahatlıq bəxş etmişdir. Bu mənəvi rahatlıq sayəsində müsəlmanlar müşriklərin təkəbbürünə qarşı dözümlülük göstərmiş və qəzəblənərək Həzrət Peyğəmbərin əmrindən çıxmamışdılar. Beləliklə də Hüdeybiyyədə müşriklərlə əldə olunan razılaşmanı pozan heç bir hərəkət etməmişdilər. Allah onlara təqva kəlməsini (kəlmeyi-tövhidi)[22] vacib etmişdi. Kəlmeyi-tövhidə şəksiz inanan səhabə nəslinin Həzrət Peyğəmbərə itaətsizlik etməsi mümkün deyildir. Onların Həzrət Peyğəmbərə olan bu itaətinin nəticəsi olaraq da Allah-Təala Hüdeybiyyə müqaviləsinin şərtlərini

21. Buxari, "Şürut", 15.
22. Tirmizi, "Təfsir", 48.

onların lehinə çevirmişdir. Çünki bu, ən çox onların haqqı idi və onlar buna layiq idilər.

لَقَدْ صَدَقَ اللّٰهُ رَسُولَهُ الرُّءْيَا بِالْحَقِّ ۖ لَتَدْخُلُنَّ الْمَسْجِدَ
الْحَرَامَ اِنْ شَآءَ اللّٰهُ اٰمِنِينَ ۙ مُحَلِّقِينَ رُؤُسَكُمْ وَمُقَصِّرِينَ ۙ
لَا تَخَافُونَ ۗ فَعَلِمَ مَا لَمْ تَعْلَمُوا فَجَعَلَ مِنْ دُونِ ذٰلِكَ
فَتْحًا قَرِيبًا ﴿٢٧﴾

27. Şübhəsiz ki, Allah Peyğəmbərinin röyasını həqiqətə çevirdi. Siz inşallah əmin-amanlıq içində, başlarınızı qırxdırmış və saçınızı qısaltmış bir halda qorxmadan Məscidi-harama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan əvvəl də sizə yaxın bir zəfər bəxş etmişdi.

Təfsiri:

Rəsulullah (s.ə.s) yuxuda səhabələr ilə bərabər Məkkəyə girib Allahın evi Kəbəni tavaf etdiyini, bəzi səhabələrin saçlarını qırxdığını, bəzilərinin isə saçlarını qısaltdığını görmüşdü. Allah Rəsulu (s.ə.s) gördüyü bu yuxunu səhabələrə danışmış və səhabələr buna çox sevinmişdilər. Lakin Rəsulullah (s.ə.s) səhabələr ilə bərabər Hüdeybiyyəyə gəlib müşriklər onların Məkkəyə girməsinə mane olduqları zaman

səhabələrin arasında olan bəzi münafiqlər belə demişdilər: “Allaha and olsun ki, biz saçımızı nə qırxdıq, nə də Kəbəni gördük. Yuxu nə oldu?” Münafiqlərin bu dediklərindən sonra müsəlmanların qəlbinə bəzi şübhələr düşmüşdü.[23] Bundan sonra Uca Allah: **“Allah Peyğəmbərinin röyasını həqiqətə çevirdi**...**”** ayəsini nazil edərək Rəsulullahın (s.ə.s) yuxusunun haqq olduğunu xəbər vermişdir. Lakin Rəsulullah (s.ə.s) yuxuda hicrətin 6-cı ilində Məkkəyə girəcəyini görməmişdi. Allah ona yuxuda sadəcə Məkkəyə girəcəyini göstərmişdi.

Uca Allah Hüdeybiyyədə müşriklərlə əldə olunan razılaşmanın müsəlmanların xeyrinə olduğunu çox yaxşı bilirdi. Həqiqətən, cəmi bir il içərisində insanların İslam dininə qarşı rəğbəti daha da artmış və 1500-ə yaxın səhabə ilə Hüdeybiyyəyə gələn Rəsulullah (s.ə.s) iki il sonra ətrafında on mindən çox insanla Məkkə səfərinə çıxmışdır. Bu səbəblə də Hüdeybiyyə sülh müqaviləsi fəth olaraq qəbul edilmişdir. Ayədə qeyd olunan “yaxın zəfər” ilə müsəlmanlarla müşriklər arasında əldə olunan bu razılaşma qəsd olunmuşdur.

هُوَ الَّذِىٓ اَرْسَلَ رَسُولَهُ بِالْهُدٰى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهٖ ۭ وَكَفٰى بِاللّٰهِ شَهِيدًا ۭ ﴿٢٨﴾

28. Onu (İslamı) **bütün dinlərdən üstün etmək üçün Öz Peyğəmbərini hidayət və haqq din ilə göndərən Odur. Şahid olaraq Allah yetər!**

[23] Sabuni, “Səfvətüt-təfasir”, III, 210.

Təfsiri:

Uca Allah Həzrət Mühəmmədi doğru yola yönəltmiş və haqq din olan İslam ilə göndərmişdir. İslamın gəlişi ilə bütün dinlərin hökmü ortadan qalxmış və İslam ən son və ən mükəmməl din olaraq insanlığa bəxş olunmuşdur. İslam dininin digər dinlərdən üstün olduğuna dair Allah şahidlik etmişdir. Şahid olaraq Allah yetər. Başqa heç bir şahidə ehtiyac yoxdur. Bu ayə Hüdeybiyyə sülh müqaviləsi yazılarkən Məkkə müşriklərinin Həzrət Peyğəmbərin adının yanında “Allahın Rəsulu” ifadəsinin yazılmasına etiraz etmələrinə cavab olaraq nazil olmuşdur. Rəsulullah (s.ə.s) onların etdikləri bu etirazdan sonra özü müqavilə mətnindən bu ifadəni silmişdir.[24] Bu hadisəyə diqqət çəkən Uca Allah ayədə Həzrət Peyğəmbərin peyğəmbərliyi mövzusunda heç bir şübhənin olmadığını açıqlamış və buna Allahın şahid olduğunu bildirmişdir.

Allah-Təala bu ayədə Hüdeybiyyə sülh müqaviləsindən sonra kədərlənən möminləri də təsəlli etmiş və İslamın bütün dinlərdən üstün olduğunu açıqlayaraq onları mənəvi olaraq rahatlaşdırmışdır.

مُحَمَّدٌ رَسُولُ اللّٰهِ ؕ وَالَّذِينَ مَعَهٗۤ اَشِدَّآءُ عَلَى الْكُفَّارِ
رُحَمَآءُ بَيْنَهُمْ تَرٰىهُمْ رُكَّعًا سُجَّدًا يَبْتَغُونَ فَضْلًا مِنَ اللّٰهِ
وَرِضْوَانًا ۫ سِيمَاهُمْ فِى وُجُوهِهِمْ مِنْ اَثَرِ السُّجُودِ ؕ ذٰلِكَ

24. Buxari, “Sülh”, 6.

مَثَلُهُمْ فِى التَّوْرٰىةِ ۚ وَمَثَلُهُمْ فِى الْاِنْجِيلِ ۛ كَزَرْعٍ اَخْرَجَ
شَطْـَٔهُ فَاٰزَرَهُ فَاسْتَغْلَظَ فَاسْتَوٰى عَلٰى سُوقِهِ يُعْجِبُ
الزُّرَّاعَ لِيَغِيظَ بِهِمُ الْكُفَّارَ ۗ وَعَدَ اللّٰهُ الَّذِينَ اٰمَنُوا وَعَمِلُوا
الصَّالِحَاتِ مِنْهُمْ مَغْفِرَةً وَاَجْرًا عَظِيمًا ﴿٢٩﴾

29. Mühəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar da kafirlərə qarşı sərt, bir-birlərinə qarşı isə mərhəmətlidirlər. Onların rüku edərək və səcdəyə qapanaraq Allahdan lütf və riza dilədiklərini görərsən. Onların nişanəsi üzlərindəki səcdə izidir. Bu, onların Tövratdakı vəsfidir. İncildəki vəsfləri isə belədir: onlar cücərtisini üzə çıxarmış, onu qüvvətləndirmiş, o da qalınlaşıb gövdəsi üstünə qalxmış və əkinçilərin xoşuna gələn bir əkin kimidirlər. Allah (möminlərin sayını belə artırır ki,) **bununla kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə məğfirət və böyük bir mükafat vəd etmişdir.**

Təfsiri:

Allah-Təala bu ayədə Həzrət Peyğəmbəri və möminləri vəsf etməkdədir. Bundan öncəki ayədə keçən hidayət və haqq

din ilə göndərilən peyğəmbərin kim olduğu bu ayə vasitəsilə açıqlanmış və haqqında bəhs edilən bu peyğəmbərin Həzrət Mühəmməd olduğu bildirilmişdir. Həzrət Peyğəmbər ilə bərabər olan səhabələrin kafirlərə qarşı sərt, bir-birlərinə qarşı isə mərhəmətli olduğu vurğulanmışdır. Həzrət Peyğəmbəri malları və canlarıyla dəstəkləyən və qəlblərinə yalnız Allahın rizasını hakim edən bu nəslin sevməsi də, nifrət etməsi də yalnız Allah rizası üçün olmuşdur. Onların İslama və Həzrət Peyğəmbərə düşmənçilik edənlərə qarşı sərt olmaları hər zaman Allahın rizasını qazanmaq prinsipinə əsaslanmışdı. Onların müsəlman olmayanlara qarşı sərt olmaları yalnız öz dinlərini müdafiə etmək məqsədilə olmuşdur. Lakin səhabə nəsli müsəlmanlara heç bir zərəri toxunmayan, onları öz yurd-yuvalarından çıxmağa məcbur etməyən qeyri-müsəlmanlara qarşı hər zaman İslamın ümumi əxlaq ölçüləri daxilində hərəkət etmişdirlər.

Ayədə Həzrət Peyğəmbərin ətrafındakı səhabələrin rüku və səcdəyə qapanaraq Allahın lütf və rizasını dilədikləri vurğulanmış və nişanələrinin üzlərindəki səcdə izləri olduğu bildirilmişdir. Təfsir alimləri səcdə izləri haqqında fərqli fikirlər irəli sürmüşdürlər. Birinci görüşə görə səcdə izi insanın alnında namaz qılmaq nəticəsində əmələ gələn maddi bir izdir. İkinci görüşə görə insanın üzündə əmələ gələn mənəvi nurdur. Üçüncü görüşə görə isə Qiyamət günü namaz qılanları digər insanlardan ayıran üzdəki parlaqlıqdır.[25] Ayədə möminlərin üzündəki səcdə izinin dünya və ya axirətdə olacağına dair hər hansı bir işarə olmadığı üçün bəzi təfsirçilər

[25] Heyet, "Kuran Yolu Türkçe Meal ve Tefsir", V, 82.

bu nişanənin hər zaman olacağını söyləmişdirlər. Möminlərə məxsus olan bu nişanələr İslamın izləridir.[26] Bu izlərin mənbəyi mömindəki xüşu, təqva, ixlas və səmimiyyət kimi mənəvi keyfiyyətlərdir. Allah-Təala möminlərin bu şəkildə Tövratda vəsf edildiyini, İncildə isə belə vəsf etmişdir ki, onlar cücərtisini üzə çıxarmış, onu qüvvətləndirmiş, o da qalınlaşıb gövdəsi üstünə qalxmış və əkinçilərin xoşuna gələn bir əkin kimidirlər. Burada Uca Allah möminləri öncə tumurcuqlaşan, sonra isə cücərərək böyüyən əkinlərə bənzətmişdir. Çünki möminlər İslamın ilk gəldiyi vaxtlarda say və güc baxımından yeni cücərən əkin kimi idilər. Vaxt keçdikcə böyüyüb yaşıllaşan əkinlər kimi möminlərin də sayı və güc-qüvvəti artmış, buna görə də dinlərini müdafiə edə biləcək gücə sahib olmuşdurlar. Yaxşı yetişən əkin sahələri əkinçilərin xoşuna gəldiyi kimi, möminlərin güclənməsi də iman sahiblərinin xoşuna gəlmişdir. Uca Allah Həzrət Peyğəmbərə tabe olan möminlərə güc-qüvvət verərək onları qüvvətləndirmişdir ki, Onu inkar edən kafirləri qəzəbləndirərək kədərləndirsin. Allah səmimi qəlbdən iman edən və saleh əməllər işləyən möminlərin günahlarını bağışlamağı və onlara cənnəti nəsib etməyi vəd etmişdir.

[26] Təbəri, “Camiül-bəyan ən təvilil-Quran”, XII, 262-265.

سُورَةُ الْحُجُرَاتِ

“HÜCÜRAT” SURƏSİ

Qurandakı sırası:	49
Nazil olduğu yer:	Mədinə
Ayələrin sayı:	18
Kəlmələrin sayı:	353
Hərflərin sayı:	1493

سُورَةُ الْحُجُرَاتِ

“HÜCÜRAT” SURƏSİ

Adı:

Hücürat: Ümumiyyətlə, surələr adlarını ya həmin surədə keçən bir kəlmədən və ya surədə bəhs olunan mövzudan alırlar. “Hücürat” surəsi də öz adını dördüncü ayədə keçən “otaqlar” mənasına gələn “الْحُجُرَات/əl-hücürat” sözündən almışdır. Bu kəlmə Həzrət Peyğəmbərin (s.ə.s) ev olaraq istifadə etdiyi Məscidi-nəbəviyə bitişik olan otaqlara işarə edir. Bununla yanaşı surədə əxlaqla bağlı mövzulardan bəhs olunduğuna görə bu surəyə “Əxlaq” adı da verilmişdir.[1]

Ehtiva etdiyi mövzular:

“Hücürat” surəsində əsas olaraq üç mövzuya toxunulmuşdur. Bunlar aşağıdakılardır:

1. Möminlərin Allaha və Onun Peyğəmbərinə (s.ə.s) qarşı vəzifələri,
2. Möminlərin öz aralarındakı bəşəri münasibətləri,
3. Möminlərin digər insanlara qarşı davranışları.

Bu üç əsas başlığı aşağıda maddələr halında bu şəkildə açıqlamaq mümkündür:

---

[1] Sabuni, “Ecazül-bəyan”, s. 104.

A. Allah və Rəsulunun əmr və qadağalarına tam təslimiyyət göstərərək heç bir məsələdə onların önlərinə keçməmək,

B. Həzrət Peyğəmbərlə danışdıqda səs tonu da daxil olmaqla bütün ədəb-ərkan qaydalarına riayət etmək,

C. Möminlərin arasının dəyməsinə səbəb olan fitnəyə qarşı diqqətli olmaq,

D. Möminlərin bir-birləri ilə sülh içərisində olması,

E. Möminlərin bir-birlərinin din qardaşı olduqlarının şüurunda olmaları. Bunun üçün lağ, qınama, sui-zənn, söz daşıma, şəxsi həyatlarını araşdırma və qeybət kimi davranışlarla müsəlmanlar arasındakı münasibəti pozub zədələyən pis əxlaqdan uzaq durmaq,

F. Müsəlman olan iki qrup bir-birləri ilə vuruşduqlarında ilkin olaraq həmin qrupları barışdırmaq üçün səy göstərmək, əgər biri digərinə hücum çəkərsə, Allahın əmrinə itaət edənə kimi həmin qurupla mübarizə aparmaq,

G. Yaradılmışları Yaradandan ötrü sevmək düsturuna müvafiq olaraq bütün insanlara qarşı sevgi bəsləmək,

H. İnsanların əbədi həyatlarını qazanmaları üçün hər bir müsəlmanın canı və malı ilə çalışması. Allah Rəsulunun Həzrət Əliyə verdiyi: *“... Allaha and olsun ki, Allahın sənin vasitənlə bir nəfərə hidayət verməsi sənin üçün qırmızı dəvələrə sahib olmaqdan daha xeyirlidir”*,[2] - tövsiyəsinin şüurunda olaraq hər bir insanın qurtuluşu üçün səy göstərmək,

[2] Müslim, “Fəzailüs-səhabə”, 34.

I. Doğruluğu təsdiq olunmayan xəbərlərə inanmamaq, xüsusi ilə xəbəri gətirən insan etimad sahibi, etibarlı biri deyilsə, mütləq həmin xəbər haqqında ətraflı məlumat toplamaq,

J. İnsanların bərabər hüquqa sahib olduqları nəzərə çatdırılmışdır. Belə ki, heç bir insan digər bir insana milli kimliyindən ötrü üstünlük qurmamalıdır. Bütün insanların eyni kökdən yaradıldığı, ayrı-ayrı millətlərə bölünmələri bir-birlərinə qarşı öyünmə, üstünlük qurmaq üçün yox, əksinə, bir-birlərini tanımaları üçün olduğu dərk edilməlidir. Beləliklə, irqçiliyin önü kəsilmişdir. Həmçinin insanın insana üstünlüyünün yalnız təqva ilə olduğu fikri insanlığa təlqin edilmişdir.

K. İmanın qəlbə yerləşməsinin vacibliyinə diqqət çəkilərək İslamın şərtlərini zahiri olaraq yerinə yetirməyin vacib olması ilə yanaşı, imanı qəlbə yerləşdirməyin əhəmiyyəti vurğulanmışdır.

L. İslam dinini qəbul etməklə heç kimin Həzrət Peyğəmbərə (s.ə.s) minnət qoya bilməyəcəyinə, əksinə onların müsəlman olmalarından ötrü Allah-Təalaya minnətdar olmalarının vacibliyi bildirilmişdir.

Nüzul səbəbi:

“Hücürat” surəsinin Mədinədə endiyi icma ilə sabit olmaqla yanaşı,[3] təfsir alimi Almalılı 13-cü ayənin Məkkədə nazil olduğuna dair İbn Abbasdan bir rəvayət olduğunu qeyd

[3] Qurtubi, “əl-Came li-əhkamil-Quran”, XVI, 300.

edir.[4] “Hücürat” surəsi hissə-hissə müxtəlif zamanlarda endirilməklə yanaşı, mövzu bənzərliyi və yaxınlığı baxımından bir yerə cəm olmuş ilahi əmr və hökmlərdən bəhs edir. Bununla birlikdə surədə yer alan əmr və qadağa ehtiva edən hökmlərin Mədinə dövrünün sonlarında endirildiyi bilinir. Bu surənin nazil olmasına səbəb olan hadisə haqqında müxtəlif rəvayətlər vardır. Rəvayətlərin müxtəlifliyi onu göstərir ki, bu surənin hamısının endirilməsinə sadəcə bir hadisə səbəb olmamış, surədə yer alan ayələrin enişinə səbəb olan bir neçə hadisə baş vermişdir. Həmin ayələr də baş verən hadisələrə müvafiq olaraq nazil olmuşdur. Odur ki, həmin hadisələri də ayələrin təfsirində anlatmaq daha məqsədəuyğundur.

4. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 184.

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا لَا تُقَدِّمُوا بَيْنَ يَدَيِ اللّٰهِ وَرَسُولِهٖ
وَاتَّقُوا اللّٰهَ اِنَّ اللّٰهَ سَمِيعٌ عَلِيمٌ ﴿١﴾

1. Ey iman gətirənlər, Allahın və Peyğəmbərinin önünə keçməyin! Allahdan qorxun! Şübhəsiz ki, Allah hər şeyi eşidəndir, biləndir.

Təfsiri:

Surənin ilk beş ayəsi ədəb və tərbiyə ilə bağlıdır. Həmin ayələr möminlərə Allaha və Peyğəmbərə qarşı ədəbli və tərbiyəli olmağı, heç bir məsələdə önlərinə keçməməyi əmr edir.[5]

Bu ayənin nida cümləsi ilə başlaması söylənəcək sözün əhəmiyyətini göstərir. Allah-Təalanın ayənin əvvəlində: **“Ey iman gətirənlər!”,** - buyurması onu göstərir ki, ayədə bütün insanlara yox, yalnız möminlərə xitab olunur. Bu da o deməkdir ki, söylənəcək söz imanla bağlıdır. Odur ki, söylənəcək sözə riayət olunması etiqad məsələ olub, itaətsizlik halında iman zərər görə bilər.[6] Buna görə də möminlər istər sözdə olsun, istərsə də feildə Allahın və Rəsulunun həmin məsələ ilə bağlı əmrini bilməli və bu əmrə görə hərəkət

5. İbn Kəsir, “Təfsirül-Quranil-əzim”, VII, 345.
6. Bursevi, “Ruhül-Beyan Tefsiri”, XIX, 436.

etməlidirlər. Hər hansı bir məsələ haqqında Allah və Rəsulunun bəyanı varsa, ona təslim olub buna zidd hərəkət etməkdən uzaq durmalıdırlar.[7] Bu ayə eyni zamanda Allahın bəndələrinə olan mərhəmətini də əks etdirir. Çünki Allah-Təala günahkar olduqları halda bəndələrinə: "Ey üsyan edənlər!" – deyə yox, "Ey iman edənlər!" – deyə səslənmişdir. Beləliklə, Uca Allah bəndələrinə olan mərhəmətini göstərmişdir.

Ayədəki "**Allahın və Peyğəmbərinin önünə keçməyin!"** ifadəsi haqqında fərqli fikirlər mövcuddur. Fikirlərin müxtəlif olmasının əsas səbəbi bu ayənin nüzuluna səbəb olan hadisə haqqında fərqli rəvayətlərin olmasıdır. Bunlar aşağıdakılardır:

1. Bu ayə üç səhabənin Həzrət Peyğəmbərdən icazə almadan Bəni-Səlim qəbiləsindən iki nəfəri haqsız yerə öldürmələri səbəbilə enmişdir.[8]

2. Həsən əl-Bəsrinin (r.ə) nəql etdiyinə görə, bəzi səhabələr qurban bayramının birinci günü bayram namazını qılmadan əvvəl qurbanlarını kəsmişdilər. Həzrət Peyğəmbər də onlara yenidən qurban kəsmələrini əmr etmişdi. Ona görə də bu ayə nazil olmuşdur.[9]

3. Çox sual soruşan bir qrup insan haqqında enmişdir. Belə ki, Rəsulullah (s.ə.s) Mədinəyə köçdükdən sonra uzaq yerlərdən onun yanına elçilər gəlir, bir çox məsələ ilə bağlı suallar soruşur və çox danışırdılar. Bəzən də Həzrət Peyğəm-

7. Əhzab, 33/36.
8. Firuzabadi, "Tənvirul-miqbas min təfsiri İbn Abbas", s. 435.
9. Təbəri, "Camiül-bəyan fi təfsiril-Quran", XXVI, 74.

bər (s.ə.s) sözə başlamazdan əvvəl danışmağa başlayırdılar. Buna görə də Peyğəmbər (s.ə.s) danışmadan əvvəl danışmaq qadağan olundu.[10]

4. Bir gün Təmim qəbiləsindən bir qrup Həzrət Peyğəmbərlə (s.ə.s) görüşməyə gəlmişdi. Həzrət Əbu Bəkr (r.ə) Həzrət Peyğəmbərə (s.ə.s) bu qrupa Qəaqa ibn Mabədi, Həzrət Ömər isə Əqra ibn Habisi rəhbər qoymağı təklif etdi. Bundan sonra Həzrət Əbu Bəkr (r.ə) Həzrət Ömərə (r.ə): “Bu təklifi mənə müxalifət olsun deyə edirsən”, - dedi. Həzrət Ömər də öz növbəsində: “Xeyr! Niyyətim bu deyildi”, - dedi. Bu minval üzrə aralarında mübahisə başladı. Hətta səslərini Həzrət Peyğəmbərin hüzurunda olmalarına baxmayaraq çox yüksəltdilər. Həmin hadisə nəticəsində bu ayə nazil oldu[11].

Yuxarıda da qeyd etdiyimiz kimi səbəbi-nüzulların müxtəlifliyi səbəbilə təfsirçilər bu ayənin təfsirində fərqli fikirlər ortaya qoymuşlar. Bəzi təfsirçilərə görə, buradakı **“önünə keçməyin”** sözü zahiri məna daşıyır. Yəni ayə fiziki cəhətdən Rəsulullahın önünə keçilməsini qadağan edir. Bunun üçün ayənin mənası belə olur: “Allah Rəsulunun önünə keçməyin. Çünki onun Allaha qarşı yaxınlığı vardır. O (s.ə.s), daim Allahın hüzurundadır. Bunun üçün də onun önünə keçmək Allaha qarşı cürətkarlıq deməkdir”. [12]

Bəzi təfsirçilərə görə, ayə bütün söz, hal və hərəkətlərdə Rəsulullahın (s.ə.s) önünə keçilməməsini əmr edir. Sanki

10. Razi, “Məfatihül-qeyb”, XXVIII, 91.
11. Buxari, “Təfsir”, 286; Nəsai, “Qəza”, 6.
12. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 188.

belə deyilmişdir: "Önə keçmək" olaraq bilinən bütün söz və hərəkətlərdən uzaq durun".[13] Bu mənanı verən təfsirçilərin fikir və düşüncələrini maddələr halında belə xülasə etmək olar:

a) Kitab və sünnəyə zidd bir söz söyləməmək,
b) Hər hansı bir məsələ haqqında Allah və Rəsulunun hökm verməsini gözləmədən fikir bəyan etmək,
c) Həzrət Peyğəmbərin (s.ə.s) olduğu bir məclisdə hər hansı bir məsələ haqqında ondan əvvəl söz söyləmək,
d) Həzrət Peyğəmbərin (s.ə.s) iştirak etdiyi yemək süfrəsində ondan əvvəl yeməyə başlamaq,
e) Rəsulullahın (s.ə.s) önündə yerimək,

Bu ayə endikdən sonra səhabələr Həzrət Peyğəmbərin (s.ə.s) onlara soruşduğu bəzi sualları bildikləri halda onun önünə keçmək qorxusu ilə cavab verməyə cürət etməyərək: "Allah və Rəsulu daha yaxşı bilir", - deyə cavab vermişdilər. Məsələn, Həzrət Peyğəmbər (s.ə.s) vida həccində səhabələrinə: "*Bu ay hansı aydır?*" - deyə soruşduqda onlar: "Allah və Rəsulu daha yaxşı bilir", - deyə cavab vermişdilər. Halbuki onlar həmin ayın adını yaxşı bilirdilər. Peyğəmbərimiz: "*Zülhiccə deyilmi?*" – deyə buyurduqdan sonra onlar da təsdiq etmişdilər.

Həzrət Peyğəmbərlə (s.ə.s) Müaz ibn Cəbəl arasında keçən aşağıdakı dialoq səhabələrin bütün söz və davranışlarında Rəsulullaha necə bağlı olduqlarını göstərməsi baxımın-

13. Elmalılı, "Hak Dini Kuran Dili", VII, 187.

dan gözəl bir nümunədir. Rəsulullah (s.ə.s) Müazı Yemənə vali olaraq göndərəcəyi zaman ona: “*Bir məsələnin həlli ilə bağlı fikrini almaq üçün sənin yanına gəldiklərində necə hökm verəcəksən?*” - deyə soruşdu. Muaz: “Allahın kitabı ilə hökm verəcəyəm”, - dedi. Həzrət Peyğəmbər: “*Axtardığını orada tapmasan necə?*” - deyə soruşduqda Muaz: “Rəsulullahın sünnəsi ilə”, - deyə cavab verdi. Rəsulullah bu səfər: “*Axtardığını orada da tapmasan necə?*” – deyə buyurduqda Muaz: “O zaman öz rəyimlə hökm verərəcəyəm”, - dedi.[14]

Bütün bunlar səhabələrin Həzrət Peyğəmbərlə (s.ə.s) danışanda nə qədər diqqətli və ehtiyatlı olduqlarını göstərir. Səhabələr Həzrət Peyğəmbərə (s.ə.s) qarşı söz və feillərində özləri diqqətli olduqları kimi, başqalarına da bunu öyrətmişdilər. Bu barədə Əbu Həyyan belə deyir: “Rəsulullah (s.ə.s) ilə görüşmək üçün bir qisim insanlar gəldiyi vaxt Əbu Bəkr (r.ə) onların yanına bir adam göndərərək Həzrət Peyğəmbərin (s.ə.s) hüzurunda necə hərəkət edəcəklərini öyrədərdi”.[15]

Ayədəki **“Allahdan qorxun!”** – ifadəsini təfsirçi Almalılı belə izah edir: “Bütün söz və feillərinizdə Allahın qəzəbindən qorxub onun əmrinə itaət edərək özünüzü qoruyun”.[16]

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا لَا تَرْفَعُوٓا اَصْوَاتَكُمْ فَوْقَ صَوْتِ
النَّبِيِّ وَلَا تَجْهَرُوا لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ اَنْ
تَحْبَطَ اَعْمَالُكُمْ وَاَنْتُمْ لَا تَشْعُرُونَ ﴿٢﴾

14. Tirmizi, “Əhkam”, 3.
15. Əbu Həyyan, “əl-Bəhrül-mühit”, VIII, 106.
16. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 189.

2. Ey iman gətirənlər, səslərinizi Peyğəmbərin səsindən yuxarı qaldırmayın və onunla bir-birinizlə danışdığınız kimi ucadan danışmayın! Yoxsa, özünüz də fərqinə varmadan əməlləriniz boşa çıxar.

Təfsiri:

Birinci ayədə olduğu kimi bu ayə də diqqətləri cəlb etmək üçün nida ilə başlamışdır. Əvvəlki ayədə söz və feillə əlaqəli olaraq həddi aşmaq qadağan edilmişdir. Bu ayədə isə sözün keyfiyyəti, yəni səs tonunun yüksək olması qadağan olunmuşdur. Burada Həzrət Peyğəmbərə (s.ə.s) qarşı göstərilməli olan ədəb qaydalarından ikisinə yer verilmişdir:

Birincisi; Rəsulullahın (s.ə.s) yanında başqalarıyla danışarkən yüksək səslə danışmamaqdır.

İkincisi; Həzrət Peyğəmbərin özü ilə danışanda hər hansı bir insanla danışan kimi yüksək səslə danışmamaqdır. Bununla bağlı belə bir hədis rəvayət olunur ki, Həzrət Peyğəmbər (s.ə.s) Sabiti bir neçə gün görmədikdə onun harada olduğunu soruşdu. Oradakılardan biri: “Ey Allahın Rəsulu, mən onun yerini bilirəm!” – dedi və onun evinə getdi. Sabit evində oturub ağladığını görüncə: “Niyə ağlayırsan?” - deyə soruşdu. O da: “Niyə ağlamayım?! Səsim Allah Rəsulunun səsindən yüksək çıxırdı. Bütün əməllərim puç oldu. Mən cəhənnəmlik oldum”, - dedi. Həmin səhabə Sabitin bu sözünü Həzrət Peyğəmbərə (s.ə.s) çatdırdı. Peyğəmbərimiz:

“Get, onun cəhənnəmlik yox, əksinə, cənnətlik olduğunu söylə!” - dedi.[17]

Allah-Təala Həzrət Peyğəmbəri (s.ə.s) çağıranda, onunla danışanda, Həzrət Peyğəmbərin yanında başqası ilə söhbət edəndə insanların bir-birlərilə danışdıqları kimi danışmalarını qadağan etmişdir. Həzrət Peyğəmbərə (s.ə.s) xitab edərkən onu “Mühəmməd!” deyə adıyla yox, “Ya rəsuləllah!” deyərək çağırmalarını tənbeh etmişdir.[18] Yəni heç kimin səsi onun səsindən yüksək olmamalıdır. Allah-Təala başqa bir ayədə bu barədə belə buyurmuşdur: **“Peyğəmbəri öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın! Şübhəsiz ki, sizin içinizdən** (icazəsiz) **xəlvətcə aradan çıxanları Allah bilir. Buna görə də Onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud acı bir əzaba düçar olmaqdan çəkinsinlər!”**[19] Bu ayə Həzrət Peyğəmbərə (s.ə.s.) adı ilə xitab etməyin, yaxud ondan bəhs edərkən ancaq adını söyləməyin doğru olmadığını və müsəlmanlara yaraşmadığını ifadə edir. Buna görə də Həzrət Peyğəmbərdən (s.ə.s) bəhs edərkən “Mühəmməd əleyhissalam”, “Rəsuli-əkrəm”, “Həzrət Peyğəmbər”, “Rəsulullah” kimi hörmət bildirən ifadələri işlətmək daha düzgündür. Bundan başqa, Həzrət Peyğəmbərin (s.ə.s) adı çəkildiyi zaman ona salavat gətirmək də hər bir müsəlmanın borcudur.

17. Buxari, “Mənaqib”, 25.
18. Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXVI, 75.
19. Nur, 24/63.

Həzrət Peyğəmbərə (s.ə.s) qarşı olan bu hörmət sadəcə onun sağlığında yox, o vəfat etdikdən sonra da bir çox müsəlmanlar tərəfindən göstərilmişdir. Belə ki, onlar Həzrət Peyğəmbərin (s.ə.s) məscidinin ətrafında yüksək səslə belə danışmazdılar. Bunlardan biri də İmam Malik həzrətləridir. O, Rəsulullaha (s.ə.s) olan hörmətinə görə Mədinədə heyvana minməz, Rəvzənin imamı olduğu vaxtlar orada astadan danışardı. O dövrün xəlifəsi Əbu Cəfər Mənsur yüksək səslə danışanda ona: “Ey Xəlifə, bu məkanda yüksəs səslə danışma! Allah səndən daha fəzilətli insanlara bunun üçün xəbərdarlıq etmişdir”, - deyərək yuxarıdakı ayəni oxumuşdu.

Eləcə də Osmanlı paşalarından Fəxrəddin Paşa Rəsulullahın (s.ə.s) ruhaniyyəti əziyyət çəkər qorxusuyla Rəvzəni təmir edən ustalara mismarı vuranda taxta çəkicdən istifadə etməyi, çəkic ilə mismar arasına da rezin qoyaraq səssizliyi təmin etməyi tapşırmışdı.

Sultan II Mahmud dönəmində isə Rəvzənin sökülən yerləri və yaşıl qübbənin təmiri üçün padşahın əmri ilə memar və mühəndislər işə cəlb olunmuşdu. Onlar verilən bu müqəddəs vəzifəni dərk edib Peyğəmbərimizin (s.ə.s) ruhaniyyətini narahat edəcək hər hansı bir kobudluğa yol verməmək üçün təmir əsnasında dünya kəlamı danışmamağı qərara almışdılar. Onlar təmir əsnasında istifadə olunan əşyalara Allah, bismillah kimi Allahın rəhmətini və bərəkətini cəlb edəcək adlar qoydular. Məsələn, “kərpici mənə ver” əvəzinə “Allah”, “aftafanı mənə ver” yerinə “Bismillah”, “Çəkici uzat” yerinə “lə iləhə illəllah!” kimi ifadələr işlədirdilər.

Nəticə etibarı ilə, bu ayələr əvvəlcə Həzrət Peyğəmbərə (s.ə.s), onun sünnəsinə, gətirdiyi dinə, sonra onun ardınca gedən İslam alimlərinə və böyüklərə lazımi hörməti göstərməyi, bütün insanlara qarşı nəzakətli rəftar etməyi öyrədir. Bu barədə Əbüddərda (r.ə) belə demişdir: Rəsulullah məni Əbu Bəkrin önündə gedərkən gördü və belə buyurdu: “*Səndən daha xeyirli olan birinin öünündəmi gedirsən? Günəş nəbi və rəsullardan sonra Əbu Bəkrdən daha xeyirli və fəzilətli bir kimsə üzərinə doğub batmamışdır*”.[20]

Bu hadisə bizə göstərir ki, Həzrət Peyğəmbərə (s.ə.s) qarşı göstərilən ədəbdən yola çıxaraq böyüklərə hörmət edib onların önündən getməmək ədəb qaydalarındandır. İslam alimləri böyüklərin önündən ancaq bu üç halda getməyin mümkün olduğunu söyləmişlər:

1) gecə vaxtı,

2) düşmənlə üzləşəndə,

3) selə girəndə.[21]

Bu üç halı incələdiyimiz vaxt görürük ki, burada böyüklərin önünə keçməyə əsas səbəb təhlükə anlarıdır. Bu da onlara qarşı hörmətsizlik yox, onların canlarını mühafizə etmək üçündür.

Həzrət Peyğəmbərin (s.ə.s) yanında yüksək səslə danışmağın caiz olduğu vaxtlar da vardır. Məsələn, Hüneyn müharibəsində Rəsululah (s.ə.s) səsi gur olduğu üçün əmisi

[20] Müttəqi, “Kənzül-ümmal”, 32622.
[21] Bursevi, “Ruhül-Beyan Tefsiri”, X, 438.

Abbasa müsəlmanları çağırması üçün yüksək səslə bağırmasını söyləmişdir.[22]

Yuxarıdakı hadisələrdən Həzrət Peyğəmbərin (s.ə.s) yanında qadağan olan yüksək səslə danışmağın keyfiyyəti barəsində iki nəticə çıxartmaq mümkündür:

1. Təhqir etmək, hörmətsizlik etmək məqsədilə yüksək səslə danışmaq və ya bağırmaq açıq küfrdür.[23]

2. Təhqir və ya hörmətsizlik niyyəti olmadan yüksək səslə danışmaq isə küfrə səbəb olmasa da əməllərin puç olmasına səbəb ola bilər. Belə ki, bir kimsə səsini Həzrət Peyğəmbərə (s.ə.s) hörmətsizlik niyyəti ilə yüksəltməmiş olsa da bu hal Rəsulullaha (s.ə.s) əziyyət verdiyi üçün əməllərinin puç olmasına səbəb olan bir davranış qəbul edilmişdir.[24]

Allah-Təala ikinci ayədə Rəsulullahın (s.ə.s) yanında yüksək səslə danışmağı qadağan etdikdən sonra onun yanında asta səslə danışmağa təşviq üçün sonrakı ayədə belə buyurmuşdur:

إِنَّ الَّذِينَ يَغُضُّونَ أَصْوَاتَهُمْ عِنْدَ رَسُولِ اللَّهِ أُولَٰئِكَ الَّذِينَ امْتَحَنَ اللَّهُ قُلُوبَهُمْ لِلتَّقْوَىٰ ۚ لَهُمْ مَغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ ﴿٣﴾

22. Zəmahşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, IV, 4.
23. Qurtubi, “əl-Came li-əhkamil-Quran”, XVI, 307.
24. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 190.

3. Şübhəsiz, Allah Rəsulunun yanında astadan danışanlar Allahın qəlblərini təqva üçün sınağa çəkdiyi kimsələrdir. Onlar üçün bağışlanma və böyük bir mükafat vardır.

Təfsiri:

Surənin birinci ayəsində Allah Rəsulunun (s.ə.s) önünə keçmək, ikinci ayəsində Həzrət Peyğəmbərin (s.ə.s) yanında yüksək səslə danışmaq, onunla hər hansı bir insanla danışan kimi danışmaq qadağan edilmişdir. Bütün bu qadağalardan sonra Allah-Təala üçüncü ayədə bu tənbehlərə ciddi yanaşıb Həzrət Peyğəmbərin (s.ə.s) yanında asta səslə danışanları müjdələyərək müsəlmanları Rəsulullaha (s.ə.s) qarşı bütün hal və hərəkətlərdə ədəbli olmağa təşviq etmişdir.

Bu metod hər bir pedaqoq üçün önəmli bir qayda olmalıdır. Yəni hər hansı bir qadağanı qoyuruqsa, bu qadağanın pozulmasının qarşısını almaq üçün cəza ilə qorxutmaq lazımdır. Ancaq bununla kifayətlənməyib qadağa səbəbi ilə nifrətin meydana gəlməsinin qarşısını almaq və həmin tapşırığın sevərək yerinə yetirilməsi üçün də buna riayət edənin mükafatlandırılacağına dair müjdə vermək lazımdır.

Təfsir mənbələrində keçən bir rəvayətə görə, Həzrət Əbu Bəkr və Həzrət Ömərin “ **Ey iman gətirənlər, səsləriniz Peyğəmbərin səsindən yuxarı qaldırmayın** ...”[25] ayəsi nazil olduqdan sonra Rəsulullah (s.ə.s) ilə çox astadan

[25] Hücürat, 49/2.

və pıçıltı ilə danışacaqlarına qərar vermələrindən sonra bu ayə onları mədh etmək üçün nazil olmuşdur. Ancaq bununla bərabər, əlbəttə, bu mədh Həzrət Peyğəmbərə (s.ə.s) qarşı münasibətlərində ədəb qaydalarına riayət edən hər kəsə şamildir.[26]

Bu ayədə Allah-Təala Həzrət Peyğəmbərin (s.ə.s) yanında alçaq səslə danışanların qəlblərini təqva ilə imtahan etdiyini və onlara böyük mükafat verəcəyini vəd edir. Ayədəki **“böyük mükafat”** ifadəsinin qeyri-müəyyənlikdə olması bu mükafatın dəyərinin çox böyük olduğuna işarə edir.[27] Bundan sonra Uca Allah Rəsulullahı (s.ə.s) çağırarkən ona qarşı hörmətsizlik edən bədəviləri qınamaq üçün belə buyurmuşdur:

اِنَّ الَّذِينَ يُنَادُونَكَ مِنْ وَرَآءِ الْحُجُرَاتِ اَكْثَرُهُمْ لَا يَعْقِلُونَ ﴿٤﴾

4. (Ey Peyğəmbər!) **Şübhəsiz ki, otaqların arxa tərəfindən səni çağıranların çoxu bunu dərk etmir.**

Təfsiri:

Sənə otaqların, yəni xanımlarının evlərinin arxasından səslənənlərin çoxunun ağlı kəsmir. Çünkü ağıllı insan böyüklərə qarşı xitab edərkən ədəbsizlik və hörmətsizlik et-

26. İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXVI, 233.
27. Bursevi, “Ruhül-Beyan Tefsiri”, XIX, 447.

məz. Xüsusilə də, peyğəmbərlik məqamında olan bir şəxsə qarşı ədəbsizlik edilməməlidir.

Təfsir mənbələrində bu ayənin Bəni-Təmim qəbiləsindən gələn bir heyət səbəbilə nazil olduğu qeyd olunur. Belə ki, bir gün Təmim oğullarından yetmiş və ya səksən nəfərdən ibarət bir qrup Həzrət Peyğəmbərin (s.ə.s) istirahət etdiyi bir vaxtda evinin yanına gələrək yüksək səslə: “Ey Mühəmməd, çölə çıx!” - deyə bağırmışdılar. Bu hal Həzrət Peyğəmbəri (s.ə.s) narahat etmişdi. Həzrət Peyğəmbər (s.ə.s) onların yanına gəldikdə qrupun içindən Əqra ibn Habis belə demişdi: “Ey Mühəmməd! Mənim öyməyim gözəl, pisləməyim isə bir ləkədir”. Həzrət Peyğəmbər: “*Ayıb olsun sənə! Sənin dediyin şəkildə olan Allah-Təaladır*”, - buyurdu. Bu arada insanlar məscidə toplaşdılar. Onlar belə dedilər: “Biz Təmim oğullarıyıq. Xətib və şairlərimizlə gəlmişik ki, qarşılıqlı şeir söyləyərək bir-birimizlə yarışaq”. Bunun müqabilində Həzrət Peyğəmbər: “*Mən şeirlə göndərilmədim. İftixarlaşmaqla da əmr olunmadım. Ancaq istəyirsinizsə, buyurun*”, - dedi və Həssan ibn Sabiti onların şairlərinin qarşısına çıxartdı. Bir müddət qarşılıqlı şeirlər söyləndikdən sonra Əqra ibn Habis belə dedi: “Mühəmməd həqiqətən, bəxtiyar bir insandır. Onun xətibləri və şairləri bizim xətib və şairlərimizdən daha yaxşı və daha gözəl söz söylədilər”. Daha sonra Əqra ibn Habis Rəsulullaha (s.ə.s) yaxınlaşaraq: “Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və yenə şahidlik edirəm ki, sən, həqiqətən, Allahın rəsulusan”, - dedi.[28]

[28] Vahidi, “Əsbabün-nüzul”, s. 448.

Ayədə keçən **“الْحُجُرَات/hücürat”** sözü ilə Həzrət Peyğəmbərin (s.ə.s) xanımlarının yaşadıqları doqquz otaqdan ibarət evi qəsd olunur. Bu otaqlar xurma budaqlarından düzəldilmiş, qapıları isə qara tükdən düzəldilmiş çullardan ibarət taxta bir ev idi.[29] Həzrət Peyğəmbərin (s.ə.s) evinin yüksəkliyi barəsində Həsən Bəsri belə nəql etmişdir: “Həzrət Osmanın xəlifəliyi zamanında Rəsulullahın (s.ə.s) xanımlarının evinə girərdim. Əlimi uzadanda evin tavanına dəyirdi”. Daha sonra bu hücrələr Vəlid ibn Əbdülməlikin tapşırığı ilə yıxılıb Rəsulullahın (s.ə.s) məscidinə qatılmışdır. Bundan ötrü insanlar göz yaşlarına qərq olmuşdular. Bu haqda Səid ibn Müseyyəb belə deyir: “Kaş sonrakı nəsil və xarici qonaqlar Həzrət Peyğəmbərin nə qədər sadə bir həyat yaşadığını görmələri üçün həmin otaqlar olduğu kimi qalaydı”.[30]

Bu ayələr o vaxtkı ərəblərin, xüsusi ilə də çöldə yaşayan bədəvi ərəblərin nə qədər kobud olduqlarından xəbər verir. Çünki onlar çöldə yaşadıqları üçün təbii olaraq təhsil və tərbiyədən uzaq idilər. Buna görə də kiminlə necə və hansı tonda danışmalı olduqlarını bilmirdilər.

Ancaq Həzrət Peyğəmbərin (s.ə.s) söhbətlərindən tərbiyə almış kimsələr bütün bu kobud davranışlardan uzaq idilər. Onlar Həzrət Peyğəmbərin (s.ə.s) hansı vaxtlarda istirahət etdiyini çox yaxşı bilirdilər. Çünki onlar Rəsulullahın (s.ə.s) İslamı təbliğ etmək üçün hər gün necə çalışdığına yaxından şahid olurdular. Bunun üçün də Həzrət Peyğəm-

29. Əlusi, “Ruhül-məani”, XXVI, 139.
30. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 191.

bərlə (s.ə.s) görüşməyə gələndə bayırda gözləyər, vacib olmadığı müddətcə onu narahat etməzdilər.

Bədəvi ərəblər isə belə bir nəzakətə sahib olmadıqları üçün Həzrət Peyğəmbərlə (s.ə.s) görüşməyə gəldiklərində necə gəldi çağırır, yerli-yersiz narahat edirdilər. Bu vəziyyətə Həzrət Peyğəmbər (s.ə.s) təbiəti etibarı ilə heç bir şey deməsə də, Allah-Təala bu vəziyyətə müdaxilə edərək yuxarıdakı ayəni nazil etmişdir.

وَلَوْ اَنَّهُمْ صَبَرُوا حَتّٰى تَخْرُجَ اِلَيْهِمْ لَكَانَ خَيْرًا لَّهُمْ ؕ وَاللّٰهُ غَفُوْرٌ رَّحِيْمٌ ۝

5. Əgər sən çölə çıxıb onların yanına gedənə qədər səbir etsəydilər, şübhəsiz ki, bu, onlar üçün daha yaxşı olardı. Allah bağışlayandır, rəhmlidir.

Təfsiri:

2 və 3-cü ayələrdə Allah-Təala bir əməli qadağan edib bu qadağaya məhəl qoymayanları cəzalandıracağını bildirdikdən sonra əmrinə itaət edənləri də mükafatlandırmaqla müjdələmişdi. Həmin metodu 4 və 5-ci ayələrdə də görürük. Belə ki, 4-cü ayədə Allah-Təala Həzrət Peyğəmbəri qışqır-bağırla çağıranları ağılsızlıqlarına görə tənqid edir. Bu ayədə isə bəyan edilir ki, əgər bayırdan səslənənlər Həzrət Peyğəmbəri (s.ə.s) narahat etməyib və qışqır-bağır salmadan onun gəlməsini gözləsəydilər və buna səbir etsəydilər, bu onlar üçün daha yaxşı olardı. Eləcə də, Allah

və insanlar nəzdində daha fəzilətli olardı. Beləliklə Həzrət Peyğəmbərin (s.ə.s) məqamına qarşı da ədəbli davranılmış olardı.[31]

Ayənin sonunda **"Allah bağışlayandır, rəhmlidir",** - buyurmaqla yuxarıda da izah edildiyi kimi, Allah-Təala insanlara hansısa əməli qadağan etməklə yanaşı, bu qadağalardan uzaq duracaqları təqdirdə onları bağışlayacağını bildirərək sanki insanların motivasiyasını yüksəltmişdir. Eyni zamanda ayədən aydın olur ki, bədəvilərin bu kobud hərəkətlərindən ötrü Allah-Təala onları sadəcə xəbərdar edərək onlara öyüd-nəsihət vermiş, lakin cəzalandırmamışdır.

Yuxarıdakı beş ayədən çıxarılacaq dərsləri belə sadalamaq olar:

A) Allah və rəsuluna itaət etmək,

B) Rəsulullahla danışıqda və hər bir hərəkətdə nəzakətli olmaq,

C) Təqvalı olmaq,

D) Həzrət Peyğəmbərə (s.ə.s) adı ilə yox, "ya Rəsuləllah", "ya Nəbiyyəllah" deyərək xitab etmək,

E) Həzrət Peyğəmbərin (s.ə.s) vəfatından sonra da o həyatdaymış kimi qəbrinin yanında yüksək səslə danışmamaq,

F) Həzrət Peyğəmbərin (s.ə.s) timsalında alimlərin, böyüklərin yanında yüksək tonla danışmamaq, onların önündən getməmək, süfrədə onlardan əvvəl yeməyə başlamamaq, istirahət vaxtı insanları narahat etməmək,

31. Sabuni, "Səfvətüt-təfasir", VI, 142.

G) İnsanların əmri altında olanların motivasiyasını yüksəltmək və məhsuldarlığını artırmaq üçün qadağaları pozanların cəzalandırılacağını söyləməklə birlikdə, əmr və qadağalara riayət edənlərin də mükafatlandırılacaqlarını bildirmək və beləliklə, insanlarda meydana gələ biləcək kin və nifrətin qarşısı almaq.

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوٓا اِنْ جَآءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوٓا اَنْ تُصِيبُوا قَوْمًا بِجَهَالَةٍ فَتُصْبِحُوا عَلٰى مَا فَعَلْتُمْ نَادِمِينَ ﴿٦﴾

6. Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirərsə, dərhal (onun doğru olub-olmadığını) **araşdırın! Yoxsa, bilmədən bəzi insanlara pislik etmiş olarsınız və etdiyiniz əmələ görə peşmançılıq çəkərsiniz.**

Təfsiri:

Bu ayədə möminlərin digər insanlarla olan münasibətlərində diqqət edəcəyi xüsuslar qeyd edilmişdir. Ayənin enmə səbəbi barəsində belə bir hadisə nəql edilmişdir ki, Həzrət Peyğəmbər (s.ə.s) Vəlid ibn Üqbəni zəkat toplaması üçün Bəni-Müstəliq qəbiləsinə göndərmişdi. Vəlid onların bir yerdə toplaşdıqlarını görüb onların dindən döndüklərini, hətta onu öldürmək üçün bir yerə yığışdıqlarını zənn etdi. Halbuki onlar Vəlidi qarşılamaq üçün gəlmişdilər. Vəlid ibn Üqbə isə düşündüyü şeydən ürkdü və onların yanına getməyib geri döndü. Gördüyü hadisəni düşündüyü kimi Həzrət Peyğəm-

bərə (s.ə.s) anlatdı. Peyğəmbərimiz (s.ə.s.) bu xəbəri araşdırması üçün Xalid ibn Vəlidi Bəni-Müstəliq qəbiləsinə göndərdi və ona tələsməməyi tapşırdı. Xalid ibn Vəlid yanındakı adamlarla gecə vaxtı Bəni-Müstəliq qəbiləsinin yaşadığı yerə çatdı. Onların dindən çıxıb-çıxmadıqlarını gizlicə araşdırdı və Vəlidin verdiyi xəbərin doğru olmadığını, əksinə, Bəni Müstəliq qəbiləsinin nəinki dindən çıxdığını, onların dinə çox bağlı olduqlarını müşahidə etdi. Gecə namazı üçün azan oxuyub namaz qıldıqlarını gördükdən sonra Xalid bin Vəlid vaxt itirmədən geri döndü və Həzrət Peyğəmbərə (s.ə.s) gördüklərini anlatdı. Həzrət Peyğəmbər (s.ə.s) də: "*Araşdırmaq Allahdan, tələsmək isə şeytandandır*",[32] - buyurdu. Bu hadisə nəticəsində yuxarıdakı ayə nazil oldu.[33]

Bu hadisə onu göstərir ki, fasiqin gətirdiyi xəbərə doğruluğunu yoxlamadan inanmaq hər hansı bir topluluğa, yaxud şəxsə haqsızlıq etməyə səbəb ola bilər. Çünki yalan bir xəbərə əsaslanaraq bir insanı və ya bir topluluğu ya da bir milləti haqsız yerə cəzalandırma ehtimalı vardır. Tətbiq olunan bu cəzanın fəsadlarını isə daha sonra aradan qaldırmaq qeyri-mümkün ola bilər.[34]

İnsanlarla olan münasibətlərin korlanmasına səbəb olan ən önəmli hadisələrdən biri yalan xəbərlərə əsaslanan məlumatlardır. Odur ki, yuxarıdakı ayə bizə bu mövzuda çox diqqətli olmağı, hər deyilən sözə doğruluğunu sübut etmədən inanmamağı öyrədir.

32. Tirmizi, "Birr", 66.
33. Təbəri, "Camiül-bəyan ən təvili ayil-Quran", XXVI, 79.
34. Elmalılı, "Hak Dini Kuran Dili", VII, 196.

وَاعْلَمُوٓا اَنَّ فِيكُمْ رَسُولَ اللّٰهِ ؕ لَوْ يُطِيعُكُمْ فِى كَثِيرٍ مِنَ الْاَمْرِ لَعَنِتُّمْ وَلٰكِنَّ اللّٰهَ حَبَّبَ اِلَيْكُمُ الْاِيمَانَ وَزَيَّنَهُ فِى قُلُوبِكُمْ وَكَرَّهَ اِلَيْكُمُ الْكُفْرَ وَالْفُسُوقَ وَالْعِصْيَانَ ؕ اُولٰٓئِكَ هُمُ الرَّاشِدُونَ ۙ ﴿٧﴾ فَضْلًا مِنَ اللّٰهِ وَنِعْمَةً ؕ وَاللّٰهُ عَلِيمٌ حَكِيمٌ ﴿٨﴾

7. Bilin ki, sizin aranızda Allahın elçisi vardır. Əgər o, bir çox işlərdə sizə uysaydı, həqiqətən, siz çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirib onu qəlblərinizə gözəl göstərdi. Küfrü, günahı və asiliyi isə sizə çirkin göstərdi. Əsil doğru yolda olanlar onlardır.

8. Bu, Allahın lütfü və neməti sayəsindədir. Allah hər şeyi biləndir, hikmət sahibidir.

Təfsiri:

Bu ayədən əvvəlki və sonrakı ayələrə də nəzər saldıqda məlum olur ki, Bəni-Müstəliq qəbiləsi haqqında Vəlid ibn Üqbənin verdiyi məlumata söykənərək səhabələrdən bir qismi Bəni-Müstəliq qəbiləsinin üzərinə ordu göndərməyi təklif etmişdilər. Bunun üçün də müharibə istəyənlərə bir növ belə bir xəbərdarlıq verilmişdir: “Allahın elçisinin aranızda olduğunu, onun verəcəyi qərarın sizin üçün daha

xeyirli olacağını unudursunuz. Həzrət Peyğəmbərin sizin fikrinizə görə hərəkət etməsini təkidlə istəməyiniz doğru deyildir. Üstəlik bu bir hədsizlikdir. Əgər Həzrət Peyğəmbər sizin qərarınıza görə hərəkət edərsə, xəta edər, bunun cavabdehliyi də sizə aid olar".[35]

Bundan başqa ayənin yalan xəbər gətirənləri, yalan danışanları da əhatə etdiyi görülür. Yalançılara Allah-Təala sanki belə xəbərdarlıq edir: "Rəsulullahın aranızda olduğunu unutmayın. Sizin yalanınızı ona bildirməklə insanlar içində sizi rüsvay edərəm".[36]

Bir qisim insanlar Bəni-Müstəliq qəbiləsinin üzərinə ordu göndərməkdə israr edərkən, digərləri hər gələn xəbərə etimad etməyən, təmkinli və kamil şəxslər idi. Odur ki, Allah-Təala birinci qisimdə olanlara **"Əgər o, bir çox işlərdə sizə uysaydı", -** xitabıyla xəbərdarlıq etdikdən sonra "**Lakin Allah sizə imanı sevdirib onu qəlblərinizə gözəl göstərdi", -** buyuraraq ikinci qisimdə olanlara, yəni Həzrət Peyğəmbərə (s.ə.s) itaət edib ona qarşı gəlməyən səhabələrə səsləndi. Sonra da "**Küfrü, günahı və asiliyi isə sizə çirkin göstərdi", -** buyurmaqla imanı möminə necə sevdirib qəlbində gözəlləşdirdisə, küfrü, günahı və üsyanı da eyni şəkildə möminin qəlbində pis göstərdi.[37]

Uca Allah 8-ci ayədə: "**Bu, Allahın lütfü və neməti sayəsindədir. Allah hər şeyi biləndir, hikmət sahibidir**", – buyuraraq bütün bunların Onun neməti olduğunu və ehsan etdiyi bu nemətə kimin layiq olub-olmadığını çox yaxşı bildiyini bəyan edir.

35. Mövdudi, "Təfhimül-Quran", V, 439.
36. Züheyli, "Təfsirül-münir", XIII, 459.
37. Bursevi, "Ruhül-Beyan Tefsiri", XIX, 460.

وَاِنْ طَآئِفَتَانِ مِنَ الْمُؤْمِنِينَ اقْتَتَلُوا فَاَصْلِحُوا بَيْنَهُمَا ۚ فَاِنْ
بَغَتْ اِحْدٰيهُمَا عَلَى الْاُخْرٰى فَقَاتِلُوا الَّتِى تَبْغِى حَتّٰى
تَفِىٓءَ اِلٰٓى اَمْرِ اللّٰهِ ۚ فَاِنْ فَآءَتْ فَاَصْلِحُوا بَيْنَهُمَا بِالْعَدْلِ
وَاَقْسِطُوا ۖ اِنَّ اللّٰهَ يُحِبُّ الْمُقْسِطِينَ ﴿٩﴾

9. Əgər iki mömin dəstə bir-biri ilə vuruşarsa, dərhal onları barışdırın! Əgər onlardan biri digərinə hücum edərsə, (həmin dəstə) **Allahın əmrinə qayıdana qədər hücum edən dəstə ilə vuruşun! Əgər** (o dəstə Allahın əmrinə) **qayıdarsa, onları ədalətlə barışdırın və** (hər bir işdə) **ədalətli olun! Şübhəsiz ki, Allah ədalətli olanları sevər.**

Təfsiri:

Bir gün Həzrət Peyğəmbər (s.ə.s) xəstə olan Səd ibn Übadəyə baş çəkmək üçün gedərkən yolda Abdullah ibn Übeyy ibn Səlulun yanına çatmışdı. Bu zaman Həzrət Peyğəmbər (s.ə.s) miniyinin üstündə ikən Abdullah ibn Übeyy ona: “Miniyinin iyindən narahat olduq”, - dedi. O əsnada Ənsardan Abdullah ibn Rəvahə (r.ə): “Vallahi Rəsulullahın miniyinin iyi səndən daha yaxşıdır”, - dedikdə hər ikisinin yanındakı yoldaşları bir-birlərinə əsəbləşmiş, nəticədə iki qrup arasında dava-dalaş olmuşdu. Bunun nəticəsində bu ayeyi-kərimə

nazil olmuş və Həzrət Peyğəmbər (s.ə.s) bu ayəni oxuyaraq onları barışdırmışdır.

Ayədə möminlərdən iki dəstə vuruşduqlarında yox, **“iki mömin dəstə bir-biri ilə vuruşarsa”**, buyurulması möminlərin əslində bir-birləri ilə vuruşmayacaqlarına işarə edir. Amma belə bir hadisə baş verərsə, digər müsəlmanlara düşən vəzifə onları barışdırmaqdır. Əgər tərəflərdən biri buna yanaşmaz və vuruşmağa davam edərsə, o zaman Allahın əmrinə dönənə qədər həmin qrupa qarşı vuruşmaq əmr olunur. Belə olan halda bütün müsəlmanları qarşısına ala bilməyəcəyini görən asi qrup barışmaq məcburiyyətində qalacaqdır. Bu zaman onların arasında ədalətlə hökm verib aralarını düzəltmək əmr olunur. Ayədə **“Onları barışdırın”** buyurulduqdan sonra **“ədalətlə”** ifadəsinə yer verilmişdir. Çünki bu sülh anlaşması müharibədən sonra olduğu üçün tərəflər arasında haqsızlıq olma ehtimalı ola bilər. Yəni sülh olsa da, məğlub olan və ya zəif olan tərəfin haqqı tapdana bilər. Odur ki, ayədə müharibədən sonra bağlanan sülh müqaviləsində ədalət təmin edildikdən sonra hər iki tərəfin haqqına riayət edilməsi, tərəflərdən hər hansı birinə haqsızlıq olunmaması əmr edilmişdir.

اِنَّمَا الْمُؤْمِنُونَ اِخْوَةٌ فَاَصْلِحُوا بَيْنَ اَخَوَيْكُمْ وَاتَّقُوا اللّٰهَ لَعَلَّكُمْ تُرْحَمُونَ ﴿١٠﴾

10. Şübhəsiz ki, möminlər qardaşdırlar. Ona görə də (aralarında ədavət olan) **qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm olunsun.**

Təfsiri:

Ayədəki **“Şübhəsiz”** olaraq tərcümə olunan **“innəma/اِنَّمَا”** sözü eyni zamanda xüsusilik mənasını daşıyır. Allah-Təala sanki belə buyurur: “Qardaşlıq ancaq möminlər arasında ola bilər. Mömin lə kafir qardaş ola bilməz”. Buradan da aydın olur ki, din qardaşlığı qan qardaşlığından da irəlidir. Belə ki, din qardaşlığı olmadan qan qardaşlığına etibar edilməz.[38] Cüneyd Bağdadi həzrətlərinə: “Qardaş nədir?” – deyə soruşduqlarında o belə cavab vermişdir: “O, həqiqətdə sənin lə eynidir, ancaq şəxs olaraq səndən fərqlidir”. Nəticədə deyə bilərik ki, fani həyatda qan qardaşlığına səbəb olan bir ataya mənsub olunduğu kimi, möminlər də əbədi həyatlarına vəsilə olan iman kimi bir nemətə mənsub durlar.[39] Elədirsə, mömin qardaşların arası düzəldilməlidir. Aralarında ayrılıqlar yaranmasına və kin bəslənməsinə fürsət verilməməlidir. Ayənin sonunda isə qeyd olunur ki, Allahın əmrlərinə riayət edərək və qadağalarından uzaqlaşaraq Ondan layiqincə qorxmalıyıq ki, Uca Allah Öz mərhəmətini bizdən əsirgəməsin.[40]

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ عَسٰٓى اَنْ
يَكُونُوا خَيْرًا مِنْهُمْ وَلَا نِسَٓاءٌ مِنْ نِسَٓاءٍ عَسٰٓى اَنْ يَكُنَّ
خَيْرًا مِنْهُنَّ ۚ وَلَا تَلْمِزُٓوا اَنْفُسَكُمْ وَلَا تَنَابَزُوا بِالْاَلْقَابِ

38. Sabuni, “Səfvətüt-təfasir”, VI, 144.
39. Bursevi, “Ruhül-Beyan Tefsiri”, XIX, 470.
40. Sabuni, “Səfvətüt-təfasir”, VI, 144.

بِئْسَ الِاسْمُ الْفُسُوقُ بَعْدَ الْإِيمَانِ ۚ وَمَنْ لَمْ يَتُبْ فَأُولَٰئِكَ هُمُ الظَّالِمُونَ ﴿١١﴾

11. Ey iman gətirənlər! Kişilər kişiləri lağa qoymasınlar! Ola bilsin ki, onlar (lağa qoyulanlar) **özlərindən daha yaxşıdırlar. Qadınlar da qadınları lağa qoymasınlar! Ola bilsin ki, onlar** (lağa qoyulanlar) **özlərindən daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin və bir-birinizi** (pis) **ləqəblərlə çağırmayın! İmandan sonra fasiqlik nə pis bir addır! Kim** (bu əməllərdən) **tövbə etməzsə, onlar əsil zalımlardır.**

Təfsiri:

Ayədə üç xüsusa yer verilmişdir: lağ etmək, tənə etmək və pis ləqəb qoymaq. Bundan əvvəlki ayədə möminlər arasında qardaşlıq və təqva əmr edilmişdi. Bu ayədə isə həmin gözəl xislətləri korlayan, möminlər arasındakı birlik və bərabərliyi pozan, onların arasında fitnə çıxaran söz və hərəkətlərdən çəkinmək əmr olunmuşdur.

Ayədə xitabın fərdə yox, cəmiyyətə olması diqqət çəkən məqamlardan biridir. Çünki belə davranışlar təkbaşına icra olunmur. Adətən lağ edən kimsələrin ətrafında gülüb əylənən insanlar olur. Hətta ətrafda bu davranışa dəstək verən insanlar olmasa lağ etmənin və ya kiməsə ləqəb taxmanın bir mənası qalmaz. Buna görə də Allah-Təala ümu-

ma xitab edərək həm lağ edəni, həm də ona gülərək və ya onun qoyduğu ləqəbdən istifadə edərək ona dəstək olmağı da qadağan etmişdir. Üstəlik lağa qoyulanın bəlkə də onlardan daha xeyirli olduğunu bildirərək insanın Allah yanında dəyər və qiymətinin xarici görünüşündə yox, daxilində olduğuna işarə etmişdir. Həzrət Peyğəmbər (s.ə.s) bu barədə belə buyurmuşdur: *“Allah-Təala sizin cisminizə baxmaz, qəlblərinizə və əməllərinizə baxar”*.[41] Odur ki, bir mömin başqasını kasıblığına və ya hansısa fiziki qüsuruna görə özündən aşağı görüb ona lağ etməməlidir. Ola bilsin həmin insan Allaha qarşı səmimiyyətinə, insanlara qarşı bəslədiyi sevgisinə, etdiyi ibadətlərinə, xülasə, Allaha qarşı daha təqvalı olduğuna görə ondan daha xeyirlidir. Burada onu da qeyd etmək lazımdır ki, ayədə bir mömini onun xoşlandığı bir ləqəblə çağırmaq təşviq edilmişdir.[42]

Ayənin sonunda isə iman etdikdən sonra fasiq əməllər etməyin çox pis bir iş olduğu bildirilmişdir. Yəni iman etdikdən sonra bu çirkin feilləri edənlər fasiq olmuşdur. Beləcə, həmin adamlar fasiqliyi özlərinə rəva görmüşlər. Halbuki iman etdikdən sonra onların fasiq olaraq çağırılması nə qədər pis bir hadisədir. Üstəlik Allah-Təala bu cür davranışları edib tövbə etməyənlərin zalım olduğunu bildirmişdir.[43]

يَآ اَيُّهَا الَّذِينَ اٰمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ اِنَّ بَعْضَ الظَّنِّ اِثْمٌ وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا

41. Müslim, “Birr”, 34.
42. Züheyli, “Təfsirül-münir”, XIII, 485.
43. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 206.

اَيُحِبُّ اَحَدُكُمْ اَنْ يَّاْكُلَ لَحْمَ اَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ ؕ
وَاتَّقُوا اللّٰهَ ؕ اِنَّ اللّٰهَ تَوَّابٌ رَّحِيمٌ ﴿١٢﴾

12. Ey iman gətirənlər! Zənnin çoxundan uzaq durun! Həqiqətən, zənnin bir qismi günahdır. Bir-birinizi güdməyin və bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz, ölmüş qardaşının ətini yeməkdən xoşlanarmı?! Gördünüzmü bu sizdə ikrah hissi oyatdı. Allahdan qorxun! Şübhəsiz ki, Allah tövbələri çox qəbul edəndir, rəhmlidir.

Təfsiri:

Bundan əvvəlki ayədə möminlərə bir-birinin üzünə qarşı xoşlanmadıqları sözləri söyləmələri və ya istəmədikləri davranışları etmələri qadağan olunmuşdu. Bu ayədə isə onlara qiyabən bir-birlərinə pislik etməmələri əmr edilmişdir.

Allah-Təala: **“Zənnin çoxundan uzaq durun!”** – buyurmaqla dəqiq məlumat olmadan insanlar haqqında pis fikirdə olmamağı əmr edir. Çünki dəqiq məlumata əsaslanmayan, ehtimala söykənən zənlə gəlinən qənaət və ya hökmün səhv olma ehtimalı böyükdür. Bu da həmin şəxsə böhtan atma mənasını daşıyır. Odur ki, dəqiq məlumat olmadan kiminsə haqqında mənfi düşünməmək lazımdır. Xüsusi ilə Allah-Təala haqqında, saleh kimsələr barəsində pis zənn bəsləmək qəti şəkildə haram edilmişdir.[44]

[44] Züheyli, “Təfsirul-münir”, XIII, 486.

Bunu da qeyd etmək lazımdır ki, dinimizdə gözəl zənn də vardır. Bu barədə Allah-Təala "Nur" surəsinin 12-ci ayəsində belə buyurur: **"Kaş onu** (iftiranı) **eşitdiyiniz zaman mömin kişi və qadınlar qəlblərində yaxşı şeylər düşünərək: "Bu, açıq-aydın bir iftiradır!" - desəydilər".** Həmçinin Həzrət Peyğəmbər belə buyurmuşdur: *"Yaxşı və gözəl zənn imandandır".*[45] Başqa bir hədisi-şərifdə də: *"Sizdən biri Allah haqqında yaxşı zənn bəsləyərək ruhunu təslim etsin",*[46]- buyurulmuşdur.

Bir də elə məqamlar vardır ki, orada zənn ilə hərəkət etmək vacibdir. Bunlar qiblənin təyini, məhv olan malların qiymətləndirilməsi kimi xüsuslardır.

Ayədə qadağan olan feillərdən biri də bir müsəlmanın ayıbını araşdırmaqdır. Bir hədisi-şərifdə bu barədə belə buyurulmuşdur: *"Müsəlmanların nöqsanlarını araşdırmayın. Kim müsəlmanın ayıbını araşdırarsa, Allah-Təala onun ayıbını təqib edər və Allah kimin ayıbını təqib edərsə, onu evinin içində də olsa rəzil-rüsvay edər".*[47]

Ayədə haram edilən feillərdən biri də qeybətdir. Qeybət bir şəxsin arxasınca xoşlanmayacağı söz söyləməkdir. Həzrət Peyğəmbər (s.ə.s) bir gün: *"Qeybətin nə olduğunu bilirsinizmi?* – deyə soruşdu. Səhabələr: "Allah və Rəsulu daha yaxşı bilir", - dedilər. Həzrət Peyğəmbər: *"Qardaşını xoşlanmadığı bir şeylə anmaqdır",* - buyurdu. Dedilər ki: "Söylədiyimiz şey qardaşımızda varsa necə?" Həzrət Peyğəmbər

45. Əbu Davud, "Cənaiz", 13; "Ədəb", 81.
46. Müslim, "Cənnət", 81, 82.
47. Tirmizi, "Təharət", 83.

(s.ə.s): *“Söylədiyiniz onda varsa qeybət olar, yoxdursa ona böhtan atmış olarsınız”,* - dedi.[48] Ancaq bir insanın şərindən qorunmaq üçün onun barəsində danışmaq və ya bir kimsəni tanıtmaq məqsədi ilə “axsaq”, “qısa boy”, və s. kimi ifadələrlə onu vəsf etmək qeybət sayılmaz.[49]

Allah-Təala qadağan olunan digər mənfi feillərdən fərqli olaraq qeybəti ölən qardaşının ətini yeməyə bənzədərək bu əməlin haram bir iş olması ilə yanaşı, çox çirkin bir hərəkət olduğuna diqqət çəkmişdir. Çünki ayədə **“Bir-birinizin qeybətini qırmayın!”** buyurulduqdan sonra **“Sizdən biriniz, ölmüş qardaşının ətini yeməkdən xoşlanarmı?! Gördünüzmü bu sizdə ikrah hissi oyatdı”,** - buyurularaq bunun diksindirici bir əməl olduğu vurğulanmışdır.

يَآ اَيُّهَا النَّاسُ اِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَّاُنْثٰى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَّقَبَآئِلَ لِتَعَارَفُوا ؕ اِنَّ اَكْرَمَكُمْ عِنْدَ اللّٰهِ اَتْقٰيكُمْ ؕ اِنَّ اللّٰهَ عَلِيمٌ خَبِيرٌ ﴿١٣﴾

13. Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizlə tanış olasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanınızdır. Şübhəsiz ki, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır.

48. Beyhəqi, “əs-Sünənül-kübra”, X, 210.
49. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 209.

Təfsiri:

Bundan əvvəlki ayələrdə Allah-Təala möminlərin bir-birləri ilə münasibətlərində dedi-qodu etməməyi, xoşlanmadıqları ləqəblər taxmamağı, bir-birlərini ələ salmamağı və sui-zənn etməməyi əmr etmişdi. Bu hərəkətləri etmələrinin, əslində, özlərini bəyənmələri mənasına gəldiyini söyləmək mümkündür. Əgər birinin danışığına, yerişinə, rənginə və ya milli mənsubiyyətinə lağ edirsənsə, deməli sən özünü ondan üstün görürsən. Bu da təbii olaraq təkəbbürlük əlamətidir. Belə bir məqamda bu ayə insanların hamısının Adəm ilə Həvvadan və ya hər kəsin bir ana ilə bir atadan yaradıldığını xəbər verərək insanların yaradılış baxımından eyni olduğunu bildirmişdir. Bunun üçün heç kimin başqasını dilinə, irqinə, rənginə, yaxud ölkəsinə görə özündən aşağı görmə haqqı yoxdur. Həzrət Peyğəmbər (s.ə.s) Məkkənin fəthi əsnasında Kəbəni təvaf etdikdən sonra belə buyurmuşdur: *“Ey İnsanlar! Bütün insanlar iki qrupa ayrılır. Birinci qrup yaxşılıq edən, pis işlərdən uzaq duran ki, bunlar, Allah dərgahında dəyərli olan şəxslərdir. İkinci qrup isə günahkar, üsyankar olan insanlardır. Bunlar Allah dərgahında dəyərsiz olanlardır. İnsanların hamısı Həzrət Adəmin uşaqlarıdır. Allah da Adəmi torpaqdan yaratmışdır”.*[50]

Ayədə daha sonra Uca Allah insanların xalqlara və qəbilələrə ayırmasının səbəbini bir-birləri ilə tanış olmaları üçün olduğunu bildirmişdir. Odur ki, İnsanların Allah yanındakı üstünlüyü onların doğulduğu yer, milliyyəti, anasının və ya atasının kim olduğu ilə yox, Allaha qarşı təqvalı ol-

[50] Tirmizi, “Təfsir”, 49.

maları ilə ölçülür. Allah kimin təqvalı, kimin təqvasız, kimin səmimi, kimin qeyri-səmimi olduğunu yaxşı bilir.

قَالَتِ الْاَعْرَابُ اٰمَنَّا ؕ قُلْ لَّمْ تُؤْمِنُوا وَلٰكِنْ قُوْلُوْٓا اَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْاِيْمَانُ فِىْ قُلُوْبِكُمْ ؕ وَاِنْ تُطِيْعُوا اللّٰهَ وَرَسُوْلَهٗ لَا يَلِتْكُمْ مِّنْ اَعْمَالِكُمْ شَيْـًٔا ؕ اِنَّ اللّٰهَ غَفُوْرٌ رَّحِيْمٌ ﴿١٤﴾

14. Bədəvi ərəblər: “Biz iman gətirdik!” - dedilər. De ki: “Siz iman gətirməmisiniz. Ancaq: “Biz təslim olmuşuq!” - deyin. İman hələ sizin qəlblərinizə girməmişdir. Əgər Allaha və Onun Peyğəmbərinə itaət etsəniz, Allah əməllərinizdən heç bir şeyi əskiltməz. Şübhəsiz ki, Allah bağışlayandır, mərhəmətlidir”.

Təfsiri:

Təfsir mənbələrində keçən bir rəvayətə görə, Əsəd oğullarından bir qrup qənimət və maddi mənfəət güdərək müsəlman olmuşdular. Onlar Həzrət Peyğəmbərə: “Biz sənə ailə fərdlərimizlə gəldik, filan qəbilələr kimi sənə qarşı vuruşmadıq”,[51] - dedilər. Belə edərək sədəqə tələb edir, müsəlman olduqları üçün də Həzrət Peyğəmbərə (s.ə.s) minnət qoyurdular. Bunun nəticəsində yuxarıdakı ayə nazil oldu və

51. Vahidi, “Əsbabün-nüzul”, 456.

onların, əslində, iman etmədikləri həqiqətini ifşa etdi. Çünki iman Allaha, Peyğəmbərə və onun gətirdiklərinə inandığını sadəcə dil ilə ifadə etmək deyil, eyni zamanda qəlbində də onu sevərək qəbul edib təsdiq etməkdir. Bədəvilərin bu hərəkəti isə imanın onların qəlbinə yerləşmədiyini, İslamı zahirən qəbul etdiklərini göstərir. Yoxsa müsəlman oldular deyə, Həzrət Peyğəmbərə (s.ə.s) minnət qoymazdılar.[52] Bu da imanın İslamdan daha xüsusi olduğunu ortaya qoyur. Cibril hədisi də bunu təsdiqləyir. Belə ki, Cəbrail (ə.s) Həzrət Peyğəmbərə (s.ə.s) əvvəlcə İslamın, sonra imanın, daha sonra da ehsanın nə olduğunu soruşmuşdur.

Təfsirçi Almalılı qeyd edir ki, Rağıb əl-İsfəhani "Müfrədat" adlı əsərində İslamı iki qismə ayırmışdır: Birincisi dil ilə müsəlman olduğunu bildirməklə bərabər qəlbində də təsdiq edib Allah-Təalanın bütün qədər və qəzasına təslim olmaqdır. İbrahim (ə.s) ilə bağlı Quranda: **"Rəbbin ona: "Təslim ol!" - dediyində: "Aləmlərin rəbbinə təslim oldum", - dedi",**[53] - buyurulması bu mənadadır. Həmçinin **"Məni müsəlman olaraq öldür!"**[54] ayəsi də bu mənada işlədilmişdir.

İkincisi isə, sadəcə dil ilə müsəlman olduğunu ifadə etməkdir ki, yuxarıdakı ayədə "İslam" ifadəsi bu mənada işlədilmişdir.[55] Yəni Allaha-Təala sanki onlara: "İslamın şərtlərinə boyun əymiş ola bilərsiniz, ancaq bundan daha

52. Elmalılı, "Hak Dini Kuran Dili", VII, 214.
53. Bəqərə, 2/131.
54. Yusif, 12/101.
55. Elmalılı, "Hak Dini Kuran Dili", VII, 215.

üstün mərtəbə olan iman qəlbinizə yerləşməmişdir”,[56] - buyurmuşdur.

Ayənin sonunda: “**Əgər Allaha və Onun Peyğəmbərinə itaət etsəniz, Allah əməllərinizdən heç bir şeyi əskiltməz. Şübhəsiz ki, Allah bağışlayandır, mərhəmətlidir”, -** buyurularaq sadiq bir səmimiyyət, kamil iman və Peyğəmbərə minnət qoymamaq üzrə Allaha və Rəsuluna itaət ediləcəyi təqdirdə, mükafatlarının əskildilməyəcəyi bildirmişdir. Bu da Allahın məğfirətinin böyük, mərhəmətinin geniş olmasındandır.

اِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ اٰمَنُوا بِاللّٰهِ وَرَسُولِهٖ ثُمَّ لَمْ يَرْتَابُوا وَجَاهَدُوا بِاَمْوَالِهِمْ وَاَنْفُسِهِمْ فِى سَبِيلِ اللّٰهِ ؕ اُولٰٓئِكَ هُمُ الصَّادِقُونَ ﴿١٥﴾

15. Möminlər o kəslərdir ki, Allaha və Peyğəmbərinə iman gətirər, sonra da bundan əsla şübhəyə düşməz və Allah yolunda malları və canları ilə cihad edərlər. Məhz onlar sadiq olanlardır.

Təfsiri:

Allah-Təala bu ayədə “iman etdik” deyən, ancaq qəlblərinə iman yerləşməmiş bədəvilərə həqiqi möminlərin vəsflərini bəyan edir. O möminlər ki, Allaha və Peyğəm-

56. Sabuni, “Səfvətüt-təfasir”, VII, 149.

bərə (s.ə.s) həm dilləri ilə, həm də qəlbləri ilə iman etmiş və imanlarında qətiyyən şübhəyə düşməmişlər. Demək ki, imanın şərti qəlbdə şübhəyə yer verməməkdir. Bundan sonra bir mömin arxayın şəkildə malı və canı ilə Allah yolunda cihad edə bilər. Mal və can ilə cihad, mal və bədənlə olunan bütün ibadətlər deməkdir.[57] Bütün bunları yerinə yetirən möminlər imanlarına sadiq, söylədiklərinə qəlbləri və əməlləri ilə bağlılıqlarını göstərmiş səmimi müsəlmanlardır.

قُلْ اَتُعَلِّمُونَ اللّٰهَ بِدِينِكُمْ وَاللّٰهُ يَعْلَمُ مَا فِى السَّمٰوَاتِ
وَمَا فِى الْاَرْضِ ؕ وَاللّٰهُ بِكُلِّ شَىْءٍ عَلِيمٌ ﴿١٦﴾

16. De: “Siz dininizi Allaha öyrədirsiniz? Halbuki Allah göylərdə və yerdə nə varsa, hamısını bilir. Allah hər şeyi biləndir”.

Təfsiri:

Bu ayə ilə Allah-Təala “iman etdik!” - deyən bədəvilərə müraciət edir və onlara belə səslənir: “Ey insanlar! Siz Rəbbinizə dininizi öyrədirsiniz?! Halbuki Allah-Təala yerdə və göylərdə olan hər şeyi bilir. Odur ki, siz mömin olduğunuzu bildirmək istədiyiniz Allah yerdə və göydə nə varsa, hər şeyi bilir. Ona dininizi öyrətməyə necə cürət edirsiniz?!” Bu ayə bədəviləri şiddətlə qınamaqda, eyni zamanda, daxilən

57. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 217.

fikirləşdiklərinin tərsini söyləyərək yalan danışdıqlarını bildirir.[58]

يَمُنُّونَ عَلَيْكَ اَنْ اَسْلَمُوا۟ قُلْ لَا تَمُنُّوا عَلَىَّ
اِسْلَامَكُمْ ۚ بَلِ اللّٰهُ يَمُنُّ عَلَيْكُمْ اَنْ هَدٰىكُمْ لِلْاِيمَانِ
اِنْ كُنْتُمْ صَادِقِينَ ﴿١٧﴾

17. Müsəlman oldular deyə sənə minnət qoyurlar. De: “Müsəlman olduğunuza görə mənə minnət qoymayın! Əksinə, əgər sadiqlərdənsinizsə, bilin ki, əslində sizi imana yönəltdiyinə görə Allah sizə minnət qoymalıdır”.

Təfsiri:

Bu ayə yuxarıda sözügedən bədəvilər haqqında enmişdir. Onlar müsəlman olduqları üçün Peyğəmbərə (s.ə.s) və Allah-Təalaya minnət qoyurdular. Bundan əvvəlki ayələrdə onların doğru söyləmədikləri, imanın qəlblərinə yerləşmədiyi, əsil möminlərin qəlbində şübhəyə yer buraxmadan iman edən, Allah yolunda canları və mallarıyla cihad edənlər olduğu bildirilmişdi. Bu ayədə isə Allah-Təala Həzrət Peyğəmbərin (s.ə.s) onlara belə deməsini istəyir: “Müsəlman olmağınızı mənim başıma qaxmayın! Çünki onun faydası sizədir. Əgər iddia etdiyiniz kimi iman etmisinizsə, bilin ki,

58. Baş, “Müminler Arası Beşeri Münasebetler”, s. 172.

sizə iman neməti bəxş etdiyi üçün, əslində, Allah sizə minnət qoya bilər. Bu, Onun haqqıdır”.[59]

اِنَّ اللّٰهَ يَعْلَمُ غَيْبَ السَّمٰوٰتِ وَالْاَرْضِ ؕ وَاللّٰهُ بَصِيْرٌ بِمَا تَعْمَلُوْنَ ﴿۱۸﴾

18. Şübhəsiz ki, Allah göylərin və yerin qeybini bilir. Allah sizin bütün etdiklərinizi görür.

Təfsiri:

Şübhəsiz, Allah-Təala göydə və yerdə gözlə görünməyənləri də bilir. Uca Allah bəndələrinin əməllərindən xəbərdardır. Heç bir şey Ondan gizli qalmaz. Uca Yaradan bütün kainatı bildiyini və bütün məxluqatı elmi ilə əhatə etdiyini təkrar xəbər vermişdir ki, elminin genişliyinin gizli və açıqda, zahir və batində böyük-kiçik hər bir şeyi əhatə etdiyini göstərsin.[60]

59. Sabuni, “Səfvətüt-təfasir”, VII, 150.
60. Sabuni, “Səfvətüt-təfasir”, VII, 150.

سُورَةُ الرَّحۡمَٰنِ ١٥٥

“RƏHMAN” SURƏSİ

Qurandakı sırası:	55
Nazil olduğu yer:	Məkkə
Ayələrin sayı:	78
Kəlmələrin sayı:	336
Hərflərin sayı:	1351

سُورَةُ الرَّحْمٰنِ

“RƏHMAN” SURƏSİ

Adı:

Rəhman: Quranda “Rəhman” adı yalnız Allah üçün işlədilmiş, başqa heç bir varlığa aid edilməmişdir. “Rəhman” kəlməsinin mənası bütün yaradılanlara sonsuz lütf və mərhəmət edən deməkdir. Allahın “Rəhman” adı ilə göstərdiyi bu mərhəmət layiq olub-olmamasından asılı olmayaraq bütün məxluqata aiddir. Allahın bu sifəti yağış kimi hər şeyin üzərinə yağar, günəş kimi hər şeyi isidər və aydınladar. “Rəhman” surəsinin adı da ilk ayədə keçən “Rəhman” kəlməsindən alınmışdır. Bu ad surənin əhatə etdiyi mövzularla üst-üstə düşür. Belə ki, surədə başdan sona qədər Allahın mərhəmətinin təzahürləri qeyd edilmişdir.

Ehtiva etdiyi mövzular:

“Rəhman” surəsi Uca Allahın Öz bəndələrinə lütf etdiyi saysız və sonsuz nemətlərini xatırladaraq başlayır. Bu nemətlərin ən əsası Quran nemətidir. Bundan əlavə, Uca Allah bu surədə günəş, ay, ulduzlar, ağaclar, dirəksiz olaraq yüksələn səma və yer üzü kimi Öz varlığının əlamətlərindən bəhs edir. Uca Allah bütün bu nemətləri xatırladaraq insana bunların məsuliyyətini dərk etməsini və Rəbbinə təzim edərək Onu ucaltmasını istəyir. Surədə həm cinlərə, həm də insanlara xitab olunmuşdur. Çox qısa bir cəhənnəm təsvirindən sonra cənnətlə bağlı geniş bir təsvirə yer

verilmişdir. Surə verdiyi saysız-hesabsız nemətlər səbəbilə Uca Allaha tərif və təzimlə bitir.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

اَلرَّحْمٰنُ ۙ﴿۱﴾

1. Rəhman (mərhəmətli Allah)**!**

Təfsiri:

Uca Allah surəyə Öz mərhəmətinin genişliyini ifadə edən “Rəhman” adıyla başlayır. Rəhman adının mənası yuxarıda da qeyd etdiyimiz kimi inancından asılı olmayaraq bütün insanlara qarşı Allahın mərhəmət göstərməsi və bütün bəndələrinə nemətlərini bəxş etməsi deməkdir. Rəvayət olunduğuna görə, Uca Allah Məkkə kafirlərinə: “Rəhmana səcdə edin!” - buyurduğu zaman onlar: “Rəhman nədir? Biz Onu tanımırıq!” - deyərək Onu inkar etmiş və Uca Allah onların inkar etdikləri Rəhmanın Quranı öyrədən olduğunu açıqlamışdır.[1]

عَلَّمَ الْقُرْاٰنَ ؕ﴿۲﴾

2. Quranı öyrətdi.

1. İbnül-Cövzi, “Zadül-məsir fi elmit-təfsir”, IV, 205.

Təfsiri:

Uca Allah ilk ayədə Rəhman sifətini qeyd etdikdən sonra bu ayədə Rəhmanın Quranı öyrədən olduğunu açıqlamışdır. Yəni Quranın Rəhman tərəfindən öyrədilməsi onun insanlara olan mərhəmətinin bir təzahürüdür. Buna görə də bu ayə Quranın insanlıq üçün nə qədər əhəmiyyətli bir mənbə olduğunu ifadə edir. Allah-Təala bu ayə ilə həm də Məkkə müşriklərinin iddia etdikləri kimi Quranın Həzrət Peyğəmbərin (s.ə.s) əsəri olmadığını və Öz dərgahından endirilən bir kitab olduğunu vurğulayır. Bəzi təfsirçilər bu ayədəki “öyrətdi” mənasına gələn “عَلَّمَ” feilini “dəlil etdi, əlamət etdi” şəklində izah etmişlər. Belə olan halda ayənin mənası “Allah Quranı Həzrət Mühəmmədin peyğəmbərliyi üçün bir dəlil, bir əlamət etdi”, - şəklində olar.[2]

خَلَقَ الْاِنْسَانَ ۙ ﴿٣﴾

3. İnsanı yaratdı.

Təfsiri:

Yəni Allah eşidən, görən və danışan bir varlıq olan insanı yaratdı və ona yol göstərən bir rəhbər olaraq Quranı öyrətdi.

عَلَّمَهُ الْبَيَانَ ﴿٤﴾

4. Ona danışmağı öyrətdi.

2. Elmalılı, “Hak Dini Kuran Dili”, XVII, 90.

Təfsiri:

Allah insana öz duyğu və düşüncələrini açıqlama qabiliyyəti verdi. Beləliklə, insan bu xüsusiyyəti sayəsində digər canlılardan fərqlənmişdir. Açıqlamaq üçün əvvəlcə anlamaq, dərk etmək zəruridir. Bu səbəblə də ayədə insana bəxş edildiyi qeyd olunan nemətin əslində idrak və ifadə etmək qabiliyyəti olduğunu söyləmək mümkündür.

اَلشَّمْسُ وَالْقَمَرُ بِحُسْبَانٍ ۝٥

5. Günəş və ay müəyyən bir ölçüyə görə hərəkət edir.

Təfsiri:

Günəş və ayın doğması və batması dəyişməz bir qanuna tabedir. Bu nizam sayəsində insanlar fəsillərin vaxtını, günlərin sayını, meyvələrin yetişmə mövsümünü təsbit edirlər. Yer üzündəki canlıların yaşaya bilməsinin əsas səbəbi günəşin yerdən müəyyən bir məsafədə dayanmasıdır. Əgər günəş nizamsız hərəkət etsəydi və yerə yaxınlaşsaydı və ya uzaqlaşsaydı, bütün canlılar məhv olardı. Günəş ilə ay Allahın onlar üçün təyin etdiyi nizama uyğun hərəkət edirlər və insanların vaxtı təyin etmək üçün işlətdikləri təqvimlər onların hərəkətinə əsasən təyin olunur.

Günəş və ay eyni zamanda Uca Allahın qüdrətinin ən bariz əlamətləridir. Ayədə günəş və ayın xüsusi olaraq qeyd edilməsi bu iki göy cisminin insanların ən çox diqqətində olduğuna görədir. Bundan əlavə, kainatdakı bütün varlıq-

lar insan üçün yaradıldığına görə insan da həyatını Allahın istəyinə müvafiq şəkildə nizama salmalı və Onun vəd etdiyi hesab gününün gələcəyini əsla unutmamalı və buna hazır olmalıdır.

وَالنَّجْمُ وَالشَّجَرُ يَسْجُدَانِ ﴿٦﴾

6. Bitkilər də, ağaclar da Allaha səcdə edir.

Təfsiri:

Bu ayədəki “nəcm” kəlməsi iki fərqli mənaya gəlir. Birinci və əsas qəbul edilən mənaya görə, “nəcm” kəlməsi gövdəsi olmayan taxıl və ot kimi bitkilər deməkdir. Kəlmənin ikinci mənası isə “ulduz” deməkdir. Burada ayəni birinci mənada başa düşmək daha doğrudur. Yəni gövdəsi olmayan ot və taxıl kimi bitkilər də, gövdəsi olan ağaclar da Allaha səcdə edirlər. Allahın əmrlərinə təbii olaraq boyun əyər, qanunları qarşısında Onun istədiyi hər vəziyyəti alarlar. Bu ayə insanlara şüursuz şəkildə Allahın qanunlarına boyun əyən bitkiləri misal göstərməklə şüurlu olan insanın öz ağıl və iradəsilə Rəbbinə təzim etməli olduğunu xatırladır.

وَالسَّمَآءَ رَفَعَهَا وَوَضَعَ الْمِيزَانَ ﴿٧﴾

7. O, göyü ucaltdı və mizanı (tərəzini) **qoydu.**

Təfsiri:

Ayədə qeyd olunan “səma” kəlməsi üzərimizdə yüksələn və dünyanı əhatə edən göy təbəqəsidir. Göyün ucaldılmasını həm həqiqi, həm də məcazi mənada başa düşmək mümkündür. Həqiqi mənada göy yer üzündən müəyyən bir yüksəkliyə sahibdir ki, ayədə bu məna qəsd edilə bilər. Məcazi mənada isə göyün mənəvi bir yüksəkliyə sahib olduğunu və bunun yalnız Uca Allahın qüdrəti ilə yaradıla biləcəyi şəklində başa düşmək mümkündür. Hər iki mənada da bu ayə Uca Allahın qüdrətinə diqqət çəkir.

Ayədəki “mizan” kəlməsi təfsirçilərin çoxuna görə, “ədalət” mənasına gəlir. Kainatda mövcud olan bütün varlıqlar və fəzada seyr edən müxtəlif göy cisimləri Uca Allahın qoyduğu ədalət və nizama uyğun hərəkət etməkdədirlər. Əgər varlıqlar bir nizam üzrə hərəkət etməsəydi, kainat bir an belə olsun davam edə bilməz və yox olub gedərdi. Hətta hava, su, torpaq və digər ünsürlər arasında bir ahəng olmasaydı, həyatın davam etməsi bir yana, yaşamaq belə mümkün olmazdı.

اَلَّا تَطْغَوْا فِى الْمِيزَانِ ﴿٨﴾

8. (Mizanı qoydu ki,) **tərəzidə həddi aşmayasınız.**

Təfsiri:

Kainat ədalət və nizam üzərinə qurulmuşdur. Bu səbəbdən insan öz imkanları daxilində hər zaman ədaləti bər-

pa etməyə çalışmalıdır. Başqasının haqqını qəsb etmək bir ədalətsizlik olduğuna görə belə etməklə insan Allahın qoyduğu nizamı pozmuş olar. Çünki Allahın qoyduğu nizamda haqsızlığa və ədalətsizliyə yer yoxdur.

وَاَقِيمُوا الْوَزْنَ بِالْقِسْطِ وَلَا تُخْسِرُوا الْمِيزَانَ ﴿٩﴾

9. Tərəzidə ədalətə riayət edin və çəkini əskiltməyin!

Təfsiri:

Tərəzidə həssas olun. Əskik çəkməyin. Çünki tərəzidə əskik çəkmək başqasının haqqını qəsb etmək deməkdir və bu ədalətsizlikdir. İnsanın Rəbbi qarşısındakı əsas vəzifəsi yer üzündə ədalətli olmasıdır. Yer üzündə ədalətsizlik edərək başqasının haqqını qəsb edənlər əslində axirətdəki tərəzidə öz əleyhlərinə əskik çəkəcəklər.

وَالْاَرْضَ وَضَعَهَا لِلْاَنَامِ ﴿١٠﴾

10. O, yer üzünü canlılar üçün yaratdı.

Təfsiri:

Ayədə qeyd olunan “ənam” kəlməsi bütün canlılara aiddir. Lakin bu bir həqiqətdir ki, Uca Allah yaratdığı bütün məxluqatı insanın ixtiyarına vermişdir.[3] Bu baxımdan ayəni

[3] Casiyə, 45/13.

“yer üzünü canlıların yaşaması üçün əlverişli hala gətirdi” şəklində başa düşmək mümkündür.[4] Beləliklə də, yer üzünün yaradılmasındakı əsas məqsədin insan olduğu nəticəsi ortaya çıxır.

فِيهَا فَاكِهَةٌ وَالنَّخْلُ ذَاتُ الْأَكْمَامِ ﴿١١﴾

11. Orada meyvələr və salxımlı xurma ağacları var.

Təfsiri:

Yer üzündə rəngi, dadı və iyi bir-birindən fərqli olan müxtəlif meyvələr və salxımlı xurma ağacları vardır. Xurma ağacı ayədə xüsusi olaraq qeyd olunmuşdur. İbn Kəsirə görə, bunun səbəbi xurma ağacının qiymətli bir ağac olması və meyvəsinin həm quru, həm də yaş olaraq faydalı olmasına görədir.[5]

وَالْحَبُّ ذُو الْعَصْفِ وَالرَّيْحَانُ ﴿١٢﴾

12. Saçaqlı dənli və xoş ətirli bitkilər var.

Təfsiri:

Saçaqlı dənli bitkilər ilə buğda, arpa kimi insanların çox istifadə etdikləri dənli bitkilər nəzərdə tutulur. Bu bitkilər qu-

4. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 200.
5. İbn Kəsir, “Müxtəsərü-təfsiri İbn Kəsir”, II, 416.

ruduğu zaman insanlar onlardan həm özləri, həm də heyvanları üçün istifadə edirlər. Bəzi təfsirçilər “ətirli bitki” deyə tərcümə olunan “reyhan” kəlməsinin “ruzi” mənasına da gəldiyini irəli sürmüşlər.[6]

فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿١٣﴾

13. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Bu ayə “Rəhman” surəsinin içində otuz bir dəfə təkrarlanır. Uca Allahın lütf etdiyi nemətlər və qüdrət təzahürləri qeyd edildikcə bütün insanlar və cinlərə xitabən bu nemət və qüdrətin həqiqi sahibini tanımağa və Ona şükür etməyə dəvət etmək üçün bu ilahi fərman tez-tez təkrarlanmışdır. Burada üzərində durulması lazım gələn üç önəmli nöqtə vardır:

Birincisi, xitab məsuliyyət sahibi olan iki varlığa - insanlara və cinlərədir. Bəzi təfsirçilər bu iki varlığın möminlər və kafirlər olduğunu söyləsələr də doğru olan fikir birincisidir.

İkincisi, ayədəki “əla” kəlməsinin “nemətlər, üstün güc, qüdrət, tərifə layiq sifətlər və fəzilətlər” olmaqla üç əsas mənası vardır. Beləliklə də, ayənin qeyd olunduğu yerə uyğun olaraq bu mənalardan biri, ikisi və ya hər üçü verilərək ayəni təfsir etmək mümkündür.

6. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 94.

Üçüncüsü, ayədəki “Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!” deyə tərcümə etdiyimiz hissə insanların və cinlərin Allahın nemətlərinə qarşı münasibətlərini ifadə edir.[7]

Rəsulullah (s.ə.s) bir gün səhabələrinin yanına gələrək, onlara “Rəhman” surəsini oxumuş və sonra belə buyurmuşdur: “*Cinlərlə görüşdüyüm gecə mən bu surəni onlara da oxumuşdum. Onlar bu surəyə sizdən daha yaxşı qarşılıq vermişdilər. Mən hər dəfə:* **Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!”** *ayəsini oxuduğum zaman onlar: Ey Rəbbimiz! Biz Sənin heç bir nemətini inkar etmirik. Sənə həmd olsun! - deyirdilər*”.[8]

خَلَقَ الْاِنْسَانَ مِنْ صَلْصَالٍ كَالْفَخَّارِ ﴿١٤﴾

14. O, insanı saxsı kimi quru palçıqdan yaratdı.

Təfsiri:

Ayədəki “صَلْصَال/salsal” kəlməsi “qupquru palçıq”, “فَخَّار/fəxxar” kəlməsi isə “bişmiş saxsı” mənasına gəlir. Yəni Uca Allah toxunduğumuz zaman səs çıxaracaq qədər qupquru bir torpaqdan ağıl və iradə sahibi bir insan yaratmışdır. Bu da Onun sonsuz qüdrətinə işarə edir. Qurani-Kərimin müxtəlif ayələrində insanın yaradılışı haqqında məlumat ve-

7. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 720-721.
8. Tirmizi, “Təfsir”, 55.

rilmişdir.[9] Allah-Təala bu ayədə də insanı saxsı kimi quru bir palçıqdan yaratdığını vurğulayaraq, Öz qüdrətinə diqqət çəkir və bunun müqabilində “**Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!**” buyuraraq insanı düşünməyə sövq edir.

وَخَلَقَ الْجَآنَّ مِنْ مَارِجٍ مِنْ نَارٍ ﴿١٥﴾

15. Cinləri də tüstüsüz oddan yaratdı.

Təfsiri:

Bəzi təfsirçilər bundan öncəki ayədə keçən “insan” kəlməsi ilə Adəmin (ə.s), bu ayədə keçən “cann” kəlməsi ilə cinlərin ilk atasının qəsd olunduğunu irəli sürmüşlər.[10] Lakin bununla yanaşı, ayədə cin nəslinin yaradıldığına işarə olunduğu da düşünülə bilər. Uca Allah Qurani-Kərimin bir ayəsində: “**Daha əvvəl cinləri də tüstüsüz oddan yaratmışdıq**”, - buyuraraq cinlərin insanlardan öncə yaradıldığına diqqət çəkmişdir.[11]

“Hicr” surəsinin 27-ci ayəsində cinlərin yaradıldığı maddə “tüstüsüz od” mənasına gələn “نَارُ السَّمُومِ/narus-səmum” olaraq keçir. Lakin bu ayədə “مَارِج/maric” kəlməsi ilə ifadə olunur. Bu kəlmə haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. İbn Abbasdan nəql olunan bir görüşə görə, “maric” kəlməsi də tüstüsüz od mənasına gəlir. Mücahidə

9. Hicr, 15/26; Saffat, 37/11; Ali-İmran, 3/59.
10. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 95-96.
11. Hicr, 15/27.

görə isə, bu kəlmə tüstü ilə qarışıq olan od mənasına gəlir.[12] Mələklərin, cinlərin və insanın yaradıldığı maddə haqqında Rəsulullah (s.ə.s) də belə buyurmuşdur: “*Mələklər nurdan, cinlər tüstüsüz oddan, Adəm isə sizə bəhs olunan şeydən yaradılmışdır*”.[13] Hədisin ərəbcə mətnində cinlərin yaradıldığı maddə “maric” kəlməsi ilə ifadə olunmuşdur.

Bu ayədən anlaşıldığına görə cinlər yalnız ruhi varlıqlar deyillər. Onların da maddi cisimləri vardır. Onlar saf oddan yaradıldıqları üçün torpaqdan yaradılan insanlar onları görə bilmirlər.[14] Bundan əlavə, cinlər sürətlə hərəkət edir, müxtəlif şəkillərə girir və insanın girə bilməyəcəyi yerlərə çox rahatlıqla girə bilirlər.[15]

فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿١٦﴾

16. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Yuxarıda da qeyd edildiyi kimi bu ayə “Rəhman” surəsində otuz bir dəfə təkrarlanır. Bəzi təfsirçilər bu ayələrin təkrarlanmasının səbəbini mənanın qüvvətləndirilməsi şəklində açıqlamışlar. Bəziləri isə ayələrdə Allahın fərqli nemət-

12. Sabuni, “Səfvətüt-təfasir”, III, 277.
13. Müslim, “Zöhd”, 60.
14. Əraf, 7/27.
15. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 724.

ləri xatırladıldığı üçün hər dəfə bu nemətlərə diqqət çəkildiyini demişlər.[16]

رَبُّ الْمَشْرِقَيْنِ وَرَبُّ الْمَغْرِبَيْنِ ﴿١٧﴾

17. O, iki məşriqin də, iki məğribin də Rəbbidir.

Təfsiri:

Ayədə keçən “iki məşriq” və “iki məğrib” ifadələri haqqında aşağıdakı fikirlər söylənmişdir:

- Günəşin və ayın doğduğu və batdığı yerlərdir.

- “İki məşriq” və “iki məğrib” ifadələri günəşin qış və yaz fəsillərində fərqli, yay və payız fəsillərində isə fərqli yerlərdən doğub-batmasına işarə edir. Əslində belə düşündükdə günəşin doğub-batdığı yerlərin sayı çoxdur. Lakin burada təmsili olaraq iki yer qeyd olunmuşdur. Günəşin doğub-batdığı yerlərin çoxluğuna Qurani-Kərimin başqa bir ayəsində belə işarə olunmuşdur: “**And olsun şərqlərin və qərblərin Rəbbinə!**”[17]

- Dünya kürə formasında olduğuna görə günəş bir tərəfdə doğarkən, digər tərəfdə batmaqdadır. Bu baxımdan yer kürəsinin iki məşriqi və iki məğribi olmuş olur.[18]

16. Sabuni, “Səfvətüt-təfasir”, III, 277.
17. Məaric, 70/40.
18. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 203.

فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿١٨﴾

18. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Günəşin doğmasının və batmasının nizamlı bir şəkildə olması Allahın böyük bir nemətidir. Çünki, günəşin nizamlı olaraq doğub-batmasının insanlara, heyvanlara və bitkilərə böyük faydası vardır. Əgər fəsillər bir sistem üzrə dəyişməsələr, canlılar həyatlarını davam etdirə bilməzlər. Yaratdığı məxluqat üçün bu imkanları yaratması Allahın qüdrət və mərhəmətinin nəticəsidir. Elə isə ey insanlar! Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

مَرَجَ الْبَحْرَيْنِ يَلْتَقِيَانِ ۙ﴿١٩﴾ بَيْنَهُمَا بَرْزَخٌ لَّا يَبْغِيَانِ ۚ
﴿٢٠﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٢١﴾

19. O, yan-yana duran iki dəniz meydana gətirdi.

20. Onların arasında maneə var və buna görə də bir-birinə qarışmazlar.

21. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Təfsirlərdə “yan-yana duran iki dəniz” haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Bəzi təfsirçilər bunu şirin və duzlu iki su hövzəsinin qovuşmasına baxmayaraq bir-birinə qarışmaması şəklində izah etmişlər. Bu barədə “Fürqan” surəsində keçən ayəyə istinad edilmişdir. Həmin ayədə Uca Allah belə buyurur: **“İki dənizi qovuşduran Odur! Bu** (dənizin suyu) **şirin və susuzluğu yatırandır. Bu** (dənizin suyu) **isə duzlu və acıdır. Allah o ikisinin arasında** (sularının bir-birinə qarışmaması üçün) **bir maneə və keçilməz bir sədd yaratmışdır”**.[19] Müasir elmin bu mövzuda təmas etdiyi bir məsələyə diqqət çəkmək lazımdır. Belə ki, böyük dənizlərin bir-birinə birləşdiyi sərhədlərdə meydana gələn təbii bir maneə bu dənizlərin tərkibinin qarışaraq öz təbii xüsusiyyətlərini itirməsinin qarşısını alır. Bu da hər bir su hövzəsinin özünəməxsus olan bitki və heyvan növlərinin qorunmasına xidmət edir.[20]

“Yan-yana duran iki dəniz” haqqında söylənən bəzi fikirlər isə belədir:

- Bu iki dəniz Hind okeanı və Aralıq dənizidir. Bunların arasındakı maneə isə Ərəbistan yarımadası və ya Süveyş kanalıdır. Bu mənaya görə ayədə keçən “يَلْتَقِيَانِ/yəltəqiyan” kəlməsini “qarşılaşacaqlar” şəklində tərcümə etsək, o zaman ayənin sonradan açılan Süveyş kanalına işarə etdiyini söyləmək mümkündür. Şirin sulardan inci və mərcan çıxma

19. Fürqan, 25/53.
20. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 204.

ehtimalı zəif olduğuna görə bu ayəni bu cür izah etmək daha məqsədəuyğundur.

- Ayədəki “yan-yana duran iki dəniz” göy dənizi ilə yer dənizidir. Göy dənizi ilə buludlar, yer dənizi ilə də yer üzündəki su hövzələri nəzərdə tutulmuşdur.[21]

İki müxtəlif su hövzəsinin bir-birinə qarışmayaraq öz tərkibini mühafizə etməsi heç şübhəsiz ki, Allahın qüdrətinin təzahürlərindəndir. Çünki hər iki hövzədə müxtəlif bitki və heyvanların mövcud olması insanların qida və məişət ehtiyatlarının çeşidli olmasına gətirib çıxarır. Elə isə ey insanlar! Uca Allahın sizin üçün yaratdığı bu imkanlar qarşısında Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

يَخْرُجُ مِنْهُمَا اللُّؤْلُؤُ وَالْمَرْجَانُ ﴿٢٢﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٢٣﴾

22. Hər ikisindən də inci və mərcan çıxar.

23. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Allah-Təala insan üçün torpaqdan növbənöv bitkilər yetişdirdiyi kimi, sudan da inci və mərcan çıxardır. Ayədəki həm duzlu, həm də şirin sudan inci və mərcanın çıxmasına

21. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 97.

etiraz edənlər olmuşdur. Çünki inci və mərcan şirin sudan deyil, duzlu sulardan çıxır. Mövdudi bu etiraza belə cavab vermişdir: “Bilindiyi kimi dənizlərdə həm duzlu sular, həm də şirin sular toplanır. Bu səbəblə də “iki dəniz” ifadəsi ilə bunun qəsd olunması mümkündür. Əgər inci və mərcanın dənizin altında həm duzlu, həm də şirin suların qaynadığı yerlərdən çıxdığı kəşf olunarsa, buna təəccüb olunmamalıdır. Necə ki, Bəhreyn inci və mərcanın çıxdığı ən qədim yerlərdəndir. Orada dənizin altında şirin su mənbələrinin olduğu hər kəsə məlumdur”.[22]

Bu qədər qiymətli əşyaları yaradaraq insanın istifadəsinə verməsi Allahın insana verdiyi dəyərin təzahürüdür. Ən mükəmməl surətdə yaratdığı insana gözəllikdən zövq alma duyğusunu verməklə yanaşı, zövq alacağı gözəl əşyaları da yaratması Onun şanının ucalığındandır. Elə isə ey insan! Rəbbinin hansı nemətini inkar edə bilərsən?!

وَلَهُ الْجَوَارِ الْمُنْشَاٰتُ فِى الْبَحْرِ كَالْاَعْلَامِ ﴿٢٤﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٢٥﴾

24. Dənizdə uca dağlar kimi üzən gəmilər də Onundur.

25. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

22. Mövdudi, “Təfhimül-Quran”, VI, 76.

Təfsiri:

Bu ayədə dənizdəki gəmilər dağlara bənzədilmişdir. Ayədə gəmilərin bir nemət olaraq qeyd olunmasının izahı belədir ki, gəmilər Allahın qüdrətinin bir təzahürüdür. Uca Allah insanlara gəmilər vasitəsilə dənizlərdə üzmək, inci və mərcan kimi dənizlərdən çıxartdıqları əşyaları onlarda daşımağa imkan vermişdir. İnsanların gəmiləri düzəltmək üçün istifadə etdikləri ləvazimatları da Allah yaratmışdır. Bundan əlavə, gəmilərin suyun üzərində üzməsi Allahın qoyduğu təbiət qanunun nəticəsində mümkündür. Elə isə ey insanlar! Allahın sizə bəxş etdiyi hansı nemətlərini inkar edə bilərsiniz?!

كُلُّ مَنْ عَلَيْهَا فَانٍ ﴿٢٦﴾ وَيَبْقَىٰ وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ
وَالْإِكْرَامِ ﴿٢٧﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٢٨﴾

26. Yer üzündəki hər kəs fanidir.

27. Əzəmətli və kərəm sahibi Rəbbinin zatı isə əbədidir.

28. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Öncəki ayələrdə bir çox dünya neməti xatırladıldıqdan sonra, burada bütün bu nemətlərin müvəqqəti olduğu, tək olan, əzəmətli və kərəm sahibi Allahdan başqa həyat sahibi

bütün canlıların yox olub gedəcəyi bildirilir. Uca Allah bu ayələrdə insanlara məxluqatın faniliyini xatırladaraq, onlara bəxş olunan nemətlərə görə təkəbbürlənməmələrini və tək olan Rəbbi unutmamalarını bildirir. Kim Allahın mülkündə əlindəki nemətlərə görə təkəbbürlənərsə, dili ilə söyləməsə belə əməlləri ilə Rəbbini inkar etmiş olar.

يَسْـَٔلُهُۥ مَنْ فِى السَّمٰوٰتِ وَالْاَرْضِ ۗ كُلَّ يَوْمٍ هُوَ فِى شَأْنٍ ۚ
﴿٢٩﴾ فَبِاَيِّ اٰلَاۤءِ رَبِّكُمَا تُكَذِّبٰنِ ﴿٣٠﴾

29. Göylərdə və yerdə kim varsa, hamısı Ondan istəyir. O hər gün (hər an) **bir işdədir.**

30. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Göylərdə və yerdə kim varsa, hamısı Ona möhtacdır. Uca Allah bir ayədə bu barədə belə buyurur: “**Ey insanlar! Allaha möhtac olan sizsiniz. Allah isə heç bir şeyə möhtac deyil, hər cür tərifə layiqdir**”.[23] Buna görə də bütün canlılar dil ilə və ya hal ilə Ondan yardım və ruzi istəyərlər. Uca Allah hər an bir işdədir. Bir günahı bağışlayar, bir sıxıntını ortadan qaldırar, bir qövmü yüksəldər, bir qövmü alçaldar, zəngini kasıb, kasıbı zəngin edər. Biri

[23] Fatir, 35/15.

ölərkən biri dünyaya gələr, biri xəstə olarkən digəri sağalar, biri batarkən biri qurtular, xülasə, hər an aləm Allahın əmri ilə dəyişməkdədir.

سَنَفْرُغُ لَكُمْ اَيُّهَ الثَّقَلَانِ ﴿٣١﴾ فَبِاَيِّ اٰلَاۤءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٣٢﴾

31. Ey ağır yükü olan (insan və cin tayfası)**! Sizə də** (haqq-hesab üçün) **vaxt ayıracağıq.**

32. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Ayənin “سنفرغ لكم/**sizə də vaxt ayıracağıq**” şəklində tərcümə olunan qismində keçən “سنفرغ لكم” ifadəsi ərəblər arasında işlənən bir məsəldir. Ərəblər bu sözü bir kimsəni təhdid etmək üçün işlədirlər. Yəni bu sözün mənası “sənd dən intiqam almaq üçün məni məşğul edən hər şeyi bir kənara qoyacağam” deməkdir. Ayədə də bu söz ərəb dilinin quruluşuna uyğun olaraq təhdid mənasını daşıyır.[24] Yoxsa Allah-Təala üçün vaxt ayırmaq deyilən bir şey ola bilməz. Allah hər an hər şeyi etməyə qadirdir. Yəni Uca Allah bu ifadə ilə insan və cin topluluqlarını təhdid edərək, haqq-hesab üçün Onun hüzuruna gələcəklərini xatırladır.

24. Sabuni, “Səfvətüt-təfasir”, III, 279.

Ayədəki “الثقلان/əs-səqalən” kəlməsi ilə insanlar və cinlər nəzərdə tutulur. Allah-Təala məsuliyyət daşıyan bu iki qrupa xitab edərək, onları axirət əzabına qarşı xəbərdar edir. Hər şey yox olub dünya səhifəsi bağlandıqdan və axirət səhifəsi açıldıqdan sonra, məxluqatın dünyaya aid işləri bitəcək, sadəcə, hesaba çəkmə, cəzalandırma və ya mükafatlandırma qalacaqdır. Bu səbəblə də bu ayədə günahkar insan və cin topluluqlarına Allahdan çəkinmələri üçün ciddi bir ilahi təhdid vardır.[25]

Ey insan və cin topluluğu! Mənim sizə verdiyim nemətlərə qarşı nankorluq edirsiniz. Qiyamət günü sizdən bunun hesabı soruşulduğu vaxt hansı nemətlərimi inkar edə biləcəksiniz?!

يَا مَعْشَرَ الْجِنِّ وَالْاِنْسِ اِنِ اسْتَطَعْتُمْ اَنْ تَنْفُذُوا مِنْ اَقْطَارِ السَّمٰوَاتِ وَالْاَرْضِ فَانْفُذُوا ؕ لَا تَنْفُذُوْنَ اِلَّا بِسُلْطَانٍ ۚ ﴿٣٣﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٣٤﴾

33. Ey cin və insan tayfası! Əgər göylərin və yerin hüdudlarını keçib getməyə gücünüz çatırsa, keçin! Qüdrətiniz olmadan əsla keçə bilməzsiniz.

34. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

25. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 729.

Təfsiri:

Allah-Təala insanları və cinləri hesaba çəkdiyi zaman onların heç birinin Onun mülkündən və səltənətindən qaçması mümkün deyildir. Bu səbəbdən də Uca Yaradan onların acizliyinə diqqət çəkərək ayədə: **“Ey cin və insan tayfası! Əgər göylərin və yerin hüdudlarını keçib getməyə gücünüz çatırsa, keçin!”** - buyurmuşdur. Lakin bu bir həqiqətdir ki, nə insanlar, nə də cinlər onun mülkündən kənara əsla çıxa bilməzlər. Bu ayə insan və cin tayfasını Allahın bəxş etdiyi dünya həyatını layiq olduğu şəkildə dəyərləndirməyə təşviq edir, Allahın onlara verdiyi bu fürsəti fövtə verməməli olduğunu xatırladır. Çünki ölümdən və Allahın hüzurunda veriləcək hesabdan əsla qaçış yoxdur.

Bəzi təfsirçilər bu ayəni “göylərin və yerin sərhədlərini keçib getmək ancaq Allahın lütf edəcəyi imkan ilə mümkündür” şəklində izah etmişlər. Ayə bu şəkildə izah olunduğu təqdirdə insan və cinlərin sərf edəcəkləri cəhd nəticəsində əldə edəcəkləri güc və Allahın iradəsi ilə kainatın müəyyən sərhədlərinə qədər getmələri mümkün olacaqdır şəklində bir məna ortaya çıxır.[26] Bundan əlavə, bu izah insan və cin tayfasını bu yöndə çalışmalarını artırmağa yönəldir. Ən doğrusunu Allah bilir.

Onun mülkündən və səltənətindən çıxma imkanınız olmadığı halda Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz!?

[26.] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 208.

يُرْسَلُ عَلَيْكُمَا شُوَاظٌ مِنْ نَارٍ وَنُحَاسٌ فَلَا تَنْتَصِرَانِ ﴿٣٥﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٣٦﴾

35. Sizin üstünüzə tüstüsüz alov və ərimiz mis (və ya tüstü) **göndəriləcək və siz bir-birinizə kömək edə bilməyəcəksiniz.**

36. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Əgər insan və cin tayfası Allahın qoyduğu hüdudlardan keçib qaçmağa çalışsalar, onların üzərlərinə tüstüsüz alov və ərimiş mis göndərilər, bu alov və tüstü onları bürüyərək qaçmalarına mane olar. Alov onları yandırar, tüstü isə boğar. Bu ayə insanların və ya cinlərin birləşərək Allahın qoyduğu kainat sərhədlərini keçməyə cəhd etmək istəsələr belə, bunun qeyri-mümkün olacağına işarə edir.

فَإِذَا انْشَقَّتِ السَّمَاءُ فَكَانَتْ وَرْدَةً كَالدِّهَانِ ﴿٣٧﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٣٨﴾

37. Göy yarılıb dağ edilmiş yağ (yaxud ərimiş qurğuşun) **kimi qıpqırmızı olacaqdır.**

38. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Bu ayədə qiyamət günü göyün qapılarının açılacağı və bütün kainatın nizamının pozulacağı qeyd olunur. Ayədə göyün dağ edilmiş yağ kimi qıpqırmızı olacağının ifadə edilməsi o gün göyün alov rəngində görünəcəyinə diqqət çəkmək üçündür.

Ey insan və cin tayfası! Siz indi qiyamətin olacağına inanmırsınız. Ancaq qiyamət olduğu zaman bunu öz gözlərinizlə görəcək və sonra baxaq görək bunu yalanlaya biləcəksinizmi?!

فَيَوْمَئِذٍ لَا يُسْـَٔلُ عَنْ ذَنۢبِهِۦٓ إِنسٌ وَلَا جَآنٌّ ﴿٣٩﴾ فَبِأَيِّ
ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٤٠﴾ يُعْرَفُ ٱلْمُجْرِمُونَ بِسِيمَٰهُمْ
فَيُؤْخَذُ بِٱلنَّوَٰصِى وَٱلْأَقْدَامِ ﴿٤١﴾ فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا
تُكَذِّبَانِ ﴿٤٢﴾

39. O gün insana da, cinə də günahı soruşulmaz.

40. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

41. Günahkarlar simalarından tanınar, kəkillərindən və ayaqlarından yaxalanarlar.

42. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

39-cu ayədə insan və cinlərdən günahlarının soruşulmayacağı vurğulanmışdır. Çünki Uca Allah onların günahlarını tək-tək təsbit etmiş, mələklər yazmış, şahidlər şahidliklərini etmiş, əməllər tərəzidə çəkilmiş və nəticə ortaya çıxmışdır. Odur ki, günahkarlar heç bir əlavə sorğu-suala ehtiyac qalmadan üzlərindən açıq-aydın tanınacaqlar. Bundan sonra onlar zəbanilər tərəfindən yaxalanaraq cəhənnəmə atılacaqlar. Zəbanilər dünyada ikən günah etməkdə heç bir tərəddüd etməyən bu günahkarların əllərini, qollarını uzun dəmir zəncirlərə vurub[27] kəkillərindən və ayaqlarından tutub cəhənnəmə atacaqlar.[28]

هٰذِهِ جَهَنَّمُ الَّتِى يُكَذِّبُ بِهَا الْمُجْرِمُونَ ﴿٤٣﴾
يَطُوفُونَ بَيْنَهَا وَبَيْنَ حَمِيمٍ اٰنٍ ﴿٤٤﴾ فَبِاَيِّ اٰلَآءِ
رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٤٥﴾

43. Bu, günahkarların yalanladıqları cəhənnəm odudur!

44. Onlar odla qaynar su arasında dolaşıb durarlar.

45. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

[27] Haqqə, 69/32.
[28] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, IV, 732.

Təfsiri:

Cəhənnəmdəkiləri qınamaq məqsədi ilə onlara: “Bu sizin yalanladığınız cəhənnəmdir! Baxın, o buradadır. Onu görürsünüz”, - deyilər. Onlar orada susadıqca bulaqlara doğru qaçacaq, ancaq orada qaynar sudan başqa heç nə tapa bilməyəcəklər. Məcbur qalıb o qaynar sudan içəcəklər, lakin içdikcə daha da susayacaqlar. Beləliklə, cəhənnəm odu ilə qaynar sulu bulaqlar arasında dönüb dolaşacaqlar. Ey Allahı inkar edən kafirlər! O vaxt gəldiyi zaman siz yenə “Allah qiyamət gününü qoparmayacaq, cənnət və cəhənnəm yoxdur” - deyə biləcəksinizmi?!

وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِۦ جَنَّتَانِ ﴿٤٦﴾ فَبِأَيِّ ءَالَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٤٧﴾

46. Rəbbinin hüzurundan (Ona hesab verməkdən) **qorxanlar üçün iki cənnət vardır.**

47. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Uca Allah əvvəlki ayələrdə cəhənnəm əhlinin halını anlatdıqdan sonra, buradan etibarən itaətkar möminlər üçün hazırladığı cənnətləri təsvir edir. Cəhənnəmliklər ilə cənnətliklərin aqibətinin müqayisəli şəkildə bu surədə göstərilməsi düşünən və ibrət almaq istəyənlər üçün böyük bir dərsdir.

Cəza və mükafata dair ayələri bir yerdə görmək cənnətliklər ilə cəhənnəmliklər arasındakı fərqi daha aydın anlamaq baxımından diqqətçəkicidir.

Rəbbinin cəlalından və ya qiyamət günü Onun hüzuruna çıxıb hesab verməkdən qorxan kimsə üçün iki cənnət vardır. Bu iki cənnətin nə olduğu haqqında fərqli fikirlər səsləndirilmişdir. Bu fikirlərdən bəziləri bunlardır:

- Biri insanlar, digəri cinlər üçün olan cənnət.

- Biri Allahın əmrlərini yerinə yetirmək və saleh əməllər işləməyin, digəri isə Allahın qadağan etdiklərindən çəkinməyin müqabilində verilən cənnət.

- Biri insanın haqqı, digəri isə Allahın mükafatı olaraq verilən cənnət.

- Biri maddi, digəri isə mənəvi cənnət.

- Biri Ədn, digəri isə Nəim cənnəti.[29]

ذَوَاتَآ اَفْنَانٍ ﴿٤٨﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٤٩﴾

48. Hər ikisində də növbənöv ağaclar vardır.

49. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Ayədə keçən “أفنان/əfnan” kəlməsinin “incə və yumuşaq budaq” mənasına gəldiyini söyləyənlər olduğu kimi, “növ,

[29] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 213.

çeşid” mənasına gəldiyini söyləyənlər də olmuşdur. Budaqlar yaşıllanıb meyvə əmələ gəldiyi və eyni zamanda kölgə əmələ gətirdiyi üçün ayədə xüsusilə bu kəlmə qeyd olunmuşdur.[30]

فِيهِمَا عَيْنَانِ تَجْرِيَانِ ۝٥٠ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ۝٥١

50. İkisində də iki axar bulaq vardır.

51. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Bu iki bulaq ağacları və bitkiləri sulamaq üçün mütəmadi olaraq axar. Bu bulaqların suladığı bitkilər və ağaclar rəngarəng meyvələr yetişdirər. Həsən əl-Bəsri (r.a) bulaqlardan birinin adının Təsnim, digərinin adının isə Səlsəbil olduğunu nəql etmişdir.[31]

فِيهِمَا مِنْ كُلِّ فَاكِهَةٍ زَوْجَانِ ۝٥٢ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ۝٥٣

52. İkisində də hər meyvədən iki növ vardır.

53. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

30. Sabuni, “Səfvətüt-təfasir”, III, 282.
31. İbn Kəsir, “Müxtəsərü -təfsiri İbn Kəsir”, II, 422.

Təfsiri:

Hər meyvənin həm yaşı, həm qurusu, həm dünyada bilinəni, həm də bilinməyəni vardır. İbn Abbas bu ayənin təfsirində dünyada olan bütün meyvələrin cənnətdə olacağını deyir.[32]

مُتَّكِـِٔينَ عَلَىٰ فُرُشٍۭ بَطَآئِنُهَا مِنْ اِسْتَبْرَقٍۗ وَجَنَا الْجَنَّتَيْنِ
دَانٍۚ ﴿٥٤﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٥٥﴾

54. (Cənnət əhli) **astarları atlazdan olan döşəklərə söykənəcəklər. Hər iki cənnətin meyvələri**(dərə bilmələri üçün onlara) **yaxın olacaqdır.**

55. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Astarları atlazdan olan döşəklərin üzünün gözəlliyini təsəvvür belə etmək mümkün deyil. Bunlar Uca Allahın cənnət əhli üçün hazırladığı nemətlərdir. Allah Təala: **“Əməllərinin mükafatı olaraq onlar üçün göz aydınlığı olacaq nələr saxlandığını heç kim bilmir”**,[33] - buyurmaqla cənnət nemətlərinin heyranediciliyinə işarə etmişdir.

---

32. Sabuni, “Səfvətüt-təfasir”, III, 282.
33. Səcdə, 32/17.

Hər iki cənnətin dəymiş meyvələri cənnət əhlinə yaxınlaşdırılar. Ağaclar onlara o qədər yaxın olar ki, onlar istəsələr ayaq üstə, istəsələr oturarkən, hətta uzanmış halda belə onun meyvələrindən yeyə bilərlər. Bu mövzu “İnsan” surəsində belə təsvir olunur: **“Oranın kölgələri onlara yaxınlaşacaq, meyvələri də onların tam ixtiyarına veriləcək”**.[34]

قَاصِرَاتُ الطَّرْفِ لَمْ يَطْمِثْهُنَّ اِنْسٌ قَبْلَهُمْ وَلَا جَآنٌّ ۚ ﴿٥٦﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ۚ ﴿٥٧﴾ كَاَنَّهُنَّ الْيَاقُوتُ وَالْمَرْجَانُ ۚ ﴿٥٨﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٥٩﴾

56. Orada gözləri ərlərindən başqasını görməyən qızlar vardır. Bundan əvvəl onlara nə bir insan, nə də bir cin toxunmuşdur.

57. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

58. Onlar sanki yaqut və mərcandırlar.

59. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

34. İnsan, 76/14.

Təfsiri:

Ayədə cənnətdəki qızlar haqqında keçən “قاصرات الطرف/ qasiratüt-tərf” ifadəsi “ərlərindən başqasını görməyən” şəklində izah olunduğu kimi, “baxan kimsənin diqqətini özünə cəlb edən” şəklində də açıqlanmışdır. Bu qızlar gözəllikdə yaqut və mərcan kimidirlər. Bir hədisi-şərifdə Rəsulullah (s.ə.s) cənnətdəki qızlar haqqında belə buyurmuşdur: “*Cənnət qızlarından biri dünyaya bir dəfə baxsa, yer ilə göy arasını həm öz gözəlliyi ilə aydınladar, həm də gözəl qoxusuyla ətrafa ətir saçar. Onun başındakı örpək dünyadan və dünyadakı hər şeydən daha dəyərlidir*”.[35]

هَلْ جَزَآءُ الْاِحْسَانِ اِلَّا الْاِحْسَانُ ﴿٦٠﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٦١﴾

60. Yaxşılığın əvəzi ancaq yaxşılıqdır!

61. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Dünyada yaxşı əməl sahibi olanın axirətdəki mükafatı gözəl olacaqdır. Yəni dünyada nəfsini Allah üçün haramlardan qoruyan və Allah yolunda bir çox məşəqqətlərə səbir edən kimsənin dünyadakı bu əməllərinin müqabilində Uca Allah onu mükafatlandıracaqdır. Buradan aydın olur

35. Buxari, “Cihad”, 6.

ki, Rəbbin hüzurundan qorxmağın mənası “ehsan” ilə əməl etməkdir. Ehsan isə Allahı görürmüş kimi ibadət etməkdir. Hərçənd ki, biz Onu görmürük lakin, O bizi görür.[36]

وَمِنْ دُونِهِمَا جَنَّتَانِ ﴿٦٢﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٦٣﴾

62. O ikisindən əlavə iki cənnət də vardır.

63. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Ayədə keçən “دونهما/dunihima” kəlməsinin lüğətdə bir neçə mənası var: “aşağı”, “alçaq”, “dəyəri daha az” və “bir şeyə əlavə”. Bu mənaları nəzərə aldıqda ayədə bəhs edilən iki cənnətin öncəki iki cənnətdən daha aşağı olduğu və ya Rəbbinin hüzurundan qorxanlara öncəki iki cənnətə əlavə olaraq iki cənnətin də veriləcəyi başa düşülür.

Bu iki cənnət “sabiqun” və “müqərrəbun” deyə adlandırılan, dünyada iman və saleh əməllərdə önə keçən və Allaha yaxınlaşan bəndələr üçün hazırlanmışdır. Bu ayədə bəhs edilən “iki cənnət” isə dərəcə baxımından öncə qeyd olunan iki cənnətdən aşağıda olub “əshabi-yəmin” və ya “əshabi-məymənə” olaraq adlandırılan ikinci dərəcəli mömin bəndələr üçün hazırlanmışdır. Ən doğrusunu Allah bilir.

36. Buxari, “İman”, 37, (50); Müslim, “İman”, 5.

مُدْهَآمَّتَانِ ﴿٦٤﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٦٥﴾

64. Hər ikisi yamyaşıldır.

65. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Ayədə keçən “مدهمتان/müdhəmmətan” kəlməsi “tünd yaşıl” mənasına gəlir. Bu tündlük ağacların sıxlığından yaranan tündlükdür. Bu da hər iki cənnətdə sıx ağacların olduğuna işarə edir.

فِيهِمَا عَيْنَانِ نَضَّاخَتَانِ ﴿٦٦﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٦٧﴾

66. O ikisində fışqıran iki bulaq vardır.

67. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

O iki cənnətdə mütəmadi olaraq suyu fışqıran iki bulaq vardır. Su fışqırdan bu iki bulağı dünyada gördüyümüz şəlalə və ya fəvvarə kimi təsəvvür etmək mümkündür.

فِيهِمَا فَاكِهَةٌ وَنَخْلٌ وَرُمَّانٌ ﴿٦٨﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٦٩﴾

68. İkisində də hər cür meyvə, xurma və nar vardır.

69. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Ayədə meyvə kəlməsindən sonra xurma və narın xüsusi olaraq qeyd olunması hər iki meyvənin meyvə kimi istifadə olunmasından əlavə, eyni zamanda, dərman kimi də istifadə olunmasına görədir.[37]

فِيهِنَّ خَيْرَاتٌ حِسَانٌ ﴿٧٠﴾ فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٧١﴾

70. Orada xoşxasiyyətli və gözəl simalı qadınlar vardır.

71. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Xoşxasiyyətli və gözəl simalı qadınlar incidən hazırlanmış çadırlarında örtüklərinin içində qalarlar və çölə çıxmaz-

37. Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 112.

lar. Onlar belə deyərlər: “Biz dəyərli zövcələrimiz üçün yaradılmış və seçilmiş gözəl qadınlarıq”.[38]

حُورٌ مَقْصُورَاتٌ فِى الْخِيَامِ ﴿٧٢﴾ فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا
تُكَذِّبَانِ ﴿٧٣﴾ لَمْ يَطْمِثْهُنَّ اِنْسٌ قَبْلَهُمْ وَلَا جَآنٌّ ﴿٧٤﴾
فَبِاَيِّ اٰلَآءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٧٥﴾

72. Çadırlarda gözləri ərlərindən başqasını görməyən hurilər vardır.

73. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

74. Onlara bundan əvvəl nə bir insan, nə də bir cin toxunmuşdur.

75. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Bu ayələr burada təkrarlanır. Belə ki, 56-cı ayə ərəbcəsində müəyyən fərqliliklər olmaqla yanaşı buradakı ayələrlə eyni mənaya gəlir. Ayə belədir: **“Orada gözləri ərlərindən başqasını görməyən qızlar vardır. Bundan əvvəl onlara nə bir insan, nə də bir cin toxunmuşdur”**.

Qadınların bu şəkildə çadırlarında qalaraq insanların arasında gəzib dolaşmamaları onlar üçün bir üstünlük

[38] İbn Kəsir, “Müxtəsərü təfsiri İbn Kəsir”, II, 424.

əlamətidir. 70-ci ayədə qeyd olunan gözəl simalı qadınlar ilə dünyada iman üzrə yaşayıb dünyasını dəyişən qadınlar, 73-cü ayədəki hurilər ilə isə Allahın cənnətdə yaradacağı qadınlar nəzərdə tutulmuş ola bilər.[39] Dünya qadınları və hurilər haqqında Ümmü Sələmənin (r.ənha) Rəsulullahdan (s.ə.s) rəvayət etdiyi hədis diqqət çəkir. Bir gün Ümmü Sələmə (r.ənha) Allah Rəsulundan: “Ya Rəsuləllah! Dünyadakı qadınlar üstündür, yoxsa cənnətdəki hurilər?” - deyə soruşmuş, Rəsulullah (s.ə.s): “*Üzün astara olan üstünlüyü kimi dünya qadınları da cənnətdəki hurilərdən üstündur*”, - buyurmuşdur. Ümmü Sələmə bunun səbəbini soruşduqda Allah Rəsulu (s.ə.s) belə buyurmuşdur: “*Dünyadakı qadınlar namaz qıldıqları, oruc tutduqları və Allaha bir çox ibadətlər etdikləri üçün üstündürlər*”.[40]

مُتَّكِـِٔينَ عَلَىٰ رَفْرَفٍ خُضْرٍ وَعَبْقَرِيٍّ حِسَانٍ ﴿٧٦﴾

فَبِأَيِّ آلَاءِ رَبِّكُمَا تُكَذِّبَانِ ﴿٧٧﴾

76. (Cənnət əhli) **yaşıl mütəkkələrə və gözəl naxışlı döşəkcələrə söykənəcəklər.**

77. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!

Təfsiri:

Bu ayədə keçən “عبقري/əbqəri” kəlməsi Yəmənin Əbqər bölgəsinə nisbət olunan bir addır. Ora gözəl naxışlı xalçaları

39. Mövdudi, “Təfhimül-Quran”, VI, 87.
40. Təbərani, “Möcəmül-kəbir”, XXIII, 367.

və döşəkçələri ilə məşhur olan bir bölgə olmuşdur. Ayədə həmin bölgəyə nisbət olunan döşəkçələr qeyd olunmaqla o iki cənnətin insan zehnində təsəvvür olunması asanlaşdırılmışdır. Digər bir izaha görə isə, “əbqəri” kəlməsi ərəb əfsanələrində cinlər ölkəsinə verilən addır. Buna görə də ərəblər heyrətamiz bir şey gördükləri zaman bu ifadəni işlədərlər.

تَبَارَكَ اسْمُ رَبِّكَ ذِى الْجَلَالِ وَالْإِكْرَامِ ﴿٧٨﴾

78. Əzəmət və kərəm sahibi olan Rəbbinin adı çox ucadır!

Təfsiri:

Surənin əvvəlindən sonuna qədər Uca Allahın rəhməti, mərhəməti, qüdrəti və əzəmətinin təzahürləri sayılmışdır. Bütün bu nemətləri xəlq edən əzəmət və kərəm sahibi Allahın adı çox ucadır. O, təqva sahibi olan bəndələrinə Öz kərəmi ilə ikram edərkən, Öz cəlalı ilə də nankorları cəzalandıracaqdır. Rəsulullah (s.ə.s): “*Ya Zəl-cəlali vəl-ikram (Ey sonsuz əzəmət və kərəm sahibi Allahım!) deyərək dualarınıza davam edin!*” - buyurmuşdur.[41] Alimlər bu rəvayəti əsas alaraq Allahın burada keçən “Zül-cəlali vəl-ikram” adını söyləyərək dua etməyi tövsiyə etmişlər. Beləliklə, Allah-Təalanın Rəhman adıyla başlayan surə, əzəmət və kərəm sahibi Rəbbimizin adının çox uca olduğunu vurğulamaqla sona çatır.

41. Tirmizi, “Dəəvat”, 92.

سُورَةُ الْمُلْكِ

“MÜLK” SURƏSİ

Qurandakı sırası:	67
Nazil olduğu yer:	Məkkə
Ayələrin sayı:	30
Kəlmələrin sayı:	337
Hərflərin sayı:	1316

سُورَةُ الْمُلْكِ

“MÜLK” SURƏSİ

Adı:

Mülk: Surənin adı ilk ayəsindəki “malik olmaq, hökmk ranlıq” kimi mənalara gələn “الْمُلْك/əl-mülk” kəlməsindən götürülmüşdür. Eyni zamanda bu surə “تَبَارَكَ /təbarəkə” kəlməsi ilə başladığı üçün “Təbarəkə” surəsi kimi də adlandırılmışdır. Digər tərəfdən, bu surəni oxuyanların qəbir əzabından qorunacağına dair varid olan rəvayətlərə görə, surəyə “**Vaqiyə (Qoruyucu)**, “**Münciyə (Qurtarıcı)**, **Maneə (Əngəl olan)** və **Mücadilə (Mübarizəçi)”** kimi adlar da verilmişdir. Lakin Qurani-Kərimlə əlaqəli mənbələrdə surənin daha çox “Mülk” şəklində adlandırıldığı görülür.

Ehtiva etdiyi mövzular:

“Tur” surəsindən sonra, “Haqqə” surəsindən əvvəl Məkkə şəhərində nazil olan “Mülk” surəsində ümumi olaraq Allah-Təalanın üstün qüdrəti, əzəməti, kainatdakı hökmranlığı, tək ilah və tək yaradan olduğu, ölüm və həyatın hikməti haqqında bəhs olunur. Xüsusilə, burada Uca Allahın kainatda təcəlla edən qüdrəti ilə bağlı dəlillərə diqqət çəkilərək, insan oğlunun ilahi vəhyin xəbərdarlığına nə qədər möhtac olduğuna və bunu inkar edənlərin necə ağır nəticələrlə qarşılaşacaqlarına dair mövzular yer alır.

Fəziləti:

Həzrət Peyğəmbərin (s.ə.s) “Mülk” surəsinin fəziləti ilə bağlı söylədiyi hədislərin birində belə buyurulmuşdur: *“Qurani-Kərimdə otuz ayəlik bir surə vardır ki, bu surə onu oxuyan kimsəyə şəfaət edər və onun günahı bağışlanar. Bu, “Təbərakəlləzi biyədihil-mülk” surəsidir”*.[1] Digər bir hədisdə: *“Mülk” surəsi qəbir əzabına qarşı bir qoruyucu və qurtarıcıdır, insanı qəbir əzabından xilas edər”*, - deyə ifadə edilmişdir.[2] Buna görə də cənazələrin arxasından bu surənin oxunması geniş vüsət almışdır. Eyni zamanda, hədisdən bu surəni oxuyub əməl edən kimsənin qəbir əzabına səbəb olan günahlardan çəkinəcəyi təqdirdə qəbir əzabından xilas olacağını anlamaq da mümkündür.[3] Başqa bir hədisdə isə, Həzrət Peyğəmbərin (s.ə.s) “Səcdə” surəsi ilə bərabər “Mülk” surəsini oxumadan istirahətə çəkilmədiyi və ya yatmadığı bildirilir.[4]

1. Əbu Davud, “Ramazan” 10; Tirmizi, “Fəzailül-Quran”, 9.
2. Tirmizi, “Fəzailül-Quran”, 9.
3. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 341.
4. Tirmizi, “Fəzailül-Quran”, 9.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim olan Allahın adı ilə!

تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ ﴿١﴾

الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا ۚ وَهُوَ الْعَزِيزُ الْغَفُورُ ﴿٢﴾

1. Hökmranlıq əlində olan Allah nə qədər ucadır! O, hər şeyə qadirdir.

2. O, hansınız daha yaxşı əməl edəcək deyə sizi sınamaq üçün ölümü və həyatı yaratdı. O, qüdrətlidir, bağışlayandır.

Təfsiri:

Surənin xülasəsi mahiyyətində olan bu ayələrin ilkində Allahın ucalığı, qüdrəti, kainatdakı hökmranlığı, hər şeyin Onun əlində olduğu və istədiyi şəkildə idarə etdiyi ifadə edilmiş, sonrakı ayələrdə isə Onun qüdrətini əks etdirən misallar verilmişdir.

Surənin 2-ci ayəsində isə Allah-Təalanın qüdrətini və xüsusiyyətini açıq-aydın göstərən bir çox dəlillər olduğu bildirilir. Belə ki, Allahın dünyada insanların yaxşı əməllər işləməsi baxımından bir-birləri ilə rəqabətini təmin etmək, kimlərin əmr və qadağalara tabe olaraq daha yaxşı əməllər işləyəcəyini ortaya çıxarmaq üçün həyatı və ölümü yaratdığı

bildirilmişdir.[5] Göründüyü kimi Allah-Təala ölümü və həyatı hikmətsiz və boş yerə deyil, dünyada insanları imtahan etmək üçün təqdir etmişdir. İmtahandan məqsəd isə, insan oğluna bu dünyada bəxş edilən nemətlərdən kimin ən düzgün şəkildə istifadə edərək yaxşı əməllər işləyəcəyini sınamaqdır.[6] İmtahan edən Allah-Təala olduğuna görə, soruşulan sualların mahiyyətini və bunlara veriləcək cavabların düzgünlüyünü ən yaxşı bilən də Odur. Elə isə bəndənin bu imtahanı uğurla keçməsi üçün Allah dərgahında nəyin yaxşı və nəyin pis olduğunu, hansı əməlin qəbul edilib hansı əməlin qəbul edilmədiyini dərk etməsi və ona görə davranması lazımdır. Deməli, Uca Allah imtahanın müsbət və ya mənfi nəticələrinə görə bəndələrinə mükafat və ya cəza verəcəkdir.[7]

Digər tərəfdən, eyni ayənin içərisində əvvəl ölümdən, sonra isə həyatdan bəhs edilməsi təfsirçilər arasında fikir ayrılığına səbəb olmuşdur. Belə ki, təfsirçilərin bir qismi ayədəki ardıcıllığı nəzərə alaraq “ölüm”dən məqsədin dünya həyatından axirət həyatına keçid halı, “həyat”dan məqsədin isə axirət həyatı olduğunu ifadə etmişlər.[8] Digər bir qismi isə “ölüm”lə dünya həyatından axirət həyatına keçid halının, “həyat”la da dünya həyatının qəsd edildiyi fikrindədirlər.[9] Onu da qeyd etmək lazımdır ki, həyat da,

5. Razi, “Məfatihül-qeyb”, XXX, 55; Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 5159.
6. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 186.
7. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 186.
8. Razi, “Məfatihül-qeyb”, XXX, 55; Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 5159.
9. Zəməxşəri, “əl-Kəşşaf ən həqaiqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, IV, 134.

ölüm də imtahan üçün yaradılmışdır. Buna görə də hər ikisinin bu dünyada olması daha məqsədəuyğundur.[10]

اَلَّذِی خَلَقَ سَبۡعَ سَمٰوَاتٍ طِبَاقًا ؕ مَا تَرٰی فِی خَلۡقِ
الرَّحۡمٰنِ مِنۡ تَفَاوُتٍ ؕ فَارۡجِعِ الۡبَصَرَ ۙ هَلۡ تَرٰی مِنۡ فُطُوۡرٍ
﴿۳﴾ ثُمَّ ارۡجِعِ الۡبَصَرَ كَرَّتَيۡنِ يَنۡقَلِبۡ اِلَيۡكَ الۡبَصَرُ
خَاسِئًا وَّهُوَ حَسِيۡرٌ ﴿۴﴾

3. O, yeddi göyü təbəqələr şəklində yaratdı. Rəhman olan Allahın yaratmasında heç bir nizamsızlıq görə bilməzsən. Gözünü çevir bax, hər hansı bir nöqsan görə bilirsənmi?

4. Sonra gözünü çevirib təkrar bax! Göz (görmək istədiyi nöqsanı tapa bilməyib) **aciz və yorğun bir halda sənə dönəcəkdir.**

Təfsiri:

Bu ayələrdə kainatın nöqsansız yaradıldığına və kainatdakı nizam-intizama diqqət çəkilərək bu möhtəşəm nizamın boş bir təsadüflə yarana və davam edə bilməyəcəyi, bunun yalnız üstün bir elm, iradə və qüdrət sahibinin yaratması ilə mümkün olduğu ifadə edilmişdir. Burada, göylərin vəziyyətini göstərmək üçün “طِبَاق/tibaq” kəlməsi istifadə edilmiş-

[10] Bax: Razi, “Məfatihül-qeyb”, XXX, 55; Ateş, IX, 526-527.

dir ki, bu söz ərəb dilində “bir-birinə tam uyğun, bir-birinin üstündə” və yaxud “təbəqə-təbəqə, qat-qat” deməkdir. Ayədəki “التفاوت/ət-təfavüt” kəlməsi isə “uyğunsuzluq, ziddiyyət, ahəngsizlik, mütənasibsizlik” kimi mənalara gəlir. Allah-Təalanın qüdrət nişanələrindən biri də yeddi qat göyü yaratmasıdır. Bunu elə misli və bənzəri olmayan bir gözəllikdə, ahəng və harmoniya içərisində yaratmışdır ki, burada hər şey çox səliqəli, nizamlı və bir-biri ilə əlaqəli şəkildədir. Kainatda heç bir uyğunsuzluq, nizamsızlıq və qopuqluq yoxdur.[11]

“Gözünü döndər (bax)**...”** deyə tərcümə edilən ifadənin hərfi tərcüməsi **“Sonra gözünü iki dəfə döndər** (bax)**”** şəklindədir. Ayədəki bu ifadə çoxluqdan kinayə olub say olaraq iki dəfə deyil, dəfələrlə baxmağı bildirir.[12] Bu baxımdan insan kainatdakı bu tayı-bərabəri olmayan nizam içərisində hər hansı bir nöqsan, uyğunsuzluq, yarıq, boşluq və ya qopuqluq görmək üçün nə qədər baxmaq istəsə, baxsın, müasir texniki vasitələrlə nə qədər müşahidə aparmaq istəsə, aparsın, kainatda heç bir əskiklik və ya uyğunsuzluq görə bilməz. Belə bir axtarış edən göz, axtardığını tapa bilməməyin peşmançılığı ilə zəlil, yorğun və tükənmiş halda geri dönmək məcburiyyətində qalacaqdır.[13] Təbii ki, ilahi qüdrətin əzəmətini bir balaca olsun dərk edə bilmək üçün yeddi qat göyün sirlərini bilməyimiz mümkün deyildir.

11. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 187.
12. Bax: İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXIX,19-20.
13. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 188.

وَلَقَدْ زَيَّنَّا السَّمَآءَ الدُّنْيَا بِمَصَابِيحَ وَجَعَلْنَاهَا رُجُومًا لِلشَّيَاطِينِ وَاَعْتَدْنَا لَهُمْ عَذَابَ السَّعِيرِ ﴿٥﴾

5. Həqiqətən, Biz ən yaxın göyü qəndillərlə (ulduzlarla) **bəzədik və bunları şeytanları daşlama vasitəsi etdik. Onlar üçün alovlu od əzabı da hazırlamışıq.**

Təfsiri:

Yerə ən yaxın olan göy, ulduz və planet kimi cisimləri gözlə görə bildiyimiz dünya səmasıdır. Ondan o tərəfi isə ancaq teleskop və buna oxşar müasir alətlərin köməyi ilə görülə bilər. Hal-hazırda elmə məlum olduğuna görə fəza sistemi olduqca böyükdür. Belə ki, milyard illər əvvəl yaradılmasına baxmayaraq və saniyədə üç yüz min kilometr sürətlə hərəkət etdiyi halda hələ də işığı gəlib bizə çatmamış ulduzlar var. Təqribən iki yüz milyard qalaktika və hər qalaktikada da təqribən yüz əlli-iki yüz milyard planet mövcuddur.[14] Bir sözlə, bunlar ilahi qüdrətin insan ağlını heyrətə salan və izahı mümkün olmayan təcəllasıdır. Yerə ən yaxın göy isə Samanyolu qalaktikasıdır. Gözlə baxdığımızda orada hər biri qəndil kimi işıq saçan ulduzlar görərik. Bu ulduzların hər biri Günəşin xüsusiyyətlərinə malik göy cisimləridir.[15]

---

14. Burada, ulduzlar səmada səpələnmiş kimi göründüyünə görə səmanın qəndillərlə bəzədilməsindən bəhs edilmiş, ulduzlar gecələr qəndil kimi işıq saçdığına görə də onlara məcazi olaraq “qəndillər”, yəni “məsabih” deyilmişdir. (Bax: Təbəri, “Camiül-bəyan ən təvili ayil-Quran”, XXIX, 3).

15. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 188.

Ulduzlar vasitəsilə şeytanların daşlanmasından məqsəd isə göylərdəki mələklərin danışıqlarını dinləyib onlardan məlumat oğurlamaq istəyən şeytanların bu ulduzlardan çıxan parıltılı işıqlarla əngəllənməsidir. Çünki bu vəziyyət ərəblərin çox əhəmiyyət verdiyi kəhanətin əslində olmadığını və tamamilə yalan olduğunu bildirir. Həmçinin bu, kahinlərlə əlaqədə olan şeytanların mələklərdən qeybə dair məlumat əldə etmə imkanlarının olmadığını xəbər verir.[16] Mütəşabeh olan bu cür ayələrin mənaları ilə bağlı zamana, şərtlərə və elmi əsaslara görə müxtəlif fikirlər irəli sürmək mümkün olsa da, xüsusilə qeyb mövzularına aid ayələri şərh edərkən iddialı olmamaq lazımdır. Çünki qeyb aləminin mahiyyətini Allahdan başqa heç kim bilmir. Bütün bu həqiqətləri inkar edənləri isə qorxunc bir aqibət gözləyir.

وَلِلَّذِينَ كَفَرُوا بِرَبِّهِمْ عَذَابُ جَهَنَّمَ ۖ وَبِئْسَ الْمَصِيرُ ﴿٦﴾
إِذَا أُلْقُوا فِيهَا سَمِعُوا لَهَا شَهِيقًا وَهِيَ تَفُورُ ﴿٧﴾
تَكَادُ تَمَيَّزُ مِنَ الْغَيْظِ ۖ كُلَّمَا أُلْقِيَ فِيهَا فَوْجٌ سَأَلَهُمْ
خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ نَذِيرٌ ﴿٨﴾ قَالُوا بَلَىٰ قَدْ جَاءَنَا
نَذِيرٌ فَكَذَّبْنَا وَقُلْنَا مَا نَزَّلَ اللَّهُ مِنْ شَيْءٍ إِنْ أَنْتُمْ إِلَّا
فِي ضَلَالٍ كَبِيرٍ ﴿٩﴾ وَقَالُوا لَوْ كُنَّا نَسْمَعُ أَوْ نَعْقِلُ

16. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 189.

مَا كُنَّا فِىٓ اَصْحَابِ السَّعِيرِ ﴿١٠﴾ فَاعْتَرَفُوا بِذَنْبِهِمْۚ
فَسُحْقًا لِاَصْحَابِ السَّعِيرِ ﴿١١﴾

6. Rəbbini inkar edənlər üçün cəhənnəm əzabı vardır. O necə də pis bir dönüş yeridir!

7. Onlar cəhənnəmə atıldıqları zaman onun qaynayarkən çıxartdığı uğultunu eşidəcəklər.

8. Cəhənnəm az qala qəzəbindən çatlasın. Hər dəfə ora bir dəstə atıldıqda onun gözətçiləri: “Sizə xəbərdar edən bir peyğəmbər gəlməmişdimi?” - deyə onlardan soruşacaqlar.

9. Onlar belə deyəcəklər: “Bəli! Bizə xəbərdar edən bir peyğəmbər gəlmişdi. Ancaq biz onu yalanladıq və: “Allah heç bir şey nazil etməmişdir. Siz böyük bir azğınlıq içindəsiniz!” - demişdik”.

10. Onlar: “Əgər (peyğəmbərləri) **dinləsəydik, yaxud ağlımızı işlətsəydik, alovlu od əhli arasında olmazdıq!” - deyəcəklər.**

11. Beləcə, onlar öz günahlarını etiraf edəcəklər. Cəhənnəm əhli (Allahın mərhəmətindən) **uzaq olsun!**

Təfsiri:

Axirətdə baş verəcək bəzi hadisələri təsvir edən bu ayələr insanlardan kimlərin daha yaxşı əməl sahibi olacağını sınamaq üçün ölüm və həyatın yaradıldığından bəhs edən 2-ci ayə ilə əlaqəlidir. Burada, dünyada Allaha asi olanların axirətdə çəkəcəkləri cəza və Allahdan qorxub günah işləməkdən çəkinənlərin qazanacaqları mükafatlardan bəhs olunur.

6-8-ci ayələrdə axirətdə veriləcək cəzanın necə ağır və şiddətli bir əzab olacağı bəyan edilir. 8-ci ayədəki “xəbərdar edən” şəklində tərcümə edilən “نَذِير/nəzir” kəlməsindən məqsəd peyğəmbərdir.[17] Burada, dünyada ikən peyğəmbərin dəvətini və ona tabe olanları qulaqardı edərək inkarçılıqda və üsyankarlıqda israr edənlərə qiyamət günü: “Sizə xəbərdar edən peyğəmbər gəlməmişdimi?” - deyə sual olunacağı xəbər verilir. Bu ifadə əslində yaşayana lar üçün bir xəbərdarlıqdır.[18]

9-11-ci ayələrdə isə iş işdən keçdikdən sonra deyil, məhz bu gün əldə fürsət var ikən o xəbərdarlığa qulaq asmanın, yəni peyğəmbəri təsdiq etməyin mahiyyəti vurğulanır, eləcə də Allahın bir lütfü olan ağıl, zəka və elm neməti ilə haqq və hidayət yolunu tapmanın vacibliyinə, əbədi səadətin ancaq bu şəkildə qazanıla biləcəyinə işarə edilir.[19] Bundan əlavə, 10-cu ayəyə diqqət etsək, ayədə əvvəlcə **“dinləsəydik”**, sonra isə **“ağlımızı işlətsəydik”** ifadələri yer alır. Belə ol-

17. İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXIX, 25.
18. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 344-345.
19. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 344-345.

masında bir hikmət vardır. Çünki, ilahi dəvətdən istifadə edə bilməyin birinci şərti onu eşitmək, dinləmək və ona təmiz niyyətlə yaxınlaşmaqdır. Həqiqət olub-olmadığını anlamaq üçün düşünmək isə sonrakı mərhələyə aid olan işdir. Buna görə də vəhy və risalə olmadan, sadəcə, ağıl işlətməklə doğru yolu tapmaq mümkün deyildir.[20]

اِنَّ الَّذِينَ يَخْشَوْنَ رَبَّهُمْ بِالْغَيْبِ لَهُمْ مَغْفِرَةٌ وَاَجْرٌ كَبِيرٌ ﴿١٢﴾

12. Şübhəsiz ki, görmədikləri halda Rəbbindən qorxanlar üçün bağışlanma və böyük bir mükafat vardır.

Təfsiri:

Bu ayə mömünlərin nail olacağı üxrəvi xoşbəxtliyin yığcam bir xülasəsidir. İslam əxlaqı Allaha olan dərin bir hörmət, ürpənmə və qorxu prinsiplərinə əsaslanır. İnsan yalnız Allahın nəzarəti altında olduğuna, Onun hər şeyi gördüyünə, eşitdiyinə, bildiyinə, bir sözlə, cəzalandırılmaqdan heç bir şəkildə qurtula bilməyəcəyinə inandığı təqdirdə günahlardan qorunar və yaxşı əməllər işləməyə başlayar. Allah-Təala niyyət və əzmi bu istiqamətdə olan bəndənin xətalarını bağışlayar və işlədiyi yaxşı əməllərə görə onu mükafatlandırar.[21]

[20] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 190.
[21] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 190.

وَاَسِرُّوا قَوْلَكُمْ اَوِ اجْهَرُوا بِهٖ ؕ اِنَّهٗ عَلِيْمٌۢ بِذَاتِ الصُّدُوْرِ ﴿١٣﴾ اَلَا يَعْلَمُ مَنْ خَلَقَ ؕ وَهُوَ اللَّطِيْفُ الْخَبِيْرُ ﴿١٤﴾

13. Sözünüzü istər gizli saxlayın, istər açıq deyin fərqi yoxdur. Şübhəsiz ki, O, qəlblərdəkini biləndir.

14. Yaradan bilməzmi?! O, lətifdir (ən xırda işləri belə görüb biləndir)**, hər şeydən xəbərdardır.**

Təfsiri:

Dünyada günah işləməklə məşğul olanlar ya Allahın onları gördüyünə inanmırlar, ya da öz nəfsani arzuları, dünyaya olan hərisliyi və mənfəətləri üzündən qəflətə dalıb öz məsuliyyətlərini unudurlar. Ayədə Allah-Təalanın gizli-aşkar hər şeyi bildiyinə, ürəklərin içinə, qəlblərdəki ən incə düşüncələrə belə bələd olduğuna, buna görə də mömünlərin daha diqqətli olmaları, kafirlərin də tezliklə inkarçılıqdan əl çəkib haqq yola dönmələri gərəkdiyinə işarə olunur. Çünki Uca Allahın bəndələrinə olan neməti və ehsanı, həqiqətən də, olduqca çoxdur.[22]

[22] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 191; Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 345.

هُوَ الَّذِی جَعَلَ لَكُمُ الْاَرْضَ ذَلُولًا فَامْشُوا فِی مَنَاكِبِهَا وَكُلُوا مِنْ رِزْقِهٖ ؕ وَاِلَیْهِ النُّشُورُ ﴿١٥﴾

15. Yer üzünü sizin ixtiyarınıza verən Odur. Elə isə onun hər tərəfində gəzib-dolaşın və Allahın ruzisindən yeyin. Dönüş Onadır!

Təfsiri:

Bu ayədə Allah-Təala Özünün güc və qüdrətini göstərən dəlilləri göz önünə sərərək Yer kürəsinin yaradılmasındakı və onu hər cür nemət və imkanlarla təchiz edərək yaşanıla bilən bir hala gətirilməsindəki sonsuz bir gücün varlığına və təkliyinə diqqət çəkmək istəyir.[23] Torpaq və su ilə əhatə olunan yer üzünün hər tərəfini dənizlərdə gəmilərlə, torpaq üstündə müxtəlif növ minik vasitələri ilə, havada isə təyyarə və s. nəqliyyat vasitələri ilə gəzib dolanmaq mümkündür.[24] Ayədə “**hər tərəfində**” şəklində tərcümə edilən “مناكبها/mənakibiha” ifadəsindəki “مناكب/mənakib” kəlməsi “qoynu” mənasına gələn “منكب/mənkib” sözünün cəm şəkli olub məcazi olaraq yer üzündəki yolları, künc-bucağı və dağları ifadə edir.[25] Həmçinin “المناكب/əl-mənakib” ifadəsi yerin coğrafi imkanlarının araşdırılmasına, yerüstü və yeraltı zənginliklərin öyrənilməsinə təşviq mahiyyəti daşıyır.[26] Al-

[23] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 346.
[24] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 192.
[25] Şövkani, V, 301-302.
[26] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 192.

lah-Təala bu nemətlərin hamısını bəndələri üçün yaratdığını bəyan edərək, onlara yerin qoynunda gəzib dolanmalarını və verdiyi ruzilərdən yeyib-içmələrini əmr edir, arxasınca da **“Dönüş Onadır!”** - buyurur. Bununla da, O, insanlara dünya nemətləri içində zövqü-səfaya dalaraq Allahı və axirət həyatını unutmamalarını və hər nemətin məsuliyyəti olduğunu xatırladır.[27]

ءَاَمِنتُمْ مَنْ فِى السَّمَآءِ اَنْ يَخْسِفَ بِكُمُ الْاَرْضَ فَاِذَا هِىَ تَمُورُ ﴿١٦﴾ اَمْ اَمِنتُمْ مَنْ فِى السَّمَآءِ اَنْ يُرْسِلَ عَلَيْكُمْ حَاصِبًا فَسَتَعْلَمُونَ كَيْفَ نَذِيرِ ﴿١٧﴾ وَلَقَدْ كَذَّبَ الَّذِينَ مِنْ قَبْلِهِمْ فَكَيْفَ كَانَ نَكِيرِ ﴿١٨﴾

16. Yer sarsılacağı zaman göydəkinin (Allahın) **sizi yerə batırmayacağından əminsinizmi?**

17. Yaxud göydəkinin (Allahın) **sizin üstünüzə daş yağdıran bir fırtına göndərməyəcəyindən əminsinizmi? Mənim təhdidimin necə olduğunu tezliklə biləcəksiniz.**

18. Həqiqətən, onlardan əvvəlkilər də (peyğəmbərləri) **yalanlamışdılar. Bəs Mənim inkar** (məhv) **etməyim necə oldu?!**

[27] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 346.

Təfsiri:

Təfsirçilər “من فى السماء/mən fis-səmai (göydəki)” ifadəsində kimin və ya nəyin qəsd edildiyi barədəsində müxtəlif fikirlər səsləndirmişlər:

1. Burada qəsd olunan Allah-Təaladır. Ancaq burada məcazi olaraq Allahın varlığını və gücünün tükənməzliyinə işarə olunur. Allah üçün hər hansı bir son və ya sərhəd yoxdur və Allah bu kimi məhdudiyyətlərdən münəzzəhdir.

2. Məqsəd göydəki mələklərdir. Onlar Allahın əmri ilə yer üzünə enərək Allah tərəfindən verilən əmrləri yerinə yetirərlər.

3. Bununla Allahın göydən enən əzabı nəzərdə tutulur. Allahın rəhməti və neməti göydən yerə necə enirsə, Onun əzabı da inkarçı və üsyankarların üzərinə o şəkildə göydən enər.[28] Əslində burada ifadə olunan “göy” kəlməsi bildiyimiz bu kainatın göyü deyil, maddənin xaricində olan və varlığın ən uca nahiyəsində yer alan bir varlıqdır.[29]

Bu ayələrdə, insanların yer üzündəki nemətlərdən yararlandıqlarında azğınlıq edərək həddi aşmamalarının vacibliyinə, əks halda yer üzündə qorxunc fəlakət və dağıntıların meydana gələcəyinə diqqət çəkilərək, Allahın göndərdiyi peyğəmbərə və ona tabe olanlara əhəmiyyət verməyənlərin, yəni peyğəmbəri təkzib edənlərin qorxunc

---

28. Daha geniş məlumat üçün bax: Razi, XXX, 69-70; Elmalılı, “Hak Dini Kuran Dili”, VII, 5232 vd.; İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXIX, 33.

29. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 346.

bir əzabla cəzalandırılacağı bildirilmişdir.[30] Çünki Allah-Təala Qarunu bütün mülk və səltənəti ilə yerin dibinə batırdığı kimi başqalarını da hər an yerin dibinə batıra bilər. O, istəsə, Lut qövmünün üstünə daş yağdıran qasırğa göndərdiyi kimi, başqa inkarçıların üstünə də göndərə bilər. Bunlar, daha əvvəl haqqı təkzib edənlərin başlarına gələn fəlakətlərdir.[31] Eləcə də 18-ci ayədə keçmişdə haqq yolu inkar edənlərin bu şəkildə cəzalandırıldığı xatırladılır.[32]

اَوَلَمْ يَرَوْا اِلَى الطَّيْرِ فَوْقَهُمْ صَٰٓفَّٰتٍ وَيَقْبِضْنَ ۛ مَا
يُمْسِكُهُنَّ اِلَّا الرَّحْمٰنُ ۛ اِنَّهُ بِكُلِّ شَىْءٍ بَصِيرٌ ﴿١٩﴾
اَمَّنْ هٰذَا الَّذِى هُوَ جُنْدٌ لَّكُمْ يَنْصُرُكُمْ مِنْ دُونِ
الرَّحْمٰنِ ۛ اِنِ الْكَافِرُونَ اِلَّا فِى غُرُورٍ ﴿٢٠﴾ اَمَّنْ هٰذَا
الَّذِى يَرْزُقُكُمْ اِنْ اَمْسَكَ رِزْقَهُۥ ۚ بَلْ لَّجُّوا فِى عُتُوٍّ
وَنُفُورٍ ﴿٢١﴾

19. Göydə qanad çırparaq uçan quşları görmürlərmi? Onları havada yalnız Rəhman olan Allah saxlayır. Şübhəsiz ki, O, hər şeyi görəndir.

30. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 346.
31. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 193.
32. Qəsəs, 28/81; Haqqə, 69/6-8; Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 346-347.

20. Yaxud Rəhman olan Allaha qarşı sizə yardım edəcək əsgərləriniz kimlər olacaq? Kafirlər ancaq aldanırlar.

21. Yaxud Allah ruzini kəsərsə, kim sizə ruzi verəcək? Xeyr! Onlar azğınlığa və (haqqa) **nifrət etməyə davam edirlər.**

Təfsiri:

Burada, quşların uçma qabiliyyətinə işarə olunaraq Allahın qüdrətinin başqa bir əlaməti göstərilmişdir. Yerin cazibə güvvəsinə baxmayaraq quşların səmada qanad çalaraq uçması və süzməsi hər gün gördüyümüz üçün əhəmiyyət vermədiyimiz, lakin həqiqətdə isə Allahın sənət və qüdrətini nümayiş etdirən çox böyük xariqələrindən biridir. Quşlara bu qabiliyyəti verən Allahdır. Bu ayələrdə Uca Allahın mərhəmətini ifadə edən Rəhman sifətinin yer alması Onun məxluqata qarşı necə mərhəmətlə davrandığına və varlıq aləminin Onun rəhmətindən bir təzahür olduğuna işarədir. 21-ci ayədə ruzi olaraq ifadə edilən nemətlər də Uca Allahın Rəhman sifətinin təcəllasıdır. Eləcə də bu ayədə həmin təcəllanın anidən kəsiləcəyi təqdirdə həyatın tamamilə yox olacağına işarə edilir.[33]

اَفَمَنْ يَمْشِى مُكِبًّا عَلٰى وَجْهِهٖٓ اَهْدٰٓى اَمَّنْ يَمْشِى سَوِيًّا عَلٰى صِرَاطٍ مُسْتَقِيمٍ ﴿٢٢﴾

[33] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 347.

22. Elə isə üzüstə sürünənmi daha çox doğru yolda gedər, yoxsa düz bir yolda düzgün yeriyən kimsəmi?!

Təfsiri:

Ayədə iki insan iki fərqli portretlə təsvir olunur. Belə ki, birinci portretdə çox uzun və sağlam bir yolda gedən bir insandan bəhs olunur ki, o, üzüstə düşmüş və bu şəkildə sürünməyə çalışır. Ayağa qalxır, yolun dik olması, enişli-yoxuşlu olması, yaxud da özündə olan zədə və ya şikəstlik səbəbilə ayaqları sürüşür və təkrar üzüstə yerə düşür. O, çox çətin bir şəraitdə sürünməyə çalışır. Amma təəssüf ki, irəliləyə bilmir və olduğu yerdə çapalayıb durur. Həmçinin o adamın müəyyən bir qayəsi də yoxdur və hara getdiyini də bilmir.

İkinci portretdə isə düzgün, etibarlı, hara getdiyi və sonunun nə olacağı bilinən gözəl bir yol vardır. Bu yolda gümrah, təmiz və sağlam bir adam gedir. O, qəlbində daşıdığı müqəddəs bir hədəfə doğru addımlayır. Qorxmadan, çəkinmədən, narahat olmadan düzgün addımlarla irəliləyir. Getdiyi yol doğru, hədəfi isə aydındır. Buradan aydın olur ki, birinci portretdə Allaha inanmayan, Onun doğru yolundan azan, küfr, cəhalət və azğınlıq zülməti içində çırpınan, ancaq bir çıxış yolu tapa bilməyib olduğu yerdə sayan, hətta palçığa batmış kimi çırpındıqca daha da dərinə batan kafirlər təsvir edilmişlər. İkinci portretdə isə Allaha inanan, Onun əmrlərinə itaət edən, ilahi qanunlara boyun əyən, elm və irfan ilə sirati-müstəqim üzrə durmadan hərəkət

edən xoşbəxt və bəxtəvər möminlər təsvir edilmişlər. İmanla yaşamaq doğruluq, dürüstlük və səadətə, küfrlə yaşamaq isə əziyyət, azğınlıq və rüsvayçılığa aparar. Bunlardan kimin daha doğru yolda olduğunu başa düşmək üçün heç düşünməyə də ehtiyac yoxdur.[34]

قُلْ هُوَ الَّذِى اَنْشَاَكُمْ وَجَعَلَ لَكُمُ السَّمْعَ وَالْاَبْصَارَ وَالْاَفْـِٕدَةَ ؕ قَلِيلًا مَا تَشْكُرُونَ ﴿٢٣﴾ قُلْ هُوَ الَّذِى ذَرَاَكُمْ فِى الْاَرْضِ وَاِلَيْهِ تُحْشَرُونَ ﴿٢٤﴾

23. De: “Sizi yaradan, sizə qulaq, göz və qəlblər bəxş edən Odur. Nə qədər də az şükür edirsiniz!”

24. De: “Sizi yer üzündə çoxaldıb yayan Odur. Siz Onun hüzuruna toplanacaqsınız”.

Təfsiri:

Burada, doğulduğunda heç bir biliyə sahib olmayan insana qulaq, göz və qəlb (ağıl) kimi önəmli orqanların verilməsinin xatırladılması, insanın ən qiymətli və fərqləndirən xüsusiyyətinin görmə və düşünmə olduğuna və bu nemətləri verən Allaha daim şükür etməli olduğuna işarə edilir. Bu nemətlər eyni zamanda Allahın misilsiz sənətini və tükənməz gücünü göstərməsi baxımından da

[34] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 194-195.

əhəmiyyətlidir.[35] Allah-Təala bizə eşitmə orqanını doğru yola dəvət edənləri eşitməyimiz və bu yolda addımlamağa qərar verə bilməyimiz üçün bəxş etmişdir. Uca Allah bizə görmə orqanını Onun varlığına və təkliyinə işarə edən dünyadakı hər bir dəlili görərək, bunların arxasında dayanan tükənməz qüdrət sahibini dərk etməyimiz üçün vermişdir. O, bizə düşünüb qavrama xüsusiyyətini də ağıl vasitəsilə yaxşını və pisi ayırd edə bilməyimiz üçün bəxş etmişdir. Bu nemətlərin şükrü ancaq bu şəkildə mümkün ola bilər. Əgər Allahı tanımağımız üçün verilən bu nemətləri səhv yolda istifadə etsək, nankorluq etmiş olarıq.[36] Lakin unutmamaq lazımdır ki, bizi yaradıb yer üzünə yayan Allah bizi yenidən dirildib hüzuruna toplamağa qadir olduğuna görə nə şükür, nə də nankorluq qarşılıqsız qalmayacaqdır. Necə ki, 24-cü ayənin son cümləsində **“Siz Onun hüzuruna toplanacaqsınız!”** ifadəsi ilə buna işarə edilmişdir.

وَيَقُولُونَ مَتٰى هٰذَا الْوَعْدُ اِنْ كُنْتُمْ صَادِقِينَ ﴿٢٥﴾ قُلْ
اِنَّمَا الْعِلْمُ عِنْدَ اللّٰهِ وَاِنَّمَآ اَنَا۠ نَذِيرٌ مُبِينٌ ﴿٢٦﴾ فَلَمَّا رَاَوْهُ
زُلْفَةً سِيٓئَتْ وُجُوهُ الَّذِينَ كَفَرُوا وَقِيلَ هٰذَا الَّذِى كُنْتُمْ
بِهِ تَدَّعُونَ ﴿٢٧﴾

35. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 347-348.
36. Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 195.

25. Onlar: “Əgər doğru deyirsinizsə, bu vəd (əzab) **nə zaman** (gerçəkləşəcək)**?” - deyirlər.**

26. De ki: “Onu yalnız Allah bilir. Mən ancaq açıq-aşkar xəbərdar edənəm”.

27. Onun (əzabın) **yaxınlaşdığını gördükləri zaman inkar edənlərin üzləri qaralacaq və onlara: “Sizin israrla istədiyiniz** (əzab) **budur!” - deyiləcəkdir.**

Təfsiri:

Əvvəlki ayədə insanların qiyamət günündə Allahın hüzuruna toplanacaqları xəbər veriləndə kafirlər öyrənmək üçün deyil, Həzrət Peğəmbərlə (s.ə.s) istehza etmək məqsədilə bu vədin nə vaxt baş verəcəyini soruşduqları qeyd olunmuşdur. Arxasınca gələn ayədə də bu suala Həzrət Peyğəmbərin (s.ə.s) necə cavab verməli olduğu bildirilmişdir. 27-ci ayədə isə əzabın yaxınlaşdığını gördükləri zaman kafirlərin düşəcəyi hallar bəyan edilir və eləcə də inkar etdiklər axirət əzabını və qiyamətin dəhşətli mənzərəsini yaxından gördükləri vaxt üzlərində yaranacaq məyusluq təsvir edilir. Eyni zamanda kafirlərin üzlərinin qaralıb iyrənc, eybəcər bir hala düşəcəyi və onların həddindən çox peşman olacaqları bildirilir.[37] Buna görə də kafirlərin Həzrət Peyğəmbərin (s.ə.s) ölümünü gözləmələri və ya mömünlərin məhv olub getməsi ilə rahatlayacaqlarını düşünmələri əbəs yerədir.[38]

---

[37] Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 349.

[38] Çelik, “Hakkın Daveti Kuran-ı Kerim Meali ve Tefsiri”, V, 196.

قُلْ اَرَاَيْتُمْ اِنْ اَهْلَكَنِىَ اللّٰهُ وَمَنْ مَعِىَ اَوْ رَحِمَنَا
فَمَنْ يُجِيرُ الْكَافِرِينَ مِنْ عَذَابٍ اَلِيمٍ ﴿٢٨﴾ قُلْ هُوَ
الرَّحْمٰنُ اٰمَنَّا بِهٖ وَعَلَيْهِ تَوَكَّلْنَا فَسَتَعْلَمُونَ مَنْ هُوَ
فِى ضَلَالٍ مُبِينٍ ﴿٢٩﴾

28. De: “Deyin görüm, Allah məni və mənimlə birlikdə olanları məhv etsə, yaxud bizə rəhm etsə, bəs kafirləri acı əzabdan kim xilas edəcək?!

29. De: “O, Rəhmandır (çox mərhəmətlidir)**! Biz Ona iman gətirmiş və Ona təvəkkül etmişik. Kimin açıq-aydın bir azğınlıq içində olduğunu yaxın bir vaxtda biləcəksiniz”.**

Təfsiri:

Müşriklər Həzrət Peyğəmbərin (s.ə.s) ölümünü istəyir və bunu açıq bir şəkildə söyləməkdən də çəkinmirdilər.[39] Hətta onu öldürmək üçün tələ quraraq,[40] beləcə, ondan və gətirdiyi dindən qurtulacaqlarını sanırdılar. Ona görə də bu ayələr onların niyyət və məqsədlərinə bir cavab olaraq nazil olmuşdur.[41] 28-ci ayədə Həzrət Peyğəmbərin (s.ə.s)

39. Bax: Tur, 52/30-31.
40. Bax: Ənfal, 8/30.
41. Bax: Razi, “Məfatihül-qeyb”, XXX, 76.

ölümünün ertələnməsinin kafirlər üçün hər hansı bir fayda verməyəcəyi kimi, onlara veriləcək şiddətli əzaba əngəl olan bir gücün də əsla olmayacağı ifadə edilmişdir. Ayədə həmçinin həyatın ilahi bir rəhmət olduğuna və Həzrət Peyğəmbərin (s.ə.s) də əcəli gələndə öləcəyinə işarə edilir.[42] 29-cu ayədə isə möminlərin inanıb güvəndikləri ilahın əsasən müşriklərin də bildiyi və Rəhman sifəti ilə tövsif olunan Allah-Təala olduğu bildirilmiş və Həzrət Peyğəmbərə (s.ə.s) bu həqiqəti onlara təbliğ etməsi əmr edilmişdir.[43]

قُلْ اَرَاَيْتُمْ اِنْ اَصْبَحَ مَآؤُكُمْ غَوْرًا فَمَنْ يَّأْتِيكُمْ بِمَآءٍ مَّعِينٍ ﴿٣٠﴾

30. De: “Deyin görüm, əgər suyunuz çəkilsə (qurusa)**, onda kim sizə axar su gətirə bilər?”**

Təfsiri:

Uca Allahın gücünü və mərhəmətini təkrar xatırladan bu ayə, 15-ci və 21-ci ayələrlə əlaqəli olub çox ehtimal ki, Həzrət Peyğəmbər (s.ə.s) ilə müşriklər arasında baş verən mübahisənin bir nəticəsi olaraq onlara yönəldilən tənqid və xəbərdarlıqdır. 15-ci ayədə Allahın yeri insanların ixtiyarına verdikdən sonra Onun yaratdığı ruzilərdən faydalanmalarını

42. İbn Aşur, “ət-Təhrir vət-tənvir”, XXIX, 51-52.
43. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 349.

istəməsi, 21-ci ayədə də Allah ruzisini insanlardan əsirgəsə, onlara ruzi verəcək başqa birinin olmayacağı bəyan edilmişdir. Bu ayədə də yer üzündəki həyatın əsas elementi olan suyun yerin dibinə çəkiləcəyi halda Allahdan başqa yer üzündə su yaradacaq bir qüvvənin olmadığına işarə edilir və beləcə, “Mülk” surəsi tək və yeganə güc sahibi olan Allah-Təalanı inkar edib batil inanclara yönələnlərin nə qədər səhv yolda olduqları barədə düşünməyə dəvət edilmələri ilə sona çatır.[44]

44. Heyet, “Kuran Yolu Türkçe Meal ve Tefsir”, V, 349.

İSTİFADƏ EDİLƏN MƏNBƏLƏR

1. Ateş, Süleyman, "Yüce Kuranin Çağdaş Tefsiri", Yeni ufuklar neşriyat, İstanbul 1988.
2. Bakuvi, Hacı Mirməhəmməd Kərim, "Kəşfül-həqaiq an nükətil-ayati vəd-dəqaiq", Şərq-Qərb Mətbəəsi, Bakı, 2013.
3. Baş, Erdoğan, "Müminler Arası Beşeri Münasibetler" , Erkam yayınları, İstanbul 1998.
4. Beyhəqi, Əhməd ibn Hüseyn, "əs-Sünənül-kübra", Dairətül-məarifil-osmaniyyə, Heydərabad h.1352.
5. Buxari, Məhəmməd ibn İsmayıl, "Səhihi-Buxari", II nəşri, Riyad 1999.
6. Bursevi, İsmail Hakkı, "Ruhül-Beyan Tefsiri" (terc. Osman Şen), Osmanlı yayınevi, İstanbul.
7. Cerrahoğlu, İsmail, "Tefsir Usulü", T.D.V. Yayınları, Ankara 2006.
8. Çelik, Ömer, "Hakkın Daveti Kuran-i Kerim Meali ve Tefsiri", Erkam yayınları, İstanbul 2013.
9. Elmalılı, Muhammed Hamdi, "Hak Dini Kuran Dili", Eser neşriyat, İstanbul 1979.

10. Ersöz, İsmet, “Ashab-ı Kehf”, DİA (Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi),Türkiye diyanet vakfı yayınları, İstanbul 1995.

11. Əbu Davud, Süleyman ibn Əşas ibn İshaq əl-Əzdi əs-Sicistani, “Kitabüs-sünən”, Darül-qablə lis-səqafətil-İslamiyyə, Ciddə 1998.

12. Əbüssüud, Məhəmməd, “İrşadül-əqlis-səlim ila məzayal-Quranil-kərim”, Darül-müshəf, Beyrut tarix yoxdur.

13. Əhməd ibn Hənbəl, Əbu Abdullah əş-Şeybani, “Müsnəd”, Misir 1949.

14. əl-Müttəqi, Əli, “Kənzul-ümmal”, Müəssəsətür-risalə, Beyrut 1985.

15. Əlusi, Əbüssəna Şəhabəddin Mahmud, “Ruhül-məani fi təfsiril-Quranil-əzim”, Daru ihyait-türasil-ərəbi, Beyrut.

16. Firuzabadi, Əbu Tahir ibn Yaqub, “Tənvirül-miqbas min təfsiri İbn Abbas”, Qahirə.

17. Hakim, ən-Nisaburi “əl-Müstədrək əlas-səhiheyn”, Beyrut, 1990.

18. Heysəmi, Nurəddin Əli ibn Əbu Bəkr, “Məcməüz-zəvaid və mənbəül-fəvaid”, İstanbul, 1982-1983.

19. İbn Aşur, Məhəmməd ət-Tahir, “ət-Təhrir vət-tənvir”, Tunis 1984.

20. İbn Aşur, Məhəmməd ət-Tahir, “Təfsirüt-təhrir vət-tənvir”, əd-Darüt-tunisiyyə, Tunis 1984.

21. İbn Əbu Hatim, Əbu Əbdürrəhman ibn Məhəmməd ibn İdris, “Təfsirül-Quranil-əzim”, Məktəbətü Nizar Mustafa əl-Baz, Məkkə 1997.

22. İbn Ətiyyə, Əbu Məhəmməd Əbdülhaq ibn Qalib, "əl-Mühərrərül-vəciz fi təfsiril-kitabil-əziz", Məhəmmədiyyə nəşriyyatı, 1987.

23. İbn Hişam, Məhəmməd ibn Əbdülməlik ibn Hişam əl-Himyəri, "əs-Sirətün-nəbəvi", Daru-İbn kəsir, Beyrut 2005.

24. İbn Kəsir, "Müxtəsərü-təfsiri İbn Kəsir", (İxtisar və təhqiq edən: Mühəmməd Əli Sabuni), Darül-Quranil-Kərim, Beyrut, 1981.

25. İbn Kəsir, Əbül-Fəda İsmail ibn Ömər, "Müxtəsərü-İbn Kəsir" (İxtisar və təhqiq: Məhəmməd Əli əs-Sabuni), Darül-fikr, Beyrut 1999.

26. İbn Kəsir, Əbül-Fəda İsmail ibn Ömər, "Təfsirül-Quranil-əzim", Darül-kütübil-ilmiyyə, Beyrut h.1419.

27. İbn Macə, Əbu Abdullah Məhəmməd, "əs-Sünən", Riyad 1999.

28. İbnül-Cövzi, Əbül-Fərəc, "Zadül-məsir fi ilmit-təfsir", (təhqiq: Əbdürrəzzaq əl-Mehdi), Darül-kitabil-ərəbi, Beyrut 1422.

29. Karaman, Hayreddin, Mustafa Çağrıcı, İbrahim Kafi Dönmez, Sadrettin Gümüş, "Kuran Yolu Türkçe Meal ve Tefsir", Diyanet işleri başkanlığı yayınları, Ankara 2008.

30. Qurtubi, Əbu Abdullah Məhəmməd ibn Əhməd, "əl-Came li-əhkamil-Quran", Qahirə 1966-67.

31. Malik ibn Ənəs, Əbu Abdullah əl-Əsbəhi, "əl-Müvəttə", Daru ihyait-türasil-ərəbi, Qahirə 1951.

32. Martinez, Patrick, “The observer’s guide to astronomy” (trc. Storm Dunlop), Cambridge 1994.

33. Mövdudi, Əbu Əla, “Təfhimül-Quran”, İnsan yayınları, İstanbul 1997.

34. Müslim, Əbu Hüseyin əl-Qüşeyri ən-Nisaburi, “əl-Camiüs-səhih”, I-V, əl-Məktəbətül-İslamiyyə, Qahirə 1956.

35. Nəsai, Əbu Əbdürrəhman Əhməd ibn Əli ibn Şüeyb, “əs-Sünənül-kübra”, Darül-kütübil-ilmiyyə, Beyrut 1991.

36. Nəvəvi, Əbu Zəkəriyya Yəhya ibn Şərəf, “Şərhü səhihi-Müslim”, Misir, 1981.

37. Osman Nuri Topbaş, “Fəzilətlər Mədəniyyəti”, İpəkyolu nəşriyyatı, Bakı 2009.

38. Razi, Fəxrəddin Məhəmməd ibn Ömər, “Məfatihül-qeyb”, Darül-kütübil-ilmiyyə, Beyrut 1990.

39. Sabuni, Məhəmməd Əli, “Ecazül-bəyan”, Məktəbətü Qəzzali, Dəməşq 1979.

40. Sabuni, Məhəmməd Əli, “Səfvətüt-təfasir”, Darüs-sabuni, Qahirə 1997.

41. Süyuti, Əbülfəzl Cələləddin Əbdürrəhman ibn Əbu Bəkr, “əl-Camiüs-səğir”, Misir, h. 1306.

42. Şövkani, Məhəmməd ibn Əli, “İrşadül-fühul”, Beyrut 1992.

43. Şövqi, Əhməd Əbdüssəlam, “Tarixül-ədəbil-ərəbiyyil-əsril-cahiliy”, Darül-məarif.

44. Talıbov, Vasif, Naxçıvan Ensiklopediyası, AMEA Naxçıvan bölməsi, Naxçıvan 2005.

45. Təbərani, Süleyman ibn Əhməd, “əl-Möcəmül-kəbir”, (təhqiq: Həmdi ibn Əbdülməcid əs-Sələfi), Məktəbə-tü-İbn Teymiyyə, Qahirə 1994.

46. Təbəri, Məhəmməd ibn Cərir, “Camiül-bəyan ən təvili ayil-Quran”, Darü hicr, 2001.

47. Təbəri, Məhəmməd ibn Cərir, “Camiül-bəyan ən təvili ayil-Quran”, Darül-fikr, Beyrut 1984.

48. Tirmizi, Əbu İsa Məhəmməd, “Sünən”, Darül-kütü-bil-ilmiyyə, Beyrut tarix yoxdur.

49. Vahidi, Əbülhəsən Əli ibn Əhməd, “Əsbabün-nüzul”, Darül-islah, əd-Dəmmam 1996.

50. Zəməxşəri, Mahmud ibn Ömər, “əl-Kəşşaf ən həqa-iqit-tənzil və üyunil-əqavil fi vücuhit-təvil”, Beyrut 1947.

MÜNDƏRİCAT

Təqdimat 5

Ön söz 7

“YUSİF” surəsinin təfsiri 9

“KƏHF” surəsinin təfsiri..... 117

“YASİN” surəsinin təfsiri 229

“FƏTH” surəsinin təfsiri..... 295

“HÜCÜRAT” surəsinin təfsiri 337

“RƏHMAN” surəsinin təfsiri..... 377

“MÜLK” surəsinin təfsiri 415

İstifadə edilən mənbələr..... 441